RAMİL ƏLİYEV

# NEFTQAZÇIXARMA SƏNAYESİNDƏ SAHİBKARLIĞIN İNKİŞAFININ SOSİAL-İQTİSADİ PROBLEMLƏRİ

- 10881 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

B A K I – 2010

AZƏRBAYCAN
MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTUNUN
KİTABXANASI

65.304.13(5Aze)
Ə 65

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.

Elmi redaktorlar: iqtisad elmləri doktoru, professor
**İ.H.Alıyev**
iqtisad elmləri namizədi
**Ə.H.Həsənov**

Rəyçilər: iqtisad elmləri doktoru, professor
**M.C.Atakisiyev**
iqtisad elmləri namizədi
**S.Ə.Rəhimova**

**ƏLİYEV RAMİL TEYYUB oğlu**
**Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının sosial – iqtisadi problemləri**
**Bakı, "Elm" 2010, 230 s.**

**İSBN 978 – 9952 – 453 – 14 - 0**

Monoqrafiyada sahibkarlığın formalaşması və inkişafının nəzəri-metodoloji əsasları şərh edilmiş, Azərbaycanda və onun neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının mövcud vəziyyəti təhlil edilmiş və qiymətləndirilmiş, Azərbaycanda və onun neftqazçıxarma sənayesində sahibkarlığın inkişafına yönəldilmiş təklif və tövsiyələr verilmişdir.

Monoqrafiya sahibkarlıq fəaliyyətinin təşkili, tənzimlənməsi və inkişafı problemləri ilə məşğul olan mütəxəssislər, elmi işçilər, elmi-tədqiqat institutlarının, nazirlik və şirkətlərin işçiləri, eləcə də aspirantlar və magistrlər üçün nəzərdə tutulmuşdur.

Ə 06010407 / 655 (07) - 2010

© "Elm" nəşriyyatı, 2010

# GİRİŞ

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, onların mövcud, yüksək inkişaf səviyyəsinə çatması bir sıra amillərlə bağlıdır. Bu amillər arasında təbii ehtiyatların bolluğu, əmək ehtiyatlarının kifayət qədər olması, əlverişli coğrafi mövqe, əlverişli iqlim, kapital və onun yığımı, beynəlxalq əmək bölgüsündə yaxından iştirak, xarici ticarət əlaqələrinin yüksək inkişaf səviyyəsi, idarəetmənin mütərəqqi formalarının tətbiqi, texnika və texnologiya sahəsində əldə edilən nailiyyətlər və s. xüsusi rol oynamışdır. Bunlarla yanaşı, qeyd edilən ölkələrin təcrübəsi sübut etmişdir ki, sabit iqtisadi artıma və onun əsasında əhalinin normal həyat səviyyəsinin təminatına təsir göstərən əsas strateji amil müasir sivilizasiyalı sahibkarlığın formalaşması və inkişafıdır. Məhz buna görə də, müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu seçmiş və bu istiqamətdə ciddi islahatlar həyata keçirməyə başlamışdır.

Azərbaycanda sahibkarlığın formalaşması və inkişafında, "Sahibkarlıq fəaliyyəti haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikası qanunlarının, dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramlarının, kiçik və orta sahibkarlığa kömək üzrə iki Dövlət Proqramlarının, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda yerləşən Azəri-Günəşli-Çıraq yataqlar qrupunun xarici neft şirkətləri ilə birgə işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanmasının və reallaşdırılmasının və s. böyük əhəmiyyəti olmuşdur. Həyata keçirilmiş iqtisadi islahatlar 1995-ci ildə Azərbaycan iqtisadiyyatının geriləmə meylinin dayandırılmasına və 1996-cı ildən etibarən mütəmadi olaraq inkişafına imkan və zəmin yaratmışdır. Sahibkarlığın inkişafına yönəlmiş islahatların həyata keçirilməsi 2006-cı ildə Azərbaycanda ÜDM-da özəl sektorun payını 81%-ə, o cümlədən, sənayedə 87,3%-ə, kənd təssərüfatında - 98,9%-ə, tikintidə - 69,7%-ə çatdırmağa imkan vermişdir.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycanın

neftqazçızarma sənayesində özəl bölmə xüsusilə sürətlə inkişaf etməyə başlamışdır. Hal-hazırda Azərbaycanın karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsi üzrə 22 Hasilatın Pay Bölgüsü Sazişi (HPBŞ) imzalanmış, quruda fəaliyyət göstərən neftqazçıxarma idarələrinin bazasında 3 müştərək müəssisə, bir məhdud məsuliyyətli cəmiyyət yaradılmışdır. Nəticədə 2007-ci ildə Azərbaycanda 41,723 mln ton neft hasil edilmişdir ki, bu da 1990-cı illə müqayisədə 3,34 dəfə çoxdur. Özəl strukturlarda neft hasilatının ilbəil çoxalacağı, "Bakı-Tbilisi-Ceyhan" boru kəməri ilə ildə 50 mln ton Azərbaycan neftinin dünya bazarına çıxarılacağı gözlənilir.

Bütün bunlarla yanaşı Azərbaycanda və onun neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının müasir vəziyyəti ölkədə mövcud olan potensialla müqayisədə qənaətbəxş hesab edilə bilməz.

Azərbaycan iqtisadiyyatının inkişafının müasir vəziyyəti, onun neft amilindən xeyli asılı olduğu, neft sənayesinin inkişafının avtomatik olaraq ölkə iqtisadiyyatının inkişafına gətirib çıxarmadığına dair dünya təcrübəsi ölkəmizin neft sektorunda sahibkarlığın daha da inkişaf etdirilməsi zərurətini doğurmuşdur.

Beləliklə, Azərbaycan iqtisadiyyatında aparıcı rol oynayan neftqazçıxarma sənayesində sahibkarlığın formalaşması və inkişafının, onlara təsir edən sosial-iqtisadi amillərin rolunun və xüsusiyyətlərinin tədqiqi, sahibkarların qarşılaşdığı problemlərin, onların aradan qaldırılması yollarının araşdırılması və sahibkarlığın inkişaf istiqamətlərinin müəyyən edilməsi Azərbaycan iqtisadiyyatının perspektiv inkişafı baxımından çox önəmli problemlərdir.

Bazar iqtisadiyyatına keçidin, sahibkarlığın inkişafının, bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun aktual nəzəri və praktiki məsələləri Azərbaycanın iqtisadçı alimlərindən: Ş.M.Muradovun, Z.Ə.Səmədzadənin, T.Ə.Quliyevin, A.K.Ələsgərovun, A.Nadirovun, A.B.Abbasovun, T.N.Əliyevin, M.C.Atakişiyevin, R.P.Sultanovanın, Ə.Əlirzayevin, Ş.S.Qafarovun, A.Ş.Səkərəliyevin, O.N.Manafovun, T.Q.Əliyevin, B.Ə.Əhmədovun, A.M.İmranovun, K.A.Şahbazovun, V.Niftullayevin, İ.Kərimlinin, T.Hüseynovun və s. əsərlərində öz geniş əksini tapmışdır. Azərbaycanda neftqazçıxarma sənayesinin iqtisadi potensialından istifadə olunması məsələləri Z.Ə.Səmədzadənin, M.C.Atakişiyevin, A.Ağayevanın, T.N.Əliyevin, Q.Ə.Səfərovun, X.B.Yusifzadənin, Q.Z.Yüzbaşiyevanın, R.Səmədovun, A.İsayevin, M.N.Mahmudovun, M.S.İbrahimovun, T.M.Həsənovun və başqalarının əsərlərində müxtəlif səpgidə tədqiq edilmiş və onlar tərəfindən qiymətli əsərlər yazılmışdır.

Sahibkarlığın formalaşması və inkişafı problemləri MDB ölkələri alimlərindən: V.S.Avtomonovun, A.Y.Bajenovun, M.Bartenskin, M.Blauçun, A.Blinovun, A.Kostenkonun, M.Q.Lapustanın, A.V.Pikulkinin, V.Radayevin, İ.İ.Razumnovanın, V.Y.Savçenkonun, V.F.Sarokinanın, E.C.Sıromyatnikovun, A.Valenskinin və başqalarının tədqiqat obyekti olmuş və onlar tərəfindən diqqətə layiq əsərlər yazılmışdır. Xarici ölkə iqtisadçı alimlərindən: A.Smit, D.Rikardo, R.Kontilyon, A.Marşal, Y.Tünen, F.Vizer, R.Xizric, İ.B.Sey, C.S.Mill, A.S.Piqu, Y.Şumpeter, C.M.Keyns, M.A.Fridman, R.Harrad, F.Xaek və başqaları öz əsərlərində sahibkarlığın təşkili, inkişafı və tənzimlənməsi problemlərinə xüsusi diqqət ayırmışlar.

Sadalanan tədqiqat işlərinin elmi və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, indiyə qədər sahibkarlığın inkişafının sosial-iqtisadi problemləri, o cümlədən neftqazçıxarma sənayesində, kompleks şəklində tədqiq edilməmiş, sahibkarlığın formalaşması və inkişafında sosial-iqtisadi amillərin rolu araşdırılmamışdır. Buna görə də qeyd edilən problemlərin tədqiqi, araşdırılması günün əsas problemləri sırasındadır.

Yuxarıda qeyd edilənlər nəzərə alınaraq monoqrafiyada sahibkarlığın formalaşması və inkişafının nəzəri – metodoloji əsasları şərh edilmiş, Azərbaycanda və onun neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının mövcud vəziyyəti təhlil edilmiş və qiymətləndirilmiş, Azərbaycanda və onun neftqazçıxarma sənayesində sahibkarlığın inkişafına yönəldilmiş təklif və

tövsiyələr verilmişdir. İrəli sürülən təklif və tövsiyələr sahibkarlıq fəaliyyətinin təşkili, tənzimlənməsi və inkişafı məqsədi ilə konkret proqramların hazırlanmasında, qeyd edilən məsələlərin gələcəkdə daha geniş tədqiq edilməsində, iqtisadi ədəbiyyat və dərsliklərin hazırlanmasında istifadə edilə bilər. Monoqrafiya aspirantlar, magistrlər, eləcə də ali məktəblərin tələbələri üçün də qiymətli tədris vəsaitidir.



## §1. Sahibkarlığın xüsusiyyətləri, formalaşması və inkişafının nəzəri məsələləri

Bəşəriyyətin tarixi iqtisadi inkişafda sahibkarlığın müstəsna rol oynadığını dəfələrlə sübut etmişdir. Məhz bunun nəticəsidir ki, üç əsrə yaxın bir müddətdə sahibkarlıq haqqında təlimlər iqtisadçı alimlərin tədqiqatlarında xüsusi yer tutmalarına baxmayaraq, bu mövzu, öz aktuallığını hələ də itirməmişdir.

Sahibkarlığın tarixi əslində orta əsrlərdən başlayır. Hələ o zamanlar tacirlər, sənətkarlar, missionerlər ilk sahibkarları təmsil edirdilər. Kapitalizm bərqərar olduqca daha çox sərvət toplamaq istəyi daha çox mənfəət əldə etmək meylinin getdikcə güclənməsinə səbəb oldu və sahibkarların fəaliyyəti daha peşəkar və sivil xüsusiyyət almağa başladı [1,79].

Qeyd etmək lazımdır ki, sahibkarlıq iqtisadi fəallığın digər növlərindən özünəməxsus iqtisadi, hüquqi, sosial və psixoloji kökləri ilə fərqlənir. Sahibkarlıq haqqında nəzəriy-yələrdəki ziddiyyətləri və fikir ayrılıqlarını məhz onların bu fəaliyyətə müxtəlif mövqelərdən yanaşması və sahibkarlığın nəzəri-praktiki əsaslarının çoxcəhətli, mürəkkəb və dinamik xarakter daşıması ilə izah etmək olar [79. səh.11].

Sahibkarlıq fəaliyyətinə orta əsrlərdən başlanmasına baxmayaraq iqtisadi ədəbiyyatda ilk dəfə "sahibkar" anlayışına 1723-cü ildə Parisdə nəşr ollunmuş "Ümumi kommersiya lüğəti"ndə rast gəlinir [99. səh.8]. Elmi termin kimi isə "sahibkar" anlayışı ilk dəfə XVIII əsr ingilis iqtisadçısı R.Kantilyonun əsərlərində nəzərdən keçirilmişdir. R.Kantilyon hesab edirdi ki, sahibkar risk şəraitində fəaliyyət göstərən insandır, ona görə ki, tacirlər, fermerlər, sənətkarlar və s. xırda mülkiyyətçilər alışı müəyyən qiymətlərlə həyata keçirsələr də satışı qeyri-müəyyən qiymətlərlə aparırlar. R.Kantilyona görə sahibkar qeyri-sabit gəlir şəraitində risk edən fermer, sənətkar, yaxud tacir və s. ola bilər; sabit gəliri, yaxud maaşı olan fəhlə və dövlət işçisi, renta alan torpaq mülkiyyətçisi isə ola bilməz. R.Kantilyonun fikirləri əsas götürülməklə risk və qeyri-müəyyənliyin yükünü daşıma

sahibkarlığın ilkin izahı hesab oluna bilər. R.Kantilyon hesab edirdi ki, cəmiyyətdə istehsal və mübadilə prosesləri sahibkar vasitəsilə həyata keçirilir. Onun fikrincə, muzdla fəhlə tutan kapitalist, yaxud tacir və sənətkar sahibkarlığın biruzə verən formalarıdır. Ancaq muzdla işləyən "idarəçi" sahibkar ola bilməz [95. səh.137].

Fransız iqtisadçısı Jan Batist Sey (1767-1832) "Siyasi iqtisadın traktı" əsərində sahibkarlıq fəaliyyətini istehsalın üç klassik amilinin – torpaq, kapital, əmək – birləşməsi, kombinasiyası kimi formalaşdırmışdır. J.B.Sey sahibkarı sərvətin yaradılması və bölüşdürülməsinin mərkəzi fiquru hesab edirdi və bu prosesdə onun mövqeyinin muzdlu işçi, fəhlə və ya əkinçiyə nisbətən daha üstün olduğunu vurğulayırdı. J.B.Sey sahibkarda ağıllılıq, fəallıq, məlumatlılıq və nizam-intizam kimi xüsusiyyətlərin olmasını mühüm sayırdı. J.B.Seyə görə sahibkarın mənfəəti onun əməyinə, məhsul istehsalını və satışını təşkil etmə bacarığına, "qayda yaratdığına" görə mükafatdır. J.B.Sey hesab edirdi ki, sahibkar – riski və öz xeyrinə hər hansı bir məhsul istehsalının təşkilini öz üzərinə götürən şəxsdir [124. səh.8].

İqtisad elminin klassikləri A.Smit (1723-1790) və D.Rikardo (1772-1823) bazar iqtisadiyyatını öz-özünü tənzimləyən mexanizm hesab edirdilər və buna görə də öz tədqiqatlarında sahibkarlığa xüsusi diqqət ayırmırdılar. Bununla yanaşı A.Smit öz tədqiqatlarında sahibkarlığa qismən də olsa diqqət yetirmişdir. O, özünün "Xalqların sərvətlərinin təbiəti və yaranma səbəblərinin tədqiqi" əsərində qeyd edirdi ki, sahibkar, kapitalın sahibi olaraq müəyyən kommersiya ehtiyatlarını reallaşdırmaq və mənfəət əldə etmək üçün riskə gedir, ona görə də bu və ya digər işə kapital qoyuluşu həmişə özündə risk elementi daşıyır. A.Smit hesab edirdi ki, sahibkarlıq mənfəəti mülkiyyətçinin risk müqabilində kompensasiyasıdır. Sahibkarı kapitalist kimi qəbul edən A.Smit onun fəaliyyətinin cəmiyyət üçün faydalılığını bazar iqtisadiyyatının iki əsas elementi ilə – iqtisadi fəaliyyətdə seçmə azadlığı və rəqabətlə şərtləndirirdi. Müəssisənin fondlarının sahibi olan kapitalist ilə son qərarları qəbul etmək səlahiyyəti



olan sahibkar arasında fərq qoymayan A.Smit sahibkarlıq funksiyası ilə mülkiyyətə sahiblik funksiyasını eyniləşdirirdi.

D.Rikardo kapitalizmə mütləq, daimi, təbii istehsal üsulu kimi baxırdı, sahibkarlıq fəaliyyətini isə səmərəli təsərrüfatçılığın mütləq elementi hesab edirdi [124. səh.9]. Yalnız XIX əsrin sonu XX əsrin əvvəllərində sahibkarlığın əhəmiyyətinin və rolunun dərk edilməsi prosesi başlandı.

İlk dəfə olaraq istehsalın üç amilinə (torpaq, kapital, əmək) təşkilatçılıq amilini də əlavə edən fransız iqtisadçısı Andre Marşal sahibkarlığın təşkilatçılıq funksiyalarına daha çox diqqət yetirirdi və hesab edirdi ki, hər arzulayan sahibkar ola bilməz [99. səh.8]. Bu yanaşma nəticəsində həm sahibkarlıq anlayışı, həm də ona aid edilən funksiyalar genişləndi.

Sahibkar fəaliyyətinin məqsədinin mənfəət əldə etmək istəyi təşkil etdiyini hesab edən alman iqtisadçısı Y.Tünenə görə sahibkarın mənfəətini işgüzar əməliyyatlardan gələn gəlirdən investisiya olunmuş kapitala görə faizi (1), idarəetmə xərclərini (2) və hesablana bilən riskə görə sığorta haqlarını (3) ödədikdən sonra qalan hissə təşkil edir. Y.Tünenin mülahizələrinə görə sahibkarın qazancı heç bir sığorta kompaniyası tərəfindən ödənilməyən qeyri-müəyyənlik yükünün üzərinə götürülməsindən gələn gəlir kimi çıxış edir. İnnovasiya fəaliyyətini gəlirin, yaxud ziyanın ehtimalı əvvəlcədən məlum olmayan bir proses hesab edən Y.Tünen sahibkarı "öz sahəsində ixtiraçı və tədqiqatçı" kimi qəbul edirdi [98. səh.85-86].

Öz əsərlərində "bazar", "sahibkar", "sahibkarlıq" anlayışlarına tez-tez müraciət edən K.Marks, F.Engels, V.İ.Lenin birmənalı olaraq sahibkarlığa neqativ yanaşmışlar. K.Marksın iqtisadi nəzəriyyəsinə sahibkarlıq haqqında təsəvvürlər istismarçı – kapitalist haqqında təsəvvürlər kimi daxil olmuşdur.

K.Marks hesab edirdi ki, izafi dəyərin bir mənbəyi fəhlənin daha gərgin işlədilməsidirsə, digəri yeni avadanlıqların tətbiqidir. K.Marksa görə, rəqabət mexanizminin təsiri iqtisadi agentlərin müxtəlif davranışlarını ifadə edir, yox əgər onlar eyni şəraitdə özlərini eyni cür aparsaydılar onda iqtisadi sistemdəki dəyişik-

likləri və iqtisadi tərəqqini izah etmək olmazdı.

K.Marks hesab edirdi ki, kapitalist bankdan borc şəklində aldığı kapitalın əvəzində verməli olduğu faizini mənfəətin hesabına ödəməlidir. K.Marks borc kapitalına faizin və muzdlu işçilərin əməyinin ödənilməsindən sonra mənfəətin qalan hissənin hər hansı bir spesifik funksiyaya müvafiq olub-olmadığını nəzərdən keçirmirdi. Beləliklə, K.Marks ya kapitalistlərin heç bir risk daşımadıqlarını, daşıdıqları halda isə onun yükünü üzərinə götürə biləcək adamların qeyri-məhdud sayda olduğunu güman edirdi. Ümumiyyətlə, K.Marks da A.Smit və T.Rikardo kimi sahibkarlıq funksiyası ilə mülkiyyətə sahiblik fuknsiyasını eyniləşdirirdi.

Avstriya iqtisadçısı F.Vizer isə hesab edirdi ki, "sahibkar – qanuna müvafiq olaraq istehsalın idarə olunmasında aktiv iştirakına görə sərəncam verir. O – tam səlahiyyətli liderdir; əməliyyatların hüquqi təmsilçisi, istehsal vasitələrinin mülkiyyətçisi, bütün hesablar üzrə kreditor və debitor kimi çıxış edir. O, icarəçi və icarədar funksiyasını yerinə yetirir, bütün əmək müqavilələri üzrə iş verir. Onun liderliyi müəssisə yaranan andan başlayır: o nəinki zəruri kapitalı təqdim edir, həm də ideyanı irəli sürür, planı dəqiqləşdirir və həyata keçirir, işçiləri cəlb edir. Müəssisə təşkil olunduqdan sonra isə o həm nəzəri, həm də kommersiya məsələləri üzrə idarəçiyə çevrilir" [95. səh.140].

Avstriya mənşəli amerika iqtisadçısı Yozef Şumpeter (1883-1950) hesab edirdi ki, sahibkarın fəaliyyəti inkişafın əsasını, yəni iqtisadi sistemin bir tarazlıq vəziyyətindən digərinə keçidin əsasını təşkil edir. Y.Şumpeterin mülahizələrinə görə, yalnız aktiv sahibkarlıq fəaliyyətində olan kimisə sahibkar adlandırmaq olar: "həyatda sahibkarlıq etməyən "kommersanta" nə qədər "çox" rast gəlmək mümkündürsə, on illər ərzində fəaliyyət göstərən sahibkar tapmaq da bir o qədər asandır" [142. səh.174].

Y.Şumpeter iqtisadiyyatın keyfiyyətcə inkişafının aparıcı qüvvəsinə – sahibkarlara hər hansı kapitalisti və firma sahibini deyil, yalnız onlardan yenilikçi olanları aid edirdi. "Sahibkar olmaq – başqasının görmədiyi işi etmək deməkdir" – tezisini irəli



sürən Y.Şumpeter onların xüsusi tip təşkil etdiklərini qeyd edir. Onun fikrincə sahibkarı başqalarından fərqləndirən onun qələbə əzimkarlığı, müvəffəqiyyətə və mübarizəyə meylliliyidir [142. səh.199]. Y.Şumpeter funksiyası yeni kombinasiyaları həyata keçirməkdən ibarət olan, eyni zamanda onun aktiv elementi olan təsərrüfat subyektlərini sahibkarlar adlandırırdı.

İngilis iqtisadçısı, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Fridrix fon Xayek (1899-1984) bu problemə başqa səmtdən yanaşırdı. Onun fikrincə sahibkarlığın mahiyyəti onun fəaliyyət növü olmasında deyil, yeni iqtisadi imkanların axtarışında və öyrənilməsində, yenilikçiliyin xüsusiyyətindədir [102].

XX əsrin ikinci yarısından etibarən təsərrüfat həyatında baş verən dinamik dəyişikliklər, iqtisadi artımın yeni mərhələyə keçidi, bununla əlaqədar olaraq yeniliklərin rolunun artması, yeni təsərrüfat strukturlarının yaranması üçün əlverişli şəraitin olması və s. amillər iqtisadçı alimləri sahibkarlıq probleminə artıq nəzəri cəhətdən deyil, daha çox praktik müstəvidən yanaşmağa sövq etmişdir. Bu nöqteyi-nəzərdən ABŞ tədqiqatçısı R.Xizriçin mövqeyi daha xarakterikdir. R.Xizriç öz tədqiqatlarında sahibkar anlayışının izahına, işin təşkilinə, maliyyə fəaliyyətinə, müəssisənin idarə olunması və hətta işin dayandırılması kimi sırf praktik məsələlərin həlli yollarının araşdırılmasına daha çox diqqət ayırır. R.Xizriçə görə, sahibkarlıq dəyəri olan hər hansı bir məhsulun yaradılması prosesidir, sahibkar isə bunun üçün lazım olan vaxt və şəraiti sərf edən, öz üzərinə maliyyə, psixoloji və sosial risk götürən, əvəzində maddi və mənəvi qazanc əldə edən adamdır [103. səh.103].

Azərbaycanın da uzun müddət tərkibində olduğu Rusiyada sahibkarlıq qədim zamanlardan – hələ Kiyev Rus dövləti dövründə mövcud olmuş, I Pyotrun dövründə (1689-1725) daha da inkişaf etmişdi. I Pyotrun dövründə bütün Rusiyada manifakturalar yaradılmış, silah, mahud sənayesi sahələri inkişaf etməyə başlamışdı. Təhkimçiliyin meydana gəlməsi Rusiyada sahibkarlığın inkişafını ləngitsə də 1861-ci ildə təhkimçiliyin ləğv edilməsi ilə onun inkişafında yeni mərhələ açıldı: dəmir yolları

çəkilməyə başlandı, sənaye sahələri yenidən quruldu, səhmdarlıq fəaliyyəti çiçəklənməyə başladı. Sənayenin inkişafında və yenidən qurulmasında xarici kapital mühüm rol oynadı. XIX əsrin 90-cı illərində Rusiyada sahibkarlığın sənaye bazası qəti şəkildə formalaşdı, XX əsrin əvvəllərində isə sahibkarlıq kütləvi şəkil aldı [124.səh.6].

Ancaq 1917-ci il Oktyabr inqilabından sonra sahibkarlığın – bazar iqtisadi münasibətlərinin – ləğvi kursu həyata keçirilməyə başlandı: bütün iri sənaye müəssisələri milliləşdirildi, istehsal vasitələri və sahibkarların əmlakı müsadirə edildi. 1921-1926-cı illərdə həyata keçirilən yeni iqtisadi siyasət sahibkarlıq fəaliyyətində bir canlanma yaratsa da uzun ömürlü olmadı. Beləliklə, Rusiya imperiyası hüdudlarında yaradılmış yeni dövlətdə – SSRİ-də – uzun müddət sahibkarlıq fəaliyyəti – bazar iqtisadi münasibətləri – donduruldu. Təbiidir ki, belə bir şəraitdə sahibkarlıq iqtisadi həyatın əsas anlayışı kimi həm ictimaiyyət, həm də elmi dairələr tərəfindən qəbul edilə bilməzdi. Ancaq SSRİ-nin süqutundan sonra keçmiş SSRİ məkanında, eləcə də Azərbaycanda sahibkarlıq anlayışı həm iqtisadçı alimlərin və işgüzar dairələrin, həm də siyasətçilərin getdikcə artan marağına səbəb olmuşdur. Son illər iqtisadçı alimlər öz tədqiqatlarında sahibkarlığın formalaşması və inkişafı problemlərinə daha çox diqqət ayırırlar və bu sahədə çoxsaylı, qiymətli elmi əsərlər, məqalələr yazmışlar. Bu sahədə Azərbaycanın iqtisadçı alimləri Ş.M.Muradovun, M.C.Atakişiyevin, S.Ə.Səmədzadənin, T.Ə.Quliyevin, A.K.Ələsgərovun, Ş.S.Qafarovun, T.N.Əliyevin, A.B.Abbasovun, V.Niftullayevin, K.Şahbazovun, A.Səkərəliyevin, T.Hüseynovun və s. xidmətləri xüsusilə diqqətəlayiqdir.

Ancaq XX əsrin 90-cı illərindən etibarən keçmiş SSRİ məkanında yaranmış dövlətlərdə, o cümlədən Azərbaycanda, iqtisadiyyatda bazar münasibətlərinə keçid elan olunmasına baxmayaraq hələ də bu ölkələrdə bazar münasibətləri rəvan inkişaf etmir. Postsovet məkanında bazar münasibətlərinin inkişafının xüsusiyyətlərini tədqiq edən əməkdar elm xadimi, i.e.d., professor T.Ə.Quliyev "Tənzimlənən bazar iqtisadiyyatı" kitabında qeyd edir ki, "... postsovet ölkələrində bazar münasibətləri özünəməxsus yolla inkişaf edir, ona görə də bu ölkələrdə bazar öz-özünə inkişafının öz xüsusiyyətləri vardır. Qeyd edilən ölkələrdə bu öz-özünə inkişaf Qərb ölkələrində olduğu kimi təbii yolla deyil, qısa müddət ərzində, ciddi modifikasiyaya uğrayaraq, güclü inhisarçı strukturlar, əhalinin aşağı ödənişqabiliyyətli tələbatı və zəif əmtəə – xüsusilə də ölkədə istehsal olunan – təminatı şəraitində baş verimişdir ki, bu da bazar münasibətlərini güclü deformasiyaya uğratmışdır" [112. səh.161].

Azərbaycanın iqtisadçı alimlərinin əsərləri ilə tanışlıq göstərir ki, onlar arasında da "sahibkar", "sahibkarlıq", "sahibkarlıq fəaliyyəti" anlayışlarının mahiyyəti və məzmunu haqqında ümumi, yekdil fikir formalaşmamışdır. İ.e.d., professor Ş.S.Qafarovun fikrincə "Sahibkar yenilikçidir. O, iqtisadiyyata yalnız yeni texnologiya, yeni məhsul deyil, eyni zamanda biznesin yeni formalarını gətirir. Sahibkar risqə gedən bir mülkiyyətçi, fəaliyyətinin əsas məqsədi mənfəət olan iş adamıdır." [27. səh.85].

AMEA-nın akademiki, i.e.d., professor Z.Ə.Səmədzadə, V.R.Musayev, İ.Z.Seyfullayev hesab edirlər ki, "Sahibkarlıq şəxsi gəlir və ya mənfəət əldə etmək məqsədi ilə öz risqi və əmlak məsuliyyəti ilə həyata keçirilən təşəbbüskar fəaliyyət olsa da, yalnız şəxsi məsələ deyil, demək olar ki, daha çox ictimai məsələdir" [79. səh.15].

T.N.Əliyev, A.M.Əhmədli və R.M.Məmmədovanın fikrincə "... sahibkarlıq fəaliyyəti – fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət əldə etmək məqsədi ilə, özlərinin şəxsi əmlak cavabdehliyi və risqi ilə, hər cür təsərrüfatçılıqla məşğul olan müstəqil işgüzarlıq fəaliyyətidir" [48. səh.68].

İ.Kərimlinin və N.Süleymanovun mülahizələrinə görə "Sahibkar mənfəət və yaxud şəxsi gəlir götürmək məqsədi ilə hər hansı növ təsərrüfat fəaliyyəti üçün zəruri olan amillərə malik təsərrüfat subyektinə deyilir" [68. səh.216]. Buradan görünür ki, İ.Kərimli və N.Süleymanov da sahibkarlıq funksiyası ilə mülkiyyətə sahiblik funksiyasını eyniləşdirirlər.

T.Hüseynov hesab edir ki, "Sahibkarlıq – insanların təşəbbüskar, sərbəst, qanunvericilik əsasında cəmiyyətin maddi nemət və xidmətlərə ehtiyaclarını ödəmək üçün ixtisaslaşan, məqsədi maddi nemət əldə etmək olan təsərrüfatçılıq fəaliyyətidir" [59. səh.545].

V.Niftullayevin fikrincə: "Sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərməsi formasında həyata keçirdikləri müstəqil təsərrüfatçılıq fəaliyyətidir" [73. səh.17-18].

Qeyd etmək lazımdır ki, bəzi müəlliflərin əsərlərində və sahibkarlıq haqqında qanunvericilik aktlarında sahibkarlıq fəaliyyətinin məqsədi ilə sahibkarlığın mahiyyəti qarışdırılır. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu buna misal ola bilər. Qanunda qeyd edilir ki, "Sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədi ilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təsərrüfatçılıq fəaliyyətidir" [77].

Beləliklə, sahibkar və sahibkarlıq haqqında mövcud fikirlərin, mülahizələrin ümumiləşdirilməsi belə qənaətə gəlməyə imkan verir: sahibkar gələcəkdə mənfəət əldə etmək ümidi ilə istehsal amillərini xüsusi şəkildə birləşdirən və risqə gedən şəxsdir; sahibkarlığın əsasını və onun hərəkətverici qüvvəsini mənfəət (gəlir) əldə etmək marağı təşkil edir. Bu münasibətləri əsas gətirərək hesab edirik ki, aşağıda qeyd olunan fikir sahibkarlığın mahiyyətini daha dolğun ifadə edir: "Sahibkarlıq (sahibkarlıq fəaliyyəti) fiziki və ya hüquqi şəxslərin sərf etdikləri maddi, əmək, maliyyə və əmlak müqabilində mənfəət (gəlir) əldə etmək



məqsədi ilə həyata keçirdikləri fəaliyyətdir" [57. səh.21]. Biz bu fikirlə razıyıq.

Sahibkarlığın inkişaf tarixinin təhlili göstərir ki, onun həyata keçirilməsi bir çox amillərdən asılıdır və bu fəaliyyətin formalaşması aşağıdakı elementlərin mövcudluğunu tələb edir:

- sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin - sahibkarın özünün;
- sahibkarlıq ideyasının, hər hansı bir (bir neçə) sahibkarlıq növü ilə məşğul olmaq istəyinin;
- ilkin kapital yığımının;
- sahibkarlıq fəaliyyəti növünə (növlərinə) uyğun istehsal texnika və texnologiyasının, texniki elementlərin, xammalın, materialın və müvafiq işçi qüvvəsinin.

Sahibkarlıq ideyasının meydana gəlməsinə və formalaşmasına ölkədə (bölgədə) fəaliyyət göstərən əmtəə (xidmət) bazarlarının strukturu, tutumu, əmtəə və xidmətlərə tələbat və onların ödənilmə səviyyəsi, potensial istehlakçıların alıcılıq qabiliyyəti, eləcə də elm və texnikanın yeni nailiyyətləri xeyli dərəcədə təsir göstərir. Bu amlləri nəzərə alan və təhlil edən sahibkar özünün və cəlb edilməsi mümkün olan digər maliyyə mənbələrini nəzərə alaraq sahibkarlıq fəaliyyətinin konkret növünü (növlərini) seçir. Təbiidir ki, konkret fəaliyyət növü seçən sahibkar konkret məhsulun istehsalı (xidmətlərin göstərilməsi) prosesinin təşkili imkanlarını, məhsulların istehlakçılara çatdırılmasının metod və vasitələrini də nəzərə almalıdır.

Qeyd etmək lazımdır ki, formasından və fəaliyyət növündən asılı olmayaraq bütün sahibkarlıq subyektləri aşağıdakı xüsusiyyətlərə malikdir [131]:

- iqtisadi maraq. Sahibkarlıq fəaliyyətinin əsas məqsədi mümkün olan maksimum mənfəəti əldə etməkdən ibarətdir. Eyni zamanda maksimum mənfəəti əldə etməyə səy göstərən sahibkar, həmçinin ictimai marağın ödənilməsinə də şərait yaradır;
- təsərrüfat subyektlərinin müstəqilliyi və sərbəstliyi. Hər bir sahibkarlıq subyekti qanunlar çərçivəsində təsərrüfat-istehsal fəaliyyətinin həyata keçirilməsində sərbəstdir;

• təsərrüfat risqi və cavabdehlik. Hər bir sahibkarlıq subyekti öz fəaliyyətinin nəticələrinə görə cavabdehdir və hər hansı ziyan üzrə öz əmlakı ilə məsuliyyət daşıyır. İstənilən sahibkarlıq fəaliyyəti müəyyən risklə bağlıdır və sahibkar bu amili daim nəzərə almalıdır.

Qeyd edilən əsas xüsusiyyətlərlə yanaşı, fikrimizcə, sahibkarlığın aşağıdakı xüsusiyyətləri də vardır və ölkədə sahibkarlığın formalaşması, inkişafı və idarə edilməsi zamanı onlar da nəzərə alınmalıdır:

• sahibkarlıq fəaliyyəti istisnasız olaraq şəxsi təşəbbüs əsasında formalaşır, eyni zamanda bu fəaliyyət şəxsi təşəbbüsün meydana çıxması və stimullaşdırılmasında əhəmiyyətli rol oynayır;

• ölkə iqtisadiyyatının inkişafında, ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində müstəsna əhəmiyyət kəsb edir;

• ölkədə elmi-texniki tərəqqinin yüksək sürətli inkişafını stimullaşdırır və onu təmin edir;

• ölkənin ixrac imkanlarının genişlənməsinə müsbət təsir edir;

• ölkənin beynəlxalq əmək bölgüsündə yaxından iştirakını təmin edir;

• ölkəyə yeni texnika və texnologiyanın, istehsalın təşkili və idarə olunması sahələrində "NOU-XAU"-ların, xarici investisiyaların cəlb olunması üçün münbit şərait yaradır;

• qiymətə, məhsul istehsalının və satışının həcminə təsir etmək imkanına malik olur;

• sərbəst işçi qüvvəsinin cəlb edilməsinə, beləliklə də ölkədə məşğulluğun səviyyəsinin yüksəldilməsinə, işsizliyin səviyyəsinin azaldılmasına imkan verir;

• dövlət mülkiyyətinin özəlləşdirilməsində həlledici rol oynayır;

• ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsinə yardımçı olmaqla onun təhlükəsizliyinin təmin edilməsində müəyyən rol oynayır.



Təcrübə göstərir ki, sahibkarlıq fəaliyyətinin formalaşması və həyata keçirilməsi üçün müvafiq iqtisadi, hüquqi, sosial, siyasi, texnoloji, coğrafi mühitin, infrastrukturun mövcudluğu əsas şərtlərdəndir.

İqtisadi mühitin formalaşması əmtəələrə tələbat və bu tələbatın ödənilmə səviyyəsi; istehlakçıların ala biləcəyi əmtəələrin növləri; istehlakçıların alıcılıq qabiliyyəti; iş yerlərinin sayı, onların çoxluğu və ya çatışmazlığı; iş qüvvəsinin sayı, strukturu, hazırlıq səviyyəsi; əmək haqqının səviyyəsi və s. ilə bilavasitə bağlıdır.

İqtisadi mühitə maliyyə resurslarının mövcudluğu və onların əldə edilməsi imkanı, investisiya edilmiş kapitala görə alınan gəlirlərin səviyyəsi; öz təsərrüfat-istehsal fəaliyyətini normal həyata keçirmək üçün sahibkarın kənardan maliyyə cəlb etmək imkanı və cəlb ediləcək kapitalın həcmi; bu kapitala görə ödəniləcək faizlərin dərəcəsi də xeyli təsir göstərir.

10881

Sahibkarlıq fəaliyyəti hər zaman mövcud hüquqi mühitdə həyata keçirilir. Buna görə də sahibkarlıq fəaliyyətinin normal həyata keçirilməsi üçün müvafiq hüquqi mühitin yaradılması ən vacib şərtlərdən biridir. Sahibkarlıq fəaliyyətinin formalaşması, inkişafı, genişlənməsi ilk növbədə müvafiq qanunların qəbul edilməsindən, onların işlək mexanizminin formalaşmasından asılıdır. Bununla yanaşı sahibkarlığın formalaşmasına və inkişafına təsir edən hüquqi mühitin yaradılması xeyli dərəcədə sahibkarlıq strukturunun təşkili və qeydə alınması qaydalarından; sahibkarların dövlət bürokratizmindən qorunmasından; dövlətin vergi siyasətindən; xarici hüquqi və fiziki şəxslərin ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğulluğunu tənzimləyən qanunverici aktların mövcudluğundan da asılıdır.

Sahibkarlığın formalaşması və inkişafı üçün hüquqi mühitin yaradılmasına sahibkarlığın dövlət tərəfindən tənzimlənməsinin metodları və səviyyəsi də təsir göstərir. Təbiidir ki, sahibkarlığın fəaliyyət dairəsinin müəyyən edilməsində, sahibkarlararası münasibətlərin, rəqabətin tənzimlənməsində, alıcıların



AZƏRBAYCAN
MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTUNUN
KİTABXANASI

hüquqlarının sahibkarlar tərəfindən pozulmasının qarşısının alınmasında, dövlətin, cəmiyyətin mənafelərinin qorunmasında dövlətin müstəsna rolu vardır. Buna görə də sahibkarlığın dövlət tənzimlənməsi o zaman mütərəqqi nəticələr verir ki, tənzimlənmə həyata keçirilərkən həm dövlətin, cəmiyyətin, həm də sahibkarların maraqları nəzərə alınmış olsun.

Sahibkarlığın formalaşmasının sosial mühitinə, hər şeydən əvvəl, alıcıların müəyyən modaya və zövqə uyğun gələn, tələbatı ödəyən əmtəələri almaq istəyi təsir göstərir. Qeyd etmək lazımdır ki, zaman dəyişdikcə alıcıların istəyi də, zövqü də, maraqları və modalar da dəyişir. Bu dəyişgənliyin tezliyinə sosial-mədəni mühit, mənəvi və dini baxışlar, normalar, əhəmiyyətli təsir göstərir. Bu normalar alıcıların həyat tərzinə birbaşa təsir göstərir və bu yolla da ayrı-ayrı əmtəələrə olan tələbatın səviyyəsini müəyyənləşdirir. Sosial şərait ayrı-ayrı fərdlərin işə, iş şəraitinə, əmək haqqının səviyyəsinə münasibətini də formalaşdırır.

Sahibkarlığın formalaşması və inkişafı mövcud siyasi mühitdən çox asılıdır. Hökumətin iqtisadi siyasəti, siyasi məqsədləri və vəzifələri, ictimai və xüsusi bölməyə münasibəti sahibkarlığın inkişafını stimullaşdıra və ya ləngidə bilər. Sahibkarlıq fəaliyyəti ölkədə sosial-siyasi sabitlik şəraitində formalaşa və inkişaf edə bilər. Siyasi sabitlik sahibkarlıq fəaliyyətini stimullaşdırır, onun ölkənin iqtisadi həyatında yaxından iştirakına təkan verir. Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda son illər baş verən hadisələr buna əyani sübutdur. 1996-cı ildən sonra Azərbaycanda bərqərar olan siyasi sabitliyin nəticəsində ölkəmizdə sahibkarlıq sürətlə inkişaf etməyə başlamış, nəticədə 2006-cı ildə ÜDM-da özəl bölmənin xüsusi çəkisi 81%-ə çatmışdır.

Təbiidir ki, müvafiq texnika və texnologiya olmadan əhəmiyyətli sahibkarlıq fəaliyyəti ilə – xüsusilə də sənaye sahələrində – məşğul olmaq mümkünsüzdür. Buna görə də ölkədə elm və texnikanın inkişaf səviyyəsi sahibkarlığın formalaşmasında və inkişafında mühüm rol oynayır. ETT nəinki ənənəvi sahələrin yeniləşməsini, inkişafını təmin edir, eləcə də yeni sahibkarlıq



fəaliyyəti sahələrinin yaradılması üçün münbit şərait əldə edir.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, müxtəlif sahələrdə sahibkarlıq fəaliyyəti müxtəlif texniki vəsaitlərin və texnologiyanın əldə olunması mümkünlüyü ilə bilavasitə bağlıdır. Yalnız yeni, qabaqcıl texnika və texnologiya sahibkarlıq fəaliyyətində rəqabət mübarizəsinə davam gətirə bilər. Bu nöqteyi-nəzərdən Azərbaycanda mövcud olan şərait qənaətbəxş hesab edilə bilməz. SSRİ süquta uğradıqdan sonra keçmiş müttəfiq respublikalarla ənənəvi təsərrüfat – iqtisadi əlaqələrin pozulması, maliyyə çatışmazlığı, özəlləşdirilən müəssisələrin texniki cəhətdən yenidən qurulması qarşısında ciddi tələblərin qoyulmaması və s. nəticəsində respublikamızda sahibkarlıq fəaliyyətinin texnoloji mühiti pisləşmiş – iri və orta müəssisələrin mütləq əksəriyyətinin texnika və texnologiyası köhnəlmiş, əsas fondların fiziki və mənəvi aşınması kritik həddə çatmışdır. Bu müəssisələrin, xüsusilə qeyri-dövlət sektoruna daxil olanların, yeni texnika və texnologiya ilə təchiz olunması külli miqdarda maliyyə vəsaiti və az olmayan müddət tələb edir. Hesab edirik ki, ölkəmizdə sahibkarlığın müvafiq texnoloji mühitinin yaradılması üçün dövlətin köməyinə ehtiyac vardır. Fikrimizcə, bu məqsədlə xüsusi Dövlət Proqramının qəbul edilməsi məqsədəuyğun olardı.

Ölkədə sahibkarlığın formalaşmasında və inkişafında onun coğrafi mövqeyi, təbii-iqlim şəraiti, təbii sərvətləri əhəmiyyətli rol oynayır. Coğrafi mühit ölkədə sahibkarlığın bu və ya digər sahələrinin üstün inkişafına stimul yaradır, ölkəyə xarici investisiyaların cəlb edilməsinin mühüm amilini təşkil edir. Məhz əlverişli coğrafi mühitin mövcudluğu Azərbaycanın neftqazçıxarma sənayesinə külli miqdarda xarici investisiyaların cəlb edilməsinə, neftqazçıxarma sənayesinin son illər yüksək sürətlə inkişafına, BTC neft kəmərinin, BTƏ qaz kəmərinin çəkilməsinin reallaşmasına təkan vermişdir. Ancaq, qeyd etmək lazımdır ki, Azərbaycanda mövcud olan əlverişli coğrafi mühitdən xalq təsərrüfatının digər sahələrində sahibkarlıq fəaliyyətinin inkişafı üçün hələlik kifayət qədər bəhrələnmək mümkün olmamışdır. Hesab edirik ki, bu məqsədlə xüsusi regional proqramların tərtib

edilməsinə, onların reallaşdırılması məqsədi ilə potensial sahibkarlara əlverişli (güzəştli) şərtlərlə kreditlərin verilməsinə ehtiyac vardır.

Sahibkarlıq fəaliyyətinin, xüsusilə də onun bəzi növlərinin, formalaşması və inkişafında infrastruktur amillərinin rolu böyükdür. İnfrastruktur amilləri sahibkarların qarşılıqlı əlaqələrinin yaradılmasına, kommersiya əlaqələrinin rəvan həyata keçirilməsinə, sahibkarların fəaliyyətləri ilə bağlı digər tələbatların ödənilməsinə xidmət edir. Ölkədə maliyyə xidmətləri göstərən bankların, topdan və pərakəndə satış obyektlərinin, hüquq, mühasibat uçotu, auditor xidmətləri göstərən firmaların, marketinq strukturlarının, reklam, nəqliyyat, sığorta agentliklərinin və şirkətlərinin, rabitə və informasiya sistemlərinin, lizinq şirkətlərinin şəbəkəsi genişləndikcə sahibkarlıq fəaliyyəti üçün daha əlverişli şərait yaranır və bu, xarici investisyaların cəlb edilməsi üçün münbit şəraitin formalaşmasında həlledici amillərdən birinə çevrilir.

Təbiidir ki, sahibkarlığın formalaşması və inkişafı ölkədə bu fəaliyyət növünün həyata keçirilməsi üçün tələb olunan müvafiq mühitin mövcudluğundan və onun səviyyəsindən asılıdır. Bununla yanaşı, sahibkarlıq funksiyasını yerinə yetirəcək potensial sahibkarların bu funksiyanı həyata keçirmək üçün tələb olunan keyfiyyətlərə malik olub-olmaması da mühüm əhəmiyyət kəsb edir.

Fikrimizcə, sahibkarlıq fəaliyyətini müvəffəqiyyətlə həyata keçirmək üçün sahibkar aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

- mövcud şəraitdə sahibkarlıq fəaliyyəti növünü düzgün seçməyi və öz imkanlarını düzgün qiymətləndirməyi bacarmaq;
- mövcud və gözlənilən riskləri düzgün qiymətləndirmək, risk etməyi bacarmaq;
- qeyri-müəyyən və qeyri-standart şəraitdə, yeni, qeyri-standart çıxış yolları tapmaq;
- sahibkarlıq fəaliyyətinin inkişafının genişləndirilməsinə imkan yaradan yeni ideyaları aşkar etmək, onları obyektiv qiymətləndirməyi bacarmaq;
- sahibkarlığa təsir edən xarici mühiti obyektiv



qiymətləndirmək, ondan maksimum bəhrələnməyi bacarmaq;

Qeyd edilənlərlə yanaşı, ölkədə sahibkarlığın formalaşması və inkişafında ümummilli amillər də əhəmiyyətli rol oynayır. Fikrimizcə, bu fəaliyyət növünün formalaşmasına və inkişafına təsir edən ümummilli amillər aşağıdakılardır:

- ölkə iqtisadiyyatının inkişafının mövcud vəziyyəti, ölkənin iqtisadi potensialı;
- ölkənin iqtisadiyyatının beynəlmiləlləşməsi və qloballaşması prosesində iştirak səviyyəsi;
- əmək ehtiyatları, onların kəmiyyət və keyfiyyəti.

Əlbəttə, sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı üçün qeyd edilənlərin hamısının, hətta kifayətedici səviyyədə olması da, onu deməyə əsas vermir ki, ölkə iqtisadiyyatının bütün sahələri və sahibkarlıq fəaliyyətinin bütün növləri üzrə sahibkarlıq bərabər inkişaf etməlidir. Təcrübə göstərir ki, hər bir ölkədə sahibkarlıq bu ölkə üçün ənənəvi olan sahələrdə daha çox inkişaf edir. Buna görə də, konkret, ənənəvi sahələr üzrə sahibkarlıq subyektlərinə mövcud münbit şəraitdən daha səmərəli istifadə etmək, öz rəqabət üstünlüklərini möhkəmləndirmək üçün əlverişli, həvəsləndirici şəraitin yaradılması məqsədəuyğundur. Ancaq nəzərdən qaçırmaq olmaz ki, ümummilli inkişaf üçün ayrı-ayrı sahələrin inkişafı kifayət deyildir. İnkişafın lokomotivi, hərəkətverici qüvvəsi rolunu oynayan qabaqcıl sahələrin müvəffəqiyyəti iqtisadi, sosial, mədəni infrastrukturun vəziyyətindən də xeyli asılı olduğundan, onların inkişafına diqqət yetirilməlidir və bu zaman qabaqcıl sahələrin imkanlarından istifadə edilməlidir.

Fikrimizcə, ölkədə sahibkarlığın inkişaf səviyyəsi qiymətləndirilərkən təkcə onun kəmiyyət tərəfinin nəzərə alınması kifayət deyildir. Çünki ölkədə istehsal edilən məhsulların, yerinə yetirilən işlərin və xidmətlərin həcmi, onların keyfiyyəti təkcə sahibkarlıq strukturlarının sayından asılı deyildir. Buna görə də ölkədə sahibkarlığın inkişafı qiymətləndirilən zaman kəmiyyət göstəriciləri ilə yanaşı aşağıdakı meyarları da nəzərə almaq lazımdır:

• istehsal edilən əmtəələrin keyfiyyət səviyyəsini və rəqabət qabiliyyətini;

• əmtəələrin çeşid müxtəlifliyini, onların artırılması imkanlarını;

• sahibkarlıq strukturlarının peşəkarlıq səviyyəsini;

• sahibkarlıq strukturlarında yeniliklərin tətbiqi sürətini, bu strukturların çevikliyini;

• ayrı-ayrı sahibkarlıq strukturlarında əmtəələrin kütləvi istehsal imkanlarını.

Əlbəttə, sahibkarlıq strukturlarının kəmiyyət göstəricilərinin artması onun keyfiyyət göstəriicilərinin də yaxşılaşmasına zəmin yaradır. Buna görə də ölkədə yeni sahibkarlıq strukturlarının yaradılması, dövlət qeydiyyatına alınması, onların fəaliyyətinin şəffaflığının təmin edilməsi üçün müvafiq qanunvericilik aktlarının qəbul edilməsi əsas şərtlərdən biridir. Bazar iqtisadiyyatına malik müxtəlif ölkələrin, xüsusilə də keçid dövrünü yaşayan ölkələrin təcrübələrinin təhlili göstərir ki, yeni sahibkarlıq strukturlarının yaradılması qaydaları sadələşdirildikcə, onların dövlət qeydiyyatına alınması müddəti qısaldıqca bu strukturların yaranma sürəti artır və əksinə. Ona görə də yeni sahibkarlıq strukturlarının yaradılmasını tənzimləyən qanunvericilik aktları qəbul edilən zaman bu xüsusiyyət nəzərə alınmalıdır. Azərbaycan məhz bu yolu seçmişdir və 2008-ci il yanvar ayının 1-dən ölkədə sahibkarlıq strukturlarının "Vahid pəncərə" prinsipi üzrə bir həftə ərzində qeydə alınması üçün ölkə prezidenti xüsusi Sərəncam imzalamışdır.

Ölkədə, xüsusilə də yenicə bazar iqtisadiyyatı yolu seçmiş ölkələrdə, yeni sahibkarlıq strukturlarının yaradılmasında, sahibkarlığın inkişafında dövlət mülkiyyətinin özəlləşdirilməsinin xüsusi rolu vardır. Ancaq yenicə bazar iqtisadiyyatı yolu seçmiş ölkələrin təcrübəsi göstərir ki, özəlləşdirmə zamanı tətbiq edilən forma və metodlar, üsullar, bu əsasda yaradılmış sahibkarlıq strukturlarının sonrakı fəaliyyətində həlledici rol oynayır. Belə ki, yalnız özəlləşdirmə çekləri əsasında yaradılmış yeni sahibkarlıq strukturlarının əksəriyyəti ya fəaliyyətini dayandırır



(əsasən maliyyə çatışmazlığı səbəbindən), ya da istehsal potensialından zəif istifadə edirlər; qarışıq metodlar (özəlləşdirmə çekləri, pullu hərraclar və s. vasitəsilə) əsasında yaradılmış yeni sahibkarlıq strukturlarının əksəriyyətində mövcud istehsal profilinin saxlanması, profilin dəyişdirilməsi çox vaxt mübahisə obyektinə çevrilir, bu strukturlarda kiçik həcmli səhm sahiblərinin hüquqları pozulur, istehsalın maliyyə təminatında çətinliklər yaranır, istehsalın həcmi azalır, işçilərin xeyli hissəsi ixtisar edilir və s., yalnız pullu hərraclar və müsabiqə yolu ilə özəlləşdirilmiş müəssisələr nisbətən müvəffəqiyyətlə fəaliyyət göstərməyə, istehsalı davam və inkişaf etdirməyə nail ola bilirlər. Ancaq bu o demək deyildir ki, dövlət mülkiyyətinin özəlləşdirilməsinin qeyd edilən metodu daha əlverişlidir və yalnız bu metoddan istifadə edilməlidir. Fikrimizcə, son zamanlar, xüsusilə də Azərbaycanda, özəlləşdirmə zamanı bu metoda üstünlük verilməsi özəlləşdirmənin başlıca məqsədindən – vətəndaşların əmlak sahibi olmasına və sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına şərait yaratmaq məqsədindən – kənarlaşmaya və beləliklə də bir çox nəsillərin əməyi ilə formalaşmış əmlakın bir qrup işbazın əlində cəmləşməsinə gətirib çıxara bilər. Qeyd edilən metodla özəlləşdirmə həm də ayrı-ayrı sahələrdə inhisarçılığı sürətləndirər ki, bu da iqtisadiyyatın sonrakı inkişafına əks təsir göstərə bilər. Fikrimizcə, dövlət müəssisələri özəlləşdirilərkən yeni yaradılan müəssisələrin əmlakında dövlətin müəyyən həcmdə (məsələn 20%) iştirak payı saxlanmalıdır. Bu həm yeni yaradılan müəssisələrin – sahibkarlıq strukturlarının maliyyələşdirilməsində, həm də idarə edilməsində dövlətin iştirakını təmin edər və beləliklə də onların sabit fəaliyyətinə təminat verərdi.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin təcrübəsi göstərir ki, ölkədə sahibkarlığın inkişafında kiçik və orta sahibkarlıq mühüm rol oynayır. Bu ölkələrdə fəaliyyət göstərən müəssisələrin 60-95 faizi məhz kiçik və orta müəssisələrin payına düşür. Kiçik və orta sənaye müəssisələrinin Beynəlxalq Federasiyasının hesablamalarına görə məşğul olanların ümumi sayı 30 milyon olan 18 ölkədə kapital qoyuluşlarının orta hesabla, 30%-i

kiçik və orta müəssisələr tərəfindən həyata keçirilir. [96. səh.11].

Ümumi daxili məhsulda kiçik və orta müəssisələrin payı Böyük Britaniyada 50-54%; İtaliyada – 57-60%; Fransada – 55-62%; Avropa Birliyi ölkələrində, orta hesabla, 63-67%; Yaponiyada – 52-55%; Rusiyada 10-11% təşkil edir [118. səh.11].

Son illər Aəzrbaycanda da kiçik və orta sahibkarlıq inkişaf etməyə başlamışdır. Belə ki, 2007-ci il yanvar ayının 1-nə olan məlumata görə Azərbaycanda hüquqi şəxs statuslu təsərrüfat-maliyyə strukturlarının sayı 74,5 mini keçmişdir ki, onların da 80,6%-ni kiçik və orta müəssisələr təşkil edir. 2006-cı ildə ÜDM-da kiçik və orta müəssisələrin payı 60%-i keçmişdir [21. səh.34,618,619,627].

İnkişaf etmiş ölkələrin, eləcə də son illər Azərbaycanda toplanmış təcrübənin nəticələrinin təhlili göstərir ki, kiçik və orta sahibkarılığın inkişafına təkan verən və onu stimullaşdıran başlıca amillər aşağıdakılardır:

- təşkili və idarə edilməsi sadədir, nisbətən az kapital qoyuluşu və az sayda muzdlu işçi qüvvəsi tələb edir;
- texniki cəhətcə qısa müddətdə və ucuz təchiz olunaraq ilkin kapitala qənaət etməyə imkan verir;
- kapitalın daha yüksək sürətlə dövranını təmin edir, kapital qoyuluşunun ödəmə müddətini azaldır;
- nisbətən az kapital qoyuluşu ilə tələbata uyğun istehsal malları istehsalını və xidmətlər sahəsini xeyli genişləndirir, onları istehslakçılara yaxınlaşdırır;
- ölkənin ixrac imkanlarının artırılmasına müsbət təsir edir.

Qeyd etmək lazımdır ki, kiçik və orta sahibkarlığın formalaşması və inkişafında onlara xas olan xüsusiyyətlərin də əhəmiyyətli rolu vardır. Fikrimizcə, aşağıdakılar kiçik və orta sahibkarlığı xarakterizə edən əsas xüsusiyyətlər kimi qəbul edilə bilər. Kiçik və orta sahibkalıq:

- yeni növ məhsulların istehsalının mənimsənilməsində qabaqcıllığı öz üzərinə götürür, onların iqtisadiyyatda tətbiqini sürətləndirirlər;



- iri müəssisələri kiçik seriyalı məhsulların istehsalından azad edir, ixtisaslaşmanı sürətləndirirlər;
- elmi-texniki tərəqqidə kəşfiyyatçı rolunu oynayır, iri müəssisələrin çəkdiyi risqi öz üzərlərinə götürürlər;
- azad rəqabət mühitinin yaradılmasında, inhisarçılığın təsirinin azaldılmasında, xüsusilə də sahə və ərazi inhisarçılığının ləğv edilməsində müstəsna rol oynayırlar;
- əhalinin maddi və maliyyə vəsaitlərini istehsala cəlb edirlər;
- dövlət mülkiyyətinin özəlləşdirilməsində və beləliklə də yeni sahibkarlar təbəqəsinin formalaşmasında əhəmiyyətli rol oynayırlar;
- sərbəst işçi qüvvəsinin işlə təmin olunmasında, məşğulluğun səviyyəsinin yüksəldilməsində müstəsna rol oynayırlar.

Fikrimizcə, kiçik və orta müəssisələrin yüksək dərəcədə operativ – təsərrüfat müstəqilliyi və fəaliyyətlərinin nəticələrinə görə maddi məsuliyyət daşımaları da onları iri müəssisələrdən fərqləndirən xüsusiyyətlərdən hesab edilə bilər.

Yuxarıda qeyd edilənlərə əsasən belə qərara gəlmək olar ki, kiçik və orta sahibkarlığın inkişafı ümumən ölkə iqtisadiyyatının inkişafı ilə yanaşı əhalinin məşğulluğunun artırılmasında, rifahının yaxşılaşdırılmasında da əvəzedilməz rol oynayır. Buna görə də, xüsusilə Azərbaycan kimi yenicə bazar iqtisadiyyatı yolu seçmiş, əhalinin məhğulluğu sahəsində ciddi problemləri olan, ölkələrdə kiçik və orta sahibkarlığın inkişafı daim dövlətin diqqət mərkəzində olmalıdır.

Son illər Azərbaycanda müşahidə edildiyi kimi, daxili bazarın xarici malların axınından qorunmaması ölkədə sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafına mənfi təsir göstərir. Buna görə də milli sahibkarlığın inkişafına şərait yaratmaq üçün proteksionizm siyasətinin həyata keçirilməsi zəruridir. Qeyd etmək lazımdır ki, proteksionizm siyasəti istisnasız olaraq bütün ölkələr tərəfindən həyata keçirilir. Burada fərq bu siyasətin əhatə dairəsində, ardıcıllığında, müddətində və sərtliyindədir.

Təbiidir ki, proteksionizm siyasəti zəif inkişaf etmiş, rəqabət mühiti zəif olan, sahibkarlığın yenicə formalaşmağa və inkişafa başladığı ölkələrdə daha məqsədə uyğundur. Ancaq proteksionizm siyasəti düşünülmüş şəkildə həyata keçirilməlidir və nəzərə alınmalıdır ki, bu siyasət o vaxt səmərəli nəticə verə bilər ki, ölkə daxilində bu və ya digər sahələrdə sahibkarlığın inkişafı üçün doğrudan da münbit şərait mövcud olsun, ölkə daxilində azad rəqabət şəraiti formalaşsın və proteksionizm siyasətinin vaxt müddəti müəyyənləşsin. Əks tədqirdə proteksionizm siyasəti səmərəli nəticə verməyə, əksinə, ölkədə bu və ya digər məhsullara, xidmətlərə olan tələbatın ödənilməsində problemlər yarada bilər. Ölkədə azad rəqabətin olması sahibkarlığın inkişafında mühüm rol oynayır. Rəqabət istehsalın təşkili, idarə edilməsi, elmi-texniki yeniliklərin tətbiqi sahələrində canlanma yaratmaqla iqtisadiyyatın inkişafına təkan verir. Buna görə də ölkədə azad rəqabətin bərqərar olması, inhisarçılığın aradan qaldırılması üçün müvafiq antiinhisar siyasəti həyata keçirilməlidir. Ancaq antiinhisar siyasəti inhisarçılığın tamamilə məhvini həyata keçirən bir vasitə kimi başa düşülməməlidir. Yalnız bazarlar əsaslı şəkildə tədqiq edildikdən, onların rəqabət və qeyri-rəqabət xarakteri, yəni inhisarın iqtisadi baxımdan məqsədəuyğun olması (təbii inhisar olması) müəyyən edildikdən sonra antiinhisar siyasətinin dairəsi müəyyən edilə bilər və yalnız qeyd edilənlər nəzərə alınmaqla həyata keçirilən antiinhisar siyasəti səmərə verə bilər. Ona görə də dövlətin antiinhisar siyasətinin əsas vəzifələrindən biri təbii inhisar zonalarının və onların tənzimləmə mexanizminin müəyyən edilməsindən ibarətdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, son illər bir çox ölkələrdə həyata keçirilən radikal iqtisadi islahatların özəyi kimi çıxış edən bazar mexanizmlərinin inkişafının əsasında da sahibkarlığın inkişafı, onun rolunun artması durur. Sahibkarlıq sivil bazar təsərrüfatına xas olan rəqabət mexanizminin əsas hissəsini və subyekt bazasını təşkil etməklə, iqtisadi sistemə çeviklik gətirir, ölkənin maliyyə və istehsal resurslarından daha səmərəli istifadə etmək imkanı verir, güclü antiinhisar potensiala malikdir,



struktur yenidənqurmanın əsas amili kimi çıxış edir, elmi-texniki tərəqqinin müxtəlif istiqamətləri üzrə sıçrayışlara səbəb olur, məşğulluq və s. kimi problemlərin həllində mühüm rol oynayır. Sahibkarlığın inkişafı dövlətlərin iqtisadi nailiyyətlərinin əsas amili kimi çıxış edir. Buna görə də inkişaf etmiş ölkələrdə dövlətlərin müasir iqtisadi siyasəti onların iqtisadi proseslərə fəal müdaxiləsini yox, sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılmasını nəzərdə tutur. Qeyd edilən ölkələrin iqtisadi inkişafının əsasında dövlətlə sahibkarlığın birgə fəaliyyəti durur: dövlət sahibkarlığın inkişafı üçün əlverişli mühit yaradır, sahibkarlar isə cəmiyyət qarşısında duran vəzifələrin həllində, o cümlədən iqtisadiyyatın əsas sahələrinin və sferalarının maliyyələşdirilməsində, ölkədə əlverişli investisiya mühitinin formalaşmasında, sosial proqramların həyata keçirilməsində dövlətə yardımçı olurlar. Buna görə də ölkədə sahibkarlığın formalaşması və inkişafında dövlət yaxından iştirak etməli, dövlətin imkanlarından istifadə etməklə sahibkarlıq fəaliyyətinin inkişafını stimullaşdırmalıdır.

## § 2. Sahibkarlığın formalaşmasına və inkişafına təsir edən sosial-iqtisadi amillər

Ölkədə sahibkarlığın formalaşmasında və inkişafında sosial-iqtisadi amillər də əhəmiyyətli rol oynayır. Buna görə də sahibkarlığın səmərəli həyata keçirilməsi üçün bu amillərin rolunu nəzərə almaq və onlardan istifadə etmək lazımdır.

Qeyd etmək lazımdır ki, sahibkarlığın formalaşmasına təsir edən sosial-iqtisadi amillərlə onun inkişafına təsir edən sosial-iqtisadi amillər həm təsir dərəcəsinə, təsir istiqamətlərinə, həm də məzmununa görə bir-birindən fərqlənirlər. Fikrimizcə, sahibkarlığın formalaşmasına və inkişafına təsir edən sosial-iqtisadi amilləri təsir istiqamətinə görə şəkil 2.1-də göstərilən qaydada təsnifləşdirmək məqsədəuyğundur.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrin,

eləcə də Azərbaycanın, sahibkarlığın inkişafında əldə etdikləri təcrübənin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, bu fəaliyyət növünün formalaşmasına aşağıdakı sosial-iqtisadi amillər təsir göstərir:

- sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin dünya görüşü, hazırlıq səviyyəsi, şəxsi keyfiyyətləri, işgüzarlığı, təşkilatçılıq qabiliyyəti;
- ailə-məişət münasibətləri;
- ictimaiyyətin (cəmiyyətin) sahibkarlıq fəaliyyətinə münasibəti;
- əhalinin təhsil, mədəni-texniki səviyyəsi;
- xalqın adət-ənənəsi;
- əhalinin sosial-iqtisadi vəziyyəti.

Sahibkarlığın formalaşmasına təsir edən başlıca sosial-iqtisadi amil sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin dünya görüşü, hazırlıq səviyyəsi, şəxsi keyfiyyətləri, işgüzarlığı, xüsusilə də təşkilatçılıq qabiliyyəti ilə bağlıdır. Potensial sahibkarın geniş dünya görüşünə malik olması ona daha əlverişli sahibkarlıq fəaliyyəti növünün (istiqamətinin) seçilməsində yardımçı olur, gələcək fəaliyyətinin səmərəli təşkili üçün özünün imkanlarını, bilik və bacarığını düzgün qiymətləndirməyə imkan verir. Yüksək təhsilə, ixtisasa, kifayət qədər iş təcrübəsinə, təşkilatçılıq qabiliyyətinə malik olan, işgüzarlığıilə seçilən şəxslər, bir qayda olaraq, sahibkarlıq fəaliyyəti növünün seçilməsində səhv etmirlər. Təbiidir ki, gələcək sahibkarın şəxsi keyfiyyətləri (yeniliyi duymaq, onu qiymətləndirməyi bacarmaq, insanlarla ünsiyyət qurmaq bacarığı və s.) də sahibkarlığın formalaşmasında az əhəmiyyət kəsb etmir.

Gələcək sahibkarın ailə-məişət munasibətləri sahibkarlıq fəaliyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən təbiidir ki, tərəfdaşını öncə ailəsində axtarır, öz ailə üzvlərinin köməyinə, yardımına bel bağlayır. Normal ailə-məişət münasibətlərinə malik olmayan şəxsin sahibkarlıq fəaliyyətində uğur qazanması çox zaman mümkün olmur və ya çox çətin başa gəlir.






Şəkil 2.1. Sahibkarlığın formalaşmasına və inkişafına təsir edən sosial-iqtisadi amillərin təsnifatı

İstənilən cəmiyyətdə, xüsusilə də Azərbaycan kimi bazar iqtisadiyyatına yenicə qədəm qoymuş postsosialist ölkələrində, ictimaiyyətin sahibkarlıq fəaliyyətinə münasibəti onun formalaşmasında mühüm rol oynayır. Uzun müddət istehsal vasitələri üzərində ictimai mülkiyyətin hökmran olduğu sosializm cəmiyyətində yaşayan, kapitalizmə istismarçı bir quruluş kimi yanaşan insanların qısa müddət ərzində bazar iqtisadiyyatının tələb etdiyi davranış formalarını qəbul etməsi mümkün olmur. Bazar iqtisadiyyatına keçid çox zaman cəmiyyətdə böyük gərginlik yaradır (iqtisadi böhran, hiperinfilyasiya, kəskin xarakter alan işsizlik və s. nəticəsində) ki, bu da insanlarda həm sahibkarlara, həm də sahibkarlıq fəaliyyətinə neqativ münasibət doğurur. Bu münasibətin yumşaldılması, sahibkarlığa normal münasibətin formalaşması üçün dövlət səviyyəsində müvafiq tədbirlər (bazar iqtisadiyyatına rəvan keçidin təmin olunması üçün müvafiq qanunların qəbul edilməsi; sahibkarlıq fəaliyyətinin məqsədləri, ölkə iqtisadiyyatında, məşğulluğun yüksəldilməsində onun rolu və s. barədə ictimaiyyət arasında maarifçilik təbliğatının aparılması və s.) görülməlidir.

Əhalinin təhsil, mədəni-texniki səviyyəsi yüksək olduğu ölkələrdə sahibkarlığın formalaşması üçün daha əlverişli şərait mövcud olur. Əhalinin yüksək təhsil, mədəni-texniki səviyyəsi sahibkarlıq fəaliyyətinə normal münasibətin formalaşmasında əhəmiyyətli rol oynamaqla yanaşı bu fəaliyyətin həyata keçirilməsi üçün müvafiq işçi qüvvəsinin formalaşmasında da mühüm rol oynayır.

Sahibkarlıq fəaliyyətinin formalaşmasına xalqın adət-ənənəsi də müəyyən dərəcədə təsir göstərir. Bu təsir xüsusilə regionlarda, əsasən də kiçik və orta sahibkarlığın formalaşmasında özünü daha çox biruzə verir. Regionlarda əsasən ənənəvi sahələrdə (xalçaçılıq, dulusçuluq, toxuculuq və s.) sahibkarlıq fəaliyyəti formalaşır və inkişaf edir. Buna görə də regionlarda sahibkarlıqla məşğul olmaq istəyənlər bu amili nəzərə almalı, xalqın adət-ənənələrini maksimum nəzərə almalıdırlar.

Əhalinin sosial-iqtisadi vəziyyətinin sahibkarlığın formalaşmasına təsiri şəksizdir. Birinci, sahibkarlıq fəaliyyəti ilə yalnız iqtisadi vəziyyəti kifayət qədər yüksək olan insanlar məşğul ola bilərlər; sosial-iqtisadi vəziyyəti kifayət qədər yaxşı olan insanların alıcılıq qabiliyyəti lazımi səviyyədə ola bilər ki, bu da təklif ediləcək əmtəə və xidmətlərin alınmasında mühüm rol oynayır. Əmtəə və xidmətlərin reallaşdırılmasında yaranan çətinliklər şübhəsizdir ki, sahibkarlıq fəaliyyətinin formalaşmasına mənfi təsir göstərəcəkdir. Buna görə də sahibkarlıq fəaliyyətinin növü seçilərkən mütləq bu fəaliyyət nəticəsində istehsalı nəzərdə tutulan əmtəələrə, yerinə yetiriləcək işlərə və xidmətlərə olan tələbatların mövcud vəziyyəti və dəyişmə meyli müəyyən edilməklə yanaşı, potensial istehlakçıların alıcılıq qabiliyyəti də nəzərə alınmalıdır. Əhalinin sosial-iqtisadi vəziyyəti nəzərə alınmaqla formalaşan sahibkarlıq fəaliyyəti, digər amillərlə yanaşı, sahibkarın qarşısına qoyduğu məqsədlərə çatmaqda mühüm rol oynayır.

Sahibkarlığın inkişafına təsir edən sosial-iqtisadi amillər daha geniş və çoxcəhətlidir. Fikrimizcə, bu amilləri sahibkarlığın inkişafına birbaşa və dolayı təsir edən amillərə bölmək olar. Sahibkarlığın inkişafına birbaşa təsir edən sosial-iqtisadi amillər, fikrimizcə, aşağıdakılardır:

- əmək şəraiti;
- əmək haqqının səviyyəsi;
- əmək və istehsal intizamı;
- kadrların düzgün seçilib yerləşdirilməsi;
- müəssisə kadrlarının sabitlik səviyyəsi;
- müəssisə işçilərinin təhsil, mədəni-texniki, peşə-ixtisas səviyyəsi;
- iş vaxtında istifadə;
- müəssisə kollektivi arasında qarşılıqlı münasibətlər, kollektivdə mövcud olan sosial-psixoloji mühit.

Sahibkarlığın inkişafına dolayı yolla təsir edən amillərə fikrimizcə aşağıdakıları aid etmək olar:

- işçilərin texniki yaradıcılığı və səmərələşdirici fəaliyyəti;
- müəssisədə məişət xidmətinin təşkili;
- əmək və istehsal prosesində qarşılıqlı yardım;

- asudə vaxtdan istifadənin vəziyyəti;
- işçilərin mənzil-məişət şəraiti;
- işçilərin ailə-məişət münasibətləri;
- işlədiyi müəssisənin imicinə münasibət.

Sahibkarlığın inkişafına bilavasitə təsir edən sosial-iqtisadi amillər sırasında "əmək şəraiti" xüsusi rol oynayır. Səmərəli sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün normal əmək şəraiti yaradılmalıdır. Normal əmək şəraiti özündə fiziki əmək sərfinin minimuma endirilməsini, zehni əmək üçün komfort şəraitin yaradılmasını, sanitar-gigiyenik qaydalara riayət edilməsini, insan sağlamlığına mənfi təsir edən amillərin aradan qaldırılmasını və ya minimuma endirilməsini, ətraf mühitin çirklən-dirilməsinin qarşısının alınmasını və s. özündə ehtiva edir. Normal əmək şəraiti əmək məhsuldarlığının yüksəldilməsinə bilavasitə təsir etməklə sahibkarlığın inkişafını və genişlənməsini də sürətləndirir. Normal əmək şəraiti insanların fiziki sağlamlığının qorunmasını təmin etməklə yanaşı iş qüvvəsinin qeyri-səmərəli sərfinin qarşısını alır, əmək əməliyyatlarının yerinə yetirilməsi zamanı gərginliyi minimuma endirir, yorğunluğu azaldır, işçilərin vaxtından qabaq yorulmasının qarşısını alır. Onu da qeyd etmək lazımdır ki, müasir şəraitdə işçilərin iş yerlərində əmək şəraitinə olan tələbləri getdikcə artır. Buna görə də öz sahibkarlıq fəaliyyətini inkişaf etdirməyə və genişləndirməyə can atan sahibkar bu istəyin reallaşdırılmasında əmək şəraitinin oynadığı rolu nəzərə almalıdır.

Sahibkarlığın inkişafında sahibkarlıq strukturlarında əmək haqqının tətbiq edilən forma və sistemlərinin, işçilərin əmək haqqının səviyyəsinin təsiri kifayət qədər yüksəkdir. Sərf etdiyi fiziki və əqli əmək nəticəsində yüksək əmək haqqı alan işçilər işlədiyi müəssisənin səmərəli fəaliyyətində maraqlı olur və onun daha da yaxşılaşması üçün əllərindən gələni edirlər. Əksinə, az əmək haqqı alan, əmək haqqı ödənilərkən diskriminasiyaya məruz qalan işçilərin müəssisəyə bağlılığı zəif olur, onlar var gücləri ilə işləmirlər, müəssisənin fəaliyyətinin nəticələrində maraqlı olmurlar ki, bu da sahibkarlığın inkişafına mənfi təsir



göstərir.

Əmək və istehsal intizamının möhkəmləndirilməsi sahibkarlıq fəaliyyətinin rəvan həyata keçirilməsində müstəsna rol oynayır. Əmək və istehsal intizamı həm də işçiləri səfərbər edir, onların məsuliyyətini, cavabdehliyini artırır və beləliklə də sahibkarın nəzərdə tutduğu proqramının vaxtında yerinə yetirilməsinə zəmin yaradır.

Əmək və istehsal intizamına riayət edilməsi mexaniklәşdirilmiş, avtomatlaşdırılmış istehsal sahələrində, xüsusilə də fasiləsiz iş rejimində fəaliyyət göstərən sahibkarlıq strukturlarında xüsusilə vacibdir. Ona görə də qeyd edilən tipli xüsusiyyətlərə malik olan sahibkarlıq strukturlarında əmək və istehsal intizamına xüsusi diqqət ayrılmalı və işçilərlə bağlanan əmək müqaviləsində əmək və istehsal intizamına əməl edilməsi üzrə tələblərə lazımi diqqət yetirilməlidir.

Sahibkarlığın səmərəli təşkilində, inkişafında və idarə edilməsində kadrların düzgün seçilib yerləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Kadrlar seçilərkən onların təhsilinin, ixtisasının (peşəsinin), iş stajının yerinə yetirəcəyi işə uyğunluğuna xüsusi diqqət yetirilməli, mümkün qədər kadrların şəxsi keyfiyyətləri (xasiyyəti, işçilərlə ünsiyyət qurmaq bacarığı, təşkilatçılıq, idarəçilik qabiliyyəti və s.) nəzərə alınmalıdır. Bunların nəzərə alınması birbaşa olaraq müəssisə kadrlarının sabitliyinə də təsir göstərir. Təbiidir ki, yalnız yüksək təhsil, peşə, ixtisas səviyyəsinə, işgüzarlığa malik sabit kadrları olan müəssisə istehsalın inkişafı sahəsində qarşısına qoyduğu vəzifələri müvəffəqiyyətlə yerinə yetirə biləcəkdir.

Təcrübə göstərir ki, sahibkarlıq fəaliyyətinin nəticələri, digər amillərlə yanaşı, kadrların sabitlik səviyyəsindən də asılıdır. Sabit, peşəkar əmək kollektivi sahibkarlıq strukturlarının səmərəli fəaliyyətini təmin etməklə yanaşı onun inkişafında və imicinin möhkəmlənməsində də əhəmiyyətli rol oynayır. Buna görə də sahibkarlıq strukturlarında kadrların sabitliyinin təmin edilməsinə xüsusi diqqət yetirilməli, onların axıcılığına səbəb olan amillər aradan qaldırılmalıdır.

Qeyd etmək lazımdır ki, müəssisədə kadrların hərəkətini, axıcılığını tamamilə aradan qaldırmaq, sıfıra endirmək mümkün deyildir, ən azı ona görə ki, obyektiv fəaliyyət göstərən əhali axıcılığı qanunu vardır: müəssisənin işçilərinin bir qismi yaşına, səhhətinə, dünyasını dəyişdiyinə görə müəssisəni tərk edir, onlar yeniləri ilə əvəz olunurlar. Müəssisədə yalnız kadrların təbii amillərdən asılı olmayan səbəblərdən işdən getmə hallarının qarşısını almaq, onların axıcılığını minimuma endirmək mümkündür. Bunun üçün öncə kadrların axıcılığına gətirib çıxaran səbəblər aşkar edilməli, təhlil olunmalıdır.

Kadr axıcılığını doğuran səbəblərin aradan qaldırılması üçün səmərəli tədbirlərin hazırlanması məqsədi ilə, təkcə öz xahişi ilə müəssisədən faktiki olaraq gedən işçilərin bu fikrə gəlməsi və onu reallaşdırması səbəblərinin öyrənilməsi və təhlil edilməsi kifayət deyildir. Müəssisədə işləyən işçilərin bir qismi də bu və digər səbəbdən müəssisədən getmək haqqında düşünə bilər, ancaq hələlik qəti qərara gəlməyə bilərlər. Bu işçilərin də fikirlərini öyrənmək, təhlil etmək lazımdır. Bu zaman toplanan informasiyanın əhəmiyyəti ondan ibarətdir ki, onun əsasında işçinin müəssisəni tərk etməsinə səbəb ola biləcək amillər vaxtında aradan qaldırıla və beləliklə də faktiki kadr axıcılığının səviyyəsi azaldıla bilər.

Əhalinin təhsil, mədəni-texniki səviyyəsi sahibkarlığın formalaşmasında əhəmiyyətli rol oynadığı kimi, işçilərin təhsil, mədəni-texniki, peşə-ixtisas səviyyəsi də həm konkret sahibkarlıq strukturunun səmərəli fəaliyyətində və inkişafında, həm də ümumiyyətlə sahibkarlığın inkişafında (həm də daha çox) mühüm rol oynayır. Təbiidir ki, daha yüksək təhsilə, bilik və bacarığa, yüksək peşə-ixtisas hazırlığına malik olan işçilərin çalışdığı sahibkarlıq strukturları, digər bərabər şərtlər daxilində, daha yüksək sürətlə inkişaf edəcəkdir. Buna görə sahibkarlıq strukturunun kadrlarla təchizatının ilkin mərhələsində daha yüksək hazırlıqlı işçilərin cəlb edilməsinə çalışmaqla yanaşı, sonradan da, mövcud işçilərin peşə-ixtisas səviyyəsinin daim artırılması qayğısına qalınmalı, bunun üçün müvafiq tədbirlər



görülməlidir.

İş vaxtından səmərəli istifadə edilməsi bütün sahibkarlıq strukturları, xüsusilə də fasiləsiz iş rejiminə malik olanlar üçün, əhəmiyyətlidir. İş vaxtı itkisi nəinki cari istehsal proqramının yerinə yetirilməsinə mane olur, eyni zamanda mütəmadi olaraq baş verən iş vaxtı itkiləri müəssisənin perspektiv inkişaf proqramlarını da ləngidə bilər. Buna görə də hər cür iş vaxtı itkilərinə, xüsusilə də subyektiv səbəblərdən baş verən itkilərə, qarşı sərt tədbirlər görülməli, onların təkrarlanmasına yol verilməməlidir.

Qeyd etmək lazımdır ki, sahibkarlığın inkişafında iş vaxtından həm intensiv, həm də ekstensiv istifadənin əhəmiyyətli rolu vardır. Eyni zamanda nəzərə almaq lazımdır ki, iş vaxtından ekstensiv istifadə imkanları məhduddur. Buna görə də ekstensiv iş vaxtından səmərəli istifadə etməklə yanaşı, iş vaxtından intensiv istifadəyə xüsusi fikir verilməlidir. Bu məqsədlə istehsalın təşkili, planlaşdırılması, idarə edilməsinin mütərəqqi metodlarının tətbiq edilməsi ilə yanaşı, istehsalın texniki-texnoloji bazasının da daim təkmilləşdirilməsi, yerləşdirilməsi üzrə mütəmadi tədbirlər həyata keçirilməlidir.

Hələ XX əsrin əvvəllərində akademik S.Strimulin sübut etmişdir ki, müəssisə kollektivi arasındakı qarşılıqlı münasibətlər, kollektivdə mövcud olan sosial-psixoloji mühit, insanların psixoloji durumu əmək məhsuldarlığının səviyyəsinə, bu və ya digər istiqamətdə, 20%-ə qədər təsir göstərir. Təbiidir ki, bu amil özünü avtomatlaşdırma və mexanikləşdirmə səviyyəsinin aşağı olduğu müəssisələrdə daha çox biruzə verir. Ancaq bu amilin bütün istehsal müəssisələrində kifayət qədər rol oynadığı şübhəsizdir. Səmimi, qarşılıqlı insani münasibətlərin mövcud olduğu istənilən müəssisə, qarşısına qoyduğu məqsədlərin həyata keçirilməsində əlavə imkanlar əldə etmiş olur. Buna görə də sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar bu amilin rolunu diqqətdən qaçırmamalıdırlar.

Nəzərə almaq lazımdır ki, kollektiv üzvləri arasında normal qarşılıqlı münasibətlər mənəvi mikrostrukturun formalaşmasında əhəmiyyətli rol oynayır ki, bu da öz növbəsində, sahibkarlıq

strukturunda meydana çıxan sosial və iqtisadi problemlərin həllinə imkan yaradır. Əksinə, kollektivdə bu cür münasibətlərin formalaşmaması, işçilər arasında qarşılıqlı inamsızlıq və laqeydlilik münasibətlərinin mövcudluğu sahibkarlıq fəaliyyətinin məqsədlərinin reallaşdırılmasını çətinləşdirir, onun inkişafını ləngidir.

XX əsrin 30-cu illərindən başlayaraq istehsalda insanın sosial-psixoloji rolunun əhəmiyyətinə daha geniş diqqət ayrılmağa başlanmışdır. Sənaye inkişaf etdikcə aydın olurdu ki, əmək şəraiti və əməyin təşkili bu prosesdə nə qədər əhəmiyyətli rol oynasalar da, onlar insanın imkanlarından istifadənin bütün spektrlərini əhatə etmirlər [147. səh.134].

Sənaye istehsalının inkişafı addımbaaddım belə nəticəyə gəlməyə şövq etdi ki, əmək məhsuldarlığının artımı, kollektivdə əlverişli qarşılıqlı münasibətlərin, normal sosial-psixoloji atmosferin, əməklə və iş yoldaşları ilə məmnunluq şəraitinin yaradılması yolu ilə də əldə edilə bilər.

ABŞ maqnatı II Henri Ford 60-cı illərin əvvəllərində qeyd etmişdir ki: "Əgər biz indiki zamanda istehsalda insani münasibətlər problemini həll edə bilsək, onda biz sonrakı on il ərzində məhsulun maya dəyərinin aşağı salınmasına, əsrin son dörddə biri müddətində avtomobillərin kütləvi istehsalı metodu ilə maya dəyərinin aşağı salınmasından daha çox nail ola bilərik" [147. səh.135]. Qeyd edilən fikir artıq bir əsrə yaxındır ki, özünü doğrultmaqdadır.

Sahibkarlığın inkişafına dolayı yolla təsir edən sosial-iqtisadi amillər sırasında işçilərin texniki yaradıcılıq qabiliyyəti və səmərələşdirici fəaliyyəti xüsusilə seçilir. Buna görə də yaradıcılıq, yenilikçilik qabiliyyətinə malik olan kadrlara xüsusi diqqət ayrılmalı, onların imkanlarından səmərəli istifadə edilməsi üçün müvafiq həvəsləndirici üsullar tətbiq edilməlidir. Təcrübə göstərir ki, mövcud texnika və texnologiyadan daha səmərəli istifadə edilməsinə imkan verən səmərələşdirici təkliflərin həyata keçirilməsi çox da böyük xərc çəkmədən sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə və məhsul həcminin artmasına şərait yaradır.

Müəssisədə işçilərə məişət xidmətinin lazımi səviyyədə



təşkili, əmək fasilələri zamanı onların normal istirahət etmələrinə imkan yaratmaqla bərabər mümkün ola biləcək iş vaxtı itkilərinin (fasiləyə vaxtından qabaq çıxmaq, fasilədən gec qayıtmaq və s.) qarşısının alınmasında da müəyyən rol oynayır. Buna görə də inkişaf etmiş bazar münasibətlərinin mövcud olduğu ölkələrdə iş yerlərində işçilərə məişət xidmətinin yüksək səviyyədə təşkilinə xüsusi önəm verirlər. İşçilərə iş yerlərində belə şəraitin yaradılması onlara öz əmək qabiliyyətlərinin bərpasında kömək olur və beləliklə də onların məhsuldar işləmələrinə şərait yaradır.

Təbiidir ki, müəssisənin bütün işçiləri, xüsusən də müəssisəyə yeni qəbul edilənlər, müəssisənin xüsusiyyətlərini eyni səviyyədə, tam mənimsəyə bilmirlər. Nəticədə müəssisənin hansısa bir bölməsində gözlənilən nəticələrin alınmasında çətinliklər yarana bilər. Bundan əlavə, hər bir müəssisədə, ən azı bir neçə nəfər daha bacarıqlı, istedadlı, yenilikçi işçilər olur. Buna görə də həm geridə qalan işçilərə yardım edilməsi, həm də qabaqcıl işçilərin təcrübələrindən istifadə edilməsi üçün müəssisədə əmək və istehsal proseslərində işçilərin qarşılıqlı yardımının təşkilinə diqqət ayırmaq lazımdır. Bu sahibkarlığın inkişafına stimul yaratmaqla bərabər, kollektivdə şəxsi münasibətlərin yaxşılaşdırılmasına da şərait yarada bilər.

Müşahidələr göstərir ki, asudə vaxtın həcmi, ondan istifadənin xüsusiyyətləri işçinin əmək qabiliyyətinin bərpasında mühüm rol oynamaqla yanaşı, onun əməyinin məhsuldarlığına da əhəmiyyətli təsir göstərir. Uzun müddət istirahətsiz əmək fəaliyyəti insanın həm fiziki, həm də zehni əmək qabiliyyətini zəiflədə bilər. Buna görə də hər bir işçinin istirahətə ehtiyacı vardır. İstirahətin təşkili isə asudə vaxtdan istifadənin təşkilindən xeyli asılıdır.

Təəssüf ki, Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq strukturlarında, xüsusilə də xaricilərə məxsus olanlarda, ölkənin əmək qanunvericiliyinə riayət edilmir – işçilər həddindən artıq, istirahət günü verilmədən, tibbi sığorta edilmədən işləməyə məcbur edilirlər. Bu strukturlarda işləyən işçilərin asudə vaxtı demək olar ki, yoxdur. Təbiidir ki, belə şəraitdə insanlar uzun

müddət normal işləyə bilmir və buna görə də onlar tez bir zamanda işdən azad edilir (bu insanlar hüquqlarının qorunmasında ciddi çətinlikliklərlə üzləşdiyindən öz iş yerlərini qoruyub saxlaya bilmirlər), yeniləri ilə əvəz olunurlar. Bununla sahibkarlar insanların hüquqlarını pozmaqla yanaşı, öz fəaliyyətlərinin inkişafına da ciddi ziyan vururlar.

Nəzərə almaq lazımdır ki, bəzən insanların maddi imkanları, yaşadığı mühit onların asudə vaxtdan səmərəli istifadə etmələrinə, istirahətlərinin normal təşkilinə imkan vermir. Buna görə də sahibkarlar, heç olmasa öz fəaliyyətlərinin normal gedişinin təşkili, inkişafı üçün işçilərinin asudə vaxtlarından səmərəli istifadə etmələrinə müvafiq şəraitin yaradılmasına fikir verməlidirlər.

İşçilərin mənzil-məişət şəraiti və ailə-məişət münasibətləri onların sağlamlığına, əhval-ruhiyyəsinə, uzunömürlülüyünə ciddi təsir göstərməklə yanaşı əmək qabiliyyətlərinə də əhəmiyyətli təsir göstərir. Normal mənzil-məişət şəraitinə malik olan, firavan yaşayan insanların əhval-ruhiyyəsi və deməli, əmək qabiliyyəti də yüksək olur və onlar işlədikləri sahibkarlıq strukturlarında tam gücləri ilə fəaliyyət göstərə bilərlər. Təbiidir ki, sahibkarlıq strukturlarında çalışan insanların hamısı normal mənzil-məişət şəraitinə malik olmaya bilərlər. Buna görə də sahibkarlar öz müəssisələrində işləyən işçilərin mənzil-məişət problemlərinin həllinə kömək etməlidirlər. İnkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdə bu sahədə geniş təcrübə toplanmışdır. Bu ölkələrdə fəaliyyət göstərən iri sahibkarlıq strukturlarının demək olar ki, hamısında işçilərin mənzil və məişət problemlərinin həllinin xeyli hissəsini sahibkarlar öz üzərinə götürürlər.

Keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda da, iri müəssisələr işçilərinin mənzil-məişət problemlərinin həllində qismən iştirak edirdilər – uzun müddət müəssisədə işləyənləri mənzillə, digərlərini yataqxanalarla (subay və ailəlilər üçün) təmin edirdilər. Ancaq son illər iri müəssisələrin mütləq əksəriyyətinin böhranla üzləşməsi, yataqxanaların isə Ermənistanın ölkəmizə təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş insanlar



tərəfindən məskunlaşdırılması bu sahədə onsuz da gərgin olan problemləri daha da ağırlaşdırmışdır. Ancaq Azərbaycanda ipoteka kreditlərinin verilməyə başlanması bu sahədə müəyyən irəliləyişlər doğura bilər. Belə ki, kifayət qədər maliyyə imkanı olan sahibkarlıq strukturları öz işçilərinin heç olmasa bir qisminin ipoteka kreditlərinin maliyyələşməsində yardımçı ola bilərlər. Bu halda təbiidir ki, işçi öz müəssisəsinə daha sıx tellərlə bağlanacaq və onun inkişafı üçün əlindən gələni əsirgəməyəcəkdir.

Qeyd etmək lazımdır ki, əmtəə və xidmət bazarlarının müxtəlif çeşidli məhsullar və xidmətlərlə kifayət qədər dolu olduğu müasir şəraitdə müəssisənin imici onun məhsullarının, yerinə yetirdiyi işlərin və xidmətlərin reallaşdırılmasında əhəmiyyətli rol oynayır. Təbiidir ki, müəssisənin imici ilk növbədə onun istehsal etdiyi məhsulların, yerinə yetirdiyi işlərin, xidmətlərin çeşidindən, keyfiyyətindən, müəssisənin öz öhdəliklərinə (bir tərəfdaş kimi) necə əməl etməsindən asılıdır. Bunlarla yanaşı, müəssisənin imicinə onun işçilərinin müəssisədən kənar fəaliyyəti, davranışı da təsir göstərir. İşçilər həm də mümkün olan bütün hallarda öz müəssisəsinin imicinin yüksəldilməsi istiqamətində (müəssisənin məhsullarının reklamı, onların üstün cəhətlərinin vurğulanması və s.) fəaliyyət göstərməlidirlər. Müəssisənin imicinin yüksəlməsi ona və onun məhsullarına, xidmətlərinə marağın artmasına səbəb olmaqla sahibkarlıq fəaliyyətinin genişlənməsinə, inkişafına təkan vermiş olur.

Beləliklə, yuxarıda qeyd edilənlərdən bir daha aydın olur ki, müasir şəraitdə sosial-iqtisadi amillərin təsirini nəzərə almadan və onlardan səmərəli istifadə etmədən normal sahibkarlığın formalaşması və inkişafı qeyri-mümkündür.

## § 3. Sahibkarlığın inkişafının dövlət tənzimlənməsinin zəruriliyi, funksiyaları və prinsipləri

İnkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrin iqtisadi inkişaf tarixinin araşdırılması göstərir ki, dövlətin tən-

zimləyici rolu olmadan, dövlətlə sahibkarlığın fəaliyyəti uzlaşdırılmadan ölkədə sabit iqtisadi artıma nail olmaq, mövcud və meydana çıxan sosial-iqtisadi problemləri səmərəli həll etmək mümkün deyildir. Bu zaman dövlətin üzərinə düşən əsas vəzifə və ya dövlətin rolu sahibkarlığın müxtəlif formalarının inkişafı üçün əlverişli hüquqi-iqtisadi mühit yaratmaqdan, sahibkarlığın və fərdi təşəbbüsün inkişafının hərtərəfli həvəsləndirilməsindən; fərdi, xüsusilə də iri sahibkarlığın rolu isə cəmiyyət qarşısında duran vəzifələrin həllində, sosial-iqtisadi problemlərin, iqtisadiyyatın əsas sahələrinin maliyyələşdirilməsində, ölkədə əlverişli investisiya mühtinin formalaşmasında dövlətə yardımçı olmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə bazar iqtisadiyyatı şəraitində dövlətin tənzimləyici rol oynamasının, iqtisadi inkişafa nail olmaq üçün dövlətlə sahibkarlığın fəaliyyətinin əlaqələndirilməsinin zəruriliyi heç də hamı tərəfindən birmənalı qarşılanmırdı. Məsələn, klassik iqtisadi nəzəriyyənin daşıyıcıları (J.B.Sey, C.S.Mill) və "neoklassik" nəzəriyyənin nümayəndələri (A.Marşal, A.S.Piqu və s.) hesab edirdilər ki, bazar iqtisadiyyatı şəraitində iqtisadiyyat öz-özünü tənzimləyir. Onlar kapitalizmə özünü tənzimləyən bir iqtisadi sistem kimi baxdıqlarından iqtisadiyyata dövlətin müdaxiləsini lazımsız hesab edirdilər. Amerikada baş verən "Böyük durğunluğa" qədər alimlər iqtisadi sistemin dəyişən şəraitdə uyğunlaşma bacarığını mümkün ola biləcək müxtəlif təlatümlərin qarşısının alına biləcəyi mümkünlüyünü qeyd edirdilər. Eyni zamanda onlar, vaxtaşırı olaraq işgüzar tsikllərin çiçəklənmə dövrlərini qıra biləcəyini də etiraf edirdilər. Ancaq onlar hesab edirdilər ki, bu epizodlar qısamüddətli xarakter daşıyır və iqtisadiyyatın bərpası avtomatik baş verir. 1929-cu ildə qiymətli kağızlar bazarının iflası, onun ardınca "Böyük durğunluğun" baş verməsi iqtisadiyyatı elə bərbad vəziyyətə salmışdı ki, onun bərpasına ümid yeri qalmamışdı. Qiymətlər, onun ardınca əmək haqqı kəskin surətdə aşağı düşmüşdü. İstehsalın real həcmi azalmışdı və bu hal aylar yox, illərlə davam edirdi. Bu vəziyyət klassik iqtisadi



nəzəriyyənin müddəalarına uyğun gəlmirdi [57. səh.62-63].

1929-1933-cü illərdə baş vermiş böhranın dərslərindən ilk olaraq nəticə çıxaran məşhur ingilis iqtisadçısı Con Meynard Keyns özünün 1936-cı ildə yazdığı "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabında iqtisadiyyatın dövlət-inhisarçı tənzimlənməsinin zəruriliyini əsaslandırmışdır. Bu əsərində C.M.Keyns kapitalist iqtisadiyyatının tənzimlənməsini nəzəri cəhətdən əsaslandırmağı vacib hesab etmişdir. C.M.Keynsin nəzəriyyəsi dövlətin milli iqtisadiyyat miqyasında təkrar istehsal prosesinə, istehlak və yığım, tələb və təklif, xalq təsərrüfatının ayrı-ayrı sahələri arasındakı nisbətə və s. aktiv təsirini nəzərdə tuturdu. C.M.Keyns hesab edirdi ki, dövlət hakimiyyətinin imkanlarından istifadə edərək kapitalizmi saxlamaq və sabitləşdirmək mümkündür.

C.M.Keyns hesab edirdi ki, dövlətin iqtisadi siyasətinin, strateji istiqamətinin əsasını investisiya fəaliyyətinə yardım, əmanətlərin kapital qoyuluşlarına çevrilməsinə köməklik etməkdən ibarət olmalıdır. C.M.Keyns və onun tərəfdarları məhz investisiya qoyuluşlarının səviyyəsinin azalmasını 30-cu illərin "Böyük durğunluğunun" əsas səbəbi hesab edirdilər. Kapitalist iqtisadiyyatının əsas zəif cəhətini – investisiya qoyuluşuna meylin aşağı olması – aradan qaldırmaq üçün dövlət sahibkarlığın investisiya fəaliyyəti üçün nəinki əlverişli şərait yaratmağa (faiz normasını aşağı salmağa və s.) borcludur, eyni zamanda investor funksiyasını öz üzərinə götürməlidir. C.M.Keyns yazırdı: "Mən hesab edirəm ki, uzun perspektiv nöqteyi-nəzərindən və ümumi sosial mənafeyə əsaslanaraq dövlət birbaşa investisiyaların təşkili üçün cavabdehliyi getdikcə daha çox öz üzərinə götürməlidir" [110. səh.229].

Ancaq qeyd etmək lazımdır ki, XX əsrin 70-ci illərində baş vermiş və bütün inkişaf etmiş kapitalist ölkələrini bürümüş olan iqtisadi böhranın təsiri altında keynsçiliyin böhranı başlanmışdı. Yaranmış şərait iqtisadiyyatın dövlət tənzimlənməsinin əhəmiyyətini azaltmış, əksinə iqtisadiyyatın bazar tənzimlənməsinin üsullarının və stimullarının rolunu artırmışdı.

C.M.Keynsin davamçıları və neokeynsçilər (P.Xaqqorq, E.E.Xansen, E.Tomar, Dj.Xiks, P.Samuelson, L.Metsler və başqaları) meydana çıxan yeni problemləri Keynsin iqtisadi nəzəriyyəsinin dinamikləşdirilməsi əsasında həll etməyə çalışmışlar ki, bu da uzunmüddətli iqtisadi inkişaf konsepsiyasını, eləcə də qısamüddətli dəyişikliklər konsepsiyasını özündə ehtiva edən tsikllərin dinamikliyi nəzəriyyəsinin yaranmasına gətirib çıxarmışdır.

Tsiklin dinamikliyi nəzəriyyəsinin tərəfdarları etiraf edirdilər ki, tsikl kapitalist iqtisadiyyatına xas olan xarici (ekzogen) deyil, daxili (endogen) hadisədir. Formal nöqteyi-nəzərdən qeyd edilənlərə əsaslanan tsiklin dinamikliyi nəzəriyyəsi, hansısa xarici təsiri tələb etməyən, dəyişkən xarakterə malik iqtisadi modelin qurulmasına imkan verirdi. Ancaq bütün cəhdlərə baxmayaraq XX əsrin 70-ci illərində dünya təsərrüfatında baş verən hadisələri Keyns nəzəriyyəsi əsasında izah etmək mümkün olmurdu.

İqtisadiyyatın tənzimlənməsinin keyns metodlarının diskreditasiyasında monetarist nəzəriyyə məktəbi nümayəndələrinin – Amerika iqtisadçısı Milton Fridman və onun tərəfdarlarının – xüsusi rolu olmuşdur. M.Fridman və digər monetaristlər keynsçilərdən fərqli olaraq iqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun minimuma endirilməsini məqsədəuyğun hesab edirdilər. Onların fikrincə azad bazarın olması iqtisadiyyatın tənzimlənməsində əsas şərtdir. Ancaq onlar nəzərə almırdılar ki, bazarın tamamilə azad olması, bu və ya digər amillərin təsirinə məruz qalmaması mümkün deyildir: tələb və təklifin nisbəti, istehsal edilən əmtəələrin həcminə təsir edən amillər, dövriyyədə, bazarlarda və bazarlara qədər qiymət ətrafında cərəyan edən hadisələrdə istifadə olunan pulun miqdarı, rəqabətin növləri və s. bazarı daxili və xarici amillərdən asılı edir.

Araşdırmalar göstərir ki, keynsçilər (həmçinin neokeynsçilər) və monetaristlər bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın tənzimlənməsinə müxtəlif aspektlərdən yanaşsalar da, onların heç biri bu prosesdə dövlətin rolunu inkar etmirdi. Məhz bunun nəticəsidir ki, dünyanın inkişaf etmiş ölkələrində – ABŞ-da,



Fransada, Almaniyada, İngiltərədə və s. – dövlət iqtisadi proseslərin tənzimlənməsində, sahibkarlıq fəaliyyəti üçün əlverişli hüquqi-iqtisadi mühitin yaradılmasında, sahibkarlara yardım (hüquqi, iqtisadi, maliyyə, məsləhət və s.) göstərilməsində əhəmiyyətli rol oynayır.

XX əsrin sonlarında bazar iqtisadiyyatı yolu seçmiş postsosialist ölkələrinin iqtisadiyyatının tənəzzülə uğraması, işsizliyin sürətlə artması, bazar iqtisadiyyatı şəraitində hansı tənzimləmə metodlarının və mexanizmlərinin daha məqbul olması ətrafında mülahizələr, fikirlər daha da intensivləşmiş, bu problemlərə dair qiymətli elmi əsərlər yazılmışdır. "Tənzimlənən bazar iqtisadiyyatı" əsərində bu problemə geniş yer ayıran Azərbaycanın Əməkdar elm xadimi, professor T.Ə.Quliyev yazır: "... bazar sistemi ayrı-ayrı ölkələrin iqtisadi həyatına və müxtəlif dövlətlərin fəaliyyətinə müxtəlif cür təsir göstərir. Hər bir ölkə və dövlət bu dairədə özünün xüsusiyyətlərinə (bazar və qeyri-bazar) malikdir, eləcə də uyğun motivlər müxtəlif ölkələrdə müxtəlifdir. Buna görə də dövlətin iqtisadiyyata təsir dairəsi bir çox hallarda təkcə keçid dövrünün şəraiti ilə deyil, həmçinin bu ölkənin xüsusiyyətləri ilə şərtləndirilir. Bu xüsusiyyət, öz növbəsində, təkcə milli mentalitetlə yox, həm də mövcud regionda bazar sisteminin potensialı ilə şərtləndirilir" [112. səh.162].

T.Ə.Quliyev haqlı olaraq qeyd edir ki, "Tənzimlənmənin bütün növləri, həm makro, həm də mikrotənzimləmə ölkədə sosial və iqtisadi sabitliyin təmin edilməsinə xidmət etməlidir. Bir sözlə, seçilmiş iqtisadi kurs sivilizasiyalı bazarın inkişafına və qarşılıqlı iqtisadi münasibətlərin, maraqların formalarının optimallaşdırılmasına istiqamətlənməlidir. Bazar, indi olduğu kimi, yalnız müəyyən qüvvələrə xidmət etməməlidir və dövlət tənzimlənməsi birtərəfli və ya qruplu yox, səmərəli, sistemli və birmənalı olmalıdır. Qanunverici aktların, proqnozların, planlaşdırmanın, nəzarətin, əlaqələndirmənin köməyi ilə tənzimləmə prosesi, həmçinin maliyyə, kredit, investisiya, pul tədavülü, əmək haqqı, qiymət kimi iqtisadi alətlər vasitəsilə tənzimləmə və nəhayət, büdcə, bank, valyuta sistemi və gömrük kimi iqtisadi fəaliyyət formaları

vasitəsilə tənzimləmə ani maraqlara yox, elmi mülahizələrə və sağlam məntiqə söykənməlidir" [112. səh.160].

Beynəlxalq təcrübə, eləcə də son zamanlar Azərbaycanda müşahidə edilən proseslər belə nəticəyə gəlməyə əsas verir ki, heç yerdə dövlətin köməyi və tənzimləyici rolu olmadan müasir sahibkarlıq formalaşa və inkişaf edə bilməz. İnkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdə artıq belə bir fikir qəti şəkildə formalaşmışdır ki, bu və ya digər formalarda, miqyasda dövlət tənzimlənməsi sosial bazar iqtisadiyyatının qanunauyğunluğudur.

Qeyd etmək lazımdır ki, sosial bazar münasibətləri sosial və təşkilati-iqtisadi münasibətlərin mürəkkəb sistemidir. Bu münasibətlərin qurulmasının əsas prinsipi sahibkarlığın azadlığı prinsipi ilə sosial bərabərlik prinsipinin uzlaşdırılmasından ibarətdir.

Məlumdur ki, sahibkarlığın azadlığı istehsalçının və istehlakçının, satıcının və alıcının, tələb və təklifin formalaşmasının azadlığını, iqtisadi yarışın, bütün sahibkarlıq strukturları üçün eyni fəaliyyət qaydalarının olmasını tələb edir. Sosial bərabərlik isə azad sahibkarlığın sosial yönümlü olmasını, xalqın bütün təbəqələrinin – sahibkarların, menecerlərin, muzdlu işçilərin, satıcıların və alıcıların; əhalinin az təminatlı təbəqəsinin – pensionerlərin, gənclərin, əlillərin, işsizlərin və s. sosial müdafiəsini nəzərdə tutur. Qeyd edilən prinsiplər sisteminin reallaşdırılması iqtisadiyyatın öz-özünü təşkilinin bazar mexanizminin, o cümlədən azad sahibkarlığın, ziddiyyətlərinin həllinin forma və metodlarının tapılmasını tələb edir.

Qeyd edilən ziddiyyətlərin əsasında aşağıdakılar durur: bazar iqtisadiyyatı özünün yaradıcılıq funksiyasını iqtisadi yarış forması kimi azad rəqabət, o cümlədən azad sahibkarlıq şəraitində biruzə verir. Eyni zamanda hər bir sahibkar bazarda və ya onun müəyyən bir seqmentində, özünün inhisarçı mövqeyinin formalaşmasına çalışır. Buna isə, bir qayda olaraq, iri sahibkarlar nail ola bilirlər. Rəqabət bir sıra kiçik sahibkarlıq strukturlarının güclənməsinə, inkişafına, digərlərinin isə müflisləşməsinə gətirib çıxarır. Sahibkarlıq strukturlarının müflisləşməsi isə işsizliyə səbəb olur və beləliklə də cəmiyyətin differensiallaşmasını gücləndirir.



Sahibkarlıq cəmiyyətin ümumi rifahının təmin edilməsinin maddi-material əsaslarını yaradır, ancaq ictimai əmtəə və xidmətlərin istehsalında maraqlı deyildir. Bazar təşkilati-təsərrüfat mexanizmi öz-özlüyündə qeyd edilən və digər ziddiyyətləri həll etməyə qabil deyildir. Bu ziddiyyətlərin həlli yalnız dövlət tənzimlənməsinin uyğun funksiyaları vasitəsilə mümkündür.

Dövlət əsl iqtisadi yarış üçün rəqabət şəraitinin yaradılmasının, bazar münasibətlərinin sosial yönümlü olmasının, o cümlədən xalq təsərrüfatının bütün sahələrində, bütün regionlarda fəaliyyət göstərən, təşkilati-hüquqi formasından asılı olmayaraq, sahibkarlıq strukturlarının bütövlükdə cəmiyyətin mənafeyi naminə sosial yönümlü olmasının qarantı kimi çıxış edir. Dövlət haqsız rəqabətin, inhisarçılığın destruktiv davranışın qarşısının alınması, iqtisadiyyatın dönməz inkişafının və xalqın rifahının təmin edilməsi üçün iqtisadi mexanizmlər sistemi yaradır. Sahibkarlığın dövlət tənzimlənməsi müasir sahibkarlığın formalaşması və sabit inkişafı üçün iqtisadi, sosial, hüquqi və siyasi təminat sistemidir.

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, sahibkarlığın formalaşması və inkişafının tənzimlənməsi istiqamətində dövlət aşağıdakı funksiyaları yerinə yetirir.

Birinci funksiya – xalq təsərrüfatının bütün sahələrində, bütün regionlarda sahibkarlıq strukturlarının formalaşmasına imkan yaratmaq, bu zaman ayrı-ayrı sahələrin, regionların spesifik xüsusiyyətlərini və ümumi cəhətlərini nəzərə almaq.

Qeyd etmək lazımdır ki, Azərbaycanda müasir sahibkarlığın formalaşmasını üç mərhələyə bölmək olar. 1988-1991-ci illəri əhatə edən birinci mərhələ sahibkarlığın təşəkkülü prosesi kimi xarakterizə oluna bilər. Bu mərhələdə əsasən kooperativlərin formalaşması, topdan satış və pərakəndə satışla məşğul olan kiçik müəssisələrin meydana gəlməsi prosesi baş vermişdir. Mərhələnin sonunda xidmət sahələrində sahibkarlıq strukturları

formalaşmağa başlamışdır. Bu mərhələdə sahibkarlıq fəaliyyəti ilə əsasən iri dövlət müəssisələrində çalışan vəzifə sahibləri, MTİ-lər, kommunist partiyasının və komsomolun funksionerləri məşğul olurdular. Bu mərhələdə mövcud olan sahibkarlıq azad sahibkarlıqdan uzaq idi və əsasən spekulyativ xarakter daşıyırdı. Birinci mərhələdə sahibkarlıq strukturlarının formalaşmasının hüquqi bazasını "Kooperasiya haqqında" və "Müəssisələr haqqında" SSRİ qanunları təşkil edirdi.

Müstəqillik əldə edildikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda iqtisadi islahatlara start verilməsi ilə əlaqədar olaraq sahibkarlığın formalaşması üçün nisbətən münbit şərait yaradıldı. 1992-1995-ci illəri əhatə edən ikinci mərhələdə xalq təsərrüfatının, demək olar ki, bütün sahələrində, xüsusən də nəqliyyat, tikinti və xidmət sahələrində kiçik və orta sahikarlığın formaşlaşmasında bir canlanma yarandı. Bu mərhələdə sahibkarlığın formalaşmasında kiçik dövlət müəssisələrinin, nəqliyyat vasitələrinin özəlləşdirilməsi mühüm rol oynadı. İkinci mərhələdə sahibkarlığın formalaşmasında, "Sahibkarlıq fəaliyyəti haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi mühüm rol oynamışdır. Ancaq qeyd edilən dövrdə Azərbaycanda mövcud olan sosial-siyasi şərait sahibkarlığın formalaşması və inkişafına imkan verməmişdi.

1996-cı ildən başlayan və indiki zamana qədər davam edən üçüncü mərhələdə Azərbaycanda sahibkarlğın formalaşması geniş vüsət almış, kiçik və orta sahibkarlıq strukturları ilə yanaşı iri sahibkarlıq strukturları da yaradılmışdır. Bu mərhələdə Azərbaycanda sahibkarlığın formlaşması və inkişafında "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə Dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın (1996-cı il); "Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsinin ikinci Dövlət Proqramı"nın (2000-cı il); "Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununun (2000-cı il); Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa kömək üzrə iki Dövlət Proqramının (1997-2000-ci və 2002-2005-ci illəri əhatə edən) və s. qəbul edilməsi xüsusi rol oynamışdır. 1994-cü ilin 20 sentyabrında Azərbaycanın Xəzər dənizində aşkar edilmiş neft yataqlarının birgə istismarı məqsədi ilə xarici ölkələrin qabaqcıl, iri neft şirkətləri ilə bağlanmış "Əsrin müqaviləsi"nin reallaşdırılması, Azərbaycanda sosial-siyasi mühitin sabitləşməsi ölkəmizə xarici investisiyaların axınını da sürətləndirmişdir ki, bu da sahibkarlığın formalaşmasına və inkişafına güclü təkan vermişdir. Ancaq təəssüf ki, qanunların tətbiqində mövcud olan bürokratik əngəlliklər, sahibkarlıq strukturlarının fəaliyyətinə haqsız və qanunsuz müdaxilələr, haqsız rəqabətin mövcudluğu Azərbaycanda azad sahibkarlığın formalaşması və inkişafı prosesini ləngidir, onun sosial yönümlü olmasına əngəlliklər yaradır. Bunun qarşısının alınması üçün dövlət səviyyəsində müvafiq tədbirlərin görülməsinə ehtiyac vardır.

Dövlət tənzimlənməsinin ikinci funksiyası sahibkarların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli rejimin yaradılmasından ibarətdir. Bu rejimi dövlət aşağıdakı vasitələrlə yarada bilər:

- sahibkarlığın iqtisadi azadlığını təmin etməklə;
- ölkənin bütün iqtisadi məkanında sahibkarlığın bütün mövcud növlərinin formalaşması və inkişafı üçün bərabər şərait yaratmaqla;
- vergi, kredit, sığorta, amortizasiya və s. sahəsində müvafiq güzəştli siyasət yeritməklə, sahibkarlığın stimullaşdırılması üçün iqtisadi mexanizm formalaşmaqla;
- sahibkarların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması üçün səmərəli təhsil sistemini yaratmaqla.

Dövlət tənzimlənməsinin üçüncü funksiyası elm və texnikanın son nailiyyətlərinin, innovasiya menecmentinin və marketinginin tətbiqi, sahibkarın yenilikçilik və risketmə qabiliyyəti əsasında əsl iqtisadi yarışa imkan verən rəqabət mühitinin formalaşmasıdır. Bu funksiya aşağıdakı yollarla reallaşdırıla bilər:

- dövlət mülkiyyətinin səmərəli özəlləşdirilməsi;

• səmərəli fəaliyyət göstərən antiinhisar siyasətinin yeridilməsi, inhisarçıların destruktiv fəaliyyətinin qarşısının alınması, inkişafını əmtəə və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, qiymətlərin aşağı salınmasına imkan verən innovasiya əsasında quran sahibkarlara müəyyən köməklik göstərilməsi;

• iqtisadiyyatda "açıq qapı" siyasətinin yeridilməsi. Ancaq bu zaman nəzərə almaq lazımdır ki, daxili bazarın xarici əmtəə və xidmətlər üçün tam açılması (nə də tam bağlanması) məqsədəuyğun deyil. Azərbaycanda o əmtəə və xidmətlərin gətirilməsinə əlverişli şərait yaratmaq lazımdır ki, onlar ya Azərbaycanda istehsal edilmir, ya da istehsalı iqtisadi cəhətdən sərfəli deyil. Eyni zamanda, Azərbaycanda istehsalı iqtisadi cəhətdən sərfəli və mümkün olan əmtəələrin ölkəyə gətirilməsində müəyyən məhdudiyyətlər qoyulmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi çoxlu qanun pozuntuları ilə müşahidə olunmuş və olunmaqdadır. İndiyədək aparılmış özəlləşdirmə siyasəti iri istehsal strukturlarının dağılmasına, texnoloji cəhətdən bir-biri ilə bağlı olan müəssisələr arasında əlaqələrin pozulmasına (xüsusilə də neft-kimya və kimya sənayesində), elm-istehsal birliklərinin dağılmasına, elmi-tədqiqat institutlarının onlardan ayrılmasına gətirib çıxarmışdır. Nəticədə iri istehsal strukturlarında innovasiya prosesi dağılmış, elm tutumlu məhsulların istehsalının səviyyəsi aşağı düşmüşdür. Buna görə də özəlləşdirmə həyata keçirilərkən yeni elm-istehsal komplekslərinin yaradılması imkanları nəzərə alınmalı və bu imkanı yarada biləcək potensial sahibkarlara üstünlük verilməlidir.

Sahibkarlığın formalaşması və inkişafının dövlət tənzimlənməsinin dördüncü funksiyası innovasiya məhsullarına tələbin formalaşdırılması və stimullaşdırılmasından ibarətdir. Məlumdur ki, sahibkarlığın yenicə formalaşmağa başladığı müasir Azərbaycanda sahibkarlıq strukturlarının mütləq əksəriyyəti elmtutumlu məhsulların istehsalında maraqlı deyillər və bunun əsas səbəblərindən biri də ölkə daxilində bu məhsullara tələbatın olmamasıdır. Bu sahədə dönüş yaratmaq üçün ilk növbədə elmtutumlu



məhsulların istehsalına dövlət sifarişi sistemi yaradılmalı, bu tip məhsullar istehsal edən və alan sahibkarlıq strukturlarına müəyyən imtiyazlar (vergi, kredit və s.) verilməlidir.

Azərbaycan kimi bazar iqtisadiyyatına yenicə qədəm qoymuş, qarışıq iqtisadiyyata malik olan ölkələrdə sahibkarlığın formalaşması və inkişafının dövlət tənzimlənməsinin beşinci funksiyası sahibkarlığın təşkilati və bazar infrastrukturunun formadırılmasından ibarətdir. Bu strukturların formalaşmasında dövlət həm bilavasitə iştirak etməli, həm də onların – informasiya-məsləhət mərkəzlərinin, sahibkarlıq kadrları hazırlayan, onların ixtisasını artıran kursların, lizinq və marketinq xidməti göstərən firmaların, innovasiya ittifaqlarının və mərkəzlərinin, innovasiya fondlarının və banklarının kredit təşkilatlarının və s. yaradılmasına kömək etməlidir.

Sahibkarlığın dövlət tənzimlənməsinin ən əsas funksiyalarından biri – altıncı funksiyası – sahibkarlığın formalaşması və inkişafının sosial yönümlü olmasının təmin edilməsidir. Bu funksiyanın yerinə yetirilməsi sahibkarlıq strukturlarının təkcə iqtisadi deyil, həm də sosial səmərə əldə edilməsinə yönəldilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyətinin sosial səmərəsi cəmiyyətin bütün üzvlərinin rifahının təmin edilməsində onun oynadığı mühüm rolla bağlıdır: sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının inkişafını, milli gəlirin artımını təmin edir və beləliklə də xalqın rifahının yüksəldilməsinin maddi təminatçısı rolunu oynayır. Fikrimizcə, sahibkarlığın sosial yönümlü olmasının təmin edilməsi aşağıdakı şərtlər daxilində mümkündür:

• sahibkarlıq strukturlarında çalışanların sosial müdafiəsinin təmin edilməsi, o cümlədən əmək haqqının minimum məbləğinin müəyyən edilməsi, səhmlərə görə dividentlərin verilməsinə nəzarətin təşkili;

• dövlət və sahibkarlığın qarşılıqlı əlaqəsi və fəaliyyətinin təmin edilməsi, çünki dövlətin bilavasitə iştirakı olmadan bir çox sosial problemlərin həlli qeyri-mümkündür;

• şəxsiyyətin, cəmiyyətin bütün üzvlərinin öz yaradıcılıq

potensialından istifadəsi, əsl iqtisadi yarış üçün müvafiq şəraitin formalaşması.

Sahibkar azad sahibkarlıq fəaliyyəti hüququna malik olmaqla yanaşı müəyyən sosial cavabdehlik də daşıyır. Ona görə də dövlət elə hüquqi, normativ-qanuni aktlar qəbul etməlidir ki, onlar sahibkarlara səmərəli iqtisadi fəaliyyət göstərməyə imkan yaratmaqla yanaşı, sosial problemlərin həllinə sahibkarlıq strukturlarını da cəlb etməyə imkan yaratsın.

İnkişaf etmiş Qərb ölkələrinin təcrübəsi göstərir ki, sahibkarlığın dövlət tənzimlənməsinin qeyd edilən funksiyaları o vaxt səmərəli nəticə verə bilər ki, onların reallaşdırılması aşağıdakı prinsiplərə söykənsin:

- ölkə iqtisadiyyatının inkişafında, cəmiyyətin həyat fəaliyyətinin təminatında sahibkarlığın iqtisadi mahiyyətinin, məzmununun və rolunun elmi cəhətdən başa düşülməsinə;
- müasir sahibkarlığın rasional proteksionizminə;
- iqtisadi və sosial məqsədlərin üzvi uyğunlaşmasının təmin edilməsinə;
- məqsədli-proqram tənzimlənməsinin həyata keçirilməsinə;
- dövlət köməyinin zəmanətinə;
- dövlət yardımının motivləşdirilmiş istiqamətlərinin müəyyən edilməsinə və reallaşdırılmasına;
- sahibkarlıq fəaliyyəti formalarının müxtəlifliyinə;
- dövlət, regional xidmətlər arasında əmək bölgüsü və kooperasiyanın mövcudluğuna [57. səh. 166-167; 131. səh. 158].

Sahibkarlığın mahiyyətinin və sosial-iqtisadi inkişafda onun rolunun cəmiyyət tərəfindən düzgün başa düşülməsi, müasir sahibkarlığın rasional proteksionizmi prinsiplərinə əvvəlki paraqraflarda qismən toxunulmuşdur. Doğrudan da bu prinsiplər lazımınca nəzərə alınmadan sahibkarlığın dövlət tənzimlənməsi səmərəli nəticələr verə bilməz.

Sahibkarlığın dövlət tənzimlənməsi həyata keçirilərkən iqtisadi və sosial məqsədlərin üzvi uyğunlaşmasının təmin edilməsi prinsipinə riayət edilməsinin zəruriliyinin xüsusi şərhə ehtiyacı



yoxdur. Birinci, dövlət ölkənin iqtisadi inkişafında və xalqın rifah halının yüksəldilməsində mühüm rol oynayan sahibkarlığın formalaşması və inkişafı üçün tələb olunan iqtisadi, sosial, siyasi, təşkilati və hüquqi şəraiti təmin etməlidir. İkinci, sahibkarlığın dövlət tənzimlənməsinin əsasında elə onun sosial yönümlülüyünün təmin edilməsi məqsədi dayanır.

Sahibkarlığın məqsədli-proqram tənzimlənməsi prinsipinin reallaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Birinci, dövlətin məqsədli proqramlarında sahibkarlığın formalaşmasına və inkişafına meylliliyi gücləndirmək, proqramların tərtibində və reallaşdırılmasında sahibkarlığın komponentlərini nəzərə almaq lazımdır. İkinci, innovasiya siyasəti hazırlanarkən o fakt nəzərə alınmalıdır ki, o, sahibkarlığın formalaşmasına və inkişafına kömək üzrə regional proqramlar vasitəsilə reallaşdırıla bilər. Sahibkarlığın tənzimlənməsi və inkişafına kömək üzrə proqramlar onun qarşısında qoyulan tələblərə cavab verməlidir. Hər bir proqramda onun məqsədi dəqiq müəyyənləşdirilməli, bu məqsədə çatmağın mexanizmi, yolları, mənbələri, resursları əsaslandırılmalı, konkret icraçılar göstərilməli, proqramın yerinə yetirilməsinin mərhələləri, ardıcıllığın müəyyən edilməsi, bu prosesə səmərəli nəzarət təşkil edilməlidir. Əks tədqirdə belə proqramların tərtibinin heç bir faydası olmayacaqdır.

Proqramların hazırlanmasına və reallaşdırılmasına qeyd edilən yanaşma sahibkarlığa dövlət köməyinin zəmanəti prinsipi ilə sıx əlaqədardır. Bu prinsipin reallaşdırılması hüquqi təminatı, maliyyə köməyini, texniki-texnoloji və informasiya təminatını, iqtisadi müdafiəni, dövlətin müqavilə, kontrakt və sifariş sistemini və s. özündə əks etdirən dövlət tənzimlənməsinin bütün sistemi ilə təmin edilir. Qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycanda dövlət sahibkarlığın formalaşması və inkişafına müəyyən kömək göstərsə də bu köməyə zəmanət yoxdur.

Sahibkarlığın formalaşmasına və inkişafına çevik, differensial yanaşmadan səmərəli dövlət tənzimlənməsini həyata keçirmək qeyri-mümkündür. Differensial yanaşmanın sahibkarlıq strukturlarının mülkiyyət formasından, onların təsərrüfatçılıq

fəaliyyətinin səmərəliliyindən, sahibkarlıq fəaliyyətinin növündən və sahəsindən, ölkədə bazar münasibətlərinin inkişafı səviyyəsindən asılı olaraq tətbiq edilməsi məqsədəuyğundur.

Dövlət sahibkarlığının tənzimlənməsi üçün tətbiq edilən forma və metodlar, xüsusi sahibkarlıq üçün tətbiq edilənlərdən fərqlənməlidir. Həm də nəzərə almaq lazımdır ki, sahibkarlığın yenicə formalaşmağa və inkişaf etməyə başladığı ölkələrdə xüsusi sahibkarlığın dövlət tənzimlənməsinə daha böyük ehtiyac vardır. Xüsusi (fərdi) sahibkarlığın inkişaf səviyyəsi yüksəldikcə onun dövlət tənzimlənməsinin dərəcəsi azalır, keyfiyyəti isə yüksəlir, dövlət və sahibkarlıq strukturları qarşılıqlı əməkdaşlıq edən tərəfdaşlara çevrilirlər.

Sahibkarlığın formalaşması və inkişafına dövlət tənzimlənməsinin motivləşdirilmiş istiqamətlərinin müəyyən edilməsinin xüsusi əhəmiyyəti vardır. Bu prinsipə görə dövlət tənzimlənməsinin mexanizmi aşağıdakıları təmin etməlidir:

- bütün sahibkarlıq strukturlarının risqli, innovasiya fəaliyyətinin motivləşdirilməsini;
- sahibkarlıq strukturlarının ilk növdədə istehsal sahələrində formalaşmasını;
- ölkənin regionlarında səmərəli sahibkarlıq fəaliyyətinin formalaşmasını;
- ölkənin xalq təsərrüfatının qabaqcıl sahələrində sahibkarlıq fəaliyyətinin üstün sürətlə inkişafını;
- sahibkarlığın bütün növlərində, formalarında və strukturlarında investisiya fəaliyyətinin innovasiya istiqamətini.

Azərbaycanda sahibkarlığın inkişafının indiki mərhələsində onun inkişafına yönəlmiş investisiyaların motivləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna nail olmaq üçün dövlətin vergi, kreditləşmə, amortizasiya siyasəti, sığorta, özəlləşmə və s. tənzimləmə sistemini işə salmaq məqsədəuyğun olardı.

Sahibkarlığın dövlət tənzimlənməsi həyata keçirilərkən müvafiq funksiyaların dövlət və yerli hakimiyyət orqanları arasında səmərəli bölgüsünə çalışmaq lazımdır. Bu bölgü, sahibkarlığın forma və strukturlarının hansı səviyyədə cəmiyyətin və istehlak-



çıların mənafeyinə və nə səviyyədə xidmət etmələrinə əsaslanmalıdır. Əgər sahibkarlıq strukturlarının fəaliyyəti ölkənin bütövlükdə mənafeyinə uyğundursa, yüksək texnika, texnologiyanın tətbiqinə əsaslanırsa onun tənzimlənməsi mərkəzi dövlət tərəfindən, bu strukturların fəaliyyəti bu və ya digər əmtəələrə, işə, xidmətlərə yerli tələbatı ödəməyə yönəlibsə – yerli hakimiyyət orqanları tərəfindən həyata keçirilməlidir.

Araşdırmalar göstərir ki, dünyanın müxtəlif ölkələrində sahibkarlığın dövlət tənzimlənməsi həyata keçirilərkən müxtəlif forma və metodlardan istifadə edirlər və bu zaman kiçik və orta sahibkarlığa yardım göstərilməsinə daha çox diqqət yetirirlər.

ABŞ-da ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayan kiçik sahibkarlığa dövlət köməyinin göstərilməsinə xüsusi fikir verilir. Kiçik sahibkarlığın inkişafı və ona kömək göstərilməsi ilə xüsusi olaraq yaradılmış icra hakimiyyəti orqanı – Kiçik Biznes İdarəsi (KBİ) məşğul olur. İcra hakimiyyəti orqanlarının, xüsusilə də KBİ-nin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə 1944-cü ilin sentyabrından KBİ-nin yenidən qurulması planı tətbiq edilməyə başlanmışdır. Planın əsas istiqaməti sahibkarların – kiçik biznesin mülkiyyətçilərinin – vəsaitlərinin və səylərinin daha məqsədəuyğun təmin edilməsindən ibarətdir.

KBİ-nin strukturu üç pilləlidir. Struktura mərkəzi apparat və 68 yerli şöbələr daxildir. Müasir şəraitdə KBİ-nin strukturlarında aparılan dəyişikliklər aşağıdakı vəzifələrin həll edilməsi məqsədini daşıyır:

- Kiçik Biznes İdarəsinin proqram və xidmətlərinin kiçik sahibkarlar üçün əlverişli formada reallaşdırılması, idarəetmə və texniki yardım proqramlarının maliyyə proqramları ilə uzlaşdırılması, milli azlıqların kiçik biznesinə yardım məqsədi ilə onlara dövlət sifarişinin KBİ-nin proqramları ilə uyğunlaşdırılması;
- mümkün qədər ayrı-ayrı sosial qrupların (qadın biznesi, veteranlar, kiçik həcmli ixtiraçılar) tələbatlarının nəzərə alınması;
- istehlakçıların KBİ-nin proqram və xidmətləri ilə təmin edilməsinə yönəlmə, öz imkanları ilə kiçik sahibkarların daha

çox təlimatlandırılması;

- həm KBİ-nin öz çərçivəsində, həm də kənar müəssisələrin proqramlarla təminatı üçün kommunikasiyaların rolunun artırılması.

KBİ-nin öz fəaliyyətinə yeni yanaşması həmçinin müştərilərə xidmət müddətinin azaldılması,maliyyə yardımının verilməsi qaydalarının səmərəliliyinin artmasını nəzərdə tutur. Bu özünü aşağıdakı şəkildə biruzə verir:

- zəmanətli kredit proqramları həyata keçirilir: hər bir müştəri öz sifarişi üzrə iki həftə müddətində KBİ-dən maliyyə yardımı alınmasına ümid edə bilər. Əgər müştərinin sifarişi Proqramın tələblərinə uyğundursa, bu zaman o, 24 saat və ya üç iş günü müddətində müsbət cavab ala bilər;
- kreditlərin alınması üzrə sifarişlərin daha az saylı sənədlərlə müşayət edilməsi üçün Proqram həyata keçirilir: 100000 ABŞ dollarına qədər məbləğdə maliyyə yardımı almaq istəyən müştəri sifariş etdiyi andan üç həftə müddətində KBİ-dən müsbət cavab almağa ümid edə bilər;
- "yaşıl işıq" proqramı həyata keçirilir: qısamüddətli, istehsalın dövrü xarakterli tələbatının ödənilməsi üçün maliyyə yardımı istəyən müştəri, sifarişinin, verildiyi vaxtdan, iki həftə müddətində yerinə yetiriləcəyinə ümid edə bilər.

KBİ-nin strukturlarında yeniləri: iqtisadi inkişaf; dövlət sifarişi və milli azlıqların sahibkarlığının inkişafı; idarə və müdriyyət yaradılmışdır. Əvvəlki maliyyə, investisiya və satınalma idarəsi əvəzinə iki yenisi: a) iqtisadi inkişaf idarəsi; b) dövlət sifarişləri və milli azlıqların sahibkarlığının inkişafı idarəsi yaradılmışdır.

Mərkəzi aparatda inzibatçıya və onun müavininə tabe olan yeni – regional orqanların fəaliyyəti şöbəsi yaradılmışdır. Bu şöbənin əsas vəzifəsi regional və yerli orqanlarla səmərəli əlaqələrin təmin edilməsindən, spesifik yerli problemlərin öyrənilməsi və nəzərə alınmasından ibarətdir.

KBİ-nin regional və yerli orqanlarının strukturu və funksiyaları bütövlükdə dəyişdirilməmişdir, ancaq onların iriləşdirilməsi üçün bəzi addımlar atılmışdır. Məsələn, dövlət sifarişinin əlaqələndirilməsi funksiyası mərkəzi aparatda qalmaqla, zəmanətlərin verilməsi və milli azlıqların sahibkarlığının inkişafı, həmçinin dövlət sifarişlərinin alınmasına yardım funksiyaları regional şöbələrdən yerli şöbələrə verilir.



Almaniya Federativ Respublikasında kiçik biznesə köməyin əsasında kiçik və orta müəssisələrin öz iqtisadi potensiallarının gerçəkləşdirilməsində onlara yardım etmək prinsipi durur. Dövlət yardımının alınması üçün əsas şərt ondan ibarətdir ki, kiçik və orta müəssisələr iri şirkətlərin qız firmaları ola bilməzlər və iri şirkətlərin kiçik və orta müəssisələrinin kapitalında iştirak payı 25%-dən çox ola bilməz.

Kiçik və orta müəssisələrin yaradılması və inkişafı üçün dövlət müxtəlif vəsaitlərdən istifadə edir: lazımi təlimatları pulsuz verir; pulsuz məsləhət xidməti göstərir; aşağı faizlə və güzəştli şərtlərlə kreditlər verir; vergi güzəştləri tətbiq edir; innovasiya, elmi-tədqiqat və layihə işlərinə köməklik edir; ixrac əməliyyatlarına, xaricdə sərgilərin təşkilinə və orada iştiraka yardımçı olur; kiçik və orta müəssisələrin iri müəssisələr tərəfindən "udulmasının" qarşısını alır; xüsusi kapitallarının artırılmasına kömək edir və s.

AFR-da 180-dən artıq vergi güzəştləri tətbiq edilir. Onlar arasında kommersiya fəaliyyətindən əldə edilən gəlirlər üzrə vergilərin azaldılmasını, əmlak və vərəsəliyə görə vergi güzəştlərini, gəlir vergisinin mütəmadi azaldılmasını və s. göstərmək olar. AFR-da vergiyə cəlb olunan gəlirlərin səviyyəsi mütəmadi olaraq artılırlır, vergi tutulmayan ödəmələrin səviyyəsi yüksəldilir.

Xüsusilə diqqəti çəkən odur ki, dövlət iri şirkətlərlə bərabər səviyyədə rəqabət aparmaq üçün kiçik və orta müəssisələrə bərabər şərait yaratmağa çalışır. Kredit və yardım mexanizmlərindən geniş istifadə edilir. Federal və yerli orqanlar sahibkarlara güzəştli investisiya kreditləri, öz müəssisələrini yaratmaq üçün kreditlər, regional kreditlər verir. Dövlətin köməyi ilə sahibkarlıq strukturlarının xüsusi kapitallarının artırılması üçün xüsusi

proqramlar həyata keçirilir.

AFR-da kiçik və orta firmalara texniki yardımın, elmi işlərə dotasiyaların verilməsinin, elmi-tədqiqat heyətinin hazırlanmasının şərtləri, forma və mexanizmi qanunvericiliklə təsbit edilmişdir; kiçik və orta müəssisələrin elmlə sıx əlaqə yaratmaları üçün sistemli işlər həyata keçirilir.

Sahibkarlığa dövlət köməyinin Avstriya təcrübəsi kiçik və orta biznesin ölkənin xalq təsərrüfatının sabit inkişafının təminatçısı kimi çıxış etməsi prinsipinə əsaslanır. İqtisadiyyatda dövlətin yüksək rol oynaması ilə seçilən bu ölkədə müharibədən sonrakı on il ərzində dövlətin sərt siyasəti nəticəsində idarəetmədəki qarışıqlığı, maliyyə və əmtəə sistemlərindəki pozğunluğu, istər dövlət, istərsə də bazar iqtisadiyyatı strukturlarındakı özbaşınalıqları aradan qaldırmaq mümkün olmuşdur. Yalnız 50-ci illərin ikinci yarısından etibarən Avstriyada sahibkarlığın həvəsləndirilməsi üzrə reqlamentləşdirilmiş dövlət siyasətindən, bütün səviyyələrdə (iri, orta və kiçik biznes) sahibkarlıq fəaliyyətinin aktivləşməsinə kömək siyasətinə keçid başlanmışdır. Qəbul edilmiş qanunlara əməl edilməsinə nəzarət etmək yolu ilə dövlət haqsız rəqabətə qarşı mübarizəni, bazarda azad rəqabətin bərqərar olmasının təmin edilməsini öz üzərinə götürmüşdür. Kiçik biznesin qorunmasına xüsusi diqqət verilir: bir tərəfdən kiçik və iri biznes, digər tərəfdən dövlət və kiçik biznes arasındakı qarşılıqlı əlaqəni tənzimləyən xüsusi əsasnamələr tətbiq edilir. Qeyd edilən qanunlar və normativ aktlar məcburi xarakterli kommersiya kontraktlarının bağlanmasının qarşısının alınması məqsədini güdür. Avstriya hökuməti öncə sahibkarlıq üçün əlverişli start vəziyyətinin yaradılmasına – güzəştli şərtlərlə kreditlərin və dotasiyaların, konyunktura və tələbat haqqında informasiyaların verilməsinə – xüsusi fikir verirdi. Dövlət tərəfindən rəqabətin stimullaşdırılması əsasən dörd istiqamətdə həyata keçirilir:

- bazarda üstün mövqe tutan və ya buna malik olan müəssisələrin fəaliyyətinə nəzarət imkanı verən antiinhisar qanunvericiliyin tətbiqi;



- işgüzar aktivliyin çərçivəsini (qaydalarını) müəyyən edən normaların tətbiqi, məsələn satılan mallara və xidmətlərə qiymət qoyulması;
- sərbəst sahibkarların bazara çıxışını tənzimləyən qaydaların müəyyən edilməsi (məsələn, bir sıra peşələr üzrə ixtisasın minimum səviyyəsinin müəyyən edilməsi);
- xarici iqtisadi əlaqələrin mütəmadi liberallaşdırılması.

Uyğun təlimatlar, informasiyalar sahibkarlara daha əlverişli fəaliyyət növü seçməkdə və beləliklə, mümkün riskləri azaltmaqda yardımçı olur. Qeyd etmək lazımdır ki, son onilliklərdə Avstriyada ikiqat ixtisas təhsili adlanan təhsil sistemi tətbiq edilir ki, bu da həm texniki müəssisələrin, həm də biznesin karyerası ilə məşğul olmaq istəyənlərin biznesin əsasları ilə tanış olmalarına imkan verir. Bu ölkədə təhsil müəssisələrini bitirənlərin 80%-i kiçik sənaye müəssisələrinə, ticarət, xidmət sahələrinə işə girir.

Dövlət və ya fərdi bölmədə çalışmasından asılı olmayaraq yeni sahibkarlar təsərrüfat hüququ, marketinqin əsasları, mühasibat uçotu, vergi planlaşdırması və s. sahələrdə mükəmməl biliklərə malik olmalıdırlar. Kiçik biznesin təşkilində əsas rol oynayan Federal iqtisadi palata arzu edənlər üçün sahibkarlıq fəaliyyətinin əsasları kursları təşkil edir, dərs vəsaitləri, materialları hazırlayıb yayır.

Koreya Respublikasında (Cənubi Koreyada) iqtisadiyyatın sərt dövlət tənzimlənməsi sistemi ilə yüksək işgüzar aktivlik sıx qarşılıqlı bağlıdır. Dövlət tərəfindən lazım olan iqtisadi qanunlar: mülkiyyətin özəlləşdirilməsi və pul tədavülü, ixrac subsidiyaları və investisiyaların lisenziyalaşdırılması, idxalın və valyuta kursunun liberallaşması, kiçik biznes haqqında 12 qanun qəbul edilmişdir. İslahatların hüquqi platforması yaradılmış, eyni zamanda hökümətin və fərdi kapitalın rolları bölüşdürülmüşdür. İslahatı hökümət həyata keçirmiş, onun hədəfi isə fərdi bölmə olmuşdur. Əsas diqqət fərdi biznesə yönəldilmişdir. Cənubi Koreyada, Amerikada və Yaponiyada olduğu kimi iri şirkətlər yaradılmasına baxmayaraq (dünyada mövcud olan 20 iri şirkətin 5-i Cənubi Koreyadadır) onu məhz kiçik biznes irəli çıxarmışdır.

Kiçik biznes Koreya iqtisadiyyatının əsasını təşkil edir. Koreyanın hər yerində belə bir şüara rast gəlmək olar: "Kiçik biznes – iqtisadi artımın hərəkətverici qüvvəsidir".

Dövlət kiçik biznesə yardım edir – ölkədə çoxu hökümətə məxsus olan 15 təşkilat vardır. Ticarət və sənaye nazirliyində kiçik müəssisələrin yaradılmasına təşəbbüsü stimullaşdıran, ona yardım edən, banklara zəmanət verən, əvəzsiz subsidiyalar ödəyən, müxtəlif inzibati yardım göstərən (qeydiyyat, mütəxəssislərin hazırlanması üzrə) kiçik biznes Bürosu yaradılmışdır.

Maliyyələşdirmə sahəsində dörd ümummilli təşkilat – Koreyanın sənaye bankı, Vətəndaş milli bankı, Koreya zəmanətli kredit fondu (o, kiçik biznesin bütün kreditlərinə zəmanət verir, dövlət onun vasitəsilə hərəkət edir) və Koreya texnoloji kredit fondu – yalnız kiçik biznesə xidmət edir. Bunlardan başqa kiçik biznesin ixracını stimullaşdıran iri xarici ticarət təşkilatları vardır. Onlar vergilərin, gömrük rüsumlarının azaldılmasına, güzəştli kreditlərin verilməsinə çalışırlar. Onlar həmçinin xarici ölkələrdə əldə edilən gəlirin Cənubi Koreyaya gətirilməsini asanlaşdırır, bazarların tədqiqatını həyata keçirir, sahibkarları informasiya ilə təmin edir, tərəfdaşlar tapılmasına kömək edir, beynəlxalq bazarlara çıxmaqda yardımçı olurlar.

Hal-hazırda kiçik biznes üçün texnologiyanı xüsusi institutlar, həmçinin kiçik biznes sənaye şirkəti hazırlayır. Nəhayət, kiçik biznesin maraqlarının və hüdudlarının keşiyində duran bir sıra təşkilatlar – Ümummilli Federasiya, Sənaye-ticarət palatası və Layihə mərkəzi fəaliyyət göstərir. Onlar hər şeydən öncə patent və lisenziyaları müdafiə edir, yeni texnologiyanın işlənməsində kiçik biznesə kömək edir.

İtaliyada dövlətin sahibkarlığa köməyi bilavasitə, dövlət orqanları tərəfindən həyata keçirilir. İtaliya konstitusiyasına uyğun olaraq vilayət şuraları təbii resurslardan istifadə sahəsində və nəqliyyatın inkişafına yönəlmiş qanunlar qəbul etmək səlahiyyətinə malikdirlər.

İtaliyada ictimai işlərin yerinə yetirilməsi, vilayət orqanlarının və inzibati idarələrin, peşə və ixtisas təhsilinin yaradılması, turizm və mehmanxana işlərinin, ictimai xeyriyyəçiliyin, sanitar-tibbi xidmətlərin yerinə yetirilməsi, kiçik müəssisələrin inkişafı və onlara kömək vilayət qanunları ilə tənzim edilir, başqa sözlə, sahibkarlığın tənzimlənməsi həm federal, həm də yerli orqanlar tərəfindən həyata keçirilir.

Digər ölkələrdən fərqli olaraq Yaponiyada inkişafın bütün mərhələlərində dövlət köməyi zəif təsərrüfatlara deyil, əksinə, yaxşı iqtisadi göstəricilərə, aydın inkişaf perspektivlərinə malik olan, ancaq bazarı digər rəqiblərini qabaqlayaraq əmtəələrlə doldurmağa imkan verə biləcək məbləğdə kapitala malik olmayan iri müəssisələrə edilirdi. Yaponiyada sahibkarların təsərrüfat fəaliyyətinin maliyyələşdirilməsini şəhər kommersiya bankları və uzunmüddətli kredit bankları həyata keçirir ki, onların da funksiyası, fəaliyyəti bütün ölkəni əhatə edən, eləcə də xarici bazara işləyən iri kompaniyalara xidmət göstərməkdir. Yerli əhəmiyyətli sahibkarlıq strukturları və yerli hakimiyyət orqanları isə kreditləri yerli kommersiya banklarından alırlar [111].

Yaponiyada kiçik sahibkarlığın maliyyələşdirilməsində müxtəlif mənbələrdən maliyyə resursları cəlb edən, ancaq öz üzvlərini maliyyələşdirən kredit cəmiyyətləri, kredit şirkətləri mühüm rol oynayır. Onlara ticarət-sənaye kooperativlərinin maliyyələşdirilməsi şirkətində birləşən kredit kooperativləri də qoşulurlar. Yaponiyada, bütün ölkə ərazisində 15,1 min şöbələri olan 942 bu tipli təşkilatlar vardır [114].

Rusiya Federasiyasında dövlət tənzimləmə sistemi əsas etibarı ilə kiçik sahibkarlığa kömək istiqamətində formalaşmışdır. Bu məqsədlə bir sıra qanunvericilik aktları qəbul edilmişdir ki, onların sırasında "Rusiya Federasiyasında kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Kiçik sahibkarlıq subyektləri üçün vergiqoymanın, uçot və hesabatın sadələşdirilmiş sistemləri haqqında" qanunları, "Kiçik sahibkarlığın inkişafı və ona yardım üzrə Rusiya Federasiyasının Dövlət Komitəsi haqqında" Rusiya Federasiyası prezidentinin fərmanını, RF hökumətinin "Sahibkarlığa yardım və rəqabətin inkişafı fondu haqqında", "Sahibkarlığa kömək federal fondu haqqında" qərarlarını və s.

göstərmək olar. Bunlardan əlavə 1994-1995 və 1996-1997-ci illləri əhatə edən kiçik sahibkarlığa kömək üzrə iki dövlət proqramı qəbul edilmişdir. RF-nın regionlarında da sahibkarlığın tənzimlənməsinə yönəldilmiş bir sıra qanunvericilik aktları qəbul edilmişdir [131. səh.159].

Müstəqillik əldə edildikdən sonra iqtisadiyyatda bazar münasibətləri yolu seçən Azərbaycanda son illər istər sahibkarlığın inkişafı, istərsə də ona dövlət yardımının həyata keçirilməsi üzrə bir sıra vacib qanunlar, normativ sənədlər, proqramlar qəbul edilmişdir. Bunların sırasında "Sahibkarlıq fəaliyyəti haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının qanunlarını, "Azərbaycan Respublikasında kiçik və orta Sahibkarlığın İnkişafının Dövlət Proqramını (1997-2000-ci illər)" göstərmək olar. Kiçik və orta sahibkarlığın fəaliyyətini inkişaf etdirmək məqsədi ilə bir sıra dövlət və qeyri-dövlət təşkilatları, qurumları yaradılmışdır. Onlara hökümət səviyyəsində yaradılmış xüsusi orqanı – Sahibkarlığa Kömək Milli Fondunu, Kiçik və Orta sahibkarlığın İnkişaf Agentliyini, respublikamızın şəhər və rayonlarında yaradılmış Sahibkarlığın İnkişaf Mərkəzlərini və s. aid etmək olar.

Bununla yanaşı qeyd etmək lazımdır ki, hələ də ölkəmizdə sahibkarlığın inkişafı üçün mövcud imkanlardan tam istifadə edilmir, bu sahədə qəbul edilmiş proqramlar yerinə yetirilmir, sahibkarlığın inkişafının hüquqi bazası təkmil deyildir, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı mövcud imkanlardan qat-qat azdır, sahibkarlığın regional inkişafının hazırki səviyyəsi ölkənin mövcud potensialına uyğun gəlmir. Özəl sektorun ölkə iqtisadiyyatında xüsusi çəkisi yüksəlsə də, bu bölmədə hələlik strateji cəhətdən mühüm olan, struktur formalaşdırıcı potensiala malik müəssisələr zəif inkişaf edir.

Sahibkarlığın inkişafına mane olan amilləri aradan qaldırmaq, ona dövlət köməyini artırmaq məqsədi ilə son zamanlar dövlət səviyyəsində bir sıra qərarlar, proqramlar qəbul edilmişdir. Onların arasında Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı (2002-2005-ci illər)" xüsusi qeyd edilməlidir. Proqramın əsas vəzifələri müasir informasiya texnologiyasının geniş tətbiqi əsasında kiçik və orta sahibkarların informasiya təminatının yaxşılaşdırılmasına, kiçik və orta sahibkarlara beynəlxalq işgüzar əlaqələrin yaradılmasında və genişləndirilməsində kömək göstərilməsinə, kiçik və orta sahibkarların rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalı üçün texniki, maddi və maliyyə köməyi mexanizmlərinin hazırlanmasına, kiçik və orta sahibkarların istehsal yönümlü fəaliyyətinə maliyyə-kredit və investisiya köməyi mexanizmlərinin genişləndirilməsinə, sahibkarlığın regional inkişafının təmin edilməsinə, kiçik və orta sahibkarlıq bölməsində texnoloji inkişafın dəstəklənməsinə, sahibkarların huquqlarının müdafiəsinin inkişaf edilməsinə və s. yönəldilmişdi. Bu proqramın qismən yerinə yetirilməsi qeyd edilən istiqamətlərdə müəyyən irəliləyişlərə imkan vermişdir.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2002-ci il tarixli 779 saylı fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydaları" və SKMF-nun əsasnaməsi təsdiq edilmişdir. Respublika Prezidentinin 02 sentyabr 2002- ci il tarixli 782 saylı fərmanı ilə Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı təsdiq edilmiş və onların sayı bir neçə dəfə azaldılaraq 30-a endirilmişdir. Respublika Prezidentinin 10 sentyabr 2002-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər müəyyən edilmişdir. Respublikamızda sahibkarlıgın inkişafına mane olan amilləri aradan qaldırmaq məqsədi ilə Respublika Prezidenti 28 sentyabr 2002-ci ildə müvafiq fərman imzalamışdır.

Sahibkarlığın inkişafına dair əvvəllər və son zamanlar qəbul edilmiş qanunların, proqram və formaların həyata keçirilməsi, sözsüz ki, ölkəmizdə özəl sektorun inkişafında əhəmiyyətli rol oynaya bilər. Ancaq sahibkarlığın inkişafı, xüsusilə də ona dövlət köməyi sahəsində dünyada mövcud olan təcrübə ilə müqayisə etdikdə aydın göstərmək olar ki, bu sahədə ölkəmizdə

həyata keçirilən və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər kifayət deyildir. Əlbəttə, sahibkarlığın inkişafında dövlət köməyinin səviyyəsi xeyli dərəcədə ölkənin potensialından, mövcud sosial-iqtisadi durumdan asılıdır. Buna görə də bu sahədə qabaqcıl dünya ölkələrinin əldə etdikləri təcrübəni eynilə tətbiq etmək mümkün deyildir. Bununla yanaşı, hesab edirik ki, ölkəmizdə sahibkarlığın inkişafının tənzimlənməsi və ona dövlət köməyinin artırılması üçün hələ ifadə edilməmiş xeyli imkanlar vardır və bu imkanların reallaşdırılması üçün real addımlar atılmalıdır.

## § 4. Azərbaycanda sahibkarlığın mövcud vəziyyəti və inkişaf meylləri

Neftqazçıxarma sənayesi Azərbaycanın ən qədim və inkişaf etmiş sənaye sahəsidir. Mübaliğəsiz demək olar ki, müasir dövrdə və yaxın gələcəkdə bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafı xeyli dərəcədə neftqazçıxarma sənayesindən asılıdır. Neftqazçıxarma sənayesi bütövlükdə Azərbaycan iqtisadiyyatı ilə sıx bağlı olduğundan və əlahiddə fəaliyyət göstərmədiyindən, fikrimizcə, bu sənaye sahəsində sahibkarlığın inkişafının mövcud vəziyyəti bütövlükdə Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyəti ilə birlikdə,kompleks şəkildə təhlil edilməli və qiymətləndirilməli, yəni ümumidən xüsusiyə keçilməlidir.

Müstəqil Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu seçəndən sonra xüsusi mülkiyyətin hüquqi cəhətdən tanınması, ölkəmizdə sahibkarlığın formalaşmasına zəmin yaratmış və onun inkişafına təkan vermişdir. Son illər aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanda sahibkarlığın inkişafı sahəsində nəzərə çarpacaq nailiyyətlər əldə edilmiş və sahibkarlıq fəaliyyəti ölkə iqtisadiyyatının formalaşmasında mühüm, aparıcı amilə çevrilmişdir. Qısa müddət ərzində Azərbaycanda toplanmış təcrübə bir daha sübut etmişdir ki, zəngin məzmuna, müxtəlif növlərə və formalara malik olan sahibkarlıq fəaliyyəti iqtisadi və sosial tərəqqinin əsas şərtidir. Sahibkarlıq fəaliyyəti ölkədə məhsul



bolluğu yaratmaqla yanaşı, daxili istehlak bazarının formalaşmasına, sağlam rəqabət mühitinin yaranmasına da səbəb olur, eyni zamanda, işsizlik kimi kəskin sosial-iqtisadi problemin həllini sürətləndirir və dövlət büdcəsinin formalaşmasında əhəmiyyətli rol oynayır.

Qeyd etmək lazımdır ki, son illər ölkəmizdə bütün mülkiyyət növləri üzrə müəssisələrin mütləq sayının artması müşahidə olunur: 2007-ci il yanvar ayının 1-nə olan məlumata görə Azərbaycanda 74534 müəssisə qeydə alınmışdır ki, bu da 1997-ci ilin müvafiq dövrünə nisbətən 68% çox olmuşdur. Nəzərdən keçirilən dövrdə qeyri-dövlət bölməsinə daxil olan müəssisələrin sayında daha çox artım baş vermişdir. Belə ki, bu dövrdə xüsusi müəssisələrin sayı 88,8%, xarici müəssisələrin sayı 5,0 dəfə, qarışıq mülkiyyətli müəssisələrin sayı 2,3 dəfə artmışdır [Əlavə 2].

Son illər Azərbaycanda fəaliyyət göstərən müəssisələrin ümumi sayında dövlət və bələdiyyə müəssisələrinin xüsusi çəkisinin ilbail azalması, qeyri-dövlət bölməsinə daxil olanların isə – artması müşahidə olunur: 1997-ci il yanvar ayının 1-nə olan məlumata görə ölkəmizdə fəaliyyət göstərən müəssisələrin ümumi sayında dövlət və bələdiyyə müəssisələrinin xüsusi çəkisi 30,6% təşkil etdiyi halda 2007-ci ilin müvafiq dövründə bu göstərici 19,4%-ə enmişdir. Həmin dövrdə xüsusi müəssisələrin xüsusi çəkisi 66,9%-dən 75%-ə, xarici müəssisələrin xüsusi çəkisi 1,4%-dən 4,0%-ə, qarışıq mülkiyyətli müəssisələrin xüsusi çəkisi isə 1,1%-dən 1,6%-ə çatmışdır [Əlavə 2].

Dövlət müəssisələrinin sayının azalması daha çox kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq, tikinti, ticarət, xidmət sahələrində müşahidə olunur ki, bu da həmin sahələrdə fəaliyyət göstərən kiçik müəssisələrin özəlləşdirilməsi ilə əlaqədardır. Bununla yanaşı, bəzi fəaliyyət sahələrində dövlət müəssisələrinin sayının artması baş vermişdir. Belə ki, 2007-ci il yanvar ayının 1-nə respublikamızda dövlət bölməsinə daxil olan nəqliyyat, anbar təsərrüfatı və rabitə müəssisələrinin sayı 1997-ci ilin müvafiq dövrünə nisbətən 2,7 dəfə, dövlət idarəetməsi və müdafiə, məcburi sosial sığorta müəssisələrinin sayı isə 2,2 dəfə artmışdır

[Əlavə 2].

Qeyri-dövlət bölməsinə daxil olan müəssisələrin say artımı müxtəlif sahələr üzrə diferensial qaydada baş vermişdir. Belə ki, tədqiq edilən dövrdə xüsusi müəssisələrin say artımı daha çox nəqliyyat, anbar təsərrüfatı və rabitədə (5,4 dəfə); təhsil sahəsində (3,3 dəfə); tikintidə (3,4 dəfə); sənaye, elektrik enerjisi, qaz və su təchizatında (2,7 dəfə); ticarət, xidmət, mehmanxana, restoranlar üzrə, eləcə də səhiyyə və sosial xidmətlər sahəsində (2,5 dəfə) müşahidə edilmişdir. Eyni zamanda, qeyd edilən müddət ərzində, kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq sahəsində fəaliyyət göstərən xüsusi müəssisələrin sayı 7,4% azalmışdır.

Xarici müəssisələrin say artımı daha çox ticarət, xidmət, mehmanxana və restoranlar üzrə (8,5 dəfə); sənaye, elektrik enerjisi, qaz və su təchizatında (7,9 dəfə); tikintidə (6,2 dəfə); kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıqda (6,5 dəfə); nəqliyyat, anbar təsərrüfatı və rabitədə (5,5 dəfə); qarışıq mülkiyyətli müəssisələr üzrə isə – kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıqda (5,8 dəfə); ticarət, xidmət, mehmanxana və restoranlar üzrə (4,7 dəfə); nəqliyyat, anbar təsərrüfatı və rabitədə (3,2 dəfə); tikintidə (2,7 dəfə) baş vermişdir. Bunlarla yanaşı, nəzərdən keçirilən müddətdə, daşınmaz əmlakla əlaqədar əməliyyatları, icarə və kommersiya fəaliyyətini həyata keçirən qarışıq mülkiyyətli müəssisələrin sayı 37,8% azalmışdır [Əlavə 2].

Qeyd etmək lazımdır ki, respublikamızda sahibkarlığın formalaşması və inkişafında 1991-ci ilin may ayında "Azərbaycanda iqtisadi müstəqilliyin əsasları haqqında Konstitusiya Qanunu"nun və 1991-ci ilin noyabr ayında "Mülkiyyət haqqında Azərbaycan Respublikası Qanunu"nun qəbul edilməsi əhəmiyyətli rol oynamışdır. "Mülkiyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nda dövlət mülkiyyəti ilə yanaşı xüsusi mülkiyyətin fəaliyyət göstərmək hüququ rəsmiləşdirildi ki, bu da respublikamızda sahibkarlığın inkişafına yönəlmiş yeni qanunların qəbul edilməsində baza rolunu oynadı. 1992-ci ildən etibarən Azərbaycanda sahibkarlığın formalaşması və inkişafına dair bir



sıra qanunlar, Dövlət Proqramları, Prezident fərmanları qəbul edilmişdir ki, onların arasında da "Sahibkarlıq fəaliyyəti haqqında" (1992-ci il); "Banklar və bank fəaliyyəti haqqında" (1992-ci il); "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" (1993-ci il); "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" (1999-ci il); "Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" (2000-ci il) Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa kömək üzrə iki Dövlət Proqramı (1997-2000 və 2002-2005-ci illər üzrə); 1995-1998-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı (1995-ci il); Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin ikinci Dövlət Proqramı (2000-ci il); "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı (10 sentyabr 2002-ci il) və s. xüsusi qeyd edilməlidir.

Bunlarla yanaşı sahibkarlığın inkişafına dövlət köməyinin həyata keçirilməsi və bu prosesin tənzimlənməsi üçün bir sıra dövlət qurumları və ictimai təşkilatlar da yaradılmışdır ki, onların sırasında Dövlət Əmlakının İdarə Edilməsi Üzrə Dövlət Komitəsini, Sahibkarlığa Kömək Milli Fondunu, kiçik və orta biznesin inkişaf agentliyini, Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlıq Şurasını, Azərbaycan Sahibkarlarının Milli Konfederasiyasını, Gənc Sahibkarlar İttifaqını və s. göstərmək olar.

Bazar iqtisadiyyatına yenicə qədəm qoymuş ölkələrdə olduğu kimi Azərbaycanda da ilk sahibkarlıq subyektləri kooperativlər və kiçik müəssisələr olmuşdur. Azərbaycanda kooperativlərin formalaşmasına hələ SSRİ-də yenidənqurma siyasəti həyata keçirildikdən sonra (1986-cı ilin sonu 1987-ci ildə) başlanmışdı. 1987-ci ildə Azərbaycanda artıq 309 kooperativ fəaliyyət göstərirdi. Sonrakı illərdə kooperativlərin sayı sürətlə artmağa başladı: 1988-ci ildə – 1291; 1989-cu ildə – 3361; 1990-cı ildə – 4611 və 1991-ci ildə – 5743 kooperativ fəaliyyət göstərirdi. 1992-ci ildən Azərbaycanda kiçik müəssisələrin sürətlə artması koope-

rativlərin sayının azalmasına və 1997-ci ildə minimuma enməsinə (1049 vahid) səbəb oldu [13].

Qeyd etmək lazımdır ki, 1991–1995-ci illərdə Azərbaycanda kiçik müəssisələr əsasən iri dövlət müəssisələri tərkibində təsərrüfat hesablı subyektlər və icarə müəssisələri kimi yaradılırdı və onlar bazar iqtisadiyyatı strukturları hesab edilirdi. Qeyri-dövlət bölməsinə daxil olan kiçik müəssisələrin yaradılması əsasən dövlət mülkiyyətinin özəlləşdirilməsinin I Dövlət Proqramının (1995–1998-ci illər) həyata keçirilməsinə başlandıqdan sonra geniş vüsət almışdır (bax: cədvəl 2.1). Cədvəl 2.1-dən göründüyü kimi dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində 1995–2006-cı illərdə Azərbaycanda 46185 kiçik müəssisə yaradılmışdır. Bu müəssisələrin 1,9%-i sənaye, 0,3%-i kənd təsərrüfatı, 8,0%-i ticarət, 1,1%-i tikinti, 21,7%-i məişət xidməti və s. sahələrinə aiddir. Göründüyü kimi özəlləşdirilmiş kiçik müəssisələrin sırasında bilavasitə istehsal sahələrinə aid olanların xüsusi çəkisi olduqca azdır (cəmi 3,3%).

Azərbaycanda dövlət müəssisələrinin özəlləşdirilməsi həyata keçirilərkən müxtəlif formalardan: əmlakın birbaşa əmək kollektivinə satışı; auksionda satış; icarəyə götürülmüş əmlakın satışı; açıq tipli səhmdar cəmiyyətlərin yaradılması və onların səhmlərinin satışı; müsabiqə yolu formalarından istifadə edilmişdir. Dövlət mülkiyyətində olan iri və orta müəssisələrin səhmlərinin satılması nəticəsində 1997–2006-cı illərdə Azərbaycanda nizamnamə kapitalının həcmi 1093,8 mln manat olan 1569 iri və orta səhmdar cəmiyyətləri yaradılmışdır [21].



Cədvəl 2.1

**1995-2006-cı illərdə Azərbaycanda kiçik müəssisələrin özəlləşdirilməsinin vəziyyəti [17,18,19,21]***

| Sahələr | İllər | | | | | | | | | | | | 1995-2006-cı illərdə, cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | |
| Cəmi (vahid) | 872 | 6418 | 7493 | 6644 | 1897 | 1617 | 2474 | 3324 | 1677 | 1954 | 2463 | 3063 | 46185 |
| **O cümlədən:** | | | | | | | | | | | | | |
| Sənaye | - | 18 | 326 | 155 | 63 | 43 | 48 | 58 | 40 | 34 | 57 | 48 | 890 |
| Kənd təsərrüfatı | - | 1 | 43 | 62 | 7 | - | 7 | - | 2 | 1 | - | - | 123 |
| Nəqliyyat | 872 | 384 | 1729 | 3546 | 860 | 700 | 695 | 1391 | 503 | 725 | 708 | 1186 | 19584 |
| **ondan:** | | | | | | | | | | | | | |
| Nəqliyyat vasitələri | 872 | 384 | 1727 | 3507 | 846 | 699 | 691 | 1382 | 502 | 722 | 704 | 1180 | 19501 |
| Ticarət | - | 589 | 647 | 680 | 179 | 162 | 308 | 346 | 226 | 166 | 231 | 167 | 3701 |
| Tikinti | - | 2 | 36 | 152 | 40 | 31 | 52 | 38 | 37 | 37 | 38 | 42 | 505 |
| İctimai iaşə | - | 76 | 247 | 190 | 74 | 62 | 67 | 98 | 53 | 46 | 93 | 47 | 1053 |
| Məişət xidməti | - | 5140 | 3877 | 289 | 65 | 50 | 113 | 107 | 79 | 59 | 128 | 127 | 10034 |
| Kommunal təsərrüfatı | - | - | 14 | 23 | 12 | 7 | 20 | 16 | 17 | 17 | 38 | 16 | 180 |
| Başa çatdırılmamış tikinti | - | 5 | 35 | 48 | 22 | 18 | 27 | - | - | - | - | - | 155 |
| Yanacaqdoldurma məntəqələri | - | 194 | 186 | 56 | 41 | 37 | 42 | 20 | 17 | 9 | 20 | 26 | 652 |
| Digər sahələr | - | 9 | 353 | 1443 | 534 | 507 | 1095 | 1250 | 703 | 860 | 1150 | 1404 | 9308 |

* Q e y d: AR DSK-nin məlumatları əsasında tərtib edilmişdir.

Dövlət müəssisələrinin özəlləşdirilməsi yeni sahibkarlıq strukturlarının yaradılmasına, iqtisadiyyatda şəxsi təşəbbüsün genişlənməsinə, fəaliyyət göstərən müəssisələrin səmərəliliyinin artmasına şərait yaratmaqla yanaşı, dövlət büdcəsinə əlavə vəsaitin cəlb edilməsinə, beləliklə də, iqtisadiyyatın inkişafı üçün əlavə maliyyə mənbəyinin yaranmasına imkan vermişdir. 1995–2006-cı illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində dövlət büdcəsinə 234857,5 min manat daxil edilmişdir [Əlavə 3].

Dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün müəyyən hüquqi, iqtisadi mühitin formalaşması, eləcə də ölkədə sosial-siyasi sabitliyin yaranması 1995-ci ildən etibarən bazar iqtisadiyyatı strukturlarının sayının durmadan artmasına şərait yaratmışdır. Cədvəl 2.2-dən göründüyü kimi 1995–2006-cı illər ərzində Azərbaycanda fəaliyyət göstərən kiçik müəssisə və kooperativlərin sayı 69,3%, onlarda istehsal edilən məhsulların, yerinə yetirilən işlərin və xidmətlərin həcmi isə 12,7 dəfə artmışdır.

1995–2001-ci illərdə fəaliyyət göstərən kiçik müəssisə və kooperativlərin sayı ilbəil artsa da, 2002-ci ildən etibarən onların sayının mütəmadi olaraq azalması müşahidə edilir. Belə ki, 2001-ci ildə fəaliyyət göstərən kiçik müəssisə və kooperativlərin sayı 1995-ci ilə nisbətən 3,5 dəfə çox olsa da, 2004-cü ildə fəaliyyət göstərən bu strukturların sayı 2001-ci ilə nisbətən 22,6% az, 2005-ci ildə 2004-cü ilə nisbətən 38,5% az olmuşdur. 2006-cı ildə bu strukturların sayı əvvəlki ilə nisbətən cəmi 2,1% artmışdır. Buna baxmayaraq bu strukturlarda istehsal edilən məhsulların, yerinə yetirilən işlərin və xidmətlərin həcmi 2002-ci ildən artmağa doğru meyl etmişdir: əgər 2001-ci ildə fəaliyyət göstərən 25121 kiçik müəssisə və kooperativdə 433,1 mln manatlıq məhsul istehsal edilmişdirsə (işlər, xidmətlər yerinə yetirilmişdirsə), 2002-ci ildə 24721 kiçik müəssisə və kooperativdə 724,0 mln manatlıq; 2004-cü ildə 19462 kiçik müəssisə və kooperativdə 1420,7 mln manatlıq məhsul istehsal edilmişdir (işlər, xidmətlər yerinə yetirilmişdir). Başqa sözlə qeyd edilən dörd ildə fəaliyyət göstərən



kiçik müəssisə və kooperativlərin sayının 22,6% azalmasına baxmayaraq, onlarda istehsal edilən məhsulların, yerinə yetirilən işlərin və xidmətlərin həcmi 3,3 dəfə artmışdır. Ancaq 2005-ci ildən etibarən həm kiçik müəssisə və kooperativlərin sayında, həm də onlarda istehsal edilən məhsulların (yerinə yetirilən işlərin, xidmətlərin) həcmində kəskin azalma baş vermişdir [cədvəl 2.2].

Azərbaycanda fəaliyyət göstərən xüsusi və müştərək müəssisələrin sayında illər üzrə sabitlik yoxdur. Belə ki, 1995–1998-ci illərdə bu strukturların sayı ilbəil artsa da, 1999–2006-cı illərdə artıb-azalma baş vermişdir. Bunun əksinə olaraq bu strukturda istehsal edilən məhsulların, yerinə yetirilən işlərin və xidmətlərin həcminin ilbəil artması müşahidə olunur: əgər 1995-ci ildə qeyd edilən strukturlarda 62,4 mln manatlıq məhsul istehsal edilmişdirsə, 1998-ci ildə bu rəqəm 447,0 mln manat, 2000-ci ildə – 1239,8 mln manat; 2002-ci ildə – 1893,5 mln manat; 2004-cü ildə 3818,7 mln; 2005-ci ildə 7082,4 mln manat; 2006-cı ildə isə – 12103 mln. manat təşkil etmişdir, başqa sözlə, son 11 il ərzində artım 193 dəfədən çox olmuşdur.

Azərbaycanda torpaq islahatı həyata keçirildikdən, MDB məkanında ilk dəfə olaraq torpaq xüsusi mülkiyyətə verildikdən sonra kənd təsərrüfatı sahəsində sahibkarlıq strukturlarının sayı artmağa, son illər isə nisbətən azalmağa doğru meyl etmişdir. Əgər 2000-ci ildə Azərbaycanda 3248 kəndli (fermer) təsərrüfatı fəaliyyət göstərirdisə, onların sayı azalaraq 2006-cı ildə 2456 vahid təşkil etmişdir. Qeyd edilən müddət ərzində bu strukturlarda istehsal edilən kənd təsərrüfatı məhsullarının həcmi isə artmışdır: 2000-ci ildə istehsalın həcmi 5,0 mln manat təşkil etdiyi halda, 2006-cı ildə artıb 10,1 mln manata çatmışdır.

Azərbaycanda sahibkarlığın vasitəçilik forması kifayət qədər inkişaf etməmişdir. 1995-ci ildə Azərbaycanda cəmi – 4, 2006-cı ildə isə – 6 birja fəaliyyət göstərmişdir. Birjalarda həyata keçirilən əməliyyatların həcmi də çox deyildir; 1995-ci ildə bu əməliyyatların həcmi 258,5 mln manat, 2006-cü ildə isə – 3071,1 mln manat təşkil etmişdir.

**Cədvəl 2.2**

**Bazar iqtisadiyyatı strukturlarının fəaliyyətini xarakterizə edən göstəricilər [17,18,19,20,21]***

| Göstəricilər | Kiçik müəssisələr və kooperativlər | Xarici və müştərək müəssisələr | Kəndli (fermer) təsərrüfatları | Birjalar |
|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid: | | | | |
| 1990 | | | | |
| 1995 | 4611 | - | - | - |
| 1996 | 7226 | 293 | - | 4 |
| 1997 | 13229 | 717 | - | 5 |
| 1998 | 16027 | 1124 | - | 5 |
| 1999 | 16504 | 1247 | - | 4 |
| 2000 | 19063 | 775 | - | 3 |
| 2001 | 24254 | 549 | 3248 | 3 |
| 2002 | 25121 | 609 | 2604 | 4 |
| 2003 | 24721 | 748 | 2589 | 6 |
| 2004 | 21178 | 809 | 2607 | 6 |
| 2005 | 19462 | 814 | 2661 | 5 |
| 2006 | 11982 | 796 | 2681 | 5 |
| İşləyənlərin sayı, nəfər: | 12232 | 863 | 2456 | 6 |
| 1990 | | | | |
| 1995 | 92186 | - | - | - |
| 1996 | 59406 | 7027 | - | 64 |
| 1997 | 86708 | 15421 | - | 84 |
| 1998 | 94847 | 23947 | - | 82 |
| 1999 | 114893 | 21426 | - | 53 |



| | | | | |
|---|---|---|---|---|
| 2000 | 83756 | 18677 | - | 41 |
| 2001 | 99778 | 22145 | 14376 | 34 |
| 2002 | 118714 | 25240 | 11336 | 59 |
| 2003 | 125804 | 31228 | 10452 | 81 |
| 2004 | 187521 | 43250 | 10456 | 91 |
| 2005 | 135851 | 54083 | 11378 | 73 |
| 2006 | 73447 | 58413 | 11474 | 68 |
| Orta hesabla bir müəssisədə, nəfər: | 90134 | 63105 | 10848 | 60 |
| 1990 | | | | |
| 1995 | 20 | - | - | - |
| 1996 | 8 | 24 | - | 16 |
| 1997 | 6 | 22 | - | 17 |
| 1998 | 6 | 21 | - | 16 |
| 1999 | 7 | 17 | - | 13 |
| 2000 | 4 | 24 | - | 14 |
| 2001 | 4 | 40 | 4,4 | 11 |
| 2002 | 5 | 41 | 4,4 | 15 |
| 2003 | 5 | 42 | 4,0 | 14 |
| 2004 | 9 | 53 | 4,0 | 15 |
| 2005 | 7 | 66 | 4,3 | 15 |
| 2006 | 6 | 73 | 4,3 | 14 |
| | 7 | 73 | 4,3 | 10 |
| Mahsulun (işlərin, xidmətlərin) həcmi, mln. manat | | | | |
| 1990 | 124,4 | - | - | - |
| 1995 | 56,9 | 62,4 | - | 258,5 |
| 1996 | 434,7 | 167,7 | - | 562,3 |

| | | | | |
|---|---|---|---|---|
| 1997 | 497,5 | 346,7 | - | 600,4 |
| 1998 | 239,9 | 447,0 | - | 353,5 |
| 1999 | 278,2 | 576,0 | - | 264,2 |
| 2000 | 434,4 | 1239,8 | 5,0 | 198,8 |
| 2001 | 433,1 | 1514,3 | 5,0 | 230,6 |
| 2002 | 724,0 | 1893,5 | 5,5 | 253,0 |
| 2003 | 1083,9 | 2733,2 | 6,8 | 749,0 |
| 2004 | 1420,7 | 3818,7 | 7,5 | 1112,7 |
| 2005 | 657,5 | 7081,4 | 10,2 | 1334,6 |
| 2006 | 719,9 | 12103,1 | 10,1 | 3071,1 |
| Orta aylıq əmək haqqı (min manat)1990 | 4,5 | - | - | - |
| 1995 | 7,7 | 31,4 | - | 13,5 |
| 1996 | 7,5 | 55,5 | - | 36,2 |
| 1997 | 7,2 | 144,4 | - | 56,5 |
| 1998 | 10,2 | 154,5 | - | 105,3 |
| 1999 | 30,1 | 243,4 | - | 140,0 |
| 2000 | 33,9 | 208,4 | - | 138,7 |
| 2001 | 33,6 | 336,0 | - | 86,3 |
| 2002 | 52,6 | 378,4 | - | 159,2 |
| 2003 | 56,4 | 443,5 | - | 163,6 |
| 2004 | 73,9 | 593,6 | - | 209,6 |
| 2005 | 61,6 | 672,7 | - | 403,9 |
| 2006 | 81,7 | 746,8 | - | 376,6 |

*Q e y d: AR DSK-nin məlumatları əsasında tərtib edilmişdir.



Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq strukturları ölkədə məhsul istehsalında, işlərin və xidmətlərin yerinə yetirilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində və onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında da mühüm rol oynayırlar. Belə ki, 2004-cü ildə ölkədə məşğul olan 3973,0 min nəfərin 2701,1 mini, başqa sözlə 68,0%-i qeyri-dövlət bölməsində çalışırdı ki [Əlavə 1], onların da 164,1 min nəfəri kiçik müəssisə və kooperativlərdə, xarici və müştərək müəssisələrdə, kəndli (fermer) təsərrüfatlarında və birjalarda işləyirdi [cədvəl 2.2].

Qeyd etmək lazımdır ki, sahibkarlıq strukturlarının əksəriyyətində orta aylıq əmək haqqı ümumrespublika səviyyəsindən yüksəkdir. 2006-cı ildə Azərbaycanda orta aylıq əmək haqqı 149,0 manat təşkil etdiyi halda, kiçik müəssisə və kooperativlərdə – 81,7 manat, xüsusi və müştərək müəssisələrdə – 746,8 manat; birjalarda – 376,6 manat təşkil etmişdir.

Azərbaycanda sahibkarlığın formalaşması və inkişafı üçün müəyyən hüquqi-iqtisadi mühit yaradılsa da onu qənaətbəxş hesab etmək olmaz. Bu özünü ilk növbədə qeydiyyatdan keçən və faktiki fəaliyyət göstərən sahibkarlıq strukturlarının sayında göstərir. Belə ki, 1997-ci ilin yanvar ayının 1-nə olan məlumata görə Azərbaycanda 35419 kiçik müəssisə qeydiyyatdan keçmiş və onların sayı 2007-ci ilin yanvarın 1-nə kimi 56,7% artaraq 55503 vahid təşkil etmişdir. Bu dövrdə sənaye sahələrində qeydə alınan kiçik müəssisələrin sayı 97,6%; tikintidə – 77,5%; topdan və pərakəndə satış, ictimai iaşə sahələrində – 2,0 dəfə; daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti sahələrində – 63,4% və s. artmışdır. Eyni zamanda maliyyə vasitəçiliyi ilə məşğul olan strukturların qeydiyyatında 17,2% azalma müşahidə edilmişdir [bax: cədvəl 2.3].

Bununla yanaşı, 2006-cı ildə qeydiyyatdan keçən kiçik müəssisələrin yalnız 12232-si, başqa sözlə, cəmi 22,1%-i fəaliyyət göstərmişdir. Həm də, 2001-ci ildən etibarən qeydiyyatdan keçən kiçik müəssisələrin fəaliyyət əmsalı ilbəil aşağı düşməyə meyl edir. Belə ki, əgər 2000-ci ildə kiçik müəssisələrin fəaliyyət

əmsalı 54,2% təşkil edirdisə, bu rəqəm 2001-ci ildə 53,5%-ə; 2002-ci ildə – 52,0%-ə; 2003-cü ildə – 42,8%; 2004-cü ildə – 41,2%-ə və 2006-cı ildə – 22,1%-ə enmişdir [cədvəl 2.4]. Bu son illərdə ölkədə sahibkarlıq mühitinin nisbətən pisləşdiyini, rəqabətin isə çoxaldığını göstərir.

Eyni meyl xalq təsərrüfatının bütün sahələrində müşahidə edilməkdədir; 2006-cı ildə sənaye sahəsində qeydə alınmış kiçik müəssisələrin cəmi 33,9%-i; tikintidə – 17,1%-i; kənd təsərrüfatında – 15,5%-i; ticarət və ictimai iaşədə – 25,8%-i; digər sahələrdə isə 15,5%-i fəaliyyət göstərmişdir, həm də bütün sahələrdə fəaliyyət əmsalı azalmağa doğru meyl etmişdir. Göründüyü kimi qeyri-istehsal sahələrində qeydiyyatdan keçən kiçik müəssisələrin fəaliyyət əmsalı, istehsal sahələrində fəaliyyət göstərənlərdən (sənaye sahələri istisna olmaqla) xeyli çoxdur ki, bu da müsbət hal kimi qiymətləndirilə bilməz. Fikrimizcə qeyri-istehsal sahələrində, xüsusi ilə ticarətdə və ictimai iaşədə, fəaliyyət göstərən müəssisələrin xüsusi çəkisinin yüksək olması bu sahələrdə risqin istehsal sahələrinə nisbətən az olması, sərf edilmiş kapitalın ödəmə müddətinin tezliyi, sərf edilmiş kapital vahidinə görə daha yüksək mənfəət əldə etmək imkanı, mənfəətin gizlədilməsi və vergidən yayınma imkanının daha artıq olması, iqtisadiyyatda spekulyativ maraqların güclü olması ilə əlaqədardır. İstehsal sahəsində, xüsusilə də sənayedə, fəaliyyət göstərən kiçik müəssisələrin fəaliyyət əmsalının ilbəil azalması, Azərbaycanda istehsal sahələrində sahibkarlığın formalaşması və inkişafı üçün əlverişli mühitin formalaşmadığını və getdikcə pisləşdiyini göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarında istehsal yönümlülərin xüsusi çəkisinin azlığı və onun aşağı düşməsi xroniki hal almaqdadır. Belə ki, 2000-ci il yanvar ayının 1-nə Azərbaycanda fəaliyyət göstərən kiçik müəssisələrin 7,9%-i sənaye, 9,2%-i kənd təsərrüfatı, 4,2%-i tikintidə məşğül olduğu halda, bu göstəricilər 2001-ci ilin müvafiq dövründə, uyğun olaraq, 5,8%, 5,9%, 3,0%; 2002-ci ilin müvafiq dövründə, uyğun olaraq, 5,9%; 5,4% və 3,6% təşkil



**Cədvəl 2.3**

**Azərbaycan Respublikasında qeydiyyatdan keçən kiçik müəssisələrin sahə quruluşu (yanvar ayının 1-nə) [17,18,19,20,21]***

| Sahələr | İllər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2005 | 2006 |
| Cəmi, vahid | 35419 | 40154 | 43416 | 44767 | 44738 | 46975 | 47565 | 49527 | 47211 | 51893 | 55503 |
| o cümlədən: | | | | | | | | | | | |
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 8562 | 9223 | 9402 | 9654 | 8082 | 8618 | 8097 | 7865 | 7934 | 8438 | 8573 |
| Balıqçılıq | 46 | 47 | 51 | 51 | 54 | 57 | 58 | 67 | 73 | 79 | 83 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsi | 91 | 101 | 135 | 159 | 200 | 223 | 259 | 302 | 349 | 433 | 507 |
| Emal sənayesi | 2590 | 2589 | 3313 | 3518 | 3770 | 4000 | 4174 | 4487 | 4695 | 5041 | 5285 |
| Elektrik enerjisi, qaz və su təchizatı | 158 | 159 | 170 | 170 | 194 | 190 | 213 | 212 | 183 | 165 | 164 |
| Tikinti | 3333 | 3501 | 3783 | 3919 | 3948 | 4105 | 4223 | 4530 | 4830 | 5503 | 5915 |
| Topdan və pərakəndə satış, ictimai iaşə | 11837 | 13694 | 14920 | 15531 | 17405 | 18284 | 18838 | 20165 | 19743 | 21905 | 23746 |
| Mehmanxanalar və restoranlar | 415 | 493 | 580 | 620 | 775 | 811 | 848 | 876 | 623 | 670 | 739 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 506 | 610 | 768 | 858 | 999 | 1086 | 1212 | 1338 | 987 | 1137 | 1360 |
| Maliyyə vasitəçiliyi | 524 | 572 | 600 | 682 | 728 | 728 | 710 | 630 | 383 | 391 | 434 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 3427 | 4601 | 5399 | 5764 | 4949 | 5172 | 5236 | 5428 | 4742 | 5227 | 5600 |
| Təhsil | 158 | 169 | 180 | 190 | 212 | 224 | 229 | 229 | 171 | 239 | 229 |
| Səhiyyə və sosial xidmətlər | 661 | 738 | 783 | 826 | 890 | 869 | 896 | 909 | 661 | 746 | 838 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 3111 | 3257 | 3332 | 2825 | 2532 | 2608 | 2572 | 2489 | 1837 | 1920 | 2030 |

*Q e y d: AR DSK-nin məlumatları əsasında tərtib edilmişdir.

Cədvəl 2.4

**Kiçik müəssisələrin fəaliyyətini xarakterizə edən göstəricilərin dinamikası (yanvar ayının 1-nə) [17,18,19,20,21]***

| | İllər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1997** | **1998** | **1999** | **2000** | **2001** | **2002** | **2003** | **2004** | **2005** | **2006** | **2007** |
| Qeydiyyatdan keçən kiçik müəssisələrin sayı, vahid | 35419 | 40154 | 43416 | 44767 | 44738 | 46975 | 47565 | 49527 | 47211 | 51893 | 55503 |
| Fəaliyyət göstərən kiçik müəssisələrin sayı, vahid | 12220 | 14978 | 16504 | 19063 | 24254 | 25121 | 24721 | 21178 | 19462 | 11982 | 12292 |
| Fəaliyyət əmsalı, %-lə | 34,5 | 37,3 | 38,0 | 42,5 | 54,2 | 53,5 | 52,0 | 42,8 | 41,2 | 23,1 | 22,1 |
| Sahələr üzrə kiçik müəssisələrin fəaliyyət əmsalı, %-lə: | | | | | | | | | | | |
| Sənaye | 38,8 | 44,1 | 38,0 | 38,6 | 35,6 | 35,2 | 41,0 | 40,9 | 39,0 | 33,7 | 33,9 |
| Tikinti | 22,0 | 24,2 | 28,2 | 20,2 | 18,3 | 21,9 | 23,0 | 24,9 | 25,6 | 17,8 | 17,1 |
| Kənd təsərrüfatı | 15,4 | 14,9 | 12,9 | 18,2 | 17,3 | 15,6 | 21,5 | 18,8 | 16,6 | 15,5 | 15,5 |
| Ticarət, ictimai iaşə | 62,3 | 58,9 | 56,8 | 45,7 | 63,6 | 77,8 | 70,2 | 51,3 | 48,0 | 27,2 | 25,8 |
| Digər sahələr | 28,9 | 39,6 | 36,1 | 65,8 | 85,1 | 61,0 | 58,5 | 51,6 | 56,8 | 17,1 | 15,5 |

*Q e y d: AR DSK-nin məlumatları və müəllifin hesablamaları əsasında tərtib edilmişdir.



etmişdir. 2002-ci ildən etibarən qeyd edilən sahələrdə fəaliyyət göstərən kiçik müəssisələrin xüsusi çəkisində müəyyən artım müşahidə edilsə də, onların səviyyəsi hələ də aşağı olaraq qalmaqdadır [bax: cədvəl 2.5].

Qeyd etmək lazımdır ki, fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının sayı ilə onların istehsal etdiyi məhsulların, yerinə yetirdikləri işlərin və xidmətlərin həcmi arasında, xüsusilə də istehsal sahələrində fəaliyyət göstərənlər üzrə, düz mütənasiblik yoxdur. Məsələn, 1999-cu idə sənayedə fəaliyyət göstərən 1518 kiçik müəssisədə 113,7 mln manatlıq məhsul istehsal edildiyi halda, 2000-ci ildə fəaliyyət göstərən 1414 kiçik müəssisədə 136,4 mln manatlıq; 2003-cü ildə fəaliyyət göstərən 1960 kiçik müəssisədə 151,9 mln manatlıq; 2004-cü ildə fəaliyyət göstərən 1966 kiçik müəssisədə 282,5 mln manatlıq; 2006-cı ildə fəaliyyət göstərən 1964 kiçik müəssisədə 169,2 mln manatlıq məhsul istehsal edilmişdir.

Tikinti sahəsində də oxşar vəziyyət müşahidə edilməkdədir. Belə ki, 1998–2000-ci illərdə tikintidə fəaliyyət göstərən kiçik müəssisələrin sayının mütəmadi olaraq azalması müqabilində onların yerinə yetirdiyi tikinti işlərinin həcmi ilbəil artmışdır. 2001-ci ildə isə tikintidə fəaliyyət göstərən müəssisələrin sayının əvvəlki ilə nisbətən 173 vahid artmasına baxmayaraq, tikinti işlərinin həcmi 20,2 mln manat azalmışdır. Yalnız 2002–2004-cü illərdə tikintidə fəaliyyət göstərən kiçik müəssisələrin həm sayında, həm də onların yerinə yetirdiyi işlərin həcmində artım, 2005–2006-cı illərdə isə – azalma müşahidə edilir [bax: cədvəl 2.6].

Kənd təsərrüfatında fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının həm sayında, həm də onlarda istehsal edilən məhsulların həcmində mütəmadi olaraq qeyri-sabitlik müşahidə edilir. Belə ki, bu sahədə fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının sayı 1995–1999-cu illərdə artmağa doğru meyl etsədə 2000–2001-ci illərdə azalmış, 2002-ci ildə bir qədər artmış, 2003-cü ildən isə yenə azalmağa meyl etmişdir. Həmin strukturlarda istehsal edilən məhsulların həcmində də oxşar meyl baş verməkdədir.

Cədvəl 2.5

**Fəaliyyət göstərən kiçik müəssisələrin sahələr üzrə xüsusi çəkisinin dinamikası (yanvarın 1-nə görə faizlə) [17,18,19,20,21]***

| Sahələr | İllər | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2004 | 2005 |
| Cəmi respublika üzrə o cümlədən: | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Sənaye | 10,5 | 9,9 | 10,1 | 8,8 | 7,9 | 5,8 | 5,9 | 7,3 | 9,3 | 10,1 | 15,4 | 16,1 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 9,4 | 10,6 | 9,1 | 7,4 | 9,2 | 5,9 | 5,4 | 7,1 | 7,0 | 6,8 | 11,0 | 11,0 |
| Tikinti | 6,3 | 6,0 | 5,7 | 6,5 | 4,2 | 3,0 | 3,6 | 3,9 | 5,3 | 6,4 | 8,4 | 8,0 |
| Ticarət və ictimai iaşə | 51,4 | 54,7 | 50,3 | 51,4 | 37,3 | 45,6 | 56,6 | 53,5 | 48,9 | 48,7 | 48,7 | 49,7 |
| Mehmanxanalar, restoranlar | 1,8 | 1,3 | 1,9 | 2,3 | 2,3 | 3,7 | 3,8 | 3,7 | 2,7 | 2,0 | 2,5 | 2,1 |
| Nəqliyyat, anbar təsərrüfatı, rabitə | 0,4 | 1,5 | 1,3 | 1,7 | 1,1 | 1,1 | 1,1 | 1,6 | 1,8 | 2,2 | 2,1 | 2,0 |
| Daşınmaz əmlakla bağlı əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 5,3 | 4,6 | 12,2 | 14,9 | 31,9 | 27,8 | 16,5 | 7,5 | 8,3 | 6,4 | 7,6 | 6,9 |
| Təhsil | 0,3 | 0,3 | 0,3 | 0,5 | 0,1 | 0,2 | 0,2 | 0,3 | 0,4 | 0,4 | 0,3 | 0,3 |
| Səhiyyə və sosial xidmətlər | 0,2 | 0,4 | 0,5 | 0,4 | 0,7 | 0,6 | 0,7 | 0,6 | 0,8 | 0,8 | 0,6 | 0,7 |
| Digər sahələr | 14,4 | 10,7 | 8,6 | 6,1 | 5,3 | 6,3 | 6,2 | 14,5 | 15,5 | 16,2 | 3,4 | 3,2 |

* Q e y d: AR DSK-nin məlumatları və müəllifin hesablamaları əsasında tərtib edilmişdir.



Ticarət və ictimai iaşə sahələrində fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının sayında 1995–2001-ci illər üzrə ilbəil artım, 2002-ci ildən etibarən isə (2006-cı il istisna olmaqla) azalma baş vermişdir. Son illərdə bu sahələrdə fəaliyyət göstərən müəssisələrin yerinə yetirdiyi işlərin və xidmətlərin həcmində əsasən qeyri-stabillik müşahidə olunur [cədvəl 2.6].

Qeyd etmək lazımdır ki, 1995–2004-cü illərdə Azərbaycanda fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının fəaliyyətində müsbət bir meyl də müşahidə edilirdi: bu strukturların sayında və onlarda istehsal edilən məhsulların həcmində qeyri-sabitlik olmasına baxmayaraq, orta hesabla bir müəssisədə istehsal edilmiş məhsulların (yerinə yetirilən işlərin və xidmətlərin) həcmində mütəmadi olaraq, ilbəil artım baş vermişdi. Belə ki, 1995-ci ildə orta hesabla bir müəssisədə istehsal edilmiş məhsulun həcmi 7,5 min manat, 1998-1999-cu illərdə – 14,5 min manat; 2001-ci ildə – 17,2 min manat; 2003-cü ildə – 51,2 min manat və 2004-cü ildə – 73,0 min manat olmuşdu. 2005-ci ildə isə bu göstərici azalaraq 54,9 min manat, 2006-cı ildə – bir qədər artaraq – 58,9 min manat təşkil etmişdir.

Eyni vəziyyət sənaye sahəsində fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarında da baş verməkdədir. Bu sahədə fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının orta hesabla hər biri üzrə istehsal edilən məhsulun həcmi o qədər də yüksək deyildir: məsələn, bu göstərici 1998-ci ildə cəmi 46 min manat, 2004-cü ildə 143,5 min manat, 2006-cı ildə – 86,2 min manat təşkil etmişdir [cədvəl 2.6].

Sənayedən fərqli olaraq tikintidə fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarının orta hesabla hər biri üzrə yerinə yetirilən işlərin həcmi xeyli yüksəkdir. Belə ki, 2000-ci ildə bu göstərici tikintidə 137,0 min manat təşkil etmişdir ki, bu sənayedəki eyni göstəricidən 42,0% çoxdur. 2002-ci ildə bu fərq tikintinin xeyrinə 3,0 dəfə; 2003-cü ildə – 4,2 dəfə; 2004-cü ildə – 3,7 dəfə; 2005-ci ildə – 3,1 dəfə; 2006-cı ildə – 2,5 dəfə artmışdır.

Kənd təsərrüfatında orta hesabla hər bir müəssisə üzrə istehsal olunan məhsulların həcmində isə qeyri-sabitlik mövcud-

**Cədvəl 2.6**

**Azərbaycan Respublikasında kiçik bizneslə məşğul olan strukturların inkişafını xarakterizə edən göstəricilərin dinamikası [17,18,19,20,21]***

| | Cəmi | O cümlədən: Sənaye | Tikinti | Kənd təsərrüfatı | Ticarət və ictimai iaşə | Digər sahələr |
|---|---|---|---|---|---|---|
| içik müəssisə və kooperativlərin sayı, vahid: | | | | | | |
| 1995 | 7226 | 835 | 461 | 874 | 4254 | 812 |
| 1998 | 16504 | 1460 | 1068 | 1217 | 8476 | 4283 |
| 1999 | 19063 | 1518 | 792 | 1761 | 7105 | 7887 |
| 2000 | 24254 | 1414 | 724 | 1402 | 11062 | 9652 |
| 2001 | 25121 | 1486 | 897 | 1345 | 14224 | 7169 |
| 2002 | 24721 | 1809 | 971 | 1753 | 13215 | 6973 |
| 2003 | 21178 | 1960 | 1129 | 1488 | 10351 | 6250 |
| 2004 | 19462 | 1966 | 1236 | 1332 | 9485 | 5443 |
| 2005 | 11982 | 1846 | 1010 | 1319 | 6136 | 1671 |
| 2006 | 12232 | 1964 | 979 | 1341 | 6327 | 1621 |
| Məhsulun (işin və xidmətin) həcmi, mln. manat: | | | | | | |
| 1995 | 54,4 | 13,8 | 3,4 | 2,8 | 29,0 | 5,4 |
| 1998 | 239,8 | 67,2 | 14,2 | 3,3 | 40,8 | 114,3 |
| 1999 | 278,2 | 113,7 | 28,7 | 14,9 | 73,5 | 47,2 |
| 2000 | 434,4 | 136,4 | 99,2 | 16,5 | 83,3 | 99,0 |
| 2001 | 433,1 | 104,6 | 79,0 | 7,6 | 93,0 | 148,8 |
| 2002 | 724,0 | 138,9 | 225,8 | 9,8 | 148,2 | 201,3 |
| 2003 | 1083,9 | 151,9 | 365,3 | 13,2 | 228,8 | 324,7 |
| 2004 | 1420,7 | 282,5 | 651,1 | 11,7 | 154,4 | 321,0 |
| 2005 | 657,5 | 131,9 | 276,6 | 19,6 | 166,4 | 63,0 |
| 2006 | 719,9 | 169,2 | 214,0 | 18,7 | 241,9 | 76,1 |
| Orta hesabla bir müəssisədə istehsal edilmiş məhsulun (işin, xidmətin) həcmi, min manat: | | | | | | |
| 1995 | 7,5 | 16,5 | 7,3 | 3,2 | 6,8 | 6,6 |
| 1998 | 14,5 | 46,0 | 13,3 | 2,7 | 4,8 | 26,7 |
| 1999 | 14,5 | 74,9 | 36,2 | 8,5 | 10,3 | 6,0 |
| 2000 | 17,9 | 96,5 | 137,0 | 11,8 | 7,5 | 10,3 |
| 2001 | 17,2 | 70,4 | 88,1 | 5,7 | 6,5 | 20,7 |
| 2002 | 29,3 | 76,8 | 232,5 | 5,6 | 14,3 | 28,9 |
| 2003 | 51,2 | 77,5 | 323,6 | 8,9 | 22,1 | 51,9 |
| 2004 | 73,0 | 143,5 | 526,8 | 14,7 | 16,3 | 11,6 |
| 2005 | 54,9 | 71,5 | 223,8 | 14,9 | 27,1 | 37,7 |
| 2006 | 58,9 | 86,2 | 218,6 | 13,9 | 38,2 | 46,9 |

* Q e y d: AR DSK-nin məlumatları və müəllifin hesablamaları əsasında tərtib edilmişdir.



dur və onların səviyyəsi o qədər də yüksək deyildir. Belə ki, 1995-ci ildə orta hesabla bir müəssisə üzrə 3,2 min manatlıq; 2000-ci ildə – 11,8 min manatlıq; 2002-ci ildə – 5,6 min manatlıq; 2004-cü ildə – 14,7 min manatlıq; 2005-ci ildə – 14,9 min manatlıq; 2006-cü ildə isə – 13,9 min manatlıq məhsul istehsal edilmişdir.

1995-2001-ci illərdə ticarət və ictimai iaşə sahələrində orta hesabla bir müəssisə üzrə yerinə yetirilən işlərin və xidmətlərin həcmində qeyri-sabitlik olsa da, 2002-ci ildən etibarən bu göstərici mütəmadi olaraq artmağa doğru meyl etmiş, yalnız 2004-cü ildə əvvəlki ilə nisbətən azalmışdır (26,3%) [cədvəl 2.6].

Kiçik sahibkarlıq strukturlarında orta aylıq əmək haqqının səviyyəsi ilbəil artsa da onun mütləq məbləği o qədər də yüksək deyildir və orta respublika səviyyəsindən xeyli aşağıdır. Belə ki, sənayedə fəaliyyət göstərən kiçik sahibkarlıq strukturlarında orta aylıq əmək haqqının səviyyəsi 2006-cı ildə orta respublika səviyyəsinin 43,2%-ni, ticarət və ictimai iaşədə – 39,3%-ni, kənd təsərrüfatında isə cəmi – 23,2%-ni təşkil etmişdir. Əslində bu real vəziyyəti əks etdirmir. Sosial sığorta fonduna ödəmələrin həcminin çoxluğu səbəbindən bir çox müəssisələr işçilərə ödədikləri əmək haqqının xeyli hissəsini rəsmi maaş cədvəllərinə salmırlar.

1995-ci ildən etibarən Azərbaycanda sosial-siyasi sabitliyin bərqərar olması xarici şirkətlərin respublika iqtisadiyyatına marağını gücləndirmiş və ölkəmizə xarici investisiyaların axını sürətlənmişdir. Əgər 1995-ci ildə Azərbaycanda yatırılan xarici investisiyaların məbləği cəmi 375,1 mln ABŞ dolları olmuşdursa, bu göstərici 1996-cı ildə – 620,5 mln dollar; 2000-ci ildə – 955,0 mln dollar; 2003-cü ildə – 3371,0 mln dollar və 2006-cı ildə – 5052,8 mln dollar təşkil etmişdir [Əlavə 1]. Bu investisiyaların mütləq əksəriyyəti neft sənayesinə yönəldilsə də son illər qeyri-neft sektoruna xarici sərmayə qoyuluşu da artmaqdadır.

Azərbaycana xarici sərmayələrin axını ölkəmizdə yaradılan və fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayının da mütəmadi artmasına şərait yaratmışdır: 1995-ci ildə

Azərbaycanda 293 xarici və müştərək müəssisə fəaliyyət göstərirdisə, onların sayı 2000-ci ildə 549-a; 2001-ci ildə – 609-a; 2002-ci ildə – 748-ə; 2003-cü ildə – 809-a; 2004-cü ildə – 814-ə və 2006-cı ildə – 863-ə çatmışdır, başqa sözlə, son on bir ildə 2,9 dəfə artmışdır [cədvəl 2.7]. Qeyd edilən müddətdə sənayedə fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı 65-dən 234-ə (artım – 3,6 dəfə); tikintidə 12-dən 86-ya (artım 7,2 dəfə); kənd təsərrüfatı, ovçuluq və balıqçılıqda 2-dən 6-ya (artım 3,0 dəfə); topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri sahələrində 166-dan 251-ə (artım 51,2%); nəqliyyat, anbar təsərrüfatı və rabitədə 8-dən 81-ə (artım 10,1 dəfə); səhiyyə və sosial xidmətlər sahəsində 4-dən 12-yə (artım 3,0 dəfə); təhsil sahəsində 10-dan 26-ya (artım 2,6 dəfə) çatmışdır. Son zamanlar yalnız daşınmaz əmlakla əlaqədar əməliyyatlar həyata keçirən, icarə və kommersiya fəaliyyəti ilə məşğul olan xarici və müştərək müəssisələrin sayında azalma müşahidə edilmişdir: 2000-ci ildə bu müəssisələrin sayı 129 vahid təşkil etdiyi halda, 2006-cı ildə 125-ə enmişdir (azalma 3,2%).

Son on bir ildə xarici və müştərək müəssisələrdə istehsal olunan məhsulların (yerinə yetirilən işlərin və xidmətlərin) həcmində də yüksək artım baş vermişdir: 1995-ci ildə bu strukturlarda 62,4 mln manatlıq məhsul istehsal edilmiş, işlər və xidmətlər yerinə yetirilmişdirsə, 2006-cı ildə bu göstərici 194 dəfə artaraq 12103,1 mln manata çatmışdır. Sənaye sahələrində fəaliyyət göstərən xarici və müştərək müəssisələrdə qeyd edilən müddət ərzində bu göstərici 939 dəfə; tikintidə – 293 dəfə; topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri sahələrində – 2,1 dəfə; nəqliyyat, anbar təsərrüfatı və rabitədə – 724,8 dəfə və s. artmışdır. 2000–2006-cı illərdə kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıqda qeyd edilən göstərici 5,9 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, orta hesabla bir xarici və müştərək müəssisə üzrə məhsul istehsalının (işlərin və xidmətlərin) həcminin də yüksək templə artımı baş verməkdədir. Belə ki, 1995-ci ildə bu göstəricinin səviyyəsi 0,213 mln manat



təşkil edirdisə, 2006-cı ildə o, 65,8 dəfə artaraq 14,2 mln manat təşkil etmişdir. Sənaye sahəsində fəaliyyət göstərən hər bir xarici və müştərək müəssisə üzrə bu göstərici 1995–2006-cı illər ərzində, orta hesabla 260,3 dəfə; tikintidə – 40,9 dəfə; topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri sahələrində – 1,36 dəfə; nəqliyyat, anbar təsərrüfatı və rabitədə – 71,6 dəfə və s. artmışdır. Kənd təsərrüfatı, arıçılıq, meşəçilik və balıqçılıqla məşğul olan xarici və müştərək müəssisələr üzrə qeyd edilən göstəricinin səviyyəsi 2000–2006-cı illərdə 2,1 dəfə artmışdır [cədvəl 2.7].

Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələr sırasında orta hesabla bir müəssisə üzrə ən çox məhsul istehsalı, işlərin və xidmətlərin yerinə yetirilməsi sənayedə, tikintidə, nəqliyyat, anbar təsərrüfatı və rabitədə müşahidə edilməkdədir. Belə ki, bu göstəricinin səviyyəsi 2006-cı ildə qeyd edilən sahələrdə, uyğun olaraq, 42,95 mln manat; 8,51 mln manat; 8,95 mln manat təşkil etmişdir. Göründüyü kimi, ən yüksək göstərici sənaye sahəsindədir və təbiidir ki, bu təqdirə layiqdir.

Xarici və müştərək müəssisələrdə orta aylıq əmək haqqının səviyyəsi həm digər sahibkarlıq strukturlarından, həm də ümumrespublika səviyyəsindən xeyli yüksəkdir. Belə ki, 2006-cı ildə xarici və müştərək müəssisələrdə orta aylıq əmək haqqının səviyyəsi 746,8 manat təşkil etmişdir ki, bu da ümumrespublika səviyyəsindən 5,0 dəfə çoxdur. 2006-cı ildə sənayedə fəaliyyət göstərən xarici və müştərək müəssisələrdə orta aylıq əmək haqqının səviyyəsi ümumrespublika səviyyəsindən 4,8 dəfə; tikintidə – 4,5 dəfə; daşınmaz əmlakla əlaqədar əməliyyatları həyata keçirən, icarə və kommersiya fəaliyyəti ilə məşğul olan müəssisələrdə – 13,8 dəfə; səhiyyə və sosial xidmət sahələrində – 97,6% və s. çox olmuşdur. Araşdırmalar göstərmişdir ki, bu xarici və müştərək müəssisələrdə işləyən xarici vətəndaşlara yüksək əmək haqqı verilməsi ilə əlaqədardır.

Cədvəl 2.7

Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sahə quruluşunu xarakterizə edən göstəricilərin dinamikası [15,18,19,20,21]*

| Sahələr | Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | İşləyənlərin orta siyahı sayı, nəfər | Orta aylıq əmək haqqı, min man | Məhsulun (işlərin, xidmətlərin) həcmi, mln. man | Bir müəssisə üzrə məhsul istehsalının həcmi, mln. man |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **1995-ci il** | | | | | |
| Cəmi: | 293 | 7027 | 31,4 | 62,4 | 0,213 |
| o cümlədən: | | | | | |
| Sənaye | 65 | 3213 | 36,4 | 10,7 | 0.165 |
| Tikinti | 12 | 455 | 6,0 | 2.5 | 0.208 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 166 | 1578 | 11.7 | 42,7 | 0.257 |
| Mehmanxanalar və restoranlar | 17 | 968 | 45.8 | 4,1 | 0.241 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 8 | 214 | 15.2 | 1.0 | 0.125 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | - | - | - | - | - |
| Təhsil | - | - | - | - | - |
| Səhiyyə və sosial xidmətlər | - | - | - | - | - |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 25 | 599 | 40,1 | 1,3 | 0,052 |
| **2000-ci il** | | | | | |
| Cəmi: | 549 | 22145 | 208,4 | 1239.8 | 2,26 |
| o cümlədən: | | | | | |
| Sənaye | 109 | 8905 | 194.0 | 946.4 | 8,68 |
| Tikinti | 48 | 2052 | 339.3 | 111.9 | 2,33 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 2 | 256 | 41,0 | 1.06 | 0.53 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 176 | 1819 | 59,0 | 8.33 | 0.05 |
| Mehmanxanalar və restoranlar | 11 | 583 | 324,7 | 12.8 | 1.16 |
| Nəqliyyat, anbar təsərrü-fatı və rabitə | 49 | 4118 | 118.6 | 115.5 | 2.36 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 129 | 2944 | 431.4 | 40,2 | 0.31 |
| Təhsil | 10 | 706 | 64,6 | 1,25 | 0.13 |
| Səhiyyə və sosial xidmətlər | 4 | 95 | 265.7 | 0,23 | 0.06 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 11 | 667 | 80.7 | 2.1 | 0.19 |



Cədvəl 2.7-nin ardı

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| **2001-ci il** | | | | | |
| Cəmi: | 609 | 25240 | 336,0 | 1514,3 | 2.49 |
| o cümlədən: | | | | | |
| Sənaye | 141 | 11991 | 410,5 | 1193,0 | 8,5 |
| Tikinti | 58 | 1943 | 336.1 | 47.1 | 0.81 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 4 | 270 | - | 0,3 | 0,08 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 228 | 2452 | 82,2 | 16,2 | 0,07 |
| Mehmanxanalar və restoranlar | 19 | 999 | 321,3 | 19,6 | 1.0 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 66 | 3667 | 157,0 | 141,5 | 2,1 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 69 | 2503 | 666,7 | 92,0 | 1,33 |
| Təhsil | 12 | 640 | 69,9 | 1,9 | 0,2 |
| Səhiyyə və sosial xidmətlər | 3 | 109 | 264,6 | 0.2 | 0,07 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 9 | 666 | 77,3 | 2,5 | 0,3 |
| **2002-ci il** | | | | | |
| Cəmi: | 748 | 31228 | 378.4 | 1893,5 | 2,53 |
| o cümlədən: | | | | | |
| Sənaye | 171 | 13048 | 465,2 | 1313,0 | 7,7 |
| Tikinti | 62 | 4745 | 377,5 | 227,8 | 3,7 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 11 | 235 | 38,5 | 0,82 | 0,07 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 250 | 2874 | 79,3 | 26,9 | 0,1 |
| Mehmanxanalar və restoranlar | 23 | 1045 | 31,6 | 24,4 | 1,1 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 73 | 3303 | 186,6 | 169,1 | 2,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 112 | 3633 | 67,0 | 123,8 | 1.1 |
| Təhsil | 21 | 917 | 69,0 | 2,1 | 0,1 |
| Səhiyyə və sosial xidmətlər | 10 | 802 | 288,2 | 2,1 | 0,21 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 15 | 626 | 67,6 | 3,4 | 0,22 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | 2003-cü il | | | |
| Cəmi: | 809 | 43250 | 443,5 | 2733,2 | 3,37 |
| o cümlədən: | | | | | |
| Sənaye | 192 | 16858 | 518,6 | 1703,1 | 8,87 |
| Tikinti | 77 | 11224 | 386,2 | 512,2 | 6,65 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 12 | 321 | 44,4 | 2,3 | 0,19 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 258 | 3449 | 104,8 | 38,9 | 0,15 |
| Mehmanxanalar və restoranlar | 20 | 1553 | 260,5 | 34,7 | 1,73 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 80 | 3397 | 220,2 | 253,7 | 3,17 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 125 | 4120 | 1023,3 | 182,9 | 1,46 |
| Təhsil | 19 | 946 | 72,2 | 3,2 | 0,17 |
| Səhiyyə və sosial xidmətlər | 11 | 762 | 287,7 | 2,0 | 0,18 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 15 | 620 | 112 | 0,3 | 0,02 |
| | | 2004-cü il | | | |
| Cəmi: | 814 | 54083 | 593,6 | 3818,7 | 4,69 |
| o cümlədən: | | | | | |
| Sənaye | 195 | 19685 | 752,6 | 2319,3 | 11,89 |
| Tikinti | 75 | 14669 | 512,6 | 722,4 | 9,63 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 7 | 367 | 36,2 | 0,91 | 12,95 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 271 | 6240 | 162,8 | 76,0 | 28,0 |
| Mehmanxanalar və restoranlar | 20 | 1607 | 264,6 | 44,7 | 2,24 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 79 | 3539 | 282,2 | 250,7 | 3,17 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 120 | 5477 | 1264,6 | 298,4 | 2,49 |
| Təhsil | 24 | 1096 | 93,2 | 4,1 | 0,17 |
| Səhiyyə və sosial xidmətlər | 11 | 682 | 283,6 | 4,5 | 0,41 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 12 | 721 | 132,3 | 7,9 | 0,66 |





| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | 2005-ci il | | | |
| Cəmi: | 796 | 58143 | 672,7 | 7081,5 | 8,9 |
| o cümlədən: | | | | | |
| Sənaye | 208 | 23574 | 688,3 | 5172,3 | 24,87 |
| Tikinti | 71 | 15200 | 534,3 | 820,7 | 11,56 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 4 | 291 | 40,6 | 1,7 | 0,43 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 234 | 4216 | 160,6 | 64,2 | 0,27 |
| Mehmanxanalar və restoranlar | 22 | 1438 | 318,1 | 46,2 | 2,1 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 81 | 3797 | 429,8 | 502,3 | 6,2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 128 | 7292 | 1609,0 | 455,0 | 3,55 |
| Təhsil | 23 | 1224 | 119,6 | 5,8 | 0,25 |
| Səhiyyə və sosial xidmətlər | 14 | 779 | 274,1 | 3,6 | 0,26 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 11 | 602 | 127,1 | 9,7 | 0,88 |
| | | 2006-ci il | | | |
| Cəmi: | 863 | 63105 | 746,8 | 12103,1 | 14,02 |
| o cümlədən: | | | | | |
| Sənaye | 234 | 28416 | 720,6 | 10051,1 | 42,95 |
| Tikinti | 86 | 13083 | 676,6 | 732,0 | 8,51 |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq | 6 | 266 | 44,5 | 6,3 | 1,1 |
| Topdan və pərakəndə satış, məişət mallarının və şəxsi əşyaların təmiri | 251 | 4930 | 205,4 | 89,1 | 0,35 |
| Mehmanxanalar və restoranlar | 27 | 2053 | 313,9 | 62,7 | 2,32 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 81 | 4318 | 509,3 | 724,8 | 8,95 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 125 | 7087 | 2051,0 | 411,4 | 3,29 |
| Təhsil | 26 | 1334 | 146,8 | 5,3 | 0,2 |
| Səhiyyə və sosial xidmətlər | 12 | 655 | 294,4 | 4,2 | 0,35 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 15 | 963 | 237,1 | 16,2 | 1,1 |

*Q e y d: AR DSK-nin materialları və müəllifin hesablamaları əsasında tərtib edilmişdir.

Müasir Azərbaycanda sahibkarlıq strukturlarının mütləq əksəriyyəti kiçik və orta müəssisələr kateqoriyasına (neftqazçıxarma sənayesi istisna olmaqla) aiddir. Bunun ən əsas səbəblərindən biri Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsinin ikinci Dövlət Proqramının ləng həyata keçirilməsidir. Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatının bir sıra sahələrində qeyri-dövlət bölməsinin inkişafında mühüm irəliləyişlər olsa da, bir çox sənaye sahələrində sahibkarlığın inkişaf səviyyəsi aşağı olaraq qalmaqdadır. Belə ki, 2006-cı ildə bütövlükdə sənaye istehsalında qeyri-dövlət bölməsinin payı 74%, o cümlədən xam neft və təbii qaz hasilatında – 89,7%; mədənçıxarma sənayesinin digər sahələrində – 97,6%; rezin və plastik kütlə məmulatları istehsalında – 99,2%; hazır metal məmulatları istehsalında – 48,4%; geyim istehsalı, xəzin bəzənməsi və rənglənməsi sahəsində – 89,7%; toxuculuq sənayesində – 50,3% təşkil etmişdisə, kimya sənayesində bu göstərici 19,1%; metallurgiya sənayesində – 37,1%; maşın və avadanlıqların istehsalında – 42,6%; elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsində – 9,3%; ofis avadanlığı və hesablama texnikasının istehsalında – 1,2%; koksun və neftayırma məhsullarının istehsalında cəmi – 0,02% təşkil etmişdir [cədvəl 2.8]. Azərbaycanda hələ də dövlət mülkiyyətində olan bir çox sənaye müəssisələrinin bir sıra səbəblərdən (ənənəvi satış bazarlarının itirilməsi, əsas istehsal fondlarının fiziki və mənəvi aşınma səviyyəsinin yüksək olması, istehsal edilən məhsulların keyfiyyətinin aşağı olması səbəbindən onların reallaşdırılmasında meydana çıxan çətinliklər və s.), xüsusilə də onların yenidən qurulması üçün maliyyə vəsaitinin çatışmaması səbəbindən ya işləmədiyi, ya da qismən işlədiyi nəzərə alınarsa, bu sahədə sahibkarlığın inkişafının ləngiməsi müsbət hal kimi qiymətləndirilə bilməz. Cədvəl 2.8-dən göründüyü kimi Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna aid olan sənaye sahələrində sahibkarlığın formalaşması və inkişafı xüsusilə ləng gedir. Xam neft və təbii qaz sahəsində sahibkarlığın nisbətən inkişafı isə Xəzər dənizinin Azərbaycana məxsus hissəsində kəşf



edilmiş yataqların birgə işlənməsi üzrə yaradılmış ABƏŞ-nin və quruda fəaliyyət göstərən bəzi neftçıxarma idarələrinin və onların neft mədənlərinin bazasında yaradılmış MM-in və Əməliyyat Şirkətlərinin (ƏŞ) fəaliyyəti ilə bağlıdır [bax: V].

Qeyd etmək lazımdır ki, Azərbaycanın regionları üzrə də sahibkarlığın formalaşması və inkişafında qeyri-proporsionallıq mövcuddur. Sahibkarlıq strukturlarının, xüsusilə də sənayedə fəaliyyət göstərənlərin, mütləq əksəriyyəti Bakı şəhərində fəaliyyət göstərir. Hətta Azərbaycanın sənaye mərkəzləri kimi tanınan Sumqayıt və Gəncə şəhərlərində bu strukturların sayı olduqca azdır və artım tempi də çox aşağıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə həm hüquqi şəxslər, həm də hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar məşğul olur və onların sayı ilbəil artır: 2002-ci il yanvar ayının 1-nə olan məlumata görə Azərbaycanda bu kateqoriyaya aid olan fərdi sahibkarların sayı 106873 nəfər təşkil edirdisə onların sayı 2007-ci ilin müvafiq dövründə 2,3 dəfə artaraq 243479 nəfərə çatmışdır [cədvəl 2.9]. Onların 49,2%-i topdan və pərakəndə satış, avtomobillərin, mototsikletlərin, məişət mallarının və şəxsi əşyaların təmiri; 17,9%-i – nəqliyyat,anbar təsərrüfatı və rabitə; 9,5%-i – kənd təsərrüfatı, ovçuluq və meşəçilik; 5,9%-i – daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti; 3,4%-i – mədənçıxarma sənayesi və s. sahələrdə fəaliyyət göstərirlər.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda sahibkarlığın inkişafında müəyyən nailiyyətlər əldə edilsə də onun müasir vəziyyəti və inkişaf meyli ölkədə mövcud olan imkanlarla müqayisədə qənaətbəxş deyildir. ARDNŞ-nə daxil olan neftqazçıxarma idarələrinin işçiləri arasında aparılmış sor□unun nəticələri də belə qənaətə gəlməyə əsas verir. Belə ki, "Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyətini necə qiymətləndirsiniz?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 42,2%-i, "Balaxanıneft" NQÇİ-də rəyi soruşulanların isə 33,3%-i "qeyri-kafi" – cavabını vermişdir. Hər iki NQÇİ-də sahibkarlığın inkişafının mövcud

Cədvəl 2.8

Azərbaycanda sənaye istehsalının mülkiyyət formalarına görə strukturu (faizlə) [19.21]*

| | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Sənaye üzrə, cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| o cümlədən: | | | | | | | | |
| dövlət mülkiyyəti | 56,3 | 51,6 | 48,8 | 45,2 | 43,2 | 41,8 | 29,3 | 26,0 |
| qeyri- dövlət mülkiyyəti | 43,7 | 48,4 | 51,2 | 54,8 | 56,8 | 58,2 | 70,7 | 74,0 |
| Xam neft və təbii qaz hasilatı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 48,9 | 39,2 | 44,3 | 40,1 | 37,0 | 33,8 | 17,3 | 10,3 |
| qeyri- dövlət mülkiyyəti | 51,1 | 60,8 | 55,7 | 59,9 | 63,0 | 66,2 | 82,7 | 89,7 |
| Metal hissələrin hasilatı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 100 | 100 | 100 | 100 | 91,2 | 97,7 | 100 | 100 |
| qeyri- dövlət mülkiyyəti | - | - | - | - | 8,8 | 2,3 | - | - |
| Mədənçıxarma sənayesinin digər sahələri | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 19,9 | 29,5 | 9,7 | 11,8 | 8,1 | 6,5 | 2,8 | 2,4 |
| qeyri- dövlət mülkiyyəti | 80,1 | 70,5 | 90,3 | 88,2 | 91,9 | 93,5 | 97,2 | 97,6 |
| Toxuculuq sənayesi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 44,1 | 49,2 | 28,3 | 37,1 | 44,2 | 50,4 | 36,5 | 49,7 |
| qeyri- dövlət mülkiyyəti | 55,9 | 50,8 | 71,7 | 62,9 | 55,8 | 49,6 | 63,5 | 50,3 |
| Geyim istehsalı, xəzin bəzənməsi və rənglənməsi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 10,1 | 13,7 | 6,2 | 16,5 | 37,5 | 22,0 | 5,9 | 10,3 |
| qeyri- dövlət mülkiyyəti | 89,9 | 86,3 | 93,8 | 83,5 | 62,5 | 78,0 | 94,1 | 89,7 |
| Koksun və neftayırma məhsullarının istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 99,9 | 99,9 | 99,9 | 99,5 | 99,4 | 99,3 | 99,6 | 99,98 |
| qeyri- dövlət mülkiyyəti | 0,1 | 0,1 | 0,1 | 0,5 | 0,6 | 0,7 | 0,4 | 0,02 |
| Kimya sənayesi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 93,6 | 82,6 | 83,3 | 82,6 | 74,0 | 77,3 | 69,4 | 80,9 |
| qeyri- dövlət mülkiyyəti | 6,4 | 17,4 | 16,7 | 17,4 | 26,0 | 22,7 | 30,6 | 19,1 |
| Rezın və plastik kütlə məmulatlarının istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 77,8 | 56,8 | 14,7 | 24,7 | 2,4 | 2,1 | 1,3 | 0,8 |
| qeyri- dövlət mülkiyyəti | 22,8 | 43,2 | 85,3 | 75,3 | 97,6 | 97,9 | 98,7 | 99,2 |
| Metallurgiya sənayesi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 66,5 | 84,1 | 45,7 | 18,9 | 54,1 | 52,7 | 57,9 | 62,9 |
| qeyri- dövlət mülkiyyəti | 33,5 | 15,9 | 54,3 | 81,1 | 45,9 | 47,3 | 42,1 | 37,1 |
| Hazır metal məmulatlarının istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 89,7 | 83,0 | 71,7 | 78,4 | 42,8 | 35,8 | 37,1 | 51,6 |
| qeyri- dövlət mülkiyyəti | 10,3 | 17,0 | 28,3 | 21,6 | 57,2 | 64,2 | 62,9 | 48,4 |
| Maşın və avadanlıqların istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 92,6 | 84,4 | 96,3 | 98,2 | 76,6 | 60,9 | 66,9 | 57,4 |
| qeyri- dövlət mülkiyyəti | 7,4 | 15,6 | 3,7 | 1,8 | 23,4 | 39,1 | 33,1 | 42,6 |
| Ofis avadanlığı və hesablama texnikasının istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 100,0 | 100,0 | 82,8 | 100,0 | 80,4 | 92,0 | 99,3 | 98,8 |
| qeyri- dövlət mülkiyyəti | - | - | 17,2 | - | 19,6 | 8,0 | 0,7 | 1,2 |
| Elektrik maşınları və elektrik avadanlıqlarının istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 85,7 | 67,3 | 53,8 | 78,2 | 67,7 | 71,2 | 40,4 | 46,2 |
| qeyri- dövlət mülkiyyəti | 14,3 | 32,7 | 46,2 | 21,8 | 32,3 | 28,8 | 59,6 | 53,8 |



Cədvəl 2.8-in ardı

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| Radio, televiziya, rabitə cihazlarının istehsalı | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 43,5 | 56,2 | 83,0 | 81,4 | 75,9 | 69,9 | 30,0 | 24,9 |
| qeyri- dövlət mülkiyyəti | 56,5 | 43,8 | 17,0 | 18,6 | 24,1 | 30,1 | 70,0 | 75,1 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət mülkiyyəti | 99,9 | 99,8 | 99,0 | 94,2 | 91,1 | 89,9 | 90,4 | 90,7 |
| qeyri- dövlət mülkiyyəti | 0,1 | 0,2 | 1,0 | 5,8 | 8,9 | 10,1 | 9,6 | 9,3 |

*Q e y d: AR DSK-nin məlumatları əsasında tərtib edilmişdir.

Cədvəl 2.9

Azərbaycan Respublikasında hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların sayı (yanvarın 1-nə) [17,19,21]*

| | 2002-ci il | | 2005-ci il | | 2007-ci il | |
|---|---|---|---|---|---|---|
| | nəfər | % | nəfər | % | nəfər | % |
| Cəmi, nəfər: | 106873 | 100,0 | 183668 | 100,0 | 243479 | 100,0 |
| o cümlədən: | | | | | | |
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 3469 | 3,2 | 15100 | 8,2 | 23185 | 9,5 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsi, emal sənayesi | 2924 | 2,8 | 6064 | 3,3 | 8153 | 3,4 |
| Elektrik enerjisi, qaz və su təchizatı | 145 | 0,1 | 97 | 0,1 | 69 | 0,0 |
| Tikinti | 530 | 0,5 | 711 | 0,4 | 1622 | 0,7 |
| Topdan və pərakəndə satış, avtomobillərin, motosikletlərin, məişət malları və şəxsi əşyaların təmiri | 73332 | 68,6 | 111329 | 60,6 | 119883 | 49,2 |
| Mehmanxanalar və restoranlar | 3458 | 3,2 | 7568 | 4,1 | 10103 | 4,2 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 9444 | 8,8 | 16484 | 9,0 | 43503 | 17,9 |
| Maliyyə vasitəçiliyi | 85 | 0,1 | 358 | 0,2 | 486 | 0,2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 6795 | 6,4 | 12256 | 6,7 | 14399 | 5,9 |
| Təhsil | 146 | 0,1 | 432 | 0,2 | 573 | 0,2 |
| Səhiyyə və sosial xidmətlər | 793 | 0,8 | 1319 | 0,7 | 1445 | 0,6 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 5684 | 5,3 | 11891 | 6,5 | 19980 | 8,2 |
| Muzdlu xidmət | 68 | 0,1 | 69 | 0,04 | 78 | 0,0 |

*Q e y d: AR DSK-nin məlumatları əsasında tərtib edilmişdir.

vəziyyətini "qeyri-kafi" qiymətləndirənlərin mütləq əksəriyyəti ali təhsilli mütəxəssislərdir.

"Sizcə sahibkarlığın inkişafına mane olan başlıca səbəblər hansılardır?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 22,8%-i "Maliyyə çatışmazlığı, kredit almaq imkanının olmaması"; 17,0%-i – "Özəlləşdirmədə buraxılan səhvlər"; 15,8%-i – "Qanunlara riayət edilməməsi, sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələr"; 13,6%-i – "Haqsız rəqabət, inhisarçılıq"; 10,5%-i – "Vergi yükünün ağırlığı"; "Balaxanıneft" NQÇİ-də rəyi soruşulanların 29,7%-i – "Özəlləşdirmədə bıraxılan səhvlər"; 17,6%-i – "Maliyyə çatışmazlığı"; 12,1%-i – "Sahibkarlıq fəaliyyəti üçün məqbul hüquqi-iqtisadi mühitin olmaması" və s. cavablarını vermişlər [Əlavə 4].

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanda:

- sahibkarlığın formalaşması və inkişafı üçün yaradılmış hüquqi-iqtisadi mühit iqtisadiyyatda şəxsi təşəbbüsün genişlənməsi üçün kifayətedici səviyyədə deyildir;
- milli sahibkarlığın inkişafı üçün prioritet (üstün) sahələr və istiqamətlər müəyyənləşdirilməyib;
- yanacaq-enerji sahələrindən fərqli olaraq digər sahələrdə sahibkarlığın inkişafı üçün mövcud imkanlardan istifadə edilmir;
- regionlarda sahibkarlığın inkişafına kifayət qədər diqqət yetirilmir, sahibkarlığın inkişafı üçün regionlarda mövcud olan potensial və yerli xüsusiyyətlər nəzərə alınmır;
- bütövlükdə ölkə iqtisadiyyatının inkişafı üçün dövlətin və sahibkarlığın imkanlarının birləşdirilməsi üçün ümummilli, birgə fəaliyyət proqramı işlənib hazırlanmamışdır;
- sahibkarlığın inkişafına dövlət yardımının həcminin son illər artmağa doğru meyl etməsinə baxmayaraq onun mütləq miqdarı azdır və bir çox hallarda bu vəsaitdən təyinatına uyğun və səmərəli istifadə edilmir;
- fəaliyyət göstərən sahibkarlıq strukturları sırasında istehsal yönümlülərin xüsusi çəkisi, ənənəvi olaraq azdır, onların artım tempi çox aşağıdır və sabit deyildir;
- qeydə alınmış sahibkarlıq strukturlarının fəaliyyət



əmsalı çox aşağıdır;

Araşdırmalar və təhlillər göstərir ki, Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyətinin qeyri-qənaətbəxş olmasının bir sıra obyektiv və subyektiv səbəbləri vardır ki, fikrimizcə, onların əsasları aşağıdakılardır:

- sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı üçün əlverişli hüquqi-iqtisadi mühitin formalaşmaması, bu sahədə bürokratik əngəlliklərin mövcudluğu;
- sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün potensial sahibkarların ilkin kapital yığımının olmaması və ya azlığı;
- kreditlərin alınması prosedurunun mürəkkəbliyi, kreditlərin qısa müddətli, faiz dərəcələrinin yüksək olması, kredit təşkilatlarının əsasən Bakıda yerləşməsi;
- kredit alınması üçün girov qoyulması şərtlərinin ağırlığı və tələb olunan girovun məbləğinin alınacaq kreditin məbləğinə nisbətən həddindən çox olması;
- istehsal sahibkarlığının inkişafı üçün tələb olunan resursların əldə edilməsi imkanlarının məhdudluğu (onların ölkədə kifayət qədər olmaması səbəbindən), onların əldə edilməsi yolları haqqında müfəssəl informasiyanın çatışmazlığı;
- istehsal sahibkarlığının həyata keçirilməsi üçün tələb olunan xammal və materialların, yanacağın qiymətinin artım tempinin istehsal edilən məhsulların qiymətlərinin artım tempini üstələməsi;
- əhalinin alıcılıq qabiliyyətinin aşağı olması, istehsal edilən məhsulların reallaşdırılmasının çətinliyi, sahibkarlıq subyektlərinin dövlət sifarişlərini almaq imkanlarının məhdudluğu;
- ölkədə sağlam rəqabət mühitinin formalaşmaması, demək olar ki, bütün fəaliyyət sahələrində inhisarçılığın mövcudluğu, iqtisadi şəraitin qeyri-müəyyənliyi;
- xarici istehsalçılar tərəfindən yüksək rəqabətin olması, ölkə iqtisadiyyatının inkişafına, onun xaricdən asılılığının azaldılmasına yönəlmiş tədbirlərin qeyri-səmərəliliyi;
- sahibkarlıq fəaliyyətinə qeyri-qanuni, kənar müdaxilələr

və onların mütəmadi xarakter alması;

- vergi qanunvericiliyində, vergi strukturlarının fəaliyyətində müəyyən irəliləyişlərin olmasına baxmayaraq vergi yükünün hələ də ağır olması, vergi yoxlamalarının tezliyi və qeyri-obyektivliyi;
- sahibkarlığın dövlət tənzimlənməsinin həyata keçirilməsi və sahibkarlığa yardım məqsədi ilə yaradılmış dövlət strukturlarının qeyri-səmərəli fəaliyyəti;
- sahibkarların biznes sahəsində lazımı biliyə və təcrübəyə malik olmaması, kadr çatışmazlığı;
- ölkə ərazisinin 20%-nin işğalı, milyona yaxın qaçqın və köçgün ordusunun mövcudluğu, onlara yardım məqsədi ilə büdcə vəsaitinin xeyli hissəsinin sərf edilməsinin məcburiliyi;
- sahibkarlıq strukturlarının xarici iqtisadi əlaqələrinin yaradılmasında mövcud olan bürokratik əngəlliklər və s.

Aparılmış təhlillər və araşdırmalar Azərbaycanda sahibkarlığın inkişafı üçün kifayət qədər potensial imkanların olduğunu göstərir. Bu imkanların reallaşdırılması, sahibkarlığın inkişafının təmin edilməsi müvafiq proqramların tərtib edilib həyata keçirilməsini zəruri edir.

## §5. Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının qiymətləndirilməsi

Azərbaycanın ən qədim və inkişaf etmiş sənaye sahələrindən biri neftqazçıxarmadır. Azərbaycan sənayesində sahibkarlığın inkişafı tarixi də, demək olar ki, bu sənaye sahəsi ilə bağlıdır.

Azərbaycanda neftin hasilatı tarixi XIII əsrin əvvəllərinə təsadüf edir. Ancaq XIX əsrin 70-ci illərinə qədər ölkəmizdə neft hasilatı primitiv üsullarla həyata keçirilirdi və onun həcmi o qədər də çox deyildi. XIX əsrin 60-cı illərindən etibarən Çar Rusiyasında aparılan iqtisadi islahatlar Azərbaycana da sirayət etmişdi. Rusiya Çarının 17 fevral 1872-ci il tarixli fərmanı ilə Bakıda neftli sahələrin dövlət tərəfindən ayrı-ayrı şəxslərə icarəyə



verilməsinə başlandı və bu tarixdən etibarən Azərbaycanın neftqazçıxarma sənayesində sahibkarlığın formalaşması və inkişafı yeni mərhələyə qədəm qoydu [106]. Dövlətə məxsus 332 desyatin neft sahəsinin hərraca qoyulub satılması da neft hasilatının artmasına yeni bir təkan verdi. Abşeronda fəaliyyət göstərən neft quyularının 80%-i sahibkarların əlinə keçdi və neft sənayesində icbari əmək ləğv edildi [105].

Çar Rusiyasında islahatların həyata keçirilməsi və Azərbaycanın Abşeron regionunda neft hasilatının təkmilləşməsi və genişlənməsi xarici sahibkarların diqqətini cəlb etdi. 1878-ci ildə Robert Nobel öz qardaşları ilə birgə Bakıda "Nobel qardaşları neft şirkəti" səhmdar cəmiyyətini yaratdı. Bakıda neftayırma zavodları tikilməyə, hasil və emal olunan neft məhsullarının dəmir yolu və Volqa çayı vasitəsilə Qara dəniz limanlarına, oradan da dünya bazarlarına çıxarılmasına başlandı. 1896-cı ildə Binəqədineft mədənində ilk dəfə olaraq burazlı zərbə üsulu ilə o vaxtlar dünyada ən dərin quyu – dərinliyi 403 m olan 1004 nömrəli quyu – qazıldı və beləliklə də, Azərbaycanda sənaye üsulu ilə neftçıxarmanın əsası qoyuldu [30].

Xarici sahibkarların Azərbaycana gəlişi ilə neft sənayesində azərbaycanlı sahibkarların sıxışdırılmasına başlandı. 1870-ci ildə Azərbaycanın bütün neft mədənlərinin 88%-i azərbaycanlı sahibkarların əlində cəmləşdiyi halda, XX əsrin əvvəllərində neft sənayesinin yalnız üçdə bir hissəsi azərbaycanlılara məxsus idi. Azərbaycanda hasil edilən neftin həcm etibarı ilə ən böyük hissəsinə Nobel qardaşları, Simens və Rotşild nəzarət edirdi [30]. Ancaq milli sahibkarlar üçün əsas təhlükəni Nobel qardaşları yaradırdı. Bu təhlükəni minimuma endirmək üçün Bakı firmaları birliklər yaratmağa çalışırdılar. Bu məqsədlə 1898-ci ildə M.Nağıyev, H.Z.Tağıyev və Ş.Əsədullayev Paris bank evi "Rotşild qardaşları" ilə iş birliyi quraraq Nobelə qarşı blok yaratdılar.

XIX əsrin sonlarında manufakturadan maşın sənayesinə keçidin və texniki yenidənqurmanın başa çatması, ucuz işçi qüvvəsinin və iri kapitalın mövcudluğu Bakı neftinin dünya bazarında mövqelərinin möhkəmlənməsinə imkan yaratdı. XIX

əsrin sonunda Bakı neft hasilatının səviyyəsinə görə dünyada birinci yerə çıxdı: 1895-ci ildə Bakıda 426 mln pud neft hasil edilmişdir ki, bu da Amerikada hasil edildiyindən (420 mln pud) çox idi.

Neft sənayesindən əldə olunan gəlirlər milli sahibkarlığın digər sahələrinin, xüsusilə də toxuculuq, yeyinti və elektrik enerjisi sahələrinin, ticarətin inkişafına da şərait yaradırdı. 1913-cü ildə Bakıda 20 stabil firma fəaliyyət göstərirdi ki, onların sırasında 6 iri sənaye qrupu vardı. Nobel, Rotşild və digər 2 firma ilə birlikdə "Musa Nağıyev" və "Şəmsi Əsədullayev" cəmiyyətləri Rusiyada neft emalının 60%-nə nəzarət edirdi [62].

1920-ci ildə Azərbaycanda Sovet hakimyyətinin qurulması ilə xüsusi mülkiyyət ləğv edildi və neft sənayesi milliləşdirildi. Ancaq vətəndaş müharibəsi nəticəsində tənəzzülə uğramış və hələ də hasilatın əsasən kustar üsullarla həyata keçirilməsinin üstünlüyü şəraitində neft sənayesinin bərpası və inkişafı üçün Sovet hökumətinin lazımi vəsaiti yox idi. Buna görə də Sovet hökuməti neft mədənlərinin konsessiyaya verilməsi qərarına gəldi. Ancaq Azərbaycanda Konsessiya Komitəsinin olmasına baxmayaraq konsessiya müqavilələri SSRİ Konsessiya Komitəsi və Zaqafqaziya Konsessiya Komitəsi tərəfindən bağlanırdı və bu zaman Azərbaycanın mövqeləri nəzərə alınmırdı. Konsessiya müqavilələri Azərbaycanın neft sənayesinin bərphsına və inkişafına kömək etsə də, ölkə sərvətlərinin talanmasına da imkan yaradırdı.

Neft hasilatının qədim tarixinə baxmayaraq Azərbaycanın öz neft sərvətlərinin idarə edilməsi üzrə təcrübəsi o qədər də çox deyildir. 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra öz təbii sərvətlərinə, o cümlədən neftə, sərəncam vermək və onları idarə etmək hüququnu da əldə etmişdir. Bu vaxtdan etibarən Azərbaycanda sahibkarlığın inkişafının yeni mərhələsi başlanmışdır. Azərbaycanda neftqazçıxarma sənayesinin inkişafında Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı Azəri-Çıraq-Günəşli (AÇG) yataqlar qrupunun birgə işlənməsi üzrə 20 sentyabr 1994-cü ildə xarici neft şirkətləri ilə 30 illik müddəti nəzərdə tutan "Əsrin müqaviləsi"nin imzalanmasının xüsusi rolu



olmuşdur. 10 milyard dollar həcmində investisiya qoyulmasını nəzərdə tutan bu müqavilə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi ilə yanaşı ölkəmizə əlavə investisiyaların yatırılması üçün əlverişli mühitin yaradılmasında da mühüm rol oynamışdır. Hasilatın pay bölgüsü ("Prodakşin Şerinq") əsasında imzalanmış bu sazişin həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmış və onun fəaliyyəti üç mərhələdən ibarət müəyyənləşdirilmişdir: məcburi işlərin minimum proqramı, ilkin neft layihəsi, yataqların tam miqyaslı işlənməsi.

Birinci mərhələdə dənizdə üç ölçülü seysmik tədqiqatların aparılması, sahənin tədqiq olunması, ətraf mühitin ilkin vəziyyətinin tədqiq edilməsi,"Dədə Qorqud" qazma qurğusunun modernləşdirilməsi, "Çıraq-1" platformasının qiymətləndirilməsi və s. işlərin görülməsi nəzərdə tutulurdu.

İkinci mərhələdə isə əsasən xam neftin istehsalına başlamaqla onu dünya bazarına çıxarmaq və Xəzərin Azərbaycan sektorundakı yataqlarının işlənməsinin mümkünlüyünü nümayiş etdirməkdən ibarət idi. Bu mərhələ Azərbaycan neft sənayesinin infrastrukturunun Qərb standartları səviyyəsində modernləşdirilməsini nəzərdə tuturdu.

Hal-hazırda birinci və ikinci mərhələlər üzrə işlər başa çatdırılmış və üçüncü mərhələ üzrə işlərə başlanmışdır.

1994-cü ildə AÇG yataqlarının birgə işləməsi üzrə Hasilatın pay bölgüsü haqqında sazişin imzalanması və bu prosesə xarici şirkətlərin cəlb edilməsi ilə Azərbaycanın neftqazçıxarma sənayesində dövlət sahibkarlığı ilə yanaşı qeyri-dövlət sahibkarlığının fəaliyyətinin əsası qoyuldu. AÇG yataqları üzrə Hasilatın pay bölgüsü sazişinin (HPBS) imzalanması Azərbaycanın digər neft və qaz yataqlarının birgə işləməsi üzrə sazişlərin imzalanmasına da təkan verdi. Hal-hazırda Azərbaycanın neft və qaz yataqlarının işləməsi üzrə xarici şirkətlərlə 22 HPBS imzalanmışdır [bax: cədvəl 2.10 və 2.11].

Azərbaycanın HPBS-ləri mənfəət neftinin podratçı və sahib ölkə hökuməti arasında bölüşdürülməsi prinsipi əsasında fəaliyyət göstərir. Bu prinsipə görə mənfəətin bölmşdürülməsindən

əvvəl podratçıya investisiya xərclərinin (əməliyyat və kapital xərcləri) özünə qaytarılmasına icazə verilir. Konsorsium şirkətlərinin öz investisiyalarını faizlə birlikdə qaytarana qədər Azərbaycanın ən iri AÇG yataqlar blokundan alınan mənfəətin yarısı konsorsiuma ödəniləcəkdir. HPBS-nə görə konsorsium üzvlərinin investisiyalarının qaytarılması sürəti 2001-ci ildəki 569 mln dollardan 2010-cu ildəki 3 mln dollara qədər yüksəlməlidir. Neftin qiyməti yüksəldikcə kapital xərclərinin qaytarılması müddəti azaldılacaqdır. İstismar xərcləri ödənildikdən sonra hasil olunmuş neftin qalığının 50%-i kapital xərclərinin ödənilməsinə yönəldiləcəkdir. Qalan 50% gəlirlilik norması nəzərə alınmaqla Azərbaycan hökuməti ilə konsorsium üzvüləri arasında bölüşdürüləcəkdir. İnvestisiyaların gəlirlilik norması yüksəldikcə Azərbaycan tərəfinin payı da artacaqdır.

Ehtimal olunur ki, 30 il ərzində neft müqavilələri üzrə gözlənilən 1150 mln ton neft hasilatının 23-24%-i maliyyə məsrəflərinin örtülməsinə yönələcək, qalan 880 mln ton neftin təqribən 67-70%-i və ya 605 mln tonu Azərbaycanın payına, 275 mln tonu isə podratçıların payına düşür.

Azərbaycan hökuməti, yerli şirkətlər neft müqavilələrindən əlavə olaraq birbaşa və dolayı yolla gəlir götürəcəklər. Qeyd etmək lazımdır ki, neft müqavilələrinə qoyulan investisiyaların xeyli hissəsi dolayı yolla Azərbaycana çatacaq. Bunlar neft konsorsiumlarında çalışanların gəlirlərinə qoyulan vergilərdən, neftin nəqli zamanı veriləcək haqdan, habelə müxtəlif obyektlərin, avadanlıqların icarə haqqından və s. ibarət olacaqdır.

Cədvəl 2.10 və cədvəl 2.11-dən göründüyü kimi bağlanmış HPBS-də Azərbaycanın payı müxtəlifdir. Qeyd etmək lazımdır ki, neft müqavilələrində hər bir şirkət hasilatdakı payına uyğun olaraq investisiya qoyuluşunda iştirak edəcəkdir.

Azəri-Çıraq-Günəşli yataqları qrupu üzrə bağlanmış "Əsrin müqaviləsi"nə görə ARDNŞ-nın payı – 10%; ABŞ-nın "Unocal" şirkətinin payı – 10,04%; "Exson-Mobil" şirkətinin payı – 8,0%; "Penzolun" payı – 4,82%; Norveçin "Statoil" şirkətinin payı – 8,56%; Türkiyənin "TPAO" şirkətinin payı – 6,75%;



Cədvəl 2.10

Azərbaycanın xarici şirkətlərlə HPBS əsasında dəniz neft müqavilələri [61. səh.211; 23. səh.147-150]*

| Tarix** | Dəniz neft yataqları | ARDNŞ-nin və xarici şirkətlərin pay bölgüsü (ümumidə faizlə) |
|---|---|---|
| 20.09.94<br>12.12.94 | Azəri-Çıraq-Günəşli | ARDNŞ (10); BP (34.1367); Unocal (10.04); Lukoil (10.0000); Statoil (8.5633); Excon Mobil (8.0006); TPAO (6.7500); Penzoyl (4.82); İtoçhu (3.9205); Ramko (2.08); Delta (1.6800) |
| 10.11.95<br>23.02.96 | Qarabağ | ARDNŞ (7.5); Lukoil (32.5); Penzoyl (30.0); Agip(30) |
| 04.06.96<br>04.10.96 | Şah-Dəniz | ARDNŞ (10); BP (25.5); Statoil (25.5); Lukoil (10); Elf (10); OIEC (10); TPAO (9) |
| 14.12.96<br>25.02.97 | Dan Ulduzu / Əşrəfi | ARDNŞ (20); Unocal (25.5); Amoko (30); İtoçhu (20); Delta (4.5) |
| 13.01.07<br>13.06.97 | Lənkəran-Dəniz<br>Talış-Dəniz | ARDNŞ (25); Elf (46); Total (10); Deminex (10); OIEC (10); Petrofina (5) |
| 03.07.97<br>04.11.97 | Yalama<br>(D – 222) | ARDNŞ (40); Lukoil (32.4); Arko (27.6) |
| 01.08.97<br>14.11.97 | Abşeron | ARDNŞ (50); Chevron (30); Total (20) |
| 01.08.97<br>07.11.97 | Naxçıvan | ARDNŞ (50); Excon Mobil (50) |
| 01.08.97<br>11.11.97 | Oğuz | ARDNŞ (50); Excon Mobil (50) |
| 03.06.98<br>02.07.98 | Kürdaşı, Araz-Dəniz, Kirgan-Dəniz | ARDNŞ (50); Acip (25); Mistul (15); TRAO(5); Repsol (5) |
| 21.07.98<br>01.12.98 | İnam və<br>D – 35 | ARDNŞ (40); Amoko (30); Monument (25); ÖOE (10) |
| 21.07.98<br>18.12.98 | Araz, Alov, Şərq | ARDNŞ (40); BP (15); Statoil (15); TRAO(10); Alberta Energy (5); Excon Mobil (15) |
| 25.12.98<br>11.06.98 | Atəşgah, Yanan-Tava, Muğan-Dəniz | ARDNŞ (50); JAPEKS (22.5); INPEKS (12.5); İtoçhu (7.5); Telkoku (7.5) |
| 27.04.99 | Savalan, Dalğa, Lerik-Dəniz, Cənub | ARDNŞ (50); Excon Mobil (30) ? (20) |
| 27.04.99<br>21.04.2000 | Zəfər, Məşəl | ARDNŞ (50); Excon Mobil (30) ? (20) |
| 27.04.99<br>21.04.2000 | "Padar" sahəsi | ARDNŞ (20); Monkrift OYL (64); ISR OYL (16) |

Q e y d: * LUKOIL liayihədəki payını INPEKS-ə satmışdır.
** Müqavilənin imzalandığı tarix və Milli Məclisdə təsdiq olunduğu tarix.

Cədvəl 2.11

Azərbaycanın quru yataqları üzrə xarici şirkətlərlə neft müqavilələri [61. səh.212, 77; 23. səh.147-150]*

| Kontraktın növü | İmzalanma tarixi və təsdiq olunma tarixi | Yatağın adı | İştirakçılar | ƏŞ-nin MM-nin adı |
|---|---|---|---|---|
| MM | 25.02.1993 | Neftçala Xilli<br>Xilli Babazan Durovdağ | ARDNŞ (51%)<br>Atilla Doğan (31,8%)<br>Land and General Berxard (17,2%) | Anşad "Petrol" MM |
| MM | 08.11.1994 | Romana (Balaxanı) | ARDNŞ (40%)<br>Grunnewald (60%) | "Azqerneft" MM |
| HPBS | 12.09.2000<br>25.10.2000 | Kələməddin Mişovdağ | ARDNŞ (15%)<br>Nations Enerji (85%) | "Qarasu" ƏŞ |
| MM | 22.03.1995 | Kürovdağ | ARDNŞ (50%)<br>Vaytxol (51%) | "Şirvan OYL" MM |
| HPBS | 02.06.1988<br>13.11.1998 | Cənub-şərqi Qobustan | ARDNŞ (20%)<br>CNPC (80%) | "Qobustan" ƏŞ |
| HPBS | 13.12.1998<br>16.04.99 | Kürsəngi Qarabağlı | ARDNŞ (50%)<br>CNODC (25%)<br>ARDNŞ ONŞ (25%) | "Salyan OYL" ƏŞ |
| MMC | 2004 | Pirsaat | ARDNŞ (20%)<br>SETQ Lİ (50%)<br>Yeni podratçılar (30%) | "Az-Şenq-Li" |
| HPBS | 29.09.2004<br>29.04.2005 | Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ, Sianşor | ARDNŞ,<br>AZEN,<br>ARDNŞ ONŞ | "Binəqədi OYL Kompani" MM |
| HPBS | 5.11.2004<br>29.04.2005 | Kürovdağ | ARDNŞ, KEO,<br>ARDNŞ ONŞ | |
| HPBS | 18.07.2004<br>29.04.2005 | Qaraçuxur (Suraxanı) | ARDNŞ, NOBİ,<br>ARDNŞ ONŞ | "Rafi OYL FZE" MM |

Q e y d: * MM - müştərək müəssisə; HPBS – Hasilatın pay bölgüsü sazişi



Yaponiyanın "İtoçhu" şirkətinin payı – 3,92%; İtaliyanın "Ramko" şirkətinin payı – 2,08% və Səudiyyə Ərəbistanının "Delta" şirkətinin payı – 1,68% təşkil edir. Bu müqavilədə Rusiya Federasiyasının "LUKOİL" şirkəti 10,0%-lik paya malik idi. Ancaq o, öz payını Yaponiyanın İNPEKS şirkətinə satmışdır.

"Əsrin müqaviləsi" üzrə AÇG yataqlar qrupundan ilkin olaraq 540 mln ton hasil ediləcəyi nəzərdə tutulurdu. Ancaq sonradan aparılan dəqiqləşdirilmələr nəticəsində buradan 630 mln tona qədər neftin və 90 mln $m^3$-ə qədər səmt qazının hasil ediləcəyi ehtimal olunur. Bu yataqların işlənməsi üzrə investisiya xərcləri ilkin olaraq 8 mln, sonralar 10 mln ABŞ dolları məbləğində qiymətləndirilirdi. Son dəqiqləşdirmələrə görə investisiya xərclərinin məbləği 12 mln dollara çata bilər. AÇG yataqlar qrupu üzrə neft hasilatına 1997-ci ilin noyabr ayından başlanmışdır və artıq bu yataqlar qrupunun tam mənimsənilməsi mərhələsinə qədəm qoyulmuşdur.

"Qarabağ" yatağının işlənməsi üzrə Rusiyanın LUKOİL, İtaliyanın "Acıp" və ABŞ-nın "Penzol" şirkətləri ilə ARDNŞ arasında bağlanmış müqaviləyə əsasən 85-150 mln ton neft hasil edilməsi və bu məqsədlə 2 mln ABŞ dolları məbləğində investisiya qoyuluşu nəzərdə tutulurdu. Ancaq kəşfiyyat işlərinə 120 mln dollar xərcləndikdən və qazılan quyular neft vermədiyindən bu müqavilə üzrə işlər dayandırılmışdır.

"Şah-Dəniz" yatağının işlənməsi üzrə müqavilə 04.06.1996-cı ildə Böyük Britaniyanın BP, Norveçin "Statoyl", Rusiyanın "LUKOIL", Türkiyənin "TPAO", habelə İranın "OIEC" və Fransanın "EIF" şirkətləri ilə ARDNŞ arasında imzalanmışdır. Müqavilə 04.10.1996-cı ildə MM tərəfindən ratifikasiya edilmişdir. Bu yataqda neft ehtiyatı 100-200 mln ton, kondensant ehtiyatı 300 mln $m^3$ - 1 tril $m^3$, təbii qaz ehtiyatı 700 mln $m^3$ həcmində proqnozlaşdırılmışdır. Yatağın işlənməsi üçün 4 mln dollar investisiya qoyulacağı ehtimal edilir. Hal-hazırda yataqda kəşfiyyat işləri aparılır.

"Dan Ulduzu / Əşrəfi" yatağının işlənməsi üzrə müqavilə 14 dekabr 1996-cı ildə ABŞ-nın "Unocal" və "Amoko", Yaponiyanın "İTOÇHU", Səudiyyə Ərəbistanının "Delta" şirkətləri və ARDNŞ arasında imzalanmışdır (müqavilə 25.02.1997-ci ildə MM tərəfindən ratifikasiya edilmişdir). Yataqda 35–40 mln ton neftin və 20–25 mln $m^3$ təbii qazın olması ehtimal olunurdu. Yataqda qazılan kəşfiyyat quyuları gözlənilən nəticəni vermədiyindən müqavilə üzrə işlər dayandırılmışdır.

"Lənkəran-Dəniz", "Talış-Dəniz" yataqlarının birgə işlənməsi üzrə müqavilə 13.01.1997-ci ildə Fransanın "EIF", "Total", İranın "OIEC", Almaniyanın "Deminex", Belçikanın "Petrofina" şirkətləri ilə ARDNŞ arasında imzalanmışdır (13.06.1997-ci ildə MM tərəfindən ratifikasiya edilmişdir). Yataqlarda 50 mln ton neftin olması ehtimal edilir. Bu yataqların istismarı üçün 2 mln ABŞ dolları miqdarında investisiya qoyuluşu nəzərdə tutulur. Hal-hazırda yataqlarda kəşfiyyat işləri aparılır.

"Yalama" yatağının ABŞ-nın "Arko", ARDNŞ və Rusiyanın "LUKOIL" şirkətinin birgə istismar edəcəyi nəzərdə tutulur. Bu yataq üzrə müqavilə 03.07.1997-ci ildə imzalanmış və 04.11.1997-ci ildə MM tərəfindən ratifikasiya edilmişdir. Yataqda 100 mln ton neftin olduğu ehtimal edilir. Yatağın işlənməsi üçün 2–2.5 mln dollar investisiya qoyulması planlaşdırılır. Hal-hazırda yataqda kəşfiyyat işləri aparılır.

"Abşeron" yatağının birgə işlənməsi üzrə müqavilə 01 avqust 1997-ci ildə ABŞ-nın "Chevron", Fransanın "Total" şirkətləri ilə ARDNŞ arasında imzalanmışdır (11.11.1997-ci ildə MM tərəfindən ratifikasiya edilmişdir). Yataqda 220 mln ton neftin, 35 mln ton kondensatın və 385 mln $m^3$ təbii qazın olduğu ehtimal edilir. Yatağın işlənməsi üçün 3–4 mln dolların lazım olacağı proqnozlaşdırılır. Hal-hazırda yataqda kəşfiyyat işləri aparılır.

"Oğuz" və "Naxçıvan" yataqlarının ARDNŞ ilə ABŞ-nın "Exson Mobil" şirkətinin bərabər əsaslarla, birgə istismar etməsi



üzrə müqavilə 01 avqust 1997-ci ildə imzalanmışdır (07 və 14.11.1997-ci ildə MM tərəfindən ratifikasiya edilmişdir). Yataqda 140 mln ton neftin, 85 mln $m^3$ təbii qazın olduğu ehtimal edilir və onların işlənməsi üçün 4 mln dollar investisiya qoyulacağı planlaşdırılır. Hal-hazırda yataqlarda kəşfiyyat işləri aparılır.

"İnam" və D-35 yataqlarının ARDNŞ, ABŞ-nın "Amoko", Böyük Britaniyanın "Monument", ÖOE şirkətlərinin birgə işlədilməsinə dair müqavilə 21 iyul 1998-ci ildə imzalanmışdır (01.12.1998-ci ildə MM-də ratifikasiya edilmişdir). Bu yataqlardan 90–100 mln ton neft hasil ediləcəyi gözlənilir və bu məqsədlə 1,7–2 mln dollar vəsaitin sərf ediləcəyi proqnozlaşdırılır. Hal-hazırda bu yataqlarda kəşfiyyat işləri aparılır.

"Alov", "Araz", "Şərq" yataqlarının birgə işlənməsi üzrə müqavilə 21 iyul 1998-ci ildə ARDNŞ ilə Böyük Britaniyanın BP, Norveçin "Statoyl", ABŞ-nın "Exson Mobil", Türkiyənin "TPAO" şirkətləri arasında imzalanmışdır (18.12.1998-ci ildə MM-də ratifikasiya edilmişdir). Bu yataqlardan 1 mln $m^3$ təbii qazın hasil ediləcəyi və bu məqsədlə 9 mln dollar vəsaitin sərf ediləcəyi gözlənilir. Hal-hazırda bu yataqlarda kəşfiyyat işləri aparılır.

"Atəşgah", "Yanan-Tava", "Muğan-Dəniz" yataqlarının ARDN ilə Yaponiyanın 4 – "JAPEKS", "İNPEKS", "İtoçhu" və "Telkoku" şirkətləri ilə birgə istismarını nəzərdə tutan müqavilə 25 dekabr 1998-ci ildə imzalanmışdır (11.06.1998-ci ildə MM-də ratifikasiya edilmişdir). Bu müqavilə üzrə 75-90 mln ton neftin hasil ediləcəyi və 2,3 mln dollar investisiya yatırılacağı proqnozlaşdırılır. Hal-hazırda bu yataqlarda kəşfiyyat işləri aparılır.

"Savalan", "Dalğa", "Lerik-Dəniz", "Cənub" yataqlarının birgə işlənməsi üzrə müqavilə 27 aprel 1999-cu ildə ARDNŞ ilə ABŞ-nın "Exson Mobil" şirkəti arasında imzalanmışdır. Yataqlardan 100–120 mln ton neftin hasil ediləcəyi, investisiya xərclərinin təqribən 2 mln dollara çata biləcəyi proqnozlaşdırılır.

Bu müqavilə hələlik MM tərəfindən ratifikasiya edilməyib və hər hansı bir işin görülməsinə başlanmayıb. Müqavilə üzrə 20%-lik pay hələlik heç kimə verilməyib.

"Zəfər", "Məşəl" yataqlarının ARDNŞ ilə ABŞ-nın "Exson Mobil" şirkətinin birgə istismarına dair müqavilə 27 aprel 1999-cu ildə imzalanıb (21.04.2000-ci ildə MM-də ratifikasiya olunub). Yataqların istismarı üzrə 20%-lik pay hələlik heç kimə verilməyib. Bu yataqlardan 140 mln ton neft hasil ediləcəyi, investisiya xərclərinin 2 mln dollar olacağı proqnozlaşdırılır. Yataqlarda kəşfiyyat işlərinə başlanıb.

"Padar" sahəsindəki neft yataqlarının ARDNŞ ilə ABŞ-nın "Monkrift OYL" və "İSR OYL" şirkətləri ilə birgə istismarını nəzərdə tutan müqavilə 27 aprel 1999-cu ildə imzalanmışdır (09.06.2000-ci ildə MM-də ratifikasiya edilmişdir). Bu sahədən 30 mln ton neft hasil ediləcəyi, investisiya xərclərinin 0,5 mln dollara çatacağı proqnozlaşdırılır. Hal-hazırda yataqlarda kəşfiyyat, bərpa və istismara hazırlıq işləri həyata keçirilir.

Məlumdur ki, Azərbaycanın quruda yerləşən neftqaz yataqlarının mütləq əksəriyyəti əsrlərlə istismar edildiyindən tükənmək üzrədir. Bir çox köhnə yataqlarda hələ də müəyyən qədər neft ehtiyatları qalmaqdadır ki, onların da yerin səthinə çıxarılması üçün müasir texnika, texnalogiya və küllü miqdarda maliyyə vəsaiti tələb olunur. Hələlik Azərbaycan bu imkanlara malik olmadığından həmin yataqlarda qalan neftin hasilatı üçün xarici şirkətləri ölkəyə dəvət etmişdir. Hal-hazırda Azərbaycanın quruda yerləşən bir sıra neftqaz mədənlərinin birgə istismarı üzrə HPBS və 3 müştərək müəssisə, bir məhdud məsuliyyətli cəmiyyət yaradılmışdır (cədvəl 2.11).

"Cənub-Şərqi Qobustan" yatağının birgə istismarı üzrə HPBS 02 iyun 1998-ci ildə ARDNŞ ilə CNPC şirkəti arasında imzalanmışdır (13.11.1998-ci ildə MM-də ratifikasiya olunmuşdur). Yataqdan 15 mln ton neft, 25 mln $m^3$ səmt qazının hasil ediləcəyi proqnozlaşdırılır. Bu layihənin həyata keçirilməsi üçün 0,9 mln dollar vəsaitin sərf ediləcəyi nəzərdə tutulmuşdur. Layihənin idarə edilməsi üçün "Qobustan" ƏŞ yaradılmışdır.



"Kürsəngi" və "Qarabağlı" yataqlarının istismarı üzrə HPBS 15 dekabr 1998-ci ildə ARDNŞ, CNODC və ARDNŞ-nin Ortaq Neft Şirkəti (ONŞ) arasında imzalanmışdır (16.04.1999-cu ildə MM-də ratifikasiya edilmişdir). Bu yataqlardan 17 mln ton neft hasil ediləcəyi gözlənilir və 1 mln dollar investisiya qoyuluşu planlaşdırılır. Layihənin idarə edilməsi üçün "Salyan OYL" ƏŞ yaradılmışdır.

"Kəmaləddin" və "Mişovdağ" yataqlarının birgə istismarı məqsədi ilə ARDNŞ və Nations Enerji şirkəti arasında HPBS 12 sentyabr 2000-ci ildə imzalanmışdır (25.10.2000-ci ildə MM-də ratifikasiya edilmişdir). Bu yataqlarda 9,9 mln ton neft hasil ediləcəyi proqnozlaşdırılır və bu məqsədə 140 mln dollar vəsaitin sərf ediləcəyi gözlənilir. Bu saziş üzrə, eyni zamanda, bərpa, istismar və kəşfiyyat işləri həyata keçirilir. Layihənin həyata keçirilməsi üçün "Qarasu" ƏŞ yaradılmışdır.

"Binəqədi", "Qurməki", "Çaxnaqlar", "Sulutəpə", "Masazır", "Fatmai", "Şabandağ" və "Şianşor" yataqları üzrə HPBS 29 sentyabr 2004-cü ildə ARDNŞ, AZEN və ARDNŞ-nin Ortaq Neft Şirkəti (ONŞ) arasında imzalanmışdır (29 aprel 2005-ci ildə MM tərəfindən ratifikasiya edilmişdir). Bu saziş üzrə eyni zamanda bərpa və istismar işləri həyata keçirilir. Layihənin həyata keçirilməsi üçün "Binəqədi OYL Kompani" MM-si yaradılmışdır.

"Kürovdağ" neft yatağının daxil olduğu blokun bərpası və işlənməsi üzrə HPBS 5 noyabr 2004-cü ildə ARDNŞ, ONŞ və Böyük Britaniyanın Kaspian Enerji Qrup Limited ("KEO") şirkəti arasında imzalanmışdır (29 aprel 2005-ci ildə MM tərəfindən radifikasiya edilmişdir).

"Qaraçuxur" nefi yatağının daxil olduğu blokun bərpası və işlənməsi üzrə HPBS 18 iyul 2004-cü ildə ARDNŞ, ONŞ və "NOBİ" şirkəti arasında imzalanmışdır (29 aprel 2005-ci ildə MM-də ratifikasiya edilmişdir). Layihənin həyata keçirilməsi üçün "Rafi OYL FZE" MM-si yaradılmışdır.

Azərbaycanın quruda yerləşən neftqaz yataqlarının xarici şirkətlərlə birgə istismarı məqsədi ilə qeyd edilən HPBS-dən

başqa 25 fevral 1993-cü ildə "Neftçala Xilli", "Xilli", "Babazan" və "Durovdağ" yataqları əsasında ARDNŞ-nin və Türkiyənin "Atilla Doğan", eləcə də "Land and General Berxard" şirkətlərinin iştirakı ilə "ANŞAD Petoyl" müştərək müəssisəsi (MM); 08 noyabr 1994-cü ildə Romana yatağı əsasında ARDNŞ-ti ilə "Grunnewald" şirkətinin iştirakı ilə "Azgerneft" MM-si; 22 mart 1995-ci ildə "Kürovdağ" yatağı əsasında "ARDNŞ" və "Vaytxol" şirkətinin iştirakı ilə "Şirvanoyl" MM-si yaradılmışdır. Bunlardan Əlavə 2004-cü ildə ARDNŞ və "Şenqli" şirkətinin iştirakı ilə "Az-Şenq-Li" Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) yaradılmışdır.

Qeyd etmək lazımdır ki, 3 may 1991-ci ildə "Kəmaləddin" və "Mişovdağ" yataqlarının bir hissəsinin bərabər əsaslarla istismarı məqsədi ilə Azərbaycan-Türkiyə "Azərpetoyl" MM-si yaradılmışdı və o, 1992-ci ilin mart ayından fəaliyyətə başlamışdı. Ancaq bu MM 2002-ci ildən fəaliyyətini dayandırmışdır. Bundan əlavə ARDNŞ-nin xarici şirkətlərlə birgə yaratdığı "YKAS LTD" də qısa müddət ərzində (1996–1999-cu ildən) fəaliyyət göstərmişdir.

Azərbaycana məxsus olan və Xəzər dənizində yerləşən neft yataqlarının xarici şirkətlərlə birgə istismarını nəzərdə tutan HPBS-nin heç birində ARDNŞ nəzarət Səhm paketinə malik deyildir. Yalnız kəşfiyyat mərhələsində olan 7 HPBS-də Azərbaycanın payı həlalik 50% həcmindədir (cədvəl 2.10). Quruda yerləşən yataqların birgə istismarı üzrə bir HPBS-də Azərbaycanın payı 50%, digərlərində isə aşağıdır. MM-in yalnız birində ("ANŞAD Petoyl") nəzarət səhm paketi (51%) ARDNŞ-nə məxsusdur (cədvəl 2.11).

Qeyd etmək lazımdır ki, xarici şirkətlərlə neft müqavilələrinin bağlanması, xüsusilə də 1997-ci ilin noyabr ayında AGÇ yataqları qrupundan ilkin neftin hasil edilməsi ilə Azərbaycanın neftqazçıxarma sənayesinin inkişafında yeni mərhələ başlanmışdır. 1997-ci ilə qədər bu sənaye sahəsində geriləmələr olsa da, 1998-ci ildən etibarən yüksəliş baş verməkdədir. Belə ki, 1990-cı ildə Azərbaycanda 12,5 mln ton; 1991-ci ildə – 11,7 mln ton;



1992-ci ildə – 11,1 mln ton; 1993-cü ildə – 10,3 mln ton; 1994-cü ildə – 9,6 mln ton; 1995-ci ildə – 9,2 mln ton; 1996-cı ildə – 9,1 mln ton; 1997-ci ildə – 9,1 mln ton neft hasil edildiyi halda, artıq 1998-ci ildə – 11,4 mln ton; 1999-cu ildə – 13,8 mln ton (1990-cı il səviyyəsindən 10,4% çox); 2000-ci ildə – 14,1 mln ton (1990-cı il səviyyəsindən 12,0% çox); 2001-ci ildə – 14,9 mln ton (1990-cı il səviyyəsindən 19,2% çox); 2002-ci və 2003-cü illərdə – 15,3 mln ton (1990-cı il səviyyəsindən 22,4% çox), 2004-cü ildə – 15,5 mln ton (1990-cı il səviyyəsindən 24,0% çox), 2006-cı ildə – 32,3 mln ton (1990-cı il səviyyəsindən 2,6 dəfə çox) neft hasil edilmişdir (cədvəl 2.12).

1990-cı ildən etibarən Azərbaycanda qaz hasilatının ümumi həcmi ilbəil azalmağa doğru meyl etmişdir. Belə ki, 1990-cı ildə qaz hasilatının ümumi həcmi 9926 mln $m^3$; 1995-ci ildə – 6644 mln $m^3$; 2000-ci ildə – 5642 mln $m^3$; 2004-cü ildə – 5006,2 mln $m^3$ təşkil etmişdi. ABƏŞ, quruda fəaliyyət göstərən ƏŞ-ri və MM-lər 1998-ci ildən etibarən qaz hasilatının həcmini ilbəil artırsalar da, bu ümumi qaz hasilatının həcminin aşağı düşməsinin qarşısını ala bilməmişdi. Yalnız Xəzər dənizində yerləşən "Şahdəniz" qaz yatağı istismara verildikdən sonra qaz hasilatının həcmi artmağa başlamış və 2006-cı ildə 6825,2 mln $m^3$ qaz hasil edilmişdir (cədvəl 2.12).

Göründüyü kimi, 1998-ci ildən etibarən Azərbaycanda neft hasilatının ümumi həcminin artması ABƏŞ-nin və quruda fəaliyyət göstərən ƏŞ-nin, eləcə də MM-in fəaliyyəti ilə əlaqədardır – bu qeyri-dövlət strukturlarında neft hasilatının həcminin ilbəil artması müqabilində ARDNŞ-nin hasil etdiyi neftin həcmi ilbəil azalmağa doğru meyl edir. Bu əsasən, ARDNŞ-nın istismar etdiyi neft yataqlarının, xüsusilə də quruda yerləşən, əksəriyyətinin istismarının son mərhələsinin başlanması, yataqların getdikcə tükənməsi ilə əlaqədardır. Məhz buna görə də ARDNŞ qarşısında qoyulan əsas vəzifə hasilatın həcminin sabitləşdirilməsidir. ARDNŞ, özünün də iştirak etdiyi və quruda fəaliyyət göstərən ƏŞ-nın və MM-in fəaliyyəti nəticəsində son illər əsasən bu vəzifənin öhdəsindən gəlir [cədvəl 2.13].

Cədvəl 2.12

## Azərbaycanda neft və qaz hasilatı [19,23,25,61]*

| Göstəricilər | İllər | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| Ümumi neft hasilatı, min ton o cümlədən: | 12501 | 11703 | 11084 | 10295 | 9563 | 9161 | 9100 | 9171 | 11423 | 13806 | 14086 | 14897 | 15330 | 15381 | 15500 | 22214 | 32268 |
| ARDNŞ MM və HPBS | 12501 | 11703 | 11084 | 10295 | 9563 | 9161 | 9100 | 8556 | 8585 | 8328 | 8376 | 8254 | 8181 | 8033 | 8050 | 7943 | 7841,3 |
| (quruda) | – | – | – | – | – | – | – | 465 | 467 | 664 | 637 | 746 | 763 | 892 | 927 | 1024,4 | 1152,5 |
| ABƏŞ | – | – | – | – | – | – | – | 50 | 2371 | 4814 | 5073 | 5897 | 6386 | 6456 | 6503 | 13262,6 | 23276,8 |
| Ümumi qaz hasilatı, mln m³ o cümlədən: | 9926 | 8621 | 7872 | 6805 | 6379 | 6644 | 6305 | 5964 | 5589 | 5999 | 5642 | 5535 | 5144 | 5128 | 5006,2 | 5818,3 | 6825,2 |
| ARDNŞ MM və HPBS | 9926 | 8621 | 7872 | 6805 | 6379 | 6644 | 6305 | 5913 | 5192 | 5264 | 4936 | 4563 | 4097 | 4038 | 3880,5 | 3823,6 | 4341,2 |
| (quruda) | – | – | – | – | – | – | – | 51 | 47 | 92 | 78 | 84 | 95 | 115 | 119 | 107,0 | 114,8 |
| ABƏŞ | – | – | – | – | – | – | – | – | 351 | 643 | 643 | 899 | 959 | 1015 | 1006,5 | 1887,7 | 2369,2 |

*Qeyd: ARDSK-nin və ARDNŞ-nin məlumatları əsasında tərtib edilmişdir.



Cədvəl 2.13

## Azərbaycanda neft və qaz hasilatının dinamikası [21,23,25]*

| İllər | Neft hasilatı, mln ton | | | | | Qaz hasilatı, mln m³ | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | | |
| | | Dənizdə | Ümumi hasilata görə %-lə | Quruda | Ümumi hasilata görə %-lə | | Dənizdə | Ümumi hasilata görə %-lə | Quruda | Ümumi hasilata görə %-lə |
| 1990 | 12,5 | 9,9 | 79,2 | 2,6 | 20,8 | 9926 | 9525 | 96,0 | 401 | 4,0 |
| 1991 | 11,7 | 9,5 | 81,2 | 2,2 | 18,8 | 8621 | 8333 | 96,7 | 288 | 3,3 |
| 1992 | 11,1 | 9,1 | 82,0 | 2,0 | 18,0 | 7872 | 7634 | 97,0 | 238 | 3,0 |
| 1993 | 10,3 | 8,3 | 80,6 | 2,0 | 19,4 | 6805 | 6567 | 96,5 | 238 | 3,5 |
| 1994 | 9,6 | 7,8 | 81,3 | 1,8 | 18,7 | 6379 | 6143 | 96,3 | 236 | 3,7 |
| 1995 | 9,2 | 7,5 | 81,5 | 1,7 | 18,5 | 6644 | 6407 | 96,4 | 237 | 3,6 |
| 1996 | 9,1 | 7,5 | 82,4 | 1,6 | 17,6 | 6305 | 6066 | 96,2 | 239 | 3,8 |
| 1997 | 9,1 | 7,5 | 82,4 | 1,6 | 17,6 | 5964 | 5709 | 95,7 | 255 | 4,3 |
| 1998 | 11,4 | 9,8 | 86,0 | 1,6 | 14,0 | 5589 | 5338 | 95,5 | 251 | 4,5 |
| 1999 | 13,8 | 12,3 | 89,1 | 1,5 | 10,9 | 5999 | 5754 | 95,9 | 245 | 4,1 |
| 2000 | 14,0 | 12,5 | 89,3 | 1,5 | 10,7 | 5642 | 5411 | 95,9 | 231 | 4,1 |
| 2001 | 14,9 | 13,3 | 89,3 | 1,6 | 10,7 | 5535 | 5293 | 95,6 | 242 | 4,4 |
| 2002 | 15,3 | 13,8 | 90,2 | 1,5 | 9,8 | 5144 | 4898 | 95,2 | 246 | 4,8 |
| 2003 | 15,4 | 13,8 | 89,6 | 1,6 | 10,4 | 5128 | 4854 | 94,6 | 274 | 5,4 |
| 2004 | 15,5 | 13,8 | 89,0 | 1,7 | 11,0 | 5006 | 4731 | 94,7 | 275 | 5,3 |
| 2005 | 22,2 | 20,5 | 92,3 | 1,7 | 7,7 | 5818,3 | 5711,3 | 98,2 | 107 | 1,8 |
| 2006 | 32,2 | 30,5 | 94,3 | 1,8 | 5,6 | 6825,2 | 6710,4 | 98,3 | 114,8 | 1,7 |

*Qeyd: AR DSK-nin və ARDNŞ-nin məlumatları əsasında tərtib edilmişdir.

Azərbaycanda hasil edilən neftin və qazın əsas hissəsi dəniz yataqlarının payına düşür: 1995-ci ildə ölkəmizdə hasil edilən neftin 81,5%-i, qazın 96,4%-i; 2000-ci ildə, uyğun olaraq – 89,3%-i və 95,9%-i; 2006-cı ildə isə, uyğun olaraq – 94,4%-i və 98,3%-i dəniz yataqlarından çıxarılmışdır. 1990-1994-cü illərdə dənizdə hasil edilən neftin həcmində ilbəil azalma baş vermiş, 1995-1997-ci illərdə hasilatın həcmi sabitləşmiş və 1998-ci ildən etibarən isə – hasilat artmağa doğru meyl etmişdir (ABƏŞ-nin fəaliyyəti ilə əlaqədar olaraq). Quruda hasil edilən neftin həcmində də təxminən eyni vəziyyət müşahidə edilir – 1990-1995-ci illərdə hasilatın həcmində ilbəil azalma, 1997-ci ildən isə – sabitləşmə (bəzi illər istisna olmaqla) baş vermişdir. 1990-1999-cu illərdə dənizdə qaz hasilatında qeyri-sabitlik (artıb-azalma), 2001-ci ildən etibarən mütəmadi olaraq azalma, 2005-ci ildən – artma müşahidə edilməkdədir. Quruda çıxarılan qazın həcmində isə 1990-2006-cı illərdə qeyri-stabillik müşahidə edilir [cədvəl 2.13].

ARDNŞ-nin tərkibinə daxil olan və dənizdə fəaliyyət göstərən neftqazçıxarma idarələri (NQÇİ) sırasında, neft hasilatı sahəsində, ən yaxşı nəticələr "Neft Daşları"; "Abşeronneft" və "Qum adası" NQÇİ-nə məxsusdur. "Neft Daşları" NQÇİ-də 1999-cu ildən; "Abşeronneft"-də – 1998-ci ildən; "Qum adası"nda isə – 2002-ci ildən etibarən neft hasilatında ilbəil artım müşahidə edilməkdədir. "Bulla-Dəniz" və N.Nərimanov adına NQÇİ-də neft hasilatının həcmində qeyri-sabitlik, 28 May adına NQÇİ-də isə, 2001-ci ildən etibarən, azalma baş vermişdir [cədvəl 2.14].

ARDNŞ-nin tərkibinə daxil olan və quruda fəaliyyət göstərən NQÇİ-nin hamısında, 1995–2006-cı illərdə, neft hasilatının həcmində mütəmadi olaraq qeyri-stabillik müşahidə edilməkdədir.

Hələlik dənizdə neft hasilatı ilə məşğul olan yeganə qeyri-dövlət müəssisəsi ABƏŞ-dir. 1997-ci ilin noyabr ayının 12-də ilk dəfə olaraq neft hasilatına başlayan bu şirkət ilbəil, artan templə, hasilatın həcmini çoxaltmaqdadır. Quruda fəaliyyət göstərən ƏŞ-ri və MM-lərin hamısının fəaliyyətində müsbət meyllər müşahidə



Cədvəl 2.14

ARDNŞ, ƏŞ və MM-lər üzrə neft hasilatının (qaz kondensatı ilə birlikdə) dinamikası [22,23,25]*

| Neftqazçıxarma müəssisələri | Hasilatın həcmi (min ton) | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İllər | | | | | | | | | | | |
| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| ARDNŞ üzrə cəmi | 9161,3 | 9100,3 | 9021,7 | 9052,2 | 8992,2 | 9013,4 | 9012,0 | 8944,4 | 8924,7 | 8976,4 | 8967,4 | 8993,8 |
| o cümlədən | | | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | 795,5 | 779,0 | 764,9 | 762,6 | 767,3 | 783,6 | 802,5 | 819,6 | 826,5 | 821,3 | 821,4 | 898,5 |
| 28 may adına NQÇİ | 5778,4 | 5905,2 | 5906,4 | 5961,8 | 5969,1 | 6018,0 | 5931,6 | 5868,4 | 5791,7 | 5717,5 | 5658,0 | 5521,2 |
| "Abşeronneft" NQÇİ | 151,5 | 146,4 | 138,5 | 142,2 | 145,0 | 148,4 | 155,4 | 166,8 | 163,6 | 163,6 | 166,6 | 169,8 |
| "Qum adası" NQÇİ | 163,7 | 121,3 | 123,3 | 127,2 | 145,6 | 151,0 | 161,1 | 163,8 | 161,3 | 170,6 | 171,2 | 164,3 |
| N.Nərimanov adına NQÇİ | 460,0 | 407,0 | 382,5 | 356,0 | 331,1 | 308,0 | 293,2 | 288,4 | 279,8 | 319,9 | 317,5 | 458,1 |
| "Bulla-Dəniz" NQÇİ | 188,2 | 166,2 | 143,6 | 124,5 | 108,4 | 93,4 | 72,0 | 77,0 | 72,0 | 77,0 | 77,3 | – |
| "Balaxanıneft" NQÇİ | 224,7 | 228,1 | 232,5 | 232,5 | 238,0 | 232,1 | 223,7 | 221,4 | 213,9 | 214,0 | 220,3 | 219,4 |
| Ə.C.Əmirov adına NQÇİ | 99,4 | 87,4 | 97,2 | 97,2 | 97,2 | 105,4 | 105,3 | 89,4 | 81,0 | 84,8 | 84,7 | 81,0 |
| "Bibiheybətneft" NQÇİ | 139,1 | 141,7 | 138,0 | 136,4 | 138,3 | 140,1 | 136,0 | 122,4 | 119,8 | 129,7 | 131,6 | 141,6 |
| "Binəqədineft" NQÇİ | 124,5 | 136,0 | 126,6 | 131,5 | 116,2 | 129,6 | 122,7 | 111,2 | 106,7 | 101,1 | 58,8 | – |
| "Suraxanıneft" NQÇİ | 156,8 | 129,4 | 127,3 | 126,5 | 128,4 | 132,0 | 124,4 | 105,2 | 106,0 | 108,4 | 130,5 | 44,4 |
| H.Z.Tağıyev adına NQÇİ | 77,7 | 68,1 | 64,1 | 71,4 | 72,6 | 76,1 | 76,4 | 64,4 | 61,7 | 62,6 | 62,9 | 71,5 |
| "Siyəzənneft" NQÇİ | 86,0 | 74,6 | 70,6 | 72,0 | 61,7 | 58,2 | 61,8 | 50,2 | 48,9 | 48,9 | 42,2 | 45,5 |
| "Muradxanlı" İNM | 37,9 | 35,9 | 39,8 | 38,4 | 25,9 | – | 8,7 | 33,4 | 30,5 | 30,5 | 30,4 | 26,0 |
| "Şirvanneft" NQÇİ | 330,8 | 223,9 | 139,8 | – | – | – | – | – | – | – | – | – |
| "Salyanneft" NQÇİ | 199,6 | 202,0 | 200,5 | 205,0 | 157,0 | – | – | – | – | – | – | – |
| "Qarasu" ƏŞ | – | – | – | – | – | – | – | 131,9 | 151,6 | 188,5 | 265,7 | x |
| "ANŞAD Petoyl" MM | 34,3 | 37,4 | 38,6 | 41,8 | 43,0 | 42,2 | 45,1 | 44,9 | 44,5 | 42,7 | 45,8 | x |
| "Azgerneft" MM | 52,0 | 64,2 | 61,9 | 60,4 | 50,6 | 45,7 | 42,0 | 50,8 | 56,9 | 63,2 | 65,7 | x |
| "Şirvanoyl" MM | – | – | 71,6 | 216,7 | 214,7 | 216,6 | 225,3 | 228,8 | 246,7 | 254,7 | 233,3 | x |
| "Salyanoyl" ƏŞ | – | – | – | – | – | – | – | 306,2 | 359,2 | 369,7 | 344,0 | x |
| "Qobustan" ƏŞ | – | – | – | – | – | – | – | – | 2,4 | 3,9 | 4,4 | x |
| "Az-Senq-Li" MMC | – | – | – | – | – | – | – | – | – | 3,8 | 6,0 | x |
| "Azərpetoyl" MM | 55,9 | 137,2 | 144,3 | 138,7 | 140,8 | 135,4 | 139,0 | – | – | – | – | – |
| LTD YKAS | – | 9,3 | 9,3 | 9,4 | 8,8 | – | – | – | – | – | – | – |
| ABƏŞ | – | – | 50,0 | 2371,0 | 4814,0 | 5073,0 | 5897,0 | 6386 | 6456 | 6503 | 13252,6 | 23276,8 |

*Qeyd: ARDNŞ-nin məlumatları əsasında tərtib edilmişdir. ARDNŞ üzrə ümumi hesabata quruda fəaliyyət göstərən MM-lər və ƏŞ-nin hasilatı da daxil edilmişdir. x - məlumat yoxdur.

edilir. Ancaq ən yaxşı nəticə "Şirvanoyl" MM-nə, "Salyanoyl" ƏŞ-nə, "Qarasu" ƏŞ-nə və yeni yaradılan "Qobustan" ƏŞ-nə məxsusdur. "ANŞAD Petoyl" və "Azgerneft" MM-nin fəaliyyətində qeyri-sabitlik olsa da, "Azgerneft" MM-də 2002-ci ildən etibarən neft hasilatının həcmində artım baş verməkdədir [cədvəl 2.14]. Quruda yerləşən ƏŞ-nin və MM-nin hamısının uzun illər istismarda olan, köhnə, tükənməkdə olan yataqlarda fəaliyyət göstərdiyi nəzərə alınaraq, onların fəaliyyətində qeyd edilən meyllər müsbət qiymətləndirilməlidir. Bu nöqteyi-nəzərdən quruda fəaliyyət göstərən köhnə neft yataqları əsasında xarici şirkətlərin iştirakı ilə müştərək müəssisələrin yaradılması təqdirə layiq hesab edilə bilər. Ancaq bu zaman MM-də tərəflərin iştirak payının həcminə xüsusi diqqət yetirmək lazımdır [baxV III].

Azərbaycanda hər il yüzlərlə neft quyuları fəaliyyətini dayandırdıqlarına görə istismar fondundan çıxarılır. Təkcə 2006-cı ildə neft quyularının istismar fondu (ABƏŞ-nin quyu fondu istisna olmaqla) 2003-cü illə müqayisədə 4156 vahid azalaraq 6013 vahid təşkil etmişdir ki, onun da yalnız 4753-ü işlək (fəaliyyətdə olan) fonda daxildir (bütün istismar fondunun 79,0%-i). 2006-cı ildə 1254 quyu fəaliyyətsiz fonda (20,9%), 6 quyu (0,1%) isə mənimsənilən və mənimsənilməsini gözləyən quyu fonduna daxil edilmişdir. Bununla yanaşı, hər il yeni neft quyuları istismara verilir və onlarla quyu fəaliyyətsizlikdən istismara qaytarılır. Məsələn, 2006-cı ildə 76 yeni nefi quyusu istismara verilmiş, 217 quyu isə fəaliyyətsizlikdən istismara qaytarılmışdır. Ancaq bu quyuların sayı istismardan tamamilə çıxarılan quyuların sayından azdır və onların yerini doldura bilmir [cədvəl 2.15].

2006-cı ildə Azərbaycanın neft hasilatı üzrə bütün istismar fondunun 25,3%-i (1521-i) dənizdə fəaliyyət göstərən NQÇİ-nə, 74,7%-i (4292-i) isə quruda fəaliyyət göstərən NQÇİ-nə, ƏŞ-nə və MM-ə aid olmuşdur. Bu quyu fondunun yalnız 577-si (12,8%-i) qeyri-dövlət bölməsinə daxil olan ƏŞ-nə MM-ə məxsusdur.

ARDNŞ-nə daxil olan NQÇİ-ri sırasında ən çox neft quyusu fonduna malik olanlar "Balaxanıneft" (2006-cı ildə –



Cədvəl 2.15

ARDNŞ-nin, quruda fəaliyyət göstərən ƏŞ-nin və MM-in neft quyuları fondunun vəziyyəti [23,25]*

| Neftqazçıxarma müəssisələri | 2003-cü il * | | | | 2004-cü il * | | | | İstismara verilən neft quyuları (qaz kondensatı ilə birlikdə) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Bütün istismar fondu | O cümlədən | | | Bütün istismar fondu | O cümlədən | | | 2004-cü il | |
| | | İşlək fond | Fəaliyyətsiz fond | Mənimsənilən və mənimsənilməsini gözləyən fond | | İşlək fond | Fəaliyyətsiz fond | Mənimsənilən və mənimsənilməsini gözləyən fond | Yeni | Fəaliyyətsizlikdən |
| ARDNŞ üzrə cəmi | 10169 | 6711 | 3431 | 27 | 9739 | 6828 | 2891 | 20 | 105 | 340 |
| o cümlədən | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | 480 | 424 | 45 | 11 | 461 | 418 | 36 | 7 | 17 | 16 |
| 28 may adına NQÇİ | 216 | 168 | 28 | – | 214 | 196 | 18 | – | 4 | 10 |
| "Abşeronneft" NQÇİ | 621 | 554 | 67 | – | 603 | 579 | 24 | – | 9 | 30 |
| "Qum adası" NQÇİ | 70 | 58 | 12 | – | 171 | 60 | 11 | – | 5 | 5 |
| N.Nərimanov adına NQÇİ | 161 | 144 | 16 | 1 | 155 | 140 | 15 | – | 1 | 1 |
| "Bulla-Dəniz" NQÇİ | 24 | 19 | 5 | – | 24 | 19 | 5 | – | 1 | – |
| "Balaxanıneft" NQÇİ | 1538 | 1125 | 412 | 1 | 1449 | 1126 | 323 | – | 7 | 33 |
| Ə.C.Əmirov adına NQÇİ | 783 | 388 | 393 | 2 | 767 | 437 | 326 | 4 | 8 | 50 |
| "Binəqədineft" NQÇİ | 1325 | 726 | 598 | 1 | 1173 | 721 | 451 | 1 | 6 | 12 |
| "Suraxanıneft" NQÇİ | 607 | 266 | 341 | – | 613 | 271 | 342 | – | 5 | 25 |
| H.Z.Tağıyev adına NQÇİ | 408 | 176 | 230 | 2 | 413 | 182 | 230 | 1 | 4 | 27 |
| "Bibiheybətneft" NQÇİ | 1009 | 554 | 455 | – | 811 | 589 | 221 | 1 | 14 | 31 |
| "Siyəzənneft" NQÇİ | 1098 | 819 | 279 | – | 1104 | 801 | 303 | – | 5 | 7 |
| "Muradxanlı" İNM | 89 | 55 | 33 | 1 | 88 | 58 | 30 | – | – | 3 |
| "Qarasu" ƏŞ | 398 | 258 | 139 | 1 | 403 | 258 | 145 | – | 8 | 24 |
| "ANŞAD Petoyl" MM | 263 | 173 | 89 | 1 | 275 | 180 | 93 | 2 | 7 | 12 |
| "Azgerneft" MM | 306 | 210 | 96 | – | 307 | 220 | 87 | – | – | 16 |
| "Şirvanoyl" MM | 444 | 334 | 110 | – | 449 | 327 | 122 | – | – | 17 |
| "Salyanoyl" ƏŞ | 315 | 239 | 74 | 2 | 319 | 238 | 80 | 1 | 3 | 18 |
| "Qobustan" ƏŞ | 14 | 1 | 9 | 4 | 14 | 5 | 6 | 3 | 1 | 3 |
| "Az-Senq-Li" MMC | – | – | – | – | 26 | 3 | 23 | – | – | – |

Qeyd: * ARDNŞ üzrə ümumi hesabata quruda fəaliyyət göstərən MM-in və ƏŞ-nin quyu fondu da daxil edilmişdir.

Cədvəl 2.15-in ardı

| Neftqazçıxarma müəssisələri | 2005-ci il * | | | | 2006-cı il ** | | | | İstismara verilən neft quyaları (qaz kondensatı ilə birlikdə) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Butün istismar fondu | O cümlədən | | | Butün istismar fondu | O cümlədən | | | 2006-cı il** | |
| | | İşlək fond | Fəaliyyətsiz fond | Mənimsənilən və mənimsənilməsini gözləyən fond | | İşlək fond | Fəaliyyətsiz fond | Mənimsənilən və mənimsənilməsini gözləyən fond | Yeni | Fəaliyyətsizlikdən |
| ARDNŞ üzrə cəmi | 9673 | 6683 | 2980 | 10 | 6013 | 4753 | 1254 | 6 | 76 | 217 |
| o cümlədən | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | 467 | 437 | 30 | – | 460 | 434 | 24 | 2 | 11 | 16 |
| 28 may adına NQÇİ | 217 | 199 | 18 | – | 207 | 188 | 19 | – | 15 | 2 |
| "Abşeronneft" NQÇİ | 600 | 578 | 22 | – | 594 | 578 | 16 | – | – | 14 |
| "Qum adası" NQÇİ | 73 | 67 | 6 | – | 78 | 69 | 9 | – | 6 | 2 |
| N.Nərimanov adına NQÇİ | 155 | 140 | 15 | – | 182 | 162 | 20 | – | 3 | 1 |
| "Bulla-Dəniz" NQÇİ | 24 | 19 | 55 | – | x | x | x | x | – | – |
| "Balaxanıneft" NQÇİ | 1387 | 1128 | 259 | – | 1397 | 1149 | 248 | – | 10 | 28 |
| Ə.C.Əmirov adına NQÇİ | 774 | 438 | 335 | 1 | 787 | 479 | 306 | 2 | 11 | 34 |
| "Binəqədineft" NQÇİ | 1176 | 549 | 627 | – | x | x | x | x | – | – |
| "Suraxanıneft" NQÇİ | 617 | 286 | 331 | – | x | x | x | x | 1 | 4 |
| H.Z.Tağıyev adına NQÇİ | 346 | 157 | 187 | 2 | 351 | 169 | 180 | 2 | 3 | 31 |
| "Bibiheybətneft" NQÇİ | 822 | 600 | 221 | 1 | 832 | 645 | 187 | – | 9 | 42 |
| "Siyəzənneft" NQÇİ | 1110 | 786 | 324 | – | 1036 | 818 | 218 | – | 7 | 41 |
| "Muradxanlı" İNM | 89 | 60 | 29 | – | 89 | 62 | 27 | – | – | 2 |
| "Qarasu" ƏŞ | 414 | 234 | 180 | – | x | x | x | x | x | x |
| "ANŞAD Petoyl" MM | 285 | 197 | 86 | 2 | x | x | x | x | x | x |
| "Azgerneft" MM | 308 | 228 | 80 | – | x | x | x | x | x | x |
| "Şirvanoyl" MM | 448 | 326 | 122 | – | x | x | x | x | x | x |
| "Salyanoyl" ƏŞ | 319 | 241 | 77 | 1 | x | x | x | x | x | x |
| "Qobustan" ƏŞ | 14 | 6 | 6 | 2 | x | x | x | x | x | x |
| "Az-Senq-Li" MMC | 28 | 7 | 20 | 1 | x | x | x | x | x | x |

Qeyd: * ARDNŞ üzrə ümumi hesabata quruda fəaliyyət göstərən MM-in və ƏŞ-nin quyu fondu da daxil edilmişdir.
** cəmi MM-siz verilmişdir. x - məlumat yoxdur.



1397 quyu); "Siyəzənneft" (1036 quyu); Ə.C.Əmirov adına (787 quyu) NQÇİ-ri; ən az quyu fonduna malik olanlar isə "Muradxanlı" İNM (89 quyu) və "Qum Adası" (78 quyu) NQÇİ-dir. ƏŞ-ri və MM-lər sırasında ən çox neft quyusu fonduna "Şirvanoyl" MM-si (2005-ci ildə 448 quyu), "Qarasu" ƏŞ (414 quyu) və "Salyanoyl" ƏŞ (319 quyu); ən az quyu fonduna isə "Qobustan" ƏŞ (14 quyu) və "Az-Şenq-Li" MMC (28 quyu) malikdir.

2006-cı ildə fəaliyətsizlikdən istismara ən çox neft quyusu Ə.C.Əmirov adına NQÇİ-də (34 quyu), "Balaxanıneft" (28 quyu) və H.Z.Tağıyev adına NQÇİ-də (31 quyu); ən az isə – N.Nərimanov adına NQÇİ-də (1 quyu), "Muradxanlı" İNM, 28 May adına NQÇİ-də və "Qum adası" NQÇİ-də (hər birində 2 quyu) qaytarılmışdır. Həmin ildə ən çox yeni neft quyusu 28 May adına NQÇİ-də (15 quyu) "Neft Daşları" (11 quyu), "Bibiheybət" (9 quyu), Ə.C.Əmironv adına NQÇİ-də (11 quyu) istismara verilmişdir [cədvəl 2.15].

Fəaliyyətsiz neft quyularının sayının çoxluğunun nəticəsidir ki, həm bütövlükdə ARDNŞ-i, həm də bir çox NQÇİ-ri, eləcə də ƏŞ-ri və MM-lər üzrə quyu fondundan istifadə əmsalı çox aşağıdır. Belə ki, 2003-cü ildə ARDNŞ üzrə bütün neft quyu fondundan istifadə əmsalı 0,659, 2004-cü ildə – 0,701, 2005-ci ildə – 0,690 və 2006-cı ildə – 0,790 olmuşdur. Bu göstərici üzrə ən aşağı səviyyə "Az-Şenq-Li" MMC-də (2005-ci ildə cəmi 0,250), "Qobustan" ƏŞ-də (0,428), H.Z.Tağıyev adına NQÇİ-də (0,453), "Suraxanıneft" (0,463) və Ə.C.Əmirov adına NQÇİ-də (0,565) müşahidə edilir. ƏŞ-də və MM-də quyu fondundan istifadə əmsalının aşağı olması başadüşüləndir: bu qeyri-dövlət neftqazçıxarma strukturlarının yaradılmasının əsas məqsədi elə fəaliyyətsiz quyuları yenidən istismara qaytarmaqdır və bu sahədə müəyyən irəliləyişlər əldə edilmişdir. Məsələn, 2003-cü illə müqayisədə 2005-cü ildə "Qobustan" ƏŞ-də fəaliyyətsiz quyuların sayı 33,3%; "Azgerneft" MM-də 16,7% aşağı düşmüşdür, digərlərində bu sahədə mütəmadi tədbirlər görülür. "Suraxanıneft", H.Z. Tağıyev və Ə.C.Əmirov adına NQÇİ-də və digərlərində quyu fon-

dundan istifadə əmsalının aşağı olması bu idarələrin istismar etdiyi neft yataqlarının tükənməsi və hasilat quyularının köhnəlməsi ilə əlaqədardır. Təbiidir ki, kifayət qədər investisiya qoyuluşu, yeni texniki və texnologiyanın tətbiqi ilə bu quyuların bir qismini istismara qaytarmaq mümkündür.

Digərlərinə nisbətən "Neft Daşları" (2006-cı ildə – 0,943), "Abşeronneft" (0,973), 28 May adına (0,908) və N.Nərimanov adına (0,890) NQÇİ-də quyu fondundan istifadə əmsalı kifayət qədər yüksəkdir ki, bu da həmin idarələrdə fəaliyyətsiz fondun nisbətən azlığı və hasilat quyularının nisbətən yeniliyi ilə əlaqədardır.

Bütün quyu fondundan istifadə ilə müqayisədə fəaliyyətdə olan, işlək quyu fondundan istifadə əmsalı – quyuların istismar əmsalı – yüksək hesab edilə bilər. Bu əmsal bütövlükdə ARDNŞ və onun tərkibinə daxil olan NQÇİ-də (H.Z.Tağıyev adına və Ə.C.Əmirov adına NQÇİ istisna olmaqla) yüksək olmaqla yanaşı son illərdə, demək olar ki, sabitdir (cədvəl 2.16). Yenicə yaradılan "Az-Şenq-Li" MMC istisna olmaqla (bu MMC-də 2005-ci ildə quyuların istismar əmsalı 0,833 olmuşdur), digər ƏŞ-ri və MM-də quyuların istismar əmsalının səviyyəsi qənaətbəxş hesab edilə bilər. Aparılan təhlillər göstərir ki, NQÇİ-də, eləcə də ƏŞ-də və MM-də fəaliyyətdə olan quyuların iş vaxtı fondundan tam istifadə edilməməsinin səbəbləri quyuların yeraltı, əsaslı və cari təmiri, habelə müxtəlif səbəblərdən (qəzalar, quyuların təmiri üçün ehtiyat hissələrinin çatışmazlığı, elektrik enerjisi ilə təminatda fasilələr və s.) boşdayanmalarla əlaqədardır. Məsələn, təkcə 2004-cü ildə ARDNŞ üzrə bütövlükdə quyular 52212 dəfə yeraltı, 1660 dəfə əsaslı təmir edilmişdir. Quyuların yeraltı təmiri ən çox "Balaxanıneft" (11735 dəfə), "Bibiheybət" (8706 dəfə), "Binəqədi" (6836 dəfə) və Ə.C.Əmirov adına NQÇİ-də (6647 dəfə); əsaslı təmiri isə ən çox "Bibiheybət" (247 dəfə), "Balaxanıneft" (233 dəfə), "Qum adası" (164 dəfə), "Neft Daşları" (235 dəfə) NQÇİ-də aparılmışdır [23. səh. 33,34].

İstismar edilən quyuların əksəriyyətinin köhnə fonda aid olması səbəbindən onların, xüsusilə də quruda fəaliyyət göstə-



Cədvəl 2.16

ARDNŞ-nin, quruda fəaliyyət göstərən ƏŞ-nin və MM-in neft quyularından istifadə göstəricilərinin dinamikası [22,23,25]*

| Neftqazçıxarma müəssisələri | Quyuların orta günlük hasilatı, ton/gün | | | | | Quyuların istismar əmsalı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| ARDNŞ üzrə cəmi | 3,8 | 3,8 | 3,8 | 3,8 | 4,6 | 0,931 | 0,935 | 0,930 | 0,928 | 0,941 |
| o cümlədən | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | 5,4 | 5,3 | 5,4 | 5,4 | 5,9 | 0,977 | 0,975 | 0,972 | 0,976 | 0,982 |
| 28 may adına NQÇİ | 89,3 | 83,2 | 79,4 | 76,8 | 76,4 | 0,989 | 0,986 | 0,990 | 0,987 | 0,979 |
| "Abşeronneft" NQÇİ | 1,0 | 0,9 | 0,8 | 0,8 | 0,8 | 0,937 | 0,937 | 0,937 | 0,938 | 0,938 |
| "Qum adası" NQÇİ | 8,6 | 8,2 | 8,4 | 7,9 | 6,8 | 0,928 | 0,930 | 0,912 | 0,947 | 0,941 |
| N.Nərimanov adına NQÇİ | 5,4 | 5,3 | 5,8 | 5,9 | 7,6 | 0,896 | 0,896 | 0,911 | 0,922 | 0,912 |
| "Bulla-Dəniz" NQÇİ | 10,5 | 10,1 | 10,0 | 9,7 | – | 0,968 | 0,957 | 0,937 | 0,959 | – |
| "Balaxanıneft" NQÇİ | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,976 | 0,976 | 0,971 | 0,971 | 0,973 |
| Ə.C.Əmirov adına NQÇİ | 0,7 | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,795 | 0,860 | 0,886 | 0,894 | 0,865 |
| "Bibiheybətneft" NQÇİ | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,968 | 0,970 | 0,971 | 0,971 | 0,968 |
| "Binəqədineft" NQÇİ | 0,5 | 0,4 | 0,4 | 0,4 | – | 0,938 | 0,930 | 0,843 | 0,749 | – |
| "Suraxanıneft" NQÇİ | 1,2 | 1,2 | 1,2 | 1,3 | 1,2 | 0,942 | 0,953 | 0,950 | 0,954 | 0,955 |
| H.Z.Tağıyev adına NQÇİ | 1,2 | 1,2 | 1,2 | 1,3 | 1,5 | 0,769 | 0,775 | 0,781 | 0,759 | 0,800 |
| "Siyəzənneft" NQÇİ | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,923 | 0,921 | 0,921 | 0,921 | 0,921 |
| "Muradxanlı" İNM | 1,9 | 1,6 | 1,6 | 1,5 | 1,2 | 0,961 | 0,936 | 0,931 | 0,953 | 0,950 |
| "Qarasu" ƏŞ | 1,3 | 1,6 | 2,1 | 3,0 | x | 0,910 | 0,917 | 0,972 | 0,980 | x |
| "ANŞAD Petoyl" MM | 0,8 | 0,8 | 0,7 | 0,7 | x | 0,941 | 0,945 | 0,952 | 0,955 | x |
| "Azgerneft" MM | 0,9 | 0,8 | 0,9 | 0,9 | x | 0,857 | 0,894 | 0,909 | 0,899 | x |
| "Şirvanoyl" MM | 1,9 | 2,2 | 2,3 | 2,1 | x | 0,941 | 0,925 | 0,917 | 0,937 | x |
| "Salyanoyl" ƏŞ | 3,7 | 4,4 | 4,4 | 4,1 | x | 0,931 | 0,935 | 0,950 | 0,955 | x |
| "Qobustan" ƏŞ | – | 12,1 | 3,5 | 2,0 | x | – | 0,965 | 1,000 | 1,000 | x |
| "Az-Şenq-Li" MMC | – | – | 5,3 | 3,8 | x | – | – | 0,855 | 0,833 | x |
| "Binəqədineft" ƏŞ | – | – | – | 0,5 | x | | | | 0,890 | x |

Cədvəl 2.16-nın ardı

| Neftqazçıxarma müəssisələri | Quyu fondundan istifadə əmsalı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2002 | | 2003 | | 2004 | | 2005 | | 2006 | |
| | Bütün quyular | O cümlədən yeni quyular | Bütün quyular | O cümlədən yeni quyular | Bütün quyular | O cümlədən yeni quyular | Bütün quyular | O cümlədən yeni quyular | Bütün quyular | O cümlədən yeni quyular |
| ARDNŞ üzrə cəmi | 0,559 | 0,784 | 0,609 | 0,712 | 0,639 | 0,736 | 0,647 | 0,812 | 0,710 | 0,769 |
| o cümlədən | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | 0,891 | 0,859 | 0,891 | – | 0,878 | 0,916 | 0,895 | 0,987 | 0,917 | 0,870 |
| 28 may adına NQÇİ | 0,867 | 0,772 | 0,864 | 0,990 | 0,850 | 1,000 | 0,890 | 0,979 | 0,866 | 1,000 |
| "Abşeronneft" NQÇİ | 0,767 | 0,859 | 0,804 | 0,903 | 0,868 | 0,856 | 0,905 | 0,956 | 0,913 | – |
| "Qum adası" NQÇİ | 0,649 | 0,718 | 0,718 | 0,735 | 0,733 | 0,812 | 0,799 | 0,909 | 0,833 | 0,888 |
| N.Nərimanov adına NQÇİ | 0,760 | 0,352 | 0,781 | – | 0,830 | 0,533 | 0,835 | – | 0,808 | 0,970 |
| "Bulla-Dəniz" NQÇİ | 0,736 | – | 0,706 | 1,000 | 0,713 | 1,000 | 0,759 | – | – | – |
| "Balaxanıneft" NQÇİ | 0,724 | 0,441 | 0,712 | 0,749 | 0,752 | 0,774 | 0,757 | 0,706 | 0,795 | 0,768 |
| Ə.C.Əmirov adına NQÇİ | 0,416 | 0,703 | 0,438 | 0,517 | 0,486 | 0,630 | 0,499 | 0,478 | 0,505 | 0,595 |
| "Bibiheybətneft" NQÇİ | 0,484 | 0,909 | 0,503 | 0,753 | 0,618 | 0,676 | 0,711 | 0,822 | 0,722 | 0,579 |
| "Binəqədineft" NQÇİ | 0,465 | 0,534 | 0,485 | 0,530 | 0,570 | 0,274 | 0,459 | 0,494 | – | – |
| "Suraxanıneft" NQÇİ | 0,405 | 0,764 | 0,400 | 0,853 | 0,417 | 0,783 | 0,437 | 0,470 | 0,460 | 0,600 |
| H.Z.Tağıyev adına NQÇİ | 0,346 | 0,616 | 0,340 | 0,562 | 0,343 | 0,457 | 0,364 | 0,550 | 0,363 | 0,560 |
| "Siyəzənneft" NQÇİ | 0,682 | 0,975 | 0,674 | 0,971 | 0,675 | 0,973 | 0,661 | 0,971 | 0,656 | 0,969 |
| "Muradxanlı" İNM | 0,531 | – | 0,572 | – | 0,596 | – | 0,639 | 1,000 | 0,648 | – |
| "Qarasu" ƏŞ | 0,653 | – | 0,647 | 0,962 | 0,621 | 1,000 | 0,582 | 1,000 | x | x |
| "ANŞAD Petoyl" MM | 0,597 | 0,944 | 0,612 | 0,393 | 0,616 | 0,552 | 0,637 | 0,791 | x | x |
| "Azgerneft" MM | 0,528 | 0,863 | 0,604 | 0,197 | 0,633 | – | 0,652 | – | x | x |
| "Şirvanoyl" MM | 0,723 | – | 0,692 | – | 0,673 | – | 0,679 | – | x | x |
| "Salyanoyl" ƏŞ | 0,724 | – | 0,707 | 0,692 | 0,718 | 0,712 | 0,718 | 0,846 | x | x |
| "Qobustan" ƏŞ | – | – | 0,053 | 0,965 | 0,215 | 0,503 | 0,429 | 1,000 | x | x |
| "Az-Senq-Li" MMC | – | – | – | – | 0,099 | – | 0,163 | 0,975 | x | x |
| "Binəqədineft" ƏŞ | – | – | – | – | – | – | 0,405 | 0,833 | x | x |

*Qeyd: ARDNŞ-nin məlumatları əsasında tərtib edilmişdir.



rənlərin, cari təmirlərinin sayının çox, cari təmirlər arası müddətin isə az olması müşahidə edilməkdədir. Belə ki, 2004-cü ildə "Bibiheybət" NQÇİ-də quyuların cari təmiri arasındakı müddət, orta hesabla, 32,34 gün;

"Suraxanıneft" NQÇİ-də – 30,83 gün; Ə.C.Əmirov adına NQÇİ-də – 37,96 gün"Balaxanıneft" NQÇİ-də – 42,07gün; "Qum adası" NQÇİ-də – 62,46 gün və s. olmuşdur [25. səh.57].

ARDNŞ-nin NQÇİ-nin, eləcə də ƏŞ-nin və MM-in neft quyularının ortagünlük hasilatının səviyyəsi (28 May adına, qismən də, "Bulla-Dəniz" və "Qum adası" NQÇİ-ri istisna olmaqla) o qədər də yüksək deyildir. Belə ki, 2002–2006-cı illərdə ARDNŞ üzrə quyuların ortagünlük hasilatı hər il 3,8 (2006-cı ildə – 4,6) ton, "Neft Daşları" NQÇİ-də – 5,3-5,9 ton; N.Nərimanov adına NQÇİ-də – 5,3-7,6 ton; "Suraxanıneft" və H.Z.Tağıyev adına NQÇİ-də – 1,2 ton; "Binəqədineft" NQÇİ-də – 0,4-0,5 ton; "Qarasu" ƏŞ-də – 1,3-3,0 ton; "ANŞAD Petoyl" MM-də – 0,7-0,8 ton və s. olmuşdur [cədvəl 2.16].

Neft quyularının ortagünlük hasilatının səviyyəsinə yuxarıda qeyd edilən səbəblərlə yanaşı neftin sulaşma səviyyəsi də mənfi təsir göstərir. Təkcə 2006-cı ildə ARDNŞ üzrə neftin sulaşma faizi, orta hesabla, 65,5%; "Suraxanıneft" NQÇİ-də – 97,9%; "Muradxanlı" İNM-də – 96,0%; "Balaxanıneft" NQÇİ-də – 95,3%; "Bibiheybət" NQÇİ-də – 93,60%; H.Z.Tağıyev adına NQÇİ-də – 92,7%% və s. təşkil etmişdir. ƏŞ-ri və MM-lər sırasında neftin sulaşma faizi ən çox, "Azgerneft" MM-də (2005-ci ildə – 96,5%); "ANŞAD Petoyl" MM-də (94,9%); "Qarasu" ƏŞ-də (86,4%) müşahidə edilir [25. səh.17].

Neftqazçıxarma idarə və müəssisələrində (həm dövlət, həm də qeyri-dövlət) neft quyularının hasilatının artırılması məqsədi ilə laylara süni təsir metodları tətbiq edilir. Bu zaman laylara su vurulması, fiziki-kimyəvi (qaz da daxil olmaqla) və termik metodlardn istifadə edilir. Təkcə 2006-cı ildə laylara süni təsir metodlarının tətbiqi nəticəsində neft hasilatının miqdarı ARDNŞ üzrə bütövlükdə 1150,5 min ton, o cümlədən bu metodların

tətbiqi nəticəsində hasil olunan əlavə neftin miqdarı 226,6 min ton təşkil etmişdir [25. səh.59-61]. Laylara süni təsir metodlarının tətbiqi yolu ilə ən çox neft hasilatı 28 May adına NQÇİ-də (868,6 min ton), "Qarasu" ƏŞ-də (127,6 min ton), "Neft Daşları" NQÇİ-də (101,3 min ton), "Balaxanıneft" NQÇİ-də (89,2 min ton) və "Şivanoyl" MM-də (49,6 min ton) həyata keçirilmişdir.

Azərbaycanda, xüsusilə quruda, çıxarılan neftin maya dəyəri kifayət qədər yüksəkdir və ilbəil artmağa doğru meyl edir. Belə ki, ARDNŞ üzrə 2005-ci ildə bütövlükdə əmtəəlik neft məhsulunun tam maya dəyəri 315340 min manat, 2006-cı ildə isə artaraq 377934 min manat; həmin illərdə 1 ton neftin maya dəyəri isə, müvafiq olaraq 39,99 manat və 48,7 manat təşkil etmişdir. 1 ton neftin maya dəyəri 2006-cı ildə H.Z.Tağıyev adına NQÇİ-də 237,34 manat; "Siyəzənneft" NQÇİ-də – 266,94 manat; "Suraxanıneft" NQÇİ-də – 161,34 manat; Ə.C.Əmirov adına NQÇİ-də – 184,66 manat; "Abşeronneft" NQÇİ-də – 178,36 manat olmuşdur. Neftin ən aşağı maya dəyəri 28 May adına NQÇİ-də (2006-cı ildə 1 ton neftin maya dəyəri cəmi 21,7 manat olmuşdur) və "Neft Daşları" (74,16 manat) NQÇİ-də olmuşdur [cədvəl 2.17]. Bunun nəticəsidir ki, quruda fəaliyyət göstərən neftqazçıxarma idarələrinin əksəriyyəti ziyanla işləyir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda qaz hasilatı əsasən dənizdə fəaliyyət göstərən neftqazçıxarma idarələrində həyata keçirilir. Bu sahədə ən önəmli yer 28 May adına NQÇİ-nə məxsusdur. Belə ki, 1995–2006-cı illərdə ən çox qaz məhz bu NQÇİ-də hasil edilmişdir. Təkcə 2006-cı ildə Azərbaycanda hasil edilən qazın ümumi həcminin 43,2%-i, ARDNŞ sistemində hasil edilən qazın isə 68,0%-i məhz 28 May adına NQÇİ-də çıxarılmışdır. Qaz hasilatının ümumi həcmi göstərici üzrə sonrakı yerlər N.Nərimanov adına NQÇİ-nə (2006-cı ildə burada 878,7 mln $m^3$ qaz hasil edilmişdir), "Qum adası" NQÇİ-nə (314,3 mln $m^3$), Ə.C.Əmirov adına NQÇİ-nə (42,3 mln $m^3$) və "Neft Daşları" NQÇİ-nə (37,8 mln $m^3$) məxsusdur. Qeyri-dövlət bölməsinə daxil olan ƏŞ-ri və MM üzrə ən çox qaz "Şirvanoyl" ƏŞ-də



Cədvəl 2.17

ARDNŞ üzrə neftin (qaz kondensatı ilə birlikdə) maya dəyəri [22,23,25]*

| Neftqazçıxarma müəssisələri | 2005-cü il | | 2006-cı il | |
|---|---|---|---|---|
| | Əmtəəlik məhsulun tam maya dəyəri, min manat | 1 ton neytin maya dəyəri, manat | Əmtəəlik məhsulun tam maya dəyəri, min manat | 1 ton neytin maya dəyəri, manat |
| ARDNŞ üzrə cəmi | 315340 | 39,99 | 377934 | 48,57 |
| o cümlədən | | | | |
| "Neft Daşları" NQÇİ | 44849 | 55,59 | 65523 | 74,16 |
| 28 May adına NQÇİ | 107267 | 19,12 | 119120 | 21,7 |
| "Abşeronneft" NQÇİ | 22490,2 | 138,07 | 30001,3 | 178,36 |
| "Qum adası" NQÇİ | 19848,4 | 119,2 | 26978 | 167,51 |
| N.Nərimanov adına NQÇİ | 23849 | 76,34 | 37629 | 83,47 |
| "Bulla-Dəniz" NQÇİ | 3868,76 | 50,81 | - | - |
| "Balaxanıneft" NQÇİ | 18029,7 | 82,17 | 23080,7 | 105,43 |
| Ə.C.Əmirov adına NQÇİ | 12080,1 | 148,79 | 14959,0 | 184,66 |
| "Bibiheybətneft" NQÇİ | 11196,2 | 86,36 | 14560,8 | 103,74 |
| "Binəqədineft" NQÇİ | 77424,8 | 134,48 | - | - |
| "Muradxanlı" İNM | 3417,9 | 117,53 | 4287,1 | 160,78 |
| "Suraxanıneft" NQÇİ | 17899,2 | 136,76 | 7139,6 | 161,34 |
| "Siyəzənneft" NQÇİ | 8569,1 | 209,73 | 11985,1 | 266,94 |
| H.Z.Tağıyev adına NQÇİ | 14240,4 | 231,33 | 16782,4 | 237,34 |

*Qeyd: ARDNŞ-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

(2006-cı ildə 16,7 mln $m^3$); "ANŞAD Petoyl" MM-də (25,9 mln $m^3$) və "Qobustan" ƏŞ-də (10,9 mln $m^3$) çıxarılmışdır. 2006-cı ildə ən az qaz hasilatı "Az-Şenq-Li" MMC-də (0,2 mln $m^3$), "Muradxanlı" İNM-də (0,6 mln $m^3$) və "Azgerneft" MM-də (0,5 mln $m^3$) olmuşdur [cədvəl 2.18].

Qeyd etmək lazımdır ki, Azərbaycanda çıxarılan qazın çox hissəsi neftlə birlikdə hasil edilir. Məsələn, 2005-cü ildə qaz hasilatının ümumi həcminin 52,2%-i, 2006-cı ildə isə – 53,7%-i məhz neftlə birlikdə çıxarılmışdır.

Cədvəl 2.18

ARDNŞ, ƏŞ-ri və MM üzrə qaz hasilatının dinamikası [22,23,25]*

| Neftqazçıxarma müəssisələri | Hasilatın həcmi (mln $m^3$) | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İllər | | | | | | | | | | | |
| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| ARDNŞ üzrə cəmi | 6644 | 6242,5 | 5961,9 | 5238,7 | 5356,1 | 5014,5 | 4647,6 | 4191,7 | 4152,4 | 3999,7 | 3930,6 | 4456,0 |
| o cümlədən | | | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | 47,6 | 47,6 | 46,2 | 46,2 | 51,0 | 50,6 | 50,0 | 52,4 | 52,2 | 52,2 | 52,2 | 52,2 |
| 28 may adına NQÇİ | 1607,5 | 1672,5 | 1773,1 | 1718,2 | 2148,0 | 2103,9 | 2241,4 | 2169,7 | 2213,9 | 2216,4 | 2361,8 | 2950,6 |
| "Abşeronneft" NQÇİ | 28,3 | 28,0 | 29,9 | 28,2 | 30,3 | 32,0 | 35,2 | 39,3 | 42,1 | 42,4 | 40,5 | 37,8 |
| "Qum adası" NQÇİ | 2533,3 | 2282,8 | 1983,2 | 1617,1 | 1608,3 | 1422,9 | 966,2 | 610,5 | 608,9 | 501,2 | 349,2 | 314,3 |
| N.Nərimanov adına NQÇİ | 1002,4 | 948,2 | 875,8 | 746,2 | 620,0 | 559,8 | 539,0 | 523,6 | 538,3 | 543,0 | 499,0 | 878,7 |
| "Bulla-Dəniz" NQÇİ | 1188,1 | 1086,2 | 998,3 | 760,6 | 655,1 | 614,1 | 574,3 | 550,9 | 422,9 | 380,1 | 387,4 | – |
| "Balaxanıneft" NQÇİ | 8,7 | 8,8 | 9,0 | 9,0 | 9,1 | 9,2 | 9,2 | 9,2 | 9,2 | 19,0 | 14,2 | 12,9 |
| Ə.C.Əmirov adına NQÇİ | 32,3 | 25,8 | 41,0 | 38,9 | 40,5 | 39,5 | 39,7 | 38,9 | 42,6 | 39,2 | 39,2 | 42,3 |
| "Bibiheybətneft" NQÇİ | 21,5 | 21,9 | 23,4 | 22,8 | 21,3 | 21,3 | 21,3 | 21,0 | 21,6 | 21,7 | 21,7 | 19,4 |
| "Binəqədineft" NQÇİ | 15,8 | 74,9 | 15,9 | 15,6 | 15,7 | 15,7 | 15,7 | 15,6 | 16,2 | 15,9 | 10,4 | – |
| "Suraxanıneft" NQÇİ | 18,0 | 18,0 | 18,1 | 18,7 | 16,7 | 18,1 | 19,4 | 18,3 | 21,4 | 20,1 | 19,9 | 4,5 |
| H.Z.Tağıyev adına NQÇİ | 10,4 | 6,8 | 10,1 | 10,0 | 9,1 | 9,7 | 9,3 | 9,4 | 9,7 | 9,8 | 9,8 | 11,7 |
| "Siyəzənneft" NQÇİ | 47,6 | 47,4 | 44,5 | 46,4 | 37,8 | 39,7 | 38,9 | 37,2 | 38,6 | 19,7 | 18,3 | 16,8 |
| "Muradxanlı" İNM | 0,6 | 0,6 | 0,8 | 0,6 | 0,4 | – | 0,1 | 0,5 | 0,6 | 0,6 | 0,6 | 0,6 |
| "Şirvanneft" NQÇİ | 17,4 | 11,6 | 8,6 | – | – | – | – | – | – | – | – | – |
| "Salyanneft" NQÇİ | 36,9 | 21,1 | 40,7 | 42,5 | 37,3 | – | – | – | – | – | – | – |
| "Qarasu" ƏŞ | – | – | – | – | – | – | – | 6,3 | 6,2 | 6,0 | 6,1 | 4,6 |
| "ANŞAD Petoyl" MM | 2,3 | 2,5 | 3,7 | 2,5 | 22,7 | 24,1 | 22,3 | 20,6 | 23,6 | 25,4 | 25,9 | 25,9 |
| "Azgerneft" MM | 0,3 | 0,3 | 0,3 | 0,3 | 2,5 | 2,5 | 2,1 | 1,5 | 1,4 | 0,8 | 0,8 | 0,5 |
| "Şirvanoyl" MM | 4,0 | 10,0 | 11,0 | 11,2 | 10,3 | 10,9 | 10,4 | 12,2 | 13,7 | 13,2 | 15,1 | 16,7 |
| "Salyanoyl" ƏŞ | – | – | – | – | – | – | – | 54,6 | 69,3 | 73,0 | – | – |
| "Qobustan" ƏŞ | – | – | – | – | – | – | – | – | – | – | – | 10,9 |
| "Az-Senq-Li" MMC | – | – | – | – | – | – | – | – | – | – | 0,4 | 0,2 |
| "Azərpetoyl" MM | 21,2 | 17,6 | 22,1 | 21,1 | 11,3 | 11,0 | 8,5 | – | – | – | – | – |
| LTD YKAS | – | – | 5,6 | 11,7 | 4,3 | – | – | – | – | – | – | – |
| ABƏŞ | – | – | – | 351,0 | 643,0 | 643,0 | 899,0 | 959,0 | 1015,0 | 1006,5 | 1887,7 | 2369,2 |

*Qeyd: ARDNŞ üzrə ümumi hesabata quruda fəaliyyət göstərən MM-lər və ƏŞ-nin hasilatı da daxil edilmişdir.



Azərbaycanda yalnız təbii qaz çıxarılan quyuların sayı o qədər də çox deyildir. 01.01.2007-ci il tarixinə bu quyuların ümumi sayı 147 vahid, o cümlədən işlək fond 95 vahid, fəaliyyətsiz fond 47 vahid, mənimsənilən və mənimsənilməsini gözləyən fond isə 5 vahid təşkil etmişdir. Qaz quyularının yarıdan çoxu – 79-u – dənizdə, 68-i isə quruda yerləşir. Ən çox qaz quyusu "Qum adası" NQÇİ-nə (18 quyu); 28 May adına NQÇİ-nə (27 quyu); Ə.C.Əmirov adına NQÇİ-nə (14 quyu), "Qarasu" ƏŞ-nə (11 quyu) və "Şirvanoyl" MM-nə (15 quyu) məxsusdur.

Qaz quyularının orta günlük hasilatı bütövlükdə ARDNŞ üzrə 2005-ci ildə 66,5 min $m^3$/gün, 2006-ci ildə – 78,2 min $m^3$/gün təşkil etmişdir. Bu göstərici üzrə ən yaxşı nəticə 28 May adına NQÇİ-nə (2006-ci ildə – 185,3 min $m^3$/gün); N.Nərimanov adına NQÇİ-nə (98,0 min $m^3$/gün); "Balaxanıneft" NQÇİ-nə (57,2 min $m^3$/gün); "Qum adası" NQÇİ-nə 39,9 min $m^3$/gün) məxsusdur. MM-lər arasında bu göstərici üzrə ən yaxşı nəticəni "ANŞAD Petoyl" MM-si (20,5 min $m^3$/gün); ƏS-ri arasında – "Salyanoyl" ƏS-ti (12,0 min $m^3$/gün) əldə etmişdir [cədvəl 2.19].

Qeyd etmək lazımdır ki, neftlə birlikdə çıxarılan qazın heç də hamısından istifadə edilmir – hər il milyonlarla $m^3$ qaz məşəllərdə yandırılır. Məsələn, 2005-ci ildə məşəllərdə yandırılan neftlə birlikdə çıxan qazın həcmi bütövlükdə ARDNŞ üzrə 379,0 mln $m^3$, 2006-cı ildə isə 251,8 mln $m^3$ təşki ermişdir [25. səh.30].

Azərbaycanda çıxarılan qazın maya dəyəri ayrı-ayrı NQÇİ-də kifayət qədər yüksək olsa da bütövlükdə ARDNŞ-i üzrə o qədər də çox deyildir. Belə ki, 2006-cı ildə ARDNŞ üzrə cəmi qazın (təbii və neftlə birlikdə çıxan) min $m^3$-nin maya dəyəri 25,5 manat, "Siyəzənneft" NQÇİ-də – 300,28 manat; H.Z.Tağıyev adına NQÇİ-də – 111,29 manat; "Suraxanıneft" NQÇİ-də – 138,33 manat; "Bibiheybət" NQÇİ-də – 93,61 manat olmuşdur. Cəmi qazın maya dəyərinin ən aşağı səviyyəsi

Cədvəl 2.19

ARDNŞ-nin, quruda fəaliyyət göstərən ƏŞ-nin və MM-in qaz quyuları fondu və onların məhsuldarlığı [25]*

| Neftqazçıxarma müəssisələri | 01.01.2007-ci il tarixinə qaz quyuları fondu | | | | Qaz hasilatı, mln $m^3$ | | | | | | Qaz quyularının orta günlük hasilatı, min $m^3$/gün | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Bütün istismar fondu | O cümlədən | | | 2005 | | | 2006 | | | 2005 | 2006 |
| | | İşlək fond | Fəaliyyətsiz fond | Mənimsənilən və mənimsənilməsini gözləyən fond | Cəmi | Təbii | Neftlə birlikdə | Cəmi | Təbii | Neftlə birlikdə | | |
| ARDNŞ üzrə cəmi | 147 | 95 | 47 | 5 | 3930,6 | 1876,9 | 2053,7 | 4456,0 | 2391,3 | 2064,7 | 66,5 | 78,2 |
| o cümlədən | | | | | | | | | | | | |
| "Neft Daşları" NQÇİ | – | – | – | – | 52,2 | – | 52,2 | 52,2 | – | 52,2 | – | – |
| 28 may adına NQÇİ | 27 | 27 | – | – | 2361,8 | 808,0 | 1553,8 | 2950,6 | 1371,9 | 1578,7 | 150,2 | 185,3 |
| "Abşeronneft" NQÇİ | 10 | 5 | 2 | 3 | 40,5 | 35,5 | 5,0 | 37,8 | 32,8 | 5,0 | 22,5 | 18,3 |
| "Qum adası" NQÇİ | 18 | 14 | 4 | – | 349,2 | 230,9 | 118,3 | 314,3 | 195,9 | 118,4 | 39,2 | 39,9 |
| N.Nərimanov adına NQÇİ | 24 | 19 | 5 | – | 499,0 | 427,4 | 71,6 | 878,7 | 698,2 | 180,5 | 128,4 | 98,0 |
| "Bulla-Dəniz" NQÇİ | – | – | – | – | 387,4 | 294,4 | 93,0 | – | – | – | 68,7 | – |
| "Balaxanıneft" NQÇİ | 1 | 1 | – | – | 14,2 | 4,9 | 9,3 | 12,9 | 3,6 | 9,3 | 40,0 | 57,2 |
| Ə.C.Əmirov adına NQÇİ | 14 | 8 | 6 | – | 39,2 | 32,4 | 6,8 | 42,3 | 31,3 | 11,0 | 10,9 | 10,6 |
| "Bibiheybətneft" NQÇİ | – | – | – | – | 21,7 | – | 21,7 | 19,4 | – | 19,4 | – | – |
| "Binəqədineft" NQÇİ | – | – | – | – | 10,4 | – | 10,4 | – | – | – | – | – |
| "Suraxanıneft" NQÇİ | – | – | – | – | 19,9 | – | 19,9 | 4,5 | – | 4,5 | – | – |
| H.Z.Tağıyev adına NQÇİ | 3 | 2 | 1 | – | 9,8 | – | 9,8 | 11,7 | 2,5 | 9,2 | – | 31,9 |
| "Siyəzənneft" NQÇİ | 1 | 1 | – | – | 18,3 | 2,4 | 15,9 | 16,8 | 2,2 | 14,6 | 6,4 | 5,8 |
| "Muradxanlı" İNM | – | – | – | – | 0,6 | – | 0,6 | 0,6 | – | 0,6 | – | – |
| "Qarasu" ƏŞ | 11 | – | 11 | – | 6,1 | – | 6,1 | 4,6 | – | 4,6 | – | – |
| "ANŞAD Petoyl" MM | 7 | 4 | 3 | – | 25,9 | 24,1 | 1,8 | 25,9 | 24,1 | 1,8 | 16,7 | 20,5 |
| "Azgerneft" MM | – | – | – | – | 0,8 | – | 0,8 | 0,5 | – | 0,5 | – | – |
| "Şirvanoyl" MM | 15 | 7 | 8 | – | 15,1 | 5,6 | 9,5 | 16,7 | 5,6 | 11,1 | 3,1 | 2,4 |
| "Salyanoyl" ƏŞ | 8 | 3 | 5 | – | 54,8 | 10,9 | 43,9 | 43,1 | 12,4 | 30,7 | 16,1 | 12,0 |
| "Qobustan" ƏŞ | 5 | 3 | – | 2 | – | – | – | 10,9 | 10,6 | 0,3 | – | 10,5 |
| "Az-Seng-Li" MMC | 3 | 1 | 2 | – | 0,4 | 0,4 | – | 0,2 | 0,2 | – | 1,0 | 0,4 |

*Qeyd: ARDNŞ-nin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.



N.Nərimanov adına NQÇİ-də (2006-cı ildə min $m^3$/23,49 manat), 28 May adına NQÇİ-də (min $m^3$/20,34 manat) və "Neft Daşları" NQÇİ-də (min $m^3$/21,26 manat) qeydə alınmışdır [25. səh.102-107].

Aparılmış tədqiqatlar və təhlillər aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- AGÇ yataqlar qrupunun birgə işlənməsi üzrə xarici neft şirkətləri ilə HPBS-nin ("Əsrin müqaviləsinin") imzalanması Azərbaycanın neftqazçıxarma sənayesində özəl sahibkarlığın formalaşmasının və inkişafının əsasını qoymuşdur;
- Azərbaycanın neftqazçıxarma sənayesində həm dövlət sahibkarlığı, həm də qeyri-dövlət sahibkarlığı mövcuddur və yanaşı fəaliyyət göstərir. Neftqaz hasilatı ilə bağlı əsas fondların mütləq əksəriyyəti (neft-qaz quyuları) dövlət mülkiyyətində olsa da neft hasilatının yarıdan çoxu qeyri-dövlət strukturlarının payına düşür;
- Xarici neft şirkətləriilə imzalanmış HPBS-nin heç birində ARDNŞ nəzarət səhm paketinə malik deyildir. HPBS-nin hamısı Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya edilmişdir;
- Quruda yerləşən, uzun müddət istismar edildiyindən tükənmək üzrə olan və çoxsaylı fəaliyyətsiz quyulara malik olan neft mədənlərinin xarici şirkətlərlə birgə istismarı üzrə MM-in yaradılması müsbət nəticələr vermişdir və bu istiqamətdə işlərin davam etdirilməsi məqsədəuyğundur;
- Həm ARDNŞ-nin tərkibinə daxil olan (xüsusilə də quruda fəaliyyət göstərən) NQÇİ-də, həm də ƏŞ-də və MM-də mövcud quyu fondundan istifadənin səviyyəsi çox aşağıdır və bu neftqaz hasilatında mövcud potensialdan səmərəli istifadəyə, eləcə də neftqazçıxarma sənayesində həm dövlət, həm də özəl sahibkarlığın inkişafına mənfi təsir göstərir;
- Azərbaycanın neftqazçıxarma sənayesində dövlət sahibkarlığının mövcud vəziyyəti (ARDNŞ-nin fəaliyyəti timsalında) qənaətbəxş deyildir və ilbəil pisləşməyə doğru meyl edir;

• Azərbaycanın neftqazçıxarma sənayesində özəl sahibkarlığın inkişaf etdirilməsi üçün ölkədaxili imkanlardan istifadə edilmir və yerli sahibkarlar bu prosesə cəlb edilmir;

• ARDNŞ sistemində istehsalın təşkili və idarə edilməsinin təkmilləşdirilməsinə, onların bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmasına, təsərrüfat-istehsal fəaliyyətinin həyata keçirilməsində NQÇİ-nin səlahiyyətlərinin genişləndirilməsinə ehtiyac vardır;

• Azərbaycanın dəniz neftqaz yataqları (AGÇ) əsasında formalaşan qeyri-dövlət sahibkarlıq strukturları (ABƏŞ və yardımçı təsərrüfat strukturları timsalında) səmərəli işləyir və onların fəaliyyəti ilbəil yaxşılaşmağa doğru meyl edir.

Araşdırmalar göstərir ki, Azərbaycanın neftqazçıxarma sənayesində həm dövlət, həm də qeyri-dövlət sahibkarlığının inkişafı üçün kifayət qədər potensial mövcuddur və bu potensialdan səmərəli istifadə edilməsi üçün dövlət səviyyəsində müvafiq tədbirlərin görülməsinə ehtiyac vardır.

## §6. Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafına təsir edən sosial-iqtisadi amillərin təhlili

Sahibkarlığın inkişafinda sosial-iqtisadi amillərin rolunu qiymətləndirmək məqsədi ilə ARDNŞ-nin tərkibinə daxil olan, həm dənizdə, həm də quruda fəaliyyət göstərən "Neft Daşları", "Abşeronneft", "Balaxanıneft" NQÇİ-də müvafiq tədqiqat işləri aparılmış, bu müəssisələrin uçot, hesabat, statistik materialları təhlil edilmişdir. Qeyd edilən NQÇİ-ri ARDNŞ-nin aparıcı neftqazçıxarma müəssisələridir. ARDNŞ-nin hasil etdiyi neftin 13,4%-i, təbii qazın 2,8%-i, işçilərinin 11,4%-i bu NQÇİ-nin payına düşür.

Sahibkarlığın inkişafına təsir edən ən mühüm sosial-iqtisadi amil kadrların tərkibi, quruluşu, onların təhsil, ixtisas və sabitlik səviyyəsi ilə bağlıdır. Cədvəl 2.20-dən göründüyü kimi, "Neft Daşları" NQÇİ-də işçilərin 24,0%-ni MTİ-lər; 1,3%-ni qulluqçu-



Cədvəl 2.20

2006-cı il yanvar ayının 1-nə NQÇİ-ri işçilərinin təhsil səviyyəsi və peşə (ixtisas) üzrə dərəcələri

(nəfər)

| | İşçilərin təhsil səviyyəsi | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | "Neft Daşları" NQÇİ | | | | | "Abşeronneft" NQÇİ | | | | | "Balaxanıneft" NQÇİ | | | | |
| | Cəmi | Ali | Orta ixtisas | Orta ümumtəhsil | Natamam orta | Cəmi | Ali | Orta ixtisas | Orta ümumtəhsil | Natamam orta | Cəmi | Ali | Orta ixtisas | Orta ümumtəhsil | Natamam orta |
| SİH üzrə | 1800 | 387 | 348 | 1003 | 62 | 2559 | 242 | 504 | 1813 | – | 2337 | 378 | 271 | 1417 | 271 |
| o cümlədən: | | | | | | | | | | | | | | | |
| MTİ | 432 | 279 | 139 | 11 | 3 | 423 | 237 | 162 | 24 | – | 565 | 308 | 203 | 54 | – |
| Qulluqçular | 23 | 3 | 2 | 18 | – | 90 | 5 | 46 | 39 | – | 25 | 4 | 13 | 8 | – |
| Fəhlələr | 1328 | 111 | 193 | 954 | 70 | 2046 | – | 296 | 1750 | – | 1747 | 66 | 55 | 1355 | 271 |
| onlardan: | | | | | | | | | | | | | | | |
| əsas istehsal fəhlələri | 679 | 75 | 129 | 428 | 47 | 1556 | – | 225 | 1331 | – | 916 | 44 | 39 | 746 | 87 |
| köməkçi fəhlələr | 649 | 36 | 64 | 526 | 23 | 490 | – | 71 | 419 | – | 831 | 22 | 16 | 609 | 184 |

| | İşçilərin peşə (ixtisas) üzrə dərəcələri | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | "Neft Daşları" NQÇİ | | | | | | "Abşeronneft" NQÇİ | | | | | | "Balaxanıneft" NQÇİ | | | | | | |
| | II | III | IV | V | VI | Cəmi | II | III | IV | V | VI | Cəmi | I | II | III | IV | V | VI | Cəmi |
| Fəhlələr | 33 | 213 | 668 | 329 | 85 | 1328 | 4 | 248 | 682 | 1017 | 95 | 2046 | 30 | 64 | 363 | 529 | 731 | 30 | 1747 |
| onlardan: | | | | | | | | | | | | | | | | | | | |
| əsas istehsal fəhlələri | – | 42 | 392 | 198 | 47 | 679 | – | 152 | 487 | 828 | 89 | 1556 | – | 2 | 118 | 392 | 383 | 21 | 916 |
| köməkçi fəhlələr | 33 | 171 | 276 | 131 | 38 | 649 | 4 | 96 | 195 | 189 | 6 | 490 | 30 | 62 | 245 | 137 | 348 | 9 | 831 |

lar və 73,7%-ni isə fəhlələr təşkil edir. Fəhlələrin 51,1%-i əsas istehsal fəhlələrindən, 48,9%-i köməkçi fəhlələrdən ibarətdir. "Abşeronneft" NQÇİ-də bu göstəricilər, uyğun olaraq, 16,5%; 3,5%; 79,9%; və 76,1%; 23,9%; "Balaxanıneft" NQÇİ-də – uyğun olaraq, 24,2%; 1,1%; 74,8%; və 52,4%; 47,6% təşkil edirlər. Göründüyü kimi, "Abşeronneft" NQÇİ-nin kadrlarının quruluşu daha mütərəqqidir.

"Neft Daşları" NQÇİ işçilərinin 21,5%-i ali, 19,3%-i orta ixtisas, 55,7%-i orta ümumtəhsil, 3,5%-i natamam orta təhsilə malikdir. MTİ-lər sırasında ali təhsillilərin xüsusi çəkisi 64,6%; orta ixtisasa malik olanların xüsusi çəkisi isə 32,2% təşkil edir. Eyni zamanda fəhlələrin 8,4%-nin ali, 14,5%-nin orta ixtisas təhsili vardır. Bu müəssisədə çalışan qulluqçuların isə cəmisi 13,0%-i ali təhsilə malikdir.

"Abşeronneft" NQÇİ işçilərinin cəmi 9,6%-nin ali, 19,7%-nin isə orta ixtisas təhsili vardır. MTİ-lər sırasında ali təhsillilərin xüsusi çəkisi 56,0%; qulluqçuların arasında isə – cəmi 5,6%-dir.

"Balaxanıneft" NQÇİ-də ali təhsilli işçilər bütün işçilərnin 16,2%-ni; orta ixtisasa malik olanlar – 11,6%-ni təşkil edir. MTİ-in 54,5%-nin, qulluqçuların isə 16,0%-nin ali təhsili vardır. Eyni zamanda bu neftçıxarma idarəsində çalışan fəhlələrin 3,8%-i ali təhsilə malikdirlər.

Yuxarıda qeyd edilənlərdən aydın görünür ki, hər üç neftçıxarma idarəsinin işçilərinin, xüsusilə də MTİ-in, təhsil səviyyəsi kifayət qədər aşağıdır və bu da təbiidir ki, hər üç NQÇİ-nin istehsal fəaliyyətinin nəticələrinə mənfi təsir göstərir.

"Neft Daşları" NQÇİ-ndə fəhlələrin də ixtisas səviyyəsi aşağıdır. Belə ki, fəhlələrin cəmi 24,8%-i V dərəcəyə, 6,4%-i isə – VI dərəcəyə malikdir. "Abşeronneft" və "Balaxanıneft" NQÇİ-də fəhlələrin ixtisas səviyyəsi nisbətən yüksəkdir: birinci müəssisədə fəhlələrin 49,7%-nin V, 4,6%-nin – VI; ikincidə isə 41,8%-nin – V, 1,7%-nin isə – VI dərəcəsi vardır.

Təhlil göstərir ki, tədqiqatla əhatə olunan neftqazçıxarma idarələrinin kadrlarının quruluşu, xüsusilə də təhsil və ixtisas səviyyələri qənaətbəxş deyildir və müasir tələblərdən geri qalır.



Buradan aydın görünür ki, kadrların seçilib yerləşdirilməsi zamanı müəyyən nöqsanlara yol verilir. "Neft Daşları" və "Balaxanıneft" NQÇİ-si işçiləri arasında aparılmış sorğunun nəticələri də bunu təsdiq edir. Belə ki, "İşlədiyiniz müəssisədə kadrların seçilib yerləşdirilməsinin mövcud vəziyyəti sizi qane edirmi?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 13,3%-i, "Balaxanıneft" NQÇİ-də isə – 15,2% "Xeyr" cavabını vermişlər. "Sizin fikrinizcə kadrlar seçilib yerləşdirilərkən hansı əlamətlərə üstünlük verirlər?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 20,0%-i, "Balaxanıneft" NQÇİ-də isə – 12,7%-i "tanışlığa və yerliçiyə" cavabını vermişlər [Əlavə 4].

Fikrimizcə, neftqazçıxarma müəssisələrində kadrların quruluşunu təkmilləşdirmək, onu müasir tələblər səviyyəsinə qaldırmaq üçün kadrların ciddi attestasiyasının aparılması, yeni işçilərin isə müsabiqə yolu ilə qəbul edilməsi məqsədəuyğun olardı.

Kadrların sabitlik səviyyəsi sahibkarlığın inkişafına təsir edən mühüm sosial-iqtisadi amil kimi, daim bütün sahibkarlıq strukturlarının (həm dövlət, həm də qeyri-dövlət) diqqət mərkəzindədir. Ancaq ARDNŞ-nin tərkibinə daxil olan NQÇİ-də bu göstəricinin səviyyəsi o qədər də qənaətbəxş deyildir. Belə ki, cədvəl 2.21-dən göründüyü kimi, yalnız "Neft Daşları" NQÇİ-nin işçilərinin sayı nisbətən sabit hesab edilə bilər – son beş ildə bu müəssisənin kadrlarının sayı cəmi 4,7% azalmışdır. "Abşeronneft" və "Balaxanıneft" NQÇİ-də isə, son beş ildə, işçilərin sayı, müvafiq olaraq, 29,6% və 16% artmış və təbiidir ki, bu müəssisələrdə kadrların sabitlik səviyyəsi qənaətbəxş hesab edilə bilməz. Düzdür,bu müəssisələrdə kadrların axıcılıq səviyyəsi o qədər də yüksək deyildir. Ancaq işə qəbul üzrə kadrların hərəkəti əmsalı bu müəssisələrdə kifayət qədər yüksəkdir (məsələn, "Abşeronneft" NQÇİ-də bu əmsal 2005-ci ildə 10,7% olmuşdur) və bu kadrların sabitlik səviyyəsinə əks təsir göstərmişdir.

Aparılmış sorğunun nəticələri də göstərmişdir ki, rəyi soruşulanların hər 5-6 nəfərindən biri də işlədiyi müəssisədə kadrların sabitlik səviyyəsini mənfi qiymətləndirir. Belə ki, "Müəssisənizdə kadrların sabitlik səviyyəsini necə qiymətləndirirsiniz?" sualına

Cədvəl 2.21

NQÇİ işçilərinin sayının, hərəkətinin, orta aylıq əmək haqqının dinamikası

| | Ölçü vahidi | İşçilərin təhsil səviyyəsi | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | "Neft Daşları" NQÇİ | | | | | "Abşeronneft" NQÇİ | | | | | "Balaxanıneft" NQÇİ | | | | |
| | | İllər | | | | | İllər | | | | | İllər | | | | |
| | | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| SİH-nin orta illik sayı, cəmi | nəfər | 1889 | 1871 | 1841 | 1828 | 1800 | 1974 | 1978 | 1955 | 2339 | 2559 | 2014 | 2015 | 2322 | 2336 | 2337 |
| o cümlədən: | | | | | | | | | | | | | | | | |
| MTİ | "–" | 468 | 451 | 431 | 441 | 432 | 290 | 317 | 320 | 353 | 423 | 518 | 520 | 558 | 561 | 565 |
| Qulluqçular | "–" | 27 | 77 | 24 | 23 | 23 | 94 | 90 | 83 | 92 | 90 | 22 | 28 | 22 | 26 | 25 |
| Fəhlələr | "–" | 1370 | 1321 | 1397 | 1361 | 1328 | 1590 | 1571 | 1542 | 1894 | 2046 | 1474 | 1472 | 1742 | 1749 | 1747 |
| onlardan: | | | | | | | | | | | | | | | | |
| Əsas istehsal fəhlələri | "–" | 782 | 749 | 792 | 693 | 679 | 1278 | 1292 | 1303 | 1668 | 1556 | 850 | 891 | 890 | 907 | 916 |
| İşə qəbul edilib | "–" | 23 | 77 | 37 | 31 | 77 | 6 | – | 17 | 429 | 274 | 95 | 112 | 134 | 118 | 133 |
| İşdən azad edilib | "–" | 65 | 93 | 34 | 58 | 119 | 90 | 18 | 35 | 36 | 49 | 94 | 107 | 120 | 117 | 133 |
| o cümlədən: | | | | | | | | | | | | | | | | |
| Öz xahişi ilə | "–" | 36 | 82 | 13 | 22 | 98 | 90 | 18 | 35 | 36 | 49 | 26 | 32 | 51 | 38 | 47 |
| Əmək intizamını pozduğuna görə | "–" | 2 | 1 | 2 | 1 | 2 | – | – | – | – | – | 3 | 2 | 7 | 7 | 6 |
| İşə qəbul üzrə kadrların hərəkəti əmsalı | % | 1,2 | 4,1 | 2,0 | 1,7 | 4,2 | 0,3 | – | 0,9 | 18,3 | 10,7 | 4,7 | 5,6 | 5,8 | 5,1 | 5,7 |
| İşdən azad etmə üzrə kadrların hərəkəti əmsalı | % | 3,4 | 5,0 | 1,8 | 3,2 | 6,6 | 4,5 | 0,9 | 1,8 | 1,5 | 1,9 | 4,7 | 5,3 | 5,2 | 5,0 | 5,7 |
| Kadr axıcılığı | % | 2,0 | 4,4 | 0,8 | 1,3 | 5,6 | 4,5 | 0,9 | 1,8 | 1,5 | 1,9 | 1,4 | 1,7 | 2,5 | 1,9 | 2,3 |
| SİH üzrə orta aylıq əmək haqqı | man. | 174,1 | 188,2 | 204,9 | 228,8 | 274,6 | 123,0 | 113,0 | 127,2 | 149,8 | 198,0 | 114,3 | 103,2 | 100,7 | 107,5 | 129,8 |
| o cümlədən: | | | | | | | | | | | | | | | | |
| MTİ üzrə | "–" | 226,8 | 245,1 | 260,0 | 283,0 | 343,9 | 160,0 | 135,8 | 138,8 | 161,8 | 197,5 | 137,9 | 113,8 | 108,2 | 115,6 | 142,3 |
| Qulluqçular üzrə | "–" | 106,0 | 125,4 | 153,8 | 175,5 | 185,0 | 69,0 | 59,0 | 59,0 | 70,0 | 78,0 | 63,2 | 60,0 | 58,0 | 60,2 | 71,0 |
| Fəhlələr üzrə | "–" | 158,4 | 172,0 | 189,0 | 211,6 | 253,6 | 114,0 | 107,3 | 124,1 | 146,9 | 196,5 | 106,0 | 99,5 | 98,0 | 105,0 | 125,3 |
| onlardan: | | | | | | | | | | | | | | | | |
| Əsas istehsal fəhlələri üzrə | "–" | 170,6 | 186,1 | 200,0 | 243,0 | 264,2 | 159,4 | 139,4 | 166,2 | 192,0 | 246,4 | 132,2 | 126,0 | 127,8 | 148,5 | 180,0 |



"Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 16,0%-i, "Balaxanıneft" NQÇİ-də isə – 13,9%-i "aşağıdır" cavabını vermişlər.

Müəssisədə kadr axıcılığı müxtəlif səbəblərdən baş verir. Kadr axıcılığını azaltmaq üçün öncə onu doğuran səbəbləri aşkara çıxarmaq lazımdır. Bu məqsədlə müəssisə işçilərinin kadr axıcılığının səbəblərinə dair fikirləri xüsusi maraq doğurur. "Sizcə müəssisədə kadr axıcılığının əsas səbəbləri hansılardır?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 30,9%-i "əmək haqqının aşağı olması"; 22,3%-i – "əmək şəraitinin ağırlığı"; 17,3%-i – "sosial-məişət vəziyyətinin çətinliyi"; 16,8%-i – "vəzifə pillələri ilə irəliləmək perspektivinin olmaması"; 12,7%-i isə – "nəqliyyat çətinlikləri" cavabını vermişlər. "Neft Daşları" NQÇİ-də əmək haqqının aşağı olması səbəbindən kadr axıcılığının baş verdiyini söyləyənlərin 88,2%-ni kişilər; 54,4%-ni – 26–45 yaşında olanlar; 41,2%-ni – ali təhsillilər; 61,8%-ni – mütəxəssislər təşkil edir. Əmək şəraitnin ağırlığını əsas səbəb kimi göstərənlər sırasında kişilər (81,6%); 56-dan yuxarı yaşı olanlar (53,1%); natamam orta təhsillilər (36,7%); fəhlələr (42,9%) üstünlük təşkil edirl□r. Sosial-məişət vəziyyətinin çətinliklərini səbəb kimi göstərənlərin 86,8%-ni kişilər; 47,4%-ni – 46–65 yaşlarında olanlar; 28,9%-ni – orta ümumtəhsil səviyyəsinə malik olanlar; 52,6%-ni – mütəxəssislər təşkil edir.

Vəzifə pillələri ilə irəliləmək perspektivinin olmamasını səbəb kimi göstərənlərin arasında kişilər (94,6%); 46–55 yaşa (48,6%) və 36–45 yaşa malik olanlar (21,6%); ali təhsillilər (78,4%); mütəxəssislər (70,3%) üstünlük təşkil edirlər.

Nəqliyyat çətinliklərini səbəb göstərənlərin 71,4%-ni kişilər; 64,3%-ni 56-dan çox yaşa malik olanlar; 42,9%-ni fəhlələr təşkil edir [Əlavə 4].

"Balaxanıneft" NQÇİ-də rəyi soruşulanların 39,6%-nin fikrincə kadr axıcılığının əsas səbəbi əmək haqqının azlığıdır; 33,9% – əmək şəraitinin ağırlığını; 9,9% – yaşayış yerinin dəyişməsini; 8,4% – hərbi xidmətə çağırışı; 8,2% isə müdiriyyətlə münasibətin pisləşməsini kadr axıcılığının əsas səbəbi hesab etdiklərini bildirmişlər.

Əmək haqqının azlığını kadr axıcılığının əsas səbəbi hesab edənlərin arasında kişilər (86,4%); 46–55 və 56–65 yaşa malik olanlar (43,9%); ali təhsillilər (67,4%); mütəxəssislər (68,2%) üstünlük təşkil edirlər.

Əmək şəraitinin ağırlığını səbəb kimi göstərənlərin 85,8%-ni kişilər; 53%-ni 56-dan yuxarı yaşa malik olanlar; 64,6%-ni ali təhsillilər və mütəxəssislər təşkil edirlər.

Müdiriyyətlə münasibətlərin pisləşməsi səbəbindən kadr axıcılığının baş verdiyini söyləyənlər sırasında kişilər (88,9%); 36–45 yaşa malik olanlar (37,0%); ali təhsillilər (54,9%); mütəxəssislər (66,7%) daha çoxdur [Əlavə 4].

İşlədikləri NQÇİ-də kadr axıcılığının azaldılması, onlardan səmərəli istifadə edilməsi üçün nə etmək lazım olduğunu müəyyənləşdirmək məqsədi ilə respondentlərə aşağıdakı sualla müraciət edilmişdi: "Sizin fikrinizcə iş qüvvəsindən səmərəli istifadə etmək üçün hansı tədbirlər həyata keçirilməlidir?" "Neft Daşları" NQÇİ-də respondentlərin 28,9%-i, "Balaxanıneft" NQÇİ-də 29,6%-i hesab edirdi ki, bunun üçün əmək haqqı artırılmalıdır; "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 26,9%-nin, "Balaxanıneft" NQÇİ-də – 24,8%-nin fikrincə bu məqsədlə əmək şəraiti və əməyin təşkili yaxşılaşdırılmalıdır; "Neft Daşları" NQÇİ-də respondentlərin 20,3%-i, "Balaxanıneft" NQÇİ-də – 15,5%-i bunun üçün kadrlar seçilərkən ixtisasa üstünlük verilməsini məqsədəuyğun hesab edirlər.

"Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 13,6%-nin fikrincə kadrlardan səmərəli istifadə etmək üçün əmək və istehsal intizamı möhkəmləndirilməlidir; 10,3%-nin fikrincə, bu məqsədlə kadrların ixtisası mütəmadi olaraq artırılmalıdır.

"Balaxanıneft" NQÇİ-də respondentlərin 20,2%-i hesab edir ki, kadrlardan səmərəli istifadə etmək üçün yaxşı işçilərə daha imtiyazlı şərait yaradılmalıdır; 9,9%-i isə hesab edir ki, bu məqsədlə əməkdə fərqlənən işçilərə əlavə imtiyazlar verilməlidir.

Sahibkarlığın inkişafına təsir edən sosial-iqtisadi amillərdən biri əmək haqqının səviyyəsidir. Əmək haqqının səviyyəsinin qənaətbəxş olması işçinin çalışdığı müəssisədən məmnunluq



səviyyəsinə müsbət təsir göstərir və əksinə. Bu isə təbiidir ki, işçinin istehsalın son nəticələrində marağına, beləliklə də, sahibkarlığın inkişafına bu və ya digər istiqamətlərdə təsir edir. Cədvəl 2.21-dən göründüyü kimi, 2005-ci ildə "Neft Daşları" NQÇİ-də SİH-nin orta aylıq əmək haqqı 274,6 manat; "Abşeronneft" NQÇİ-də – 198,0 manat; "Balaxanıneft" NQÇİ-də isə – 129,3 manat təşkil etmişdir. Bu NQÇİ-də əmək haqqının səviyyəsi ümumrespublika səviyyəsindən (2005-ci ildə – 123,6 manat), müvafiq olaraq, 2,2 dəfə; 60% və 4,6% çox olmuşdur. Ancaq buna baxmayaraq, qeyd edilən müəssisələrdə əmək haqqının səviyyəsi işçiləri qane etmir və yuxarıda qeyd edildiyi kimi, kadr axıcılığına təsir edən başlıca amil məhz əmək haqqının aşağı olması hesab edilir.

Qeyd etmək lazımdır ki, ARDNŞ-nin tərkibinə daxil olan NQÇİ-də əmək haqqının səviyyəsi ümumrespublika səviyyəsindən yüksək olsa da, onlarla, demək olar ki, eyni şəraitdə çalışan, xarici şirkətlərlə birlikdə təşkil edilmiş ƏŞ-də və MM-də olduğundan xeyli aşağıdır.

Təhlillərin nəticələri göstərmişdir ki, tədqiqatlarla əhatə olunmuş NQÇİ-də əmək intizamının səviyyəsi kifayət qədər yüksəkdir. Belə ki, son beş ildə "Abşeronneft" NQÇİ-də əmək intizamının pozulması hallarına rast gəlinməmişdir; "Neft Daşları" NQÇİ-də ildə 1–2; "Balaxanıneft" NQÇİ-də 2–7 belə hadisəyə rast gəlinir [cəbvəl 2.21]. 2005-ci ildə "Neft Daşları" NQÇİ-də əmək intizamı pozulduğuna görə cəmi 1 adam/gün; "Balaxanıneft" NQÇİ-də isə – 56 adam/gün iş vaxtı itkisinə yol verilmişdir [cəbvəl 2.22]. "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 64,0%-i işlədiyi müəssisədə əmək intizamının səviyyəsini "yüksək", 25,3%%-i – "kafi", "Balaxanıneft" NQÇİ-də isə – 69,7%-i "yüksək", 25,3%%-i – "kafi" qiymətləndirmişdir [Əlavə 4].

Neftqazçıxarma sənayesi əmək şəraitinin nisbətən çətin, ağır olduğu sənaye sahələrinə aid edilir. Burada işçilərin əksər hissəsi açıq hava (çöl) şəraitində, insan səhhəti üçün zərərli sahələrdə və fiziki əməklə məşğul olurlar. Aparılmış sorğunun nəticələri də göstərmişdir ki, əmək şəraitinin çətinliyi kadr axıcılı-

ğının başlıca səbəblərindən biridir. Buna görə də bu sənaye sahəsində əmək şəraitinin mümkün həddə qədər yaxşılaşdırılması (sənaye sahəsinin xüsusiyyətləri nəzərə alınaraq) hər bir NQÇİ qarşısında duran əsas vəzifələrdən biri hesab edilir.

İş vaxtından səmərəli istifadə edilməsi sahibkarlığın inkişafına təsir edən önəmli sosial-iqtisadi amillərdən biridir. Təhlil göstərmişdir ki, tədqiqatlarla əhatə edilmiş NQÇİ-də müxtəlif səbəblərdən iş vaxtı itkilərinə yol verilir. Belə ki, 2005-ci ildə "Neft Daşları" NQÇİ-də iş vaxtı itkiləri planlaşdırılan iş vaxtı fondunun 3,3%-ni; "Balaxanıneft" NQÇİ-də – 8,7%-ni təşkil etmişdir [cəbvəl 2.22].

Araşdırmalar göstərir ki, hər üç müəssisədə iş vaxtı itkisi əsasən işçilərin xəstəliyi səbəbindən baş verir. Belə ki, "Neft Daşları" NQÇİ-də xəstəliyə görə iş vaxtı itkiləri son beş ildə bütün iş vaxtı itkilərinin 96,0–100,0%-ni; "Balaxanıneft" NQÇİ-də 72,0–78,0%-ni təşkil etmişdir. Bununla yanaşı, hər üç müəssisədə, az da olsa, müdiriyyətin icazəsi ilə və əmək intizamının pozulması səbəbindən də iş vaxtı itkilərinə yol verilir.

Qeyd etmək lazımdır ki, neftqazçıxarma sənayesinin xüsusiyyətlərinə görə (iş qüvvəsi bilavasitə əmək predmetlərinə təsir etmir) yuxarıda qeyd edilən səbəblərdən iş vaxtı itkisi bilavasitə neftqaz hasilatının həcminə təsir göstərmir. Ancaq təbiidir ki, işçinin iş yerində olmaması (səbəbindən asılı olmayaraq) hasilat prosesinin təşkilini və ona nəzarəti zəiflədir ki, bu da dolayı yolla hasilatın həcminə mənfi təsir göstərə bilər.

Ancaq tədqiqatlarla əhatə olunan NQÇİ-də, müxtəlif səbəblərdən, əsasən hava şəraitinin kəskin pisləşməsi (qasırğa), neftqaz hasilatı quyularında baş verən qəzalar, quyuüstü avadanlıqların sıradan çıxması və s., boşdayanma halları da baş verir ki, bu da neftqaz hasilatında fasilələrin yaranmasına və təbiidir ki, hasilatın həcminin azalmasına gətirib çıxarır. Cədvəl 2.22-dən görünür ki, son beş ildə "Neft Daşları" NQÇİ-də qeyd edilən səbəblərdən boşdayanmalar nəticəsində üst-üstə 2250 adam/gün iş vaxtı itkisi baş vermişdir ki, bunun da nəticəsində 3780 ton neft itkisinə (hasil edilməmiş) yol verilmişdir.



Cədvəl 2.22

NQÇİ-də iş vaxtından istifadənin dinamikası (adam/gün)

| | "Neft Daşları NQÇİ | | | | |
|---|---|---|---|---|---|
| | İllər | | | | |
| | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| Təqvim vaxtı | 507642 | 508374 | 506255 | 499685 | 489342 |
| Planlaşdırılan iş vaxtı fondu | 244268 | 239180 | 245889 | 238814 | 233067 |
| Faktiki işlənmiş iş vaxtı | 238250 | 233783 | 242271 | 231869 | 225419 |
| İş vaxtı itkiləri | 6018 | 5397 | 3618 | 6945 | 7649 |
| o cümlədən: | | | | | |
| Xəstəliyə görə | 5807 | 5232 | 3618 | 6774 | 7647 |
| Müdiriyyətin icazəsi ilə | 174 | 150 | – | 148 | – |
| Əmək intizamının pozulması səbəbindən | 37 | 15 | – | 23 | 1 |
| Boşdayanmalar | 583 | 438 | 336 | 408 | 485 |
| o cümlədən: | | | | | |
| Bütün gün | 505 | 367 | 282 | 348 | 485 |
| Növbə daxili | 78 | 71 | 54 | 60 | – |
| | "Abşeronneft" NQÇİ | | | | |
| | İllər | | | | |
| | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| Təqvim vaxtı | 580110 | 578160 | 567210 | 683280 | 757254 |
| Planlaşdırılan iş vaxtı fondu | 303061 | 300931 | 292262 | 360968 | 410402 |
| Faktiki işlənmiş iş vaxtı | 280738 | 286760 | 277937 | 342479 | 390926 |
| İş vaxtı itkiləri | 22323 | 14171 | 14325 | 18489 | 19476 |
| o cümlədən: | | | | | |
| Xəstəliyə görə | 13193 | 9209 | 9274 | 12714 | 14673 |
| Müdiriyyətin icazəsi ilə | – | – | – | 5 | 1 |
| Əmək intizamının pozulması səbəbindən | – | – | 2 | – | – |
| Boşdayanmalar | 3257 | 831 | 644 | 1549 | 1353 |
| o cümlədən: | | | | | |
| Bütün gün | 2301 | 477 | 200 | 907 | 711 |
| Növbə daxili | 956 | 354 | 444 | 642 | 622 |
| | "Balaxanıneft" NQÇİ | | | | |
| | İllər | | | | |
| | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| Təqvim vaxtı | 53628 | 533630 | 533265 | 627435 | 630252 |
| Planlaşdırılan iş vaxtı fondu | 338335 | 342060 | 346505 | 396028 | 402246 |
| Faktiki işlənmiş iş vaxtı | 323775 | 328178 | 327708 | 372214 | 370169 |
| İş vaxtı itkiləri | 14560 | 13882 | 18797 | 23814 | 32077 |
| o cümlədən: | | | | | |
| Xəstəliyə görə | 11327 | 11349 | 16097 | 18096 | 23046 |
| Müdiriyyətin icazəsi ilə | 14 | 32 | 127 | 135 | 55 |
| Əmək intizamının pozulması səbəbindən | 88 | 90 | 71 | 55 | 56 |
| Boşdayanmalar | 1298 | 1209 | 1586 | 4511 | 7558 |
| o cümlədən: | | | | | |
| Bütün gün | 1172 | 1055 | 1408 | 4351 | 7405 |
| Növbə daxili | 126 | 154 | 178 | 160 | 153 |

Kollektiv üzvləri arasında qarşılıqlı münasibətlər, kollektivdə mövcud sosial-psixoloji mühit işçilərin əhval-ruhiyyəsinə, beləliklə də, onların iş qabiliyyətinə əsaslı şəkildə təsir göstərir. Buna görə də iş yerində normal sosial-psixoloji mühitin yaradılması, onun qorunub saxlanması, hər bir müəssisənin əsas vəzifələrindən biridir. Aparılmış sorğular göstərmişdir ki, həm "Neft Daşları" NQÇİ-də, həm də "Balaxanıneft" NQÇİ-də işçilər arasında sosial-psixoloji münasibətlər qənaətbəxşdir. Belə ki, "Kollektivdə mövcud sosial-psixoloji vəziyyət Sizi qane edirmi?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 86,0%-i, "Balaxanıneft" NQÇİ-də isə – 87,9%-i "bəli" cavabını vermişlər. Ancaq "Neft Daşları" NQÇİ-də, respondentlərin 14,0%-nin, "Balaxanıneft" NQÇİ-də isə – 12,7%-nin kollektivdəki sosial-psixoloji mühitdən narazı qalması, bu müəssisələrdə, işçilər arasındakı münasibətlərdə müəyyən gərginliyin mövcudluğundan xəbər verir [Əlavə 5]. Belə halların tezliklə aradan qaldırılması üçün hər iki NQÇİ-də profilaktik (izahedici, məsləhətverici və s.) tədbirlərin görülməsinə ehtiyac vardır.

Müəssisədə məişət xidmətinin təşkili iş vaxtından (bəzi hallarda hətta asudə vaxtdan) səmərəli istifadəyə şərait yaratmaqla yanaşı, işçilərin əhval-ruhiyyəsinə də müəyyən təsir göstərir. "Neft Daşları" NQÇİ-də respondentlərin 80,0%-i, "Balaxanıneft" NQÇİ-də isə – 85,5%-i işlədiyi müəssisədə məişət xidmətinin təşkilinin mövcud vəziyyətindən razıdır. Ancaq hər iki müəs-sisədə müəyyən sayda respondentlərin (uyğun olaraq, 20,0% və 14,5%) məişət xidmətinin mövcud vəziyyətindən razı qalmamaları, bu sahədə müəyyən qüsurların olduğunu göstərir [Əlavə 4].

Yuxarıda qeyd edildiyi kimi, ölkədə sahibkarlığın inkişafı, digər amillərlə yanaşı, əhalinin sahibkarlıq fəaliyyətinə münasibətlərdən də asılıdır. "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 20,7%-i, "Balaxanıneft" NQÇİ-də isə 16,9%-i hələ də sahibkarlıq fəaliyyətinə neqativ yanaşırlar və hər iki müəssisədə onların yarıdan çoxu 56-dan yuxarı yaşa malik olanlardır. Fikrimizcə bu, hələ də Azərbaycanda sivil sahibkarlıq münasibətlərinin



formalaşmaması ilə əlaqədardır.

Artıq qeyd etdiyimiz kimi, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda yerləşən AGÇ yataqlar qrupunun xarici şirkətlərlə birgə işlənməsinə dair "Əsrin müqaviləsi" imzalandıqdan sonra neftqazçıxarma sənayesində qeyri-dövlət sahibkarlığının formalaşması və inkişafı prosesi sürətlənmişdir və bu proses davam etməkdədir. Bu proses bütün Azərbaycan xalqını, təbiidir ki, daha çox bu sənaye sahəsində çalışanları, maraqlandırır. Neftqazçıxarma sənayesində işləyənlərin bu məsələyə münasibətini öyrənmək üçün onlara aşağıdakı sualla müraciət edilmişdir: "Azərbaycanın neft sənayesində sahibkarlığın hansı istiqamətlərdə inkişafına tərəfdarsınız?" Bu suala "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 54,3%-i, "Balaxanıneft" NQÇİ-də – 56,4%-i "dövlət sahibkarlığının qalmasının tərəfdarıyam"; "Neft Daşları" NQÇİ-də respondentlərin 37,1%-i, "Balaxanıneft" NQÇİ-də – 24,8%-i "nəzarət-səhm paketinin dövlətin əlində qalması şərti ilə qismən özəlləşdirilmənin tərəfdarıyam"; rəyi soruşulanların, uyğun olaraq, 11,3%-i və 14,0%-i – "yalnız köməkçi və yardımçı sexlərin, infrastruktur bölmələrinin özəlləşdirilməsinin tərəfdarıyam" cavablarını vermişlər. Neft sənayesinin özəlləşdirilməsinin tərəfdarı olanlar "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların cəmi 4,3%-ni, "Balaxanıneft" NQÇİ-də isə – 4,8%-ni təşkil etmişdir [cədvəl 2.23].

Neftqazçıxarma sənayesində dövlət sahibkarlığının qalmasına tərəfdar olanlar sırasında, hər iki NQÇİ-də, kişilərin, 56-dan yuxarı yaşa malik olanların, ali təhsillilərin, mütəxəssislərin xüsusi çəkisi daha yüksəkdir.

Nəzarət-səhm paketinin dövlətin əlində qalması şərti ilə qismən özəlləşdirmənin tərəfdarları sırasında, hər iki NQÇİ-də, kişilər, 26–45 yaşa malik olanlar, ali təhsillilər, mütəxəssislər və fəhlələr üstünlük təşkil edirlər.

Neft sənayesinin özəlləşdirilməsinin tərəfdarları sırasında isə daha çox 36–45 yaşında ("Neft Daşları") və 26–35 yaşında ("Balaxanıneft") olanlar, eləcə də kişilər, ali təhsillilər və mütəxəssislər ( hər iki NQÇİ-də) çıxış edirlər.

"Siz neft sənayesində sahibkarlığın inkişafı üçün nə təklif edərdiniz?" sualına "Neft Daşları" NQÇİ-də rəyi soruşulanların 23,4%-i "işgüzar təşəbbüsə şərait yaradılması", 21,8%-i – "sərbəst fəaliyyət üçün şərait yaradılması", 16,2%-i – "yeni texnika və texnologiyanın tətbiqi ilə hasilatın artırılması", 15,8%-i – "xarici şirkətlərlə birlikdə MM-in yaradılması", 14,7%-i – "güzəştli kreditlərin verilməsi", 8,1%-i – "xidmət sahələrinin özəlləşdirilməsi" cavablarını vermişlər.

Bu suala "Balaxanıneft" NQÇİ-də tədqiqatlarla əhatə edilənlərin 29,3%-i "NQÇİ-nin təsərrüfat-istehsal fəaliyyəti sahələrində səlahiyyətlərinin artırılması"; 20,2%-i – "xarici şirkətlərlə MM-in yaradılması"; 19,3%-i – "plandan artıq hasil edilən neftin NQÇİ-ri tərəfindən sərbəst satışına icazə verilməsi"; 16,8%-i – "NQÇİ-nin bazasında qapalı səhmdar cəmiyyətlərin yaradılması"; 14,4%-i isə – "yeni texnologiyanın, laylara süni təsir metodlarının tətbiqi ilə hasilatın artırılması" cavablarını vermişlər [cədvəl 2.23].

Hər iki NQÇİ-də təsərrüfat-istehsal fəaliyyəti sahələrində neftqaz hasilatı müəssisələrinin səlahiyyətlərinin artırılmasının vacibliyini vurğulayanlar sırasında kişilərin, ali təhsilə malik olanların və mütəxəssislərin xüsusi çəkisi daha yüksəkdir. Bu fikirə şərik çıxanlar arasında "Neft Daşları" NQÇİ-də – 56-dan çox, "Balaxanıneft" NQÇİ-də isə – 36–45 yaşa malik olanlar üstünlük təşkil edirlər.

Xarici şirkətlərlə birlikdə müştərək müəssisələrin yaradılmasını neft sənayesində sahibkarlığın inkişafının əsas istiqaməti olduğunu düşünənlər sırasında, hər iki müəssisədə, kişilərin, ali təhsillilərin, mütəxəssislərin xüsusi çəkisi daha yüksəkdir. Bu fikirə şərik çıxanlar arasında "Neft Daşları" NQÇİ-də 26-35 və 36-45 yaşa, "Balaxanıneft" NQÇİ-də isə – 56–65 yaşa malik olanlar üstünlük təşkil edirlər.

Aparılmış təhlillərin və tədqiqatların nəticələri göstərir ki, neftqazçıxarma sənayesi müəssisələrində:

- kadrların seçilib-yerləşdirilməsi müasir tələblərə cavab vermir;



Cədvəl 2.23

NQÇİ-də keçirilmiş sosioloji tədqiqatın nəticələri

| | | Azərbaycanın neft sənayesində sahibkarlığın hansı istiqamətlərdə inkişafına tərəfdarsınız? "Neft Daşları" NQÇİ | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Dövlət sahibkarlığının qalmasının tərəfdarıyam | | Nəzarət səhm paketinin dövlətin əlində qalması şərti ilə qismən özəlləşdirilməsinin tərəfdarıyam | | Neft sənayesinin özəlləşdirilməsinin tərəfdarıyam | | Yalnız köməkçi və yardımçı sexlərin, infrastruktur bölmələrinin özəlləşdirilməsinin tərəfdarıyam | | Cəmi | |
| | | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə |
| Cinsi | Kişi | 70 | 50,0 | 50 | 35,7 | 5 | 3,6 | 15 | 10,7 | 140 | 13,3 |
| | Qadın | 6 | 60,0 | 2 | 20,0 | 1 | 10,0 | 1 | 10,0 | 10 | 6,7 |
| | Cəmi | 76 | 54,3 | 52 | 37,2 | 6 | 4,3 | 16 | 11,3 | 150 | 100,0 |
| Yaşı | 25 yaşa qədər | 1 | 33,3 | 2 | 66,7 | – | – | – | – | 3 | 2,0 |
| | 26-35 yaş | 10 | 40,0 | 15 | 60,0 | – | – | – | – | 25 | 16,7 |
| | 36-45 yaş | 16 | 48,5 | 10 | 30,3 | 4 | 12,1 | 3 | 9,1 | 33 | 22,0 |
| | 46-55 yaş | 18 | 60,0 | 7 | 23,3 | 2 | 6,7 | 3 | 10,0 | 30 | 20,0 |
| | 56-65 yaş | 16 | 53,3 | 10 | 33,3 | – | – | 4 | 13,4 | 30 | 20,0 |
| | 66 və yuxarı | 15 | 51,7 | 8 | 27,6 | – | – | 6 | 20,7 | 29 | 19,3 |
| | Cəmi | 76 | 54,3 | 52 | 37,1 | 6 | 4,3 | 16 | 11,3 | 150 | 100,0 |
| Təhsili | Ali | 58 | 53,7 | 36 | 33,3 | 4 | 3,7 | 10 | 9,3 | 108 | 72,0 |
| | Orta ixtisas | 8 | 42,1 | 7 | 36,8 | – | – | 4 | 21,1 | 19 | 12,7 |
| | Orta ümumtəhsil | 6 | 40,0 | 7 | 46,6 | 1 | 6,7 | 1 | 6,7 | 15 | 10,0 |
| | Natamam orta | 4 | 50,0 | 2 | 25,0 | 1 | 12,5 | 1 | 12,5 | 8 | 5,3 |
| | Cəmi | 76 | 54,3 | 52 | 37,1 | 6 | 4,3 | 16 | 11,3 | 150 | 100,0 |
| Vəzifəsi | Mütəxəssislər (MTİ-lər) | 55 | 57,3 | 25 | 26,0 | 4 | 4,2 | 12 | 12,5 | 96 | 64,0 |
| | Qulluqçular | 1 | 9,1 | 8 | 72,7 | – | – | 2 | 18,2 | 11 | 7,3 |
| | Fəhlələr | 20 | 46,5 | 19 | 44,1 | 2 | 4,7 | 2 | 4,7 | 43 | 28,7 |
| | Cəmi | 76 | 54,3 | 52 | 37,1 | 6 | 4,3 | 16 | 11,3 | 150 | 100,0 |

Cədvəl 2.23-ün ardı

| | | Azərbaycanın neft sənayesində sahibkarlığın hansı istiqamətlərdə inkişafına tərəfdarsınız? | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | "Balaxanıneft" NQÇİ | | | | | | | | | |
| | | Dövlət sahibkarlığının qalmasının tərəfdarıyam | | Nəzarət səhm paketinin dövlətin əlində qalması şərti ilə qismən özəlləşdirilməsinin tərəfdarıyam | | Neft sənayesinin özəlləşdirilməsinin tərəfdarıyam | | Yalnız köməkçi və yardımçı sexlərin, infrastruktur bölmələrinin özəlləşdirilməsinin tərəfdarıyam | | Cəmi | |
| | | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə |
| Cinsi | Kişi | 82 | 55,8 | 38 | 25,8 | 7 | 4,8 | 20 | 13,6 | 147 | 89,1 |
| | Qadın | 11 | 61,1 | 3 | 16,7 | 1 | 5,5 | 3 | 16,7 | 18 | 10,9 |
| | Cəmi | 93 | 56,4 | 41 | 24,8 | 8 | 4,8 | 23 | 14,0 | 165 | 100,0 |
| Yaşı | 25 yaşa qədər | – | – | 2 | 66,7 | – | – | 1 | 33,3 | 3 | 1,8 |
| | 26-35 yaş | 15 | 44,1 | 10 | 29,4 | 3 | 8,8 | 6 | 16,7 | 34 | 20,2 |
| | 36-45 yaş | 15 | 48,4 | 11 | 35,5 | 2 | 6,5 | 3 | 9,6 | 31 | 18,5 |
| | 46-55 yaş | 14 | 43,8 | 12 | 37,5 | 1 | 3,1 | 5 | 15,6 | 32 | 19,3 |
| | 56-65 yaş | 32 | 80,0 | 3 | 7,5 | 2 | 5,0 | 3 | 7,5 | 40 | 24,1 |
| | 66 və yuxarı | 17 | 65,0 | 3 | 15,0 | – | – | 5 | 20,0 | 25 | 15,1 |
| | Cəmi | 93 | 56,4 | 41 | 24,8 | 8 | 4,8 | 23 | 14,0 | 165 | 100,0 |
| Təhsili | Ali | 64 | 64,0 | 20 | 20,0 | 4 | 4,0 | 12 | 12,0 | 100 | 60,6 |
| | Orta ixtisas | 23 | 56,1 | 12 | 29,3 | 2 | 4,9 | 4 | 9,7 | 41 | 24,8 |
| | Orta ümumtəhsil | 5 | 31,2 | 5 | 31,3 | 2 | 12,5 | 4 | 25,0 | 16 | 9,8 |
| | Natamam orta | 1 | 12,5 | 4 | 50,0 | – | – | 3 | 37,5 | 8 | 4,8 |
| | Cəmi | 93 | 56,4 | 41 | 24,8 | 8 | 4,8 | 23 | 14,0 | 165 | 100,0 |
| Vəzifəsi | Mütəxəssislər (MTİ-lər) | 73 | 64,0 | 24 | 21,1 | 4 | 3,5 | 13 | 11,4 | 114 | 69,1 |
| | Qulluqçular | 7 | 35,0 | 8 | 40,0 | 2 | 10,0 | 3 | 15,0 | 20 | 12,1 |
| | Fəhlələr | 13 | 41,4 | 9 | 29,0 | 2 | 6,5 | 7 | 22,6 | 31 | 18,8 |
| | Cəmi | 93 | 56,4 | 41 | 24,8 | 8 | 4,8 | 23 | 14,0 | 165 | 100,0 |



Cədvəl 2.23-ün ardı

| | | Siz neft sənayesində sahibkarlığın inkişafı üçün nə təklif edirsiniz? | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | "Neft Daşları" NQÇİ | | | | | | | | | | | | | |
| | | Sərbəst fəaliyyət üçün şərait yaradılması | | Xidmət sahələrinin özəlləşdirilməsi | | Yeni texnika və texnologiyanın tətbiqi ilə hasilatın artırılması | | İşgüzar təşəbbüsə şərait yaradılması | | Güzəştli kreditlərin verilməsi | | Xarici şirkətlərlə birlikdə MM-in yaradılması | | Cəmi | |
| | | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə |
| Cinsi | Kişi | 35 | 20,2 | 15 | 8,7 | 30 | 17,3 | 40 | 23,1 | 25 | 14,5 | 28 | 16,2 | 173 | 87,8 |
| | Qadın | 8 | 33,3 | 1 | 4,2 | 2 | 8,8 | 6 | 25,0 | 4 | 16,7 | 3 | 12,5 | 25 | 12,2 |
| | Cəmi | 43 | 21,8 | 16 | 8,1 | 32 | 16,2 | 46 | 23,4 | 29 | 14,7 | 31 | 15,8 | 197 | 100,0 |
| Yaşı | 25 yaşa qədər | 3 | 25,0 | 1 | 8,3 | 2 | 16,7 | 3 | 25,0 | 1 | 8,3 | 2 | 16,6 | 12 | 6,1 |
| | 26-35 yaş | 2 | 6,3 | 2 | 6,3 | 3 | 9,4 | 8 | 25,0 | 7 | 21,9 | 10 | 31,1 | 32 | 16,2 |
| | 36-45 yaş | 4 | 10,0 | 2 | 5,0 | 6 | 15,0 | 11 | 27,5 | 6 | 15,0 | 11 | 27,5 | 40 | 20,3 |
| | 46-55 yaş | 7 | 17,5 | 5 | 12,5 | 6 | 15,0 | 10 | 25,0 | 7 | 17,5 | 5 | 12,5 | 40 | 20,3 |
| | 56-65 yaş | 14 | 37,8 | 3 | 8,1 | 7 | 18,9 | 8 | 21,6 | 3 | 8,1 | 2 | 5,5 | 37 | 18,8 |
| | 66 və yuxarı | 13 | 36,1 | 3 | 8,3 | 8 | 22,2 | 6 | 16,7 | 5 | 13,9 | 1 | 2,8 | 36 | 18,3 |
| | Cəmi | 43 | 21,8 | 16 | 8,1 | 32 | 16,2 | 46 | 23,4 | 29 | 14,7 | 31 | 15,8 | 197 | 100,0 |
| Təhsili | Ali | 27 | 24,1 | 7 | 6,3 | 20 | 17,9 | 29 | 25,8 | 17 | 15,2 | 12 | 10,7 | 112 | 56,9 |
| | Orta ixtisas | 9 | 17,3 | 6 | 11,5 | 8 | 15,4 | 12 | 23,1 | 8 | 15,4 | 9 | 17,3 | 52 | 26,3 |
| | Orta ümumtəhsil | 4 | 16,7 | 2 | 8,3 | 2 | 8,3 | 4 | 16,7 | 4 | 16,7 | 8 | 33,3 | 24 | 12,3 |
| | Natamam orta | 3 | 33,4 | 1 | 11,1 | 2 | 22,2 | 1 | 11,1 | – | – | 2 | 22,2 | 9 | 4,5 |
| | Cəmi | 43 | 21,8 | 16 | 8,1 | 32 | 16,2 | 46 | 23,4 | 29 | 14,7 | 31 | 15,8 | 197 | 100,0 |
| Vəzifəsi | Mütəxəssislər (MTİ-lər) | 26 | 23,4 | 8 | 7,2 | 19 | 17,2 | 25 | 22,5 | 17 | 15,3 | 16 | 14,4 | 111 | 56,3 |
| | Qulluqçular | 10 | 19,6 | 5 | 9,8 | 7 | 13,7 | 16 | 31,4 | 8 | 15,7 | 5 | 9,8 | 51 | 25,9 |
| | Fəhlələr | 7 | 20,0 | 3 | 8,6 | 6 | 17,2 | 5 | 14,3 | 4 | 11,4 | 10 | 28,5 | 35 | 17,8 |
| | Cəmi | 43 | 21,8 | 16 | 8,1 | 32 | 16,2 | 46 | 23,4 | 29 | 14,7 | 31 | 15,8 | 197 | 100,0 |

Cədvəl 2.23-ün ardı

| | | Siz neft sənayesində sahibkarlığın inkişafı üçün nə təklif edirsiniz? "Balaxanıneft" NQÇİ | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | NQÇİ-nin təsərrüfat-istehsal fəaliyyəti sahəsində səlahiyyətlərinin artırılması | | Yeni texnologiyanın, laylara süni təsir metodlarının tətbiqi ilə hasilatın artırılması | | NQÇİ-ri bazasında qapalı səhmdar cəmiyyətlərin yaradılması | | Xarici şirkətlərlə birlikdə MM-in yaradılması | | Plandan artıq hasil olunan neftin NQÇİ tərəfindən sərbəst satışına icazə verilməsi | | Cəmi | |
| | | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə | rəqəmlə | %-lə |
| Cinsi | Kişi | 55 | 29,7 | 25 | 13,5 | 30 | 16,3 | 38 | 20,5 | 37 | 20,0 | 185 | 88,9 |
| | Qadın | 6 | 26,1 | 5 | 21,7 | 5 | 21,7 | 4 | 17,4 | 3 | 13,1 | 23 | 11,1 |
| | Cəmi | 61 | 29,3 | 30 | 14,4 | 35 | 16,8 | 42 | 20,2 | 40 | 19,3 | 208 | 100,0 |
| Yaşı | 25 yaşa qədər | 2 | 25,0 | 1 | 12,5 | 3 | 37,5 | 1 | 12,5 | 1 | 12,5 | 8 | 3,8 |
| | 26-35 yaş | 17 | 39,5 | 3 | 7,0 | 10 | 23,3 | 8 | 18,6 | 5 | 11,6 | 43 | 20,7 |
| | 36-45 yaş | 21 | 51,2 | 2 | 4,9 | 5 | 12,2 | 8 | 19,5 | 5 | 12,2 | 41 | 19,7 |
| | 46-55 yaş | 10 | 25,5 | 4 | 10,3 | 8 | 20,6 | 8 | 20,6 | 9 | 23,0 | 39 | 18,8 |
| | 56-65 yaş | 6 | 14,0 | 12 | 28,0 | 4 | 9,3 | 13 | 30,1 | 8 | 18,6 | 43 | 20,7 |
| | 66 və yuxarı | 5 | 14,7 | 8 | 23,5 | 5 | 14,7 | 4 | 11,8 | 12 | 35,3 | 34 | 16,3 |
| | Cəmi | 61 | 29,3 | 30 | 14,4 | 35 | 16,8 | 42 | 20,2 | 40 | 19,3 | 208 | 100,0 |
| Təhsili | Ali | 46 | 36,2 | 19 | 15,0 | 17 | 13,4 | 22 | 17,3 | 23 | 18,1 | 127 | 61,1 |
| | Orta ixtisas | 10 | 20,8 | 8 | 16,7 | 12 | 25,0 | 10 | 20,8 | 8 | 16,7 | 48 | 23,1 |
| | Orta ümumtəhsil | 3 | 14,3 | 2 | 9,5 | 4 | 19,0 | 7 | 33,3 | 5 | 23,9 | 21 | 10,1 |
| | Natamam orta | 2 | 16,7 | 1 | 8,3 | 2 | 16,7 | 3 | 25,0 | 4 | 33,3 | 12 | 5,7 |
| | Cəmi | 61 | 29,3 | 30 | 14,4 | 35 | 16,8 | 42 | 20,2 | 40 | 19,3 | 208 | 100,0 |
| Vəzifəsi | Mütəxəssislər (MTİ-lər) | 43 | 34,4 | 19 | 15,2 | 13 | 10,4 | 30 | 24,0 | 20 | 16,0 | 125 | 60,1 |
| | Qulluqçular | 10 | 23,3 | 3 | 7,0 | 15 | 34,7 | 37 | 7,0 | 12 | 28,0 | 43 | 20,7 |
| | Fəhlələr | 8 | 20,0 | 8 | 20,0 | 7 | 17,5 | 9 | 22,5 | 8 | 20,0 | 40 | 19,2 |
| | Cəmi | 61 | 29,3 | 30 | 14,4 | 35 | 16,8 | 42 | 20,2 | 40 | 19,3 | 208 | 100,0 |



- müəssisələrdə əmək şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər kifayət deyildir;
- əmək və istehsal intizamının səviyyəsi yüksəkdir;
- müxtəlif səbəblərdən, xüsusilə də xəstəlik üzündən iş vaxtı itkisinə yol verilir ki, bu da hasilat prosesinin təşkilinə və ona nəzarətə mənfi təsir göstərir;
- müxtəlif səbəblərdən (qasırğa, qəzalar, quyuüstü avadanlıqların sıradan çıxması və s.) baş verən boşdayanmalar nəticəsində hər il yüzlərlə ton neft itirilir;
- kollektiv üzvüləri arasında müəyyən narazılıqların mövcud olmasına baxmayaraq, ümumiyyətlə, kollektivlərdə sosial-psixoloji mühit qənaətbəxşdir;
- iş yerlərində məişət xidmətinin təşkilinin səviyyəsi ümumən qənaətbəxş olsa da, bu sahədə müəyyən çatışmazlıqlar mövcuddur;
- rəyi soruşulanların əksəriyyətinin fikrincə neft sənayesində dövlət sahibkarlığının saxlanması, özəlləşdirmə aparılacağı təqdirdə isə nəzarət səhm paketinin dövlətin əlində qalması məqsədəuyğundur;
- rəyi soruşulanların əksəriyyətinin fikrincə, neft sənayesində sahibkarlığın inkişaf etdirilməsi üçün işgüzar təşəbbüsə şərait yaradılmalı, təsərrüfat-istehsal fəaliyyətinin həyata keçirilməsində NQÇİ-nin səlahiyyətləri artırılmalıdır.

Yuxarıda qeyd olunanlar bir daha göstərir ki, neftqazçıxarma sənayesində sahibkarlığın inkişafına təsir göstərən sosial-iqtisadi amillərdən səmərəli istifadə edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

## §7. Sahibkarlığın inkişafının təmin edilməsinin formaları və yolları

XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda baş verən sosial-siyasi hadisələr nəticəsində ölkə iqtisadiyyatında geriləmələr baş vermiş və ilbəil sürətlənmişdi. Belə ki, 1991-1995-ci illər ərzində ölkədə istehsal olunan ÜDM-un həcmi hər il 13-

20% azalırdı. Ancaq aparılan iqtisadi islahatlar və ölkədə yaranmış sosial-siyasi sabitlik 1996-cı ildən etibarən iqtisadi artım üçün münbit şərait yaratmışdır: 1996-cı ildə ÜDM-un fiziki həcm indeksi 1995-ci ilə nisbətən 1,3 faiz artmış, sonrakı dövrlərdə bu artım davam etmiş və ilbəil sürətlənmişdir. Belə ki, 1997-ci ildə ÜDM-un artım sürəti 5,8 faiz, 1998-ci ildə – 10,0 faiz, 1999-cu ildə – 7,4 faiz, 2003-cü ildə – 11,2 faiz, 2005-ci ildə – 26,4 faiz, 2006-cı ildə – 34,5 faiz olmuşdur. 2000-2006-cı illərdə ÜDM müqayisəli qiymətlərlə 3,8 dəfə artmış və 2006-cı ildə 18037,1 mln manat təşkil etmişdir [Əlavə 1]. Aparılan araşdırmalar göstərir ki, ÜDM-da müşahidə edilən bu artım əsas etibarı ilə neftqazçıxarma sənayesində və qeyri-istehsal sahələrində (ticarət, nəqliyyat, rabitə və s.) sahibkarlığın inkişafı ilə əlaqədardır. Ancaq istehsal sahələrində, əsasən də bütövlükdə sənayenin inkişafında, o cümlədən onun aparıcı sahələri olan mədənçıxarma (neftqazçıxarma istisna olmaqla), neft emalı, neft-kimya, maşınqayırma sənayesi, eləcə də elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahələrində və s. hələ də 1990-cı il səviyyəsinə çatmaq mümkün olmamışdır. Belə ki, 1991-ci ildə respublikamızda sənaye məhsulunun ümumi həcminin indeksi 1990-cı il səviyyəsinin 91%-ni təşkil etdiyi halda sonrakı illərdə bu geriləmə daha kəskin şəkil almış və 1992-ci ildə 1990-cı il səviyyəsinin 63%-ni; 1993-cü ildə – 51%-ni; 1994-cü ildə – 38%-ni; 1995-ci ildə – 30%-ni; 1996-cı və 1997-ci illərdə – 28%-ni; 1998-ci ildə 29%-ni; 2000-ci ildə – 32%-ni; 2003-cü ildə – 37%-ni; 2004-cü ildə – 39%-ni təşkil etmişdir (2005 və 2006-cı illər üzrə müvafiq göstəricilər yoxdur).

Qeyd edilən müddətdə respublikamızın bütövlükdə mədənçıxarma sənayesində də geriləmələr baş versə də bu özünü bütövlükdə sənaye sahəsində olduğundan daha az büruzə vermişdir. Belə ki, 1991-ci ildə ölkəmizdə mədənçıxarma sənayesi məhsulunun ümumi həcminin indeksi 1990-cı il səviyyəsinin 97%-nə; 1992-ci ildə – 84%-nə; 1993-cü ildə – 78%-nə; 1994-cü ildə ildə – 72%-nə; 1995-ci ildə – 53%-nə; 1996-cı və 1997-ci illərdə – 52%-nə; 1998-ci ildə – 64%-nə; 2000-ci ildə – 78%-nə;



2003-cü ildə – 86%-nə; 2004-cü ildə – 88%-nə bərabər olmuşdur [19. səh.507]. Emal sənayesində isə əksinə, məhsul istehsalının həcminin indeksi bütövlükdə sənaye sahəsinə nisbətən daha kəskin surətdə aşağı düşmüdür: 1991-ci ildə Azərbaycanda emal sənayesi məhsulunun ümumi həcminin indeksi 1990-cı il səviyyəsinin 61%-nə; 1992-ci ildə – 49%-nə; 1994-cü ildə ildə – 35%-nə; 1995-ci ildə – 28%-nə; 2000-ci ildə – 23%-nə; 2004-cü ildə – 33%-nə bərabər olmuşdur [19. səh.507]. Eyni mənzərə sənayenin digər aparıcı sahələrində də müşahidə edilməkdədir. Təhlil göstərir ki, sənaye istehsalında qeyd edilən geriləmələr hələ də iri müəssisələrin mütləq əksəriyyətinin (1000-dən artıq) dövlət mülkiyyətində qalması və onların bir çoxunun bəzi obyektiv və subyektiv səbəblərdən (bax IV) fəaliyyət göstərməməsi və ya istehsal gücələrinin cüzi hissəsindən istifadə edilməsi, istehsal sahələrində qeyri-dövlət sahibkarlığının inkişaf etməməsi ilə əlaqədardır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, 2006-cı ildə ölkəmizdə sənaye məhsulunun ümumi həcminin indeksi 1995-ci il səviyyəsinin – 236%-ni; o cümlədən emal sənayesində – 146%-ni, mədənçıxarma sənayesində –339%-ni, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahələrində –154%-ni təşkil etmişdir.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, onların mövcud, yüksək inkişaf səviyyəsinə çatması bir sıra amillərlə bağlıdır. Bu amillər arasında təbii ehtiyatların bolluğu, əmək ehtiyatlarının kifayət qədər olması, əlverişli coğrafi mövqe, əlverişli iqlim, kapital və onun yığımı, beynəlxalq əmək bölgüsündə yaxından iştirak, xarici ticarət əlaqələrinin yüksək inkişaf səviyyəsi, idarəetmənin mütərəqqi formalarının tətbiqi, texnika və texnologiya sahəsində əldə edilən nailiyyətlər və s. xüsusi rol oynamışdır. Ancaq XX əsrin ikinci yarısından etibarən iqtisadiyyatı sıçrayışla inkişaf edən Almaniya, Yaponiya, İtaliya, Cənubi Koreya və s. kimi ölkələrin təcrübəsi göstərir ki, güclü iqtisadi inkişaf təsərrüfat həyatında, xüsusilə də istehsal sahələrində, dövlətin iştirak səviyyəsinin azaldılması, iqtisadi azadlıq üçün münbit şəraitin yaradılması yolu ilə də mümkündür [108. səh.12-

13]. Buradan belə bir nəticəyə gəlmək olar ki, sahibkarlığın, xüsusilə də istehsal sahələrində, inkişafına münbit şərait yaratmaqla daha yüksək iqtisadi göstəricilərə nail olmaq mümkündür və bu Azərbaycan üçün olduqca aktualdır.

Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafı bütövlükdə ölkədə sahibkarlığın inkişafı ilə bağlıdır. Azərbaycanın xalq təsərrüfatının bütün sahələrində (sahibkarlığın inkişaf etdiyi qeyri-istehsal sahələri də daxil olmaqla) sahibkarlığın inkişafına ehtiyac və bunun reallaşdırılması üçün kifayət qədər potensial imkanlar vardır. Həm də sahibkarlığın inkişafı üçün müvafiq tədbirlər (hüquqi, iqtisadi) həyata keçirilərkən onun müxtəlif formaları (fərdi, birgə və dövlət) arasında nisbətin gözlənilməsinə də xüsusi fikir verilməlidir. Fikrimizcə, qeyri-istehsal sahələrində (ticarət, xidmət, vasitəçilik, səhiyyə və s.) özəl sahibkarlığın inkişafına heç bir məhdudiyyət qoyulmamalı, strateji sahələrdə (dəmir yolu, hava və su nəqliyyatı, maşınqayırma, neft-qaz hasilatı və emalı, enerji hasilatı və təchizatı və s.) isə aparıcı müəssisələrin nəzarət səhm paketləri dövlətin sərəncamında qalmalıdır.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə bir çox sənaye məhsullarının istehsalının mülkiyyət formalarına görə strukturunda qeyri-dövlət bölməsinin xüsusi çəkisi kifayət qədər yüksəkdir. Belə ki, 2006-cı ildə xam neft və təbii qaz, metal filizləri hasilatı istisna olmaqla mədənçıxarma sənayesinin digər sahələrində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 97,6%; iskilər də daxil olmaqla qida məhsullarının istehsalında – 99,5%; tütün məmulatlarının istehsalında – 100%; sellüloz, kağız, karton və onlardan məmulatların istehsalında – 91,5% və s. təşkil etmişdir [25. səh.390-391]. Ancaq araşdırmalar göstərir ki, qeyd edilən və digər sənaye sahələrində məhsul istehsalında qeyri-dövlət bölməsinin xüsusi çəkisinin yüksək olması bu sahələrdə özəl sahibkarlığın kifayət qədər inkişafı ilə əlaqədar deyildir: qeyd edilən (və digər) sənaye sahələrində istehsalın həcmi hələ də 1990-cı il səviyyəsindən xeyli aşağıdır. Yaranmış vəziyyət qeyd edilən sahələrdə dövlət mülkiyyətində olan müəssisələrin əksəriyyətinin özəlləşdirilməsi, qalanlarının isə tam gücü ilə işləməməsi



ilə bağlıdır. Bu, özəl sektora daxil olan müəssisələrin tam gücü ilə işləmədiklərinə baxmayaraq məhsul istehsalının ümumi həcmində irəliyə çıxmalarına şərait yaratmışdır. Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda istehsal sahələrində, xüsusilə də sənayedə, sahibkarlığın üstün inkişaf etdirilməsinə ehtiyac yaranmışdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ümümiyyətlə sahibkarlığın formalaşması və inkişafı üçün əlverişli mühitin yaradılması bu prosesə sistemli yanaşma sayəsində mümkündür. Sahibkarlığın formalaşması və inkişafına sistemli yanaşma isə aşağıdakıları özündə ehtiva edir:

- hüquqi təminat – hüquqi tənzimləmə;
- maliyyə təminatı – maliyyə tənzimləməsi;
- sahibkarlıq fəaliyyətinə kömək;
- sahibkarlığın xarici iqtisadi əlaqələrinə yardım və onların tənzimlənməsi;
- elmi və kadr təminatı;
- infrastruktur təminatı;
- sahibkarlıq fəaliyyətinin stimullaşdırılması;
- sahibkarlıq fəaliyyətinə maliyyə-iqtisadi nəzarət.

Qeyd edilənlərlə yanaşı sahibkarlığın formalaşmasına və inkişafına sistemli yanaşma bu prosesin həm ümumdövlət səviyyəsində, həm də yerli idarəetmə orqanları səviyyəsində tənzimlənməsini də nəzərdə tutur.

Azərbaycanda sahibkarlığın formalaşması və inkişafının hüquqi təminatına hələ o SSRİ tərkibində olarkən müvafiq qanunların qəbulu ilə başlanmış və müstəqillik əldə edildikdən sonra bu sahədə işlər daha da genişlənmişdir (bax III və IV ). Ancaq təəssüflə qeyd etmək lazımdır ki, sahibkarlığın formalaşması və inkişafına yönəlmiş qanunlar, proqramlar, fərmanlar bir tərəfdən Azərbaycanda mövcud, real şəraiti kifayət qədər nəzərə almadan qəbul edilmişdir, onların bir çox maddələri deklorativ xarakter daşıyır, digər tərəfdən isə onların reallaşdırılması çoxsaylı bürokratik əngəlliklərlə qarşılaşmışdır və qarşılaşmaqdadır. Bunların nəticəsidir ki, sahibkarlığın formalaşması

və inkişafına kömək məqsədi ilə qəbul edilmiş Dövlət Proqramlarının heç biri tam həcmdə yerinə yetirilməmişdir, qanunlar demək olar ki, işləmir, sahibkarlıq fəaliyyətinə yersiz və qanunsuz müdaxilələr davam etməkdədir. Qeyd edilən nöqsanların aradan qaldırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı da gözlənilən nəticəni verməmişdir.

Azərbaycanda sahibkarlığın inkişafına yönəlmiş qanunlar əsasən kiçik və orta sahibkarlığın hüquqi tənzimlənməsini nəzərdə tutur, ümumi xarakter daşıyır, sahibkarlıq fəaliyyətinin formalarını və fəaliyyət sahəsini nəzərə almır. İri sahibkarlığın tənzimlənməsini nəzərdə tutan xüsusi qanun ümumiyyətlə yoxdur. Sahibkarlıq haqqında mövcud qanunlarda keyfiyyət xarakterli çatışmazlıqlar da mövcuddur ki, bu da əsasən onların reallaşdırma mexanizminin olmaması ilə bağlıdır.

Fikrimizcə, Azərbaycanda sahibkarlığın formalaşması və inkişafının hüquqi təminatının möhkəmləndirilməsinə və onun dövlət tərəfindən səmərəli tənzimlənməsinə ehtiyac vardır. Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

1. Fəaliyyət sahəsindən asılı olaraq kiçik müəssisələrin yaradılması və fəaliyyətini tənzimləyən qanunların qəbul edilməsi. Bu zaman sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət, elm və təhsil, səhiyyə sahələrində çalışan müəssisələrin fəaliyyətinin tənzimlənməsinə diferensial yanaşmaq lazımdır. Fikrimizcə, sənaye və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən kiçik müəssisələrin yaradılması qaydaları daha da sadələşdirilməli, onlara vergi ödənişi və kreditlərin alınmasında güzəştlər tətbiq edilməlidir. Qeyd edilən sahələrdə Azərbaycan vətəndaşları tərəfindən yeni yaradılan kiçik müəssisələrin fəaliyyətinin ilk 3 ilində tamamilə, sonrakı 3 ildə isə qismən (məsələn 50% həcmində) bütün vergilərdən (işçilərin əmək haqqından gəlir vergisi və sosial müdafiə fonduna ödəmələr istisna olmaqla) azad edilməsi də məqsədəuyğun olardı.



Fikrimizcə, kiçik və orta sahibkarlığın inkişafına kömək üzrə Dövlət Proqramlarında istehsal sahələrində fəaliyyət göstərən kiçik müəssisələrə müəyyən imtiyazların nəzərdə tutulması faydalı olardı. Məsələn, Sahibkarlığa Kömək Milli Fondundan istehsalla məşğul olan kiçik müəssisələrə daha aşağı faizlə, regionlarda fəaliyyət göstərən bu tipli müəssisələrə isə faizsiz kreditlərin verilməsi həyata keçirilə bilər. Hərtərəfli, elmi cəhətdən əsaslandırılmış fəaliyyət (istehsal) proqramları əsasında veriləcək bu cür kreditlərin girov təminatını da dövlət öz üzərinə götürə bilər.

Xarici kapitalın iştirakı ilə regionlarda yaradılan və istehsalla məşğul olan müştərək, kiçik müəssisələr üçün də müəyyən güzəştlərin tətbiq edilməsi məqsədəuyğun olardı. Məsələn, yeni yaradılan bu tipli müəssisələrin fəaliyyətinin ilk 3 ilində mənfəət vergisindən azad edilməsi nəzərdə tutula bilər. Bundan başqa, hər il yeni iş yerləri açan kiçik və orta müəssisələr, yeni işçilərin əmək haqqı fondundan sosial müdafiə fonduna ödəmələrdən bir il müddətinə azad edilə bilər.

2. Orta sahibkarlıqla məşğul olan sahibkarlıq strukturlarının fəaliyyətini tənzimləyən xüsusi qanunun tətbiq edilməsi. Bu qanunda da fəaliyyət sahəsindən asılı olaraq orta müəssisələrə diferensial yanaşmaq lazımdır. Məsələn, Azərbaycan vətəndaşları tərəfindən yeni yaradılan və istehsal sahələrində fəaliyyət göstərən orta müəssisələrə fəaliyyətlərinin ilk 3 ilində mənfəət vergisinin ödənilməsində 50%-lik güzəşt müəyyən edilə bilər. Xarici iqtisadi fəaliyyətlə məşğul olan bu tipli müəssisələrə gömrük tariflərinin ödənilməsində də güzəştlər nəzərdə tutula bilər.

3. İri müəssisələrin yaradılması və fəaliyyətini tənzimləyən qanunların qəbul edilməsi. Fikrimizcə, bu sahədə iki qanunun qəbul edilməsi məqsədəuyğundur. Birinci qanun qeyri-dövlət bölməsinə, ikinci qanun isə dövlət bölməsinə daxil olan iri müəssisələrin fəaliyyətinin tənzimlənməsini nəzərdə tutmalıdır. Birinci qanun "İri sahibkarlıq fəaliyyəti haqqında", ikinci qanun isə "Dövlət sahibkarlığı haqqında" Azərbaycan Respublikasının

Qanunu adlandırıla bilər. Qeyd edilən qanunlarda (ayrı-ayrılıqda) aşağıdakılar təsbit olunmalıdır:

- dövlət və qeyri-dövlət sahibkarlığı anlayışları müəyyənləşdirilməli və dəqiqləşdirilməlidir;
- iri sahibkarlıq strukturlarının yaradılması kriteriyaları (fəaliyyət sahələri üzrə) müəyyənləşdirilməlidir;
- sahibkarlığın təşkilati-hüquqi formaları göstərilməlidir;
- sahibkarlıq fəaliyyətinin növləri və əhatə dairəsi dəqiq müəyyən edilməlidir;
- sahibkarlıq fəaliyyətinin maliyyələşmə mənbələri göstərilməlidir;
- sahibkarların hüquq və vəzifələri qeyd edilməlidir;
- sahibkarlarla dövlətin qarşılıqlı münasibətlərinin tənzimlənməsinin əsas istiqamətləri göstərilməlidir;
- qanunların reallaşdırılma mexanizmi müəyyənləşdirilməlidir və s.

Fikrimizcə, "İri sahibkarlıq fəaliyyəti haqqında" qanunda istehsal sahibkarlığı ilə məşğul olanlara daha əlverişli fəaliyyət şəraiti yaradılması nəzərdə tutulmalıdır. Azərbaycanda istehsal sahibkarlığının mövcud durumu (həm dövlət, həm də qeyri-dövlət bölməsində) nəzərə alınmaqla, inkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdən fərqli olaraq, iri sahibkarlıq strukturlarına kiçik və orta sahibkarlıqdan daha çox dövlət köməyi göstərilməlidir və bu kömək həm iri sahibkarlıq strukturları yaradılan zaman, həm də onların fəaliyyəti dövründə (heç olmasa fəaliyyətlərinin ilk illərində) göstərilməlidir. Fikrimizcə, qanunvericilikdə iri qeyri-dövlət istehsal müəssisələri yaradılarkən aşağıdakı güzəştlər nəzərdə tutula bilər:

- iri dövlət müəssisələri özəlləşdirilərkən onların simvolik qiymətlərlə həmin müəssisənin kollektivinə satılması yolu ilə qapalı tipli səhmdar cəmiyyətlərin yaradılması. İlk dövrlərdə belə səhmdar cəmiyyətlərin fəaliyyətinin maliyyə təminatı üçün onlara güzəştli şərtlərlə uzunmüddətli kreditlərin verilməsi də qanunda təsbit olunmalıdır;



- strateji sənaye sahələrinə daxil olan iri dövlət istehsal müəssisələri özəlləşdirilərkən, onların maliyyələşdirilməsində və idarə edilməsində dövlətin iştirakını təmin etmək məqsədi ilə nəzarət səhm paketi dövlətə məxsus olmaqla, açıq tipli səhmdar cəmiyyətlərin (ASC) yaradılması. Belə səhmdar cəmiyyətlərin uzun müddətə güzəştli kredit almaq hüququ təsbit edilməlidir;
- respublikanın regionlarında yeni yaradılan iri istehsal müəssisələrinin fəaliyyətinin ilk üç ilində mənfəət vergisinin 50%-indən, əlavə dəyər vergisindən isə tamamilə azad edilməsi;
- xarici hüquqi şəxslərin iştirakı ilə ölkənin regionlarında yaradılan yeni iri istehsal Müştərək müəssisələrin fəaliyyətinin ilk üç ilində onların mənfəət vergisindən azad edilməsi və s.

Hesab edirik ki, qeyri-dövlət bölməsinə daxil olan və fəaliyyət göstərən iri istehsal müəssisələrinə aşağıdakı güzəştlər tətbiq edilə bilər:

- istehsal-təsərrüfat fəaliyyəti nəticəsində əldə edilən mənfəətin yeni texnika və texnologiya alınmasına, istehsalın yenidən qurulmasına və modernləşdirilməsinə sərf edilən hissəsinin vergidən azad edilməsi;
- istehsalın yenidən qurulması, yeni texnika və texnologiyanın tətbiqi məqsədi ilə xarici ölkələrdən gətirilən texniki avadanlıqların gömrük rüsumundan azad edilməsi;
- xarici iqtisadi əlaqələrlə məşğul olan müəssisələrin ixracatının artım hissəsinin (illik) ixrac vergisindən (rüsumlardan) azad edilməsi;
- fəaliyyətdə olan maşın, avadanlıq və qurğuların daha mütərəqqi, resursqənaətedici texnologiya ilə əvəz edilməsini stimullaşdırmaq məqsədi ilə bu prosesdə iştirak edən maşın, avadanlıq və qurğuların sürətli amortizasiyasına icazə verilməsi. Bu zaman, məsələn, onların fəaliyyətinin birinci ilində dəyərlərinin 70,0%-nin, sonrakı illərdə (mənəvi aşınma müddətində) isə qalan hissəsinin amortizasiya fonduna (bərabər hissələrlə) köçürülməsi nəzərdə tutula bilər və s.

Fikrimizcə, "Dövlət sahibkarlığı haqqında" qanunda, yuxarıda qeyd edilənlərlə yanaşı, dövlət müəssisələrinin idarə

edilməsinin, yenidən təşkilinin və ləğv edilməsinin əsas prinsipləri və metodları, mənfəətin bölüşdürülməsi və ziyanın ödənilməsi qaydaları da öz əksini tapmalıdır. Dövlət müəssisələri üçün hansısa güzəştlərin tətbiq edilməsini məqsədəuyğun hesab etmirik. Təbiidir ki, dövlət öz mülkiyyətində olan müəssisələrin mənfəətlə işləməsində maraqlıdır və bunun üçün tələb olunan tədbirləri həyata keçirməlidir. Fikrimizcə, qeyd edilən qanunda dövlət müəssisəsi ziyanla işləyəcəyi təqdirdə onun dövlətin mərkəzləşdirilmiş vəsaiti hesabına ödənilməsi və sonradan bu vəsaitin dövlətə qaytarılması qaydaları nəzərdə tutula bilər.

4. Sahibkarlıq fəaliyyətinə kənar, yersiz və haqsız müdaxilələrin qarşısının alınması üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq yeni, daha sərt fərmanının qəbul edilməsi.

5. Sahibkarların hüquqlarının qorunması, qanunların icrasına nəzarətin gücləndirilməsi, məmur özbaşınalığının qarşısının alınması üçün Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlıq Şurasının hüquqlarının genişləndirilməsi.

6. Sahibkarlığın formalaşması və inkişafı məqsədi ilə qəbul edilmiş qanunların, proqramların, fərmanların yerinə yetirilmə mexanizmlərinin hazırlanması və onların həyata keçirilməsinə ciddi nəzarət.

Fikrimizcə, yuxarıda qeyd edilən tədbirlərin həyata keçirilməsi Azərbaycanda sahibkarlığın formalaşması və inkişafı üçün kifayətedici hüquqi mühitin yaradılmasına və onun səmərəli tənzimlənməsinə şərait yaradardı.

Sahibkarlığın formalaşması və inkişafında onun maliyyə təminatı xüsusi rol oynayır. Uzun müddət istehsal vasitələri üzərində ümumxalq mülkiyyətinin mövcud olduğu və yeganə həyat mənbəyinin iş qüvvəsinin sərfi sayəsində alınan əmək haqqından ibarət olduğu sosializm cəmiyyətində vətəndaşların mütləq əksəriyyəti yığım imkanlarından məhrum idi. Buna görə də Azərbaycanda sosializmin süqutu və yeni istehsal münasibətlərinin bərqərar olduğu bazar iqtisadiyyatı şəraitində potensial sahibkarların mütləq əksəriyyəti sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün ilkin kapital yığımına malik deyildir. Ölkədə



aparılan özəlləşdirmə prosesi də, buraxılan çoxsaylı səhvlər və qanun pozuntuları səbəbindən, bu sahədə olan boşluğu doldura bilməmişdir. Nəticədə özəlləşdirmə nəticəsində yaradılan sahibkarlıq strukturlarının bir çoxu fəaliyyətə başlamamışdan dayanmış və ya öz istehsal güclərinin cüzi hissəsindən istifadə edirlər. Ölkədə kiçik və orta sahibkarlığın inkişafına kömək məqsədi ilə müəyyən Dövlət prqramlarının qəbulu və fondların (bax III) yaradılmasına baxmayaraq hələ də Azərbaycanda sahibkarlığa dövlət köməyinin və onun tənzimlənməsinin vahid, səmərəli sistemi formalaşmamışdır.

27 avqust 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Sahibkarlığa kömək Milli Fondu"nun (SKMF) yeni əsasnaməsinin təsdiq edilməsi də bu sahədə gözlənilən nəticəni verməmişdir. Əsasnaməyə görə öz fəaliyyətini mərkəzi və yerli idarəetmə orqanları, yerli özünüidarəetmə orqanları, maliyyə, kredit, sığorta təşkilatları, sahibkarların ictimai təşkilatları ilə birgə həyata keçirməli olan SKMF vəsaitləri aşağıdakı məqsədlərə sərf etməlidir:

- ölkənin sosial-iqtisadi inkişafı ilə əlaqədar məqsədli proqramların həyata keçirilməsində özəl sektora kömək;
- idxalı əvəzləyən malların istehsalı;
- ixraca yönəlik malların istehsalı;
- informasiya istiqamətli layihələrin maliyyələşdirilməsi;
- qədim xalq sənətlərinin inkişafı;
- xammal və dövriyyə vəsaitlərinin alınması;
- turizmin infrastrukturunun yaranması;
- kütləvi informasiya vasitələrinin inkişafı.

SKMF-nun vəsaitlərinin dövlət büdcəsindən ayırmalar, dövlət müəssisələrinin özəlləşdirilməsindən əldə edilən vəsaitlər, xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən edilən yardımlar və verilən qrantlar, eləcə də əvvəllər verilmiş kreditlər üzrə faizlər və qaytarılan kreditlər hesabına formalaşması nəzərdə tutulur. Ancaq indiyəcən SKMF-nun vəsaitləri yalnız dövlət büdcəsindən ayırmalar və Fondun verdiyi kreditlərin qaytarılması və ödənilən kredit faizləri hesabına formalaşır. SKMF-

nun formalaşması üçün 2003-cü ildən etibarən dövlət büdcəsindən hər il 10 mln manat ayrılması nəzərdə tutulsa da 2005-ci ildən etibarən bu məbləğ hər il artırılmış və 2006-cı ildə 40 mln manat təşkil etmişdir. Ancaq fondun vəsaitlərindən kreditlərin verilməsi prosesi şəffaf deyildir, müvəkkil banklar verilən kreditlər müqabilində böyük həcmdə girov tələb edirlər (çox vaxt bu girovun Bakı şəhərində olmasını istəyirlər), kreditlərin verilməsi üçün sahibkarlardan müəyyən haqq tələb edirlər və s. Nəticədə SKMF-da sahibkarlığın inkişafına kömək məqsədilə nəzərdə tutulan vəsaitlər vaxtında və təyinatı üzrə sahibkarlara verilmir. 2004-cü ildən SKMF hesabına regionlarda fəaliyyət göstərən sahibkarlara kreditlərin verilməsi məqsədi ilə Biznes Forumlar keçirilsə də, onlar əsasən formal xarakter daşımışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan kiçik və orta sahibkarlığın inkişafına yardım məqsədi ilə BMT-nin İnkişaf Proqramı, BMT-nin Avropa İqtisadi Komissiyası, Dünya Bankı, TASİS və s. kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, Yaponiya, AFR, İtaliya, Türkiyə, Çin və bir sıra başqa dövlətlərlə ikitərəfli əlaqələr yaradır, bu ölkələrə məxsus kredit təşkilatları ölkəmizdə sahibkarlara mikrokreditlərin verilməsini təşkil edirlər. Ancaq hələlik bu əməkdaşlıq və əlaqələr Azərbaycanda sahibkarlığın inkişafının maliyyə təminatı baxımından kifayət deyildir.

Azərbaycanda sahibkarlığın (əsasən kiçik və orta sahibkarlığın) inkişafının maliyyələşdirilməsi üçün beynəlxalq təcrübədən istifadə etməyə "tələsmirlər"(bax III). Məsələn, hökumət bəyan etmişdi ki, özəl şirkətləri, xüsusilə də kənd təsərrüfatı ilə bağlı layihələri maliyyələşdirmək məqsədilə Dövlət Neft Fondunun vəsaiti hesabına Vençur Kapitalı Fondu yaradacaqdır. Vençur Kapitalı Fondunun və onun maliyyələşdirilməsində Avropa Yenidənqurma – İnkişaf Bankının (AYİB) və Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) iştirakı da gözlənilsə də hələlik bu fondun yaradılmasına başlanmayıb.

Azərbaycan hökumətinin həyata keçirdiyi sərt maliyyə-kredit siyasəti də sahibkarlığın inkişafı üçün kredit resurslarının



cəlb edilməsini çətinləşdirir. Beynəlxalq təcrübənin əksinə olaraq (məsələn, ABŞ-da və Avropa Birliyində mərkəzləşdirilmiş kredit üçün uçot dərəcələrini minimuma endirməyi üstün tuturlar və bunu həyata keçirirlər) Azərbaycan Respublikasının Milli Bankı mərkəzləşdirilmiş kredit üçün uçot dərəcəsini yüksəltməyə üstünlük verir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2002-ci il tarixli "Sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı qəbul edildikdən sonra Milli Bank mərkəzləşdirilmiş kredit üçün uçot dərəcəsini 10%-dən 7%-ə endirmişdi. Ancaq 2005-ci ildə MB mərkəzləşdirilmiş uçot dərəcəsini 3 dəfə: may ayında 7%-dən – 7,5%-ə; iyulda – 8%-ə; oktyabr ayının 1-dən etibarən isə 9%-ə, 2007-ci ildə isə – 13%-ə qaldırmışdır. Təbiidir ki, MB-ın bu addımı kredit faizlərinin yüksəlməsinə səbəb olmuşdur: hal hazırda özəl kommersiya bankları kreditləri illik 18-30%-ə verirlər. Azərbaycanda verilən kreditlərin təxminən yarısının qısa müddətli olduğu (bax Əlavə 1) nəzərə alınarsa, belə yüksək faizlə alınan kreditlər hesabına sahibkarlığın inkişafının qeyri-mümkünlüyü qənaətinə gəlmək olar.

Azərbaycanda sahibkarlığın, xüsusilə də iri sahibkarlığın, inkişafının maliyyə təminatının kifayət qədər olmamasının nəticəsidir ki, ölkənin qeyri-neft sektoru böhran vəziyyətindən çıxa bilmir; ölkədə istehsalı üçün kifayət qədər istehsal gücləri, xammal, müvafiq şərait olmasına baxmayaraq xalq istehlakı mallarının əksər hissəsi idxal edilir; Azərbaycan hətta tütün, pambıq, çay, üzüm şərabları, kimya sənayesi məhsullarının ixracı kimi potensial imkanları əldən verib; sənayenin ənənəvi sahələri olan maşınqayırma, kimya, yeyinti, yüngül, elektroenergetika sahələrində istehsal güclərinin cəmi 18-30%-dən istifadə edilir və s.

Yaranmış vəziyyət, xüsusilə də ölkə iqtisadiyyatının neft amilindən asılılığının tezliklə aradan qaldırılması zərurəti, ölkənin qeyri-neft sektorunda sahibkarlığın inkişafı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edir. Fikrimizcə, Azərbaycanda sahibkarlığa kömək, onun inkişafının maliyyə təminatını yaxşılaşdırmaq və tənzimləmək üçün aşağıdakı

tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

1. Sahibkarlıq strukturlarının maliyyə planlaşdırılmasının və maliyyə strategiyasının səmərəli təşkil edilməsi üçün vergi qanunvericiliyinin tez-tez dəyişdirilməsi təcrübəsinə son qoyulması, Azərbaycanda mövcud maliyyə-iqtisadi mühit nəzərə alınmaqla optimal vergi növləri və vergi dərəcələrinin müəyyən edilməsi. Bu zaman fəaliyyət növündən və sahəsindən asılı olaraq sahibkarlıq strukturlarının ödəyəcəyi vergilərin və onların dərəcələrinin diferensiallaşdırılması, istehsalla məşğul olanlara güzəştlərin müəyyən edilməsi.

2. İstehsalla məşğul olan sahibkarlıq strukturlarına innovasiyalı geniş təkrar istehsal üçün uzunmüddətli kreditlər verən kommersiya banklarına və kredit təşkilatlarına vergi güzəştləri tətbiq edilməsi.

3. Sahibkarlıq strukturlarına nisbətən aşağı faizlərlə uzunmüddətli kreditlərin verilməsində kommersiya banklarını və kredit təşkilatlarını stimullaşdırmaq üçün bu məqsədlə MB tərəfindən verilən mərkəzləşdirilmiş kreditlərin uçot dərəcəsinin aşağı salınması.

4. Sahibkarlıq strukturlarına orta və uzunmüddətli kreditlərin verilməsini təmin etmək üçün dövlətə məxsus "Kapital bank"da (onun filiallarında) kredit resurslarının yaradılması.

5. SKMF-nun vəsaitlərinin formalaşdırılması üçün onun Əsasnaməsində nəzərdə tutulan bütün mənbələrdən istifadə edilməsi. Fonddan kreditlərin müvəkkil bankların iştirakı olmadan, bilavasitə Fondun özü tərəfindən verilməsi mexanizminin işlənməsi və həyata keçirilməsi; kreditlərin verilməsində şəffaflığın təmin edilməsi; regionlarda yeni istehsal müəssisələri yaradan kiçik və orta sahibkarlara faizsiz kreditlər verilməsi təcrübəsinin tətbiqi; kreditlər verilərkən innovasiyalı layihələrin maliyyələşdirilməsinə üstünlük verilməsi.

6. Sahibkarlıq strukturlarının maliyyələşdirilməsi məqsədi ilə Dövlət Neft Fondundan ayırmalar hesabına Vençur Kapitalı Fondunun yaradılması, əldə edilmiş razılığa əsasən bu fondun formalaşdırılmasına AYİB və BMK-ın cəlb edilməsi.



7. Kiçik və orta sahibkarlığın stabil inkişafına şərait yaratmaq üçün uzunmüddətli zəmanətli kreditlərin verilməsi məqsədi ilə, dövlət vəsaiti hesabına "Kiçik və orta sahibkarlığa zəmanətli kredit fondu"nun yaradılması.

8. Kiçik və orta müəssisələrin sərbəst vəsaitindən istifadəyə imkan verən "Kredit ittifaqları"nın formalaşmasına və onların normal fəaliyyətinə şərait yaradılması.

9. Dövlət müəssisələri özəlləşdirilərkən nəzərdə tutulan güzəştlərin müddətinin mümkün olan həddə qədər uzadılması.

10. Ölkəmizdə qeyri-neft sektoruna aid sənaye sahələrinin inkişaf etdirilməsi, yüksək elmtutumlu və keyfiyyətli məhsullar istehsal edilməsi məqsədi ilə prioritet istiqamətlərin müəyyən edilməsi, bu istiqamətlərdə fəaliyyət göstərən sahibkarlara xüsusi dövlət maliyyə yardımı proqramlarının hazırlanması və tətbiq edilməsi.

Sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsində və inkişafında xarici iqtisadi əlaqələrin qurulması, beynəlxalq əmək bölgüsündə iştirak mühüm əhəmiyyət kəsb edir. Buna görə də sahibkarlıq strukturlarının xarici iqtisadi əlaqələrinin tənzimlənməsi, bu sahədə onlara lazımı kömək göstərilməsi dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri olmalıdır. Bu sahədə dövlət köməyi və tənzimlənməsi iki istiqamətdə həyata keçirilə bilər: ölkədə iqtisadi inkişafın və sahibkarlıq strukturlarının rəqabətə davamının təmin edilməsi üçün səmərəli proteksionizm siyasətinin həyata keçirilməsi və sahibkarlıq strukturlarının idxal-idxrac əməliyyatlarının həyata keçirilməsində onlara əlverişli şəraitin yaradılması.

Fikrimizcə, səmərəli proteksionizm siyasəti aşağıdakıları özündə ehtiva etməlidir:

- rəqabətqabiliyyətli məhsullar istehsal etmək imkanı olan sahibkarlıq strukturlarının bu sahədə hələlik üstün olan xarici idxalçılardan qorunması;
- sahibkarlıq strukturlarına investisiyaların cəlb edilməsi məqsədi ilə səmərəli fəaliyyət göstərən xarici sahibkarların tapılmasında, xarici bazarlara çıxışda və onlarda möhkəmlənməkdə,

bu məqsədlə marketinq tədqiqatlarının aparılmasında, lazımı informasiyaların toplanmasında, xarici tərəfdaşlarla səmərəli əməkdaşlığın qurulmasında kömək göstərilməsi;

- milli sahibkarlıq strukturlarına xarici ölkələrdə filiallarının, nümayəndəliklərinin açılmasında, təsərrüfat strukturlarının yaradılmasında köməklik göstərilməsi;
- ixrac üçün mallar istehsal edən sahibkarlıq strukturlarına rəqabətdə qalib gəlməkdə müvafiq yardımlar edilməsi və s.

İdxal-ixrac əməliyyatlarının həyata keçirilməsində sahibkarlıq strukturlarına aşağıdakı istiqamətlərdə köməklik göstərilə bilər:

- gömrük rüsumlarının və xarici iqtisadi əlaqələrə görə vergilərin diferensiyasiyası. Bu yolla elmtutumlu məhsulların ixracını, yeni texnika və texnologiyanın idxalını stimullaşdırmaq olar;
- ölkəyə yeni texnika və texnologiya gətirən sahibkarlıq strukturlarının güzəştli şərtlərlə kreditləşdirilməsi;
- ölkədə səmərəli, qabaqcıl sahibkarlıq strukturlarının yaradılması məqsədi ilə xaricdən alınan kreditlərə dövlət zəmanəti verilməsi;
- xarici tərəfdaşlarla birgə müştərək müəssisələrin yaradılmasına kömək edilməsi;
- Azərbaycan Respublikasının Ticarət-Sənaye Palatasında xarici rəqiblərin rəqabət qabiliyyəti, imkanları haqqında, iri sahibkarlıq layihələrini maliyyələşdirmək imkanına malik investorlar haqqında məlumat bankının yaradılması və s.

Sahibkarlığın formalaşması və inkişafında bu prosesin elmi cəhətdən əsaslandırılmış səmərəli sisteminin yaradılmasının mühüm əhəmiyyəti vardır. Belə sistem olmadan səmərəli, rəqabətqabiliyyətli sahibkarlıq strukturlarının yaradılması və ölkə iqtisadiyyatının sabit, dinamik inkişafı qeyri-mümkündür. Buna görə də dövlət sahibkarlığın inkişafının elmi təminat strategiyasını (10-15 il müddətinə) işləyib hazırlamalı və özünün innovasiya siyasətini onun əsasında qurmalıdır. Sahibkarlığın elmi təminat strategiyası aşağıdakı əsas sahibkarlıq strukturlarının dövlət tərəfindən himayə edilməsini nəzərdə tutmalıdır:



- milli və beynəlxalq bazarlarda potensial rəqabət qabiliyyəti olanların;
- ölkənin regionlarında iqtisadi inkişafın bazasını, əsasını təşkil edənlərin;
- xalq təsərrüfatının aparıcı sahələrinin (maşınqayırma, yanacaq-enerji kompleksi, nəqliyyat, kənd təsərrüfatı və s.) iqtisadi "sifətini" müəyyən edənlərin.

Məlumdur ki, elmi-tədqiqat işləri, xüsusilə də fundamental elm sahələrində, uzun müddət tələb edir, onların məhsulu xüsusi, spesifik xarakter daşıyır və kommersiya nöqteyi-nəzərdən qiymətləndirilməsi çətin olur. Ona görə də bu məhsullara birbaşa istehlakçı tapılmır və ya çox çətinliklə tapılır. Məhz bu səbəbdən əhəmiyyətli elmi-tədqiqat işləri dövlət büdcəsindən maliyyələşdirilməlidir. Dövlət vergi güzəştləri tətbiq etməklə, əlverişli şərtlərlə kreditlər verməklə və başqa güzəştlər müəyyən etməklə müxtəlif kommersiya strukturlarını da bu prosesə cəlb edə bilər. Ancaq dövlət elmi işləri maliyyələşdirərkən onların keyfiyyətini, bu və ya digər sahələrdə aparıcı istiqamətlərini, nəzərəçarpacaq əsaslı nəticələrini nəzərə almalıdır. Dövlət büdcəsindən fundamental elmi-tədqiqat işləri müsabiqə yolu ilə maliyyələşdirilməlidir.

Dövlət öz iqtisadi siyasəti ilə sahibkarlıq strukturlarının elm məhsullarına tələbatını stimullaşdıra bilər, elm məhsullarına dövlət sifarişi verə bilər, elmi-tədqiqat, təcrübi konstruktor işləri məhsullarının bazar infrastrukturlarının (elmi-texniki informasiya birjalarının, elmi-texniki məhsulların yarmarkalarının, marketinq xidməti mərkəzlərinin, daimi fəaliyyət göstərən sərgilərin, informasiya mərkəzlərinin və s.) yaradılmasına kömək edə bilər. Dövlət bilavasitə sahibkarlıq strukturlarına aid olan elmi təminat bölmələrinin fəaliyyətini də stimullaşdıra bilər (güzəştli vergi, kredit siyasəti və s. vasitələrlə).

Sahibkarların və sahibkarlıq strukturlarında işləyən kadrların hazırlanması – kadr təminatı – bu strukturların səmərəli fəaliyyətinin əsaslarından biridir. Özəlləşdirilmiş və ya yeni yaradılmış sahibkarlıq strukturlarının sahibi, həmsahibi olmaqla

avtomatik olaraq insanlarda sahibkarlıq bacarığı, biliyi formalaşmır. Buna görə də dövlət sahibkarlıq qabiliyyəti olan insanların hazırlanmasına, onların müvafiq biliklər almasına və öz biliklərini artırmalarına şərait yaratmalıdır. Sahibkarlıq strukturları üçün kadr hazırlığı ali və orta ixtisas məktəblərində, habelə biznes məktəblərində, biznes-inqubatorlarda, xüsusi, qısamüddətli kurslarda və s. həyata keçirilə bilər.

Hal-hazırda Azərbaycanda ali və orta ixtisas məktəblərində sahibkarlıq strukturları üçün yeni kadr hazırlığı yaxşı təşkil edilsə də, fəaliyyətdə olan sahibkarların, sahibkarlıq strukturlarında işləyən və xüsusi hazırlığı olmayanların bu sahədə lazımı bilik almaları və ixtisaslarını artırmaları demək olar ki, təşkil edilməmişdir. Bu boşluğun aradan qaldırması üçün daimi fəaliyyət göstərən regional biznes məktəblərin, biznes-inqubatorların yaradılması, sahibkarlar və sahibkarlıq strukturlarının işçiləri üçün ali məktəblərin nəzdində qısamüddətli ixtisasartırma kurslarının təşkil edilməsi məqsədəuyğün olardı.

Sahibkarlığın inkişafında onun infrastruktur təminatının böyük rolu vardır. Məlumdur ki, sahibkarlığın infrastrukturu dedikdə sahibkarlıq subyektlərinin səmərəli fəaliyyətinə kömək edən və onu tənzimləyən təşkilatların sistemi başa düşülür.

Hələlik Azərbaycanda bütövlükdə sahibkarlığın infrastruktur təminatı sistemi formalaşmamışdır və belə sistemin formalaşmasına cəhdlər də göstərilməmişdir. Düzdür, Azərbaycanda sahibkarlığın infrastrukturunun bəzi elementləri yaradılmışdır, ancaq bu proses kortəbii xarakter daşıyır. Belə ki, Azərbaycanda dövlət səviyyəsində, 1992-ci ildən etibarən Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi; Sahibkarlığa Kömək Milli Fondu; respublikanın şəhər və rayonlarında – Sahibkarlığın İnkişaf Mərkəzləri; Kiçik və orta biznesin inkişaf Agentliyi; Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi; İstehlak mallarının ekspertizası Mərkəzi yaradılmışdır. Bunlardan əlavə bir sıra ictimai təşkilatlar: Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlıq Şurası; Sahibkarların (işəgötürənlərin) Milli Konfederasiyası, Gənc Sahibkarlar İttifaqı; BMT-nin Resurs



Mərkəzi və s. təsis edilmişdir. Ancaq dövlət tərəfindən sahibkarlığın inkişafına kömək və onun tənzimlənməsi məqsədi ilə yaradılmış təşkilatlar qeyd edilən məqsədin həyata keçirilməsi üçün kifayət qədər səlahiyyətlərə malik deyillər və onların fəaliyyətini əlaqələndirən vahid təşkilat yoxdur. Belə ki, hal-hazırda sahibkarlığın strukturlarının qeydiyyatı Vergilər Nazirliyinin, SKMF-nun maliyyələşdirilməsi Maliyyə Nazirliyinin, sahibkarlığın inkişafına yönəlmiş tədbirlərin həyata keçirilməsi Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin və s. səlahiyyətindədir. Təbiidir ki, belə vəziyyət sahibkarlığın inkişafına və onun tənzimlənməsinə yönəlmiş, elmi cəhətdən əsaslandırılmış iqtisadi siyasətin həyata keçirilməsinə imkan vermir.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin təcrübəsini və mövcud reallıqları nəzərə alaraq Azərbaycanda sahibkarlığın inkişafının infrastruktur təminatı sisteminin yaradılması və onun tənzimlənməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- bilavasitə hökumətin təşəbbüsü və rəhbərliyi ilə sahibkarlığın infrastruktur təminatı sisteminin (struktur elementləri daxil olmaqla) yaradılması konsepsiyasının hazırlanması;
- sahibkarlığın infrastruktur təminatı sisteminin formalaşması məqsədi ilə xüsusi qanunun qəbul edilməsi. Bu qanun "Sahibkarlığın infrastruktur təminatı sisteminin formalaşmasının dövlət tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının qanunu adlandırıla bilər;
- sahibkarlığın infrastruktur təminatı sisteminin çatışmayan elementlərinin yaradılması, respublikanın regionlarında onların yerli strukturlarının (bölmələrinin və ya filiallarının) formalaşdırılması;
- sahibkarlığın formalaşması, inkişafı ilə bağlı məsələlərin, onun infrastruktur təminatı sisteminin elementləri arasında əlaqələndirmə və tənzimləmə funksiyasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilməsi;
- Azərbaycan Respublikası Prezidenti yanında Sahibkrlıq Şurasının səlahiyyətlərinin genişləndirilməsi, onun sahibkarlığa

kömək və sahibkarlığın tənzimlənməsi üzrə ictimai təşkilata çevrilməsi, hökumət tərəfindən Şuranın qərar və tövsiyələrinin nəzərə alınması və s.

Fikrimizcə, sahibkarlıq strukturlarına kompleks xidmətlərin göstərilməsi məqsədi ilə xüsusi dövlət orqanının – "Sahibkarlığa infrastruktur xidmətləri Mərkəzi"nin və onun yerli strukturlarının yaradılması məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatlarda buna oxşar təkliflər irəli sürülsə də hələlik heç bir ölkədə belə Mərkəzlər yaradılmamışdır. Hesab edirik ki, Azərbaycanda qeyd edilən Mərkəzin yaradılması mümkündür və o, sahibkarlığın, xüsusilə də regionlarda, formalaşması və inkişafında əhəmiyyətli rol oynaya bilər.

"Sahibkarlığa infrastruktur xidmətləri Mərkəzi"nin (SİXM) maliyyələşdirilməsi dövlət büdcəsindən, Neft Fondunlan ayırmalar, xarici dövlətlərin, beynəlxalq təşkilatların yardımları və qrantları, eləcə də iri sahibkarlıq strukturlarının mənfəətindən ayırmalar, bank kreditləri hesabına həyata keçirilə bilər. Bunlarla yanaşı SİXM-nin müştərilərə xidməti müqavilə əsasında da həyata keçirilə bilər. SİXM-nin fəaliyyətinə nəzarət İqtisadi İnkişaf Nazirliyinə həvalə edilə bilər.

Fikrimizcə, SİXM-nin strukturuna aşağıdakı xidmətlərin göstərilməsi üzrə şöbələrin (bölmələrin) daxil edilməsi məqsədəuyğundur (şəkil VII.1):

- hüquq şöbəsi;
- kadr hazırlığı şöbəsi;
- elmi-tədqiqat və marketinq şöbəsi;
- əmək və təsərrüfatçılıq hüquqları üzrə məsləhət şöbəsi;
- istehsal-texniki inkişaf şöbəsi;
- maliyyə-kredit şöbəsi;
- informasiya təminatı şöbəsi;
- girov təminatı şöbəsi;
- kommersiya-vasitəçilik xidmətləri şöbəsi;
- auditor və konsaldinq xidmətləri şöbəsi;
- sığorta şöbəsi;



- reklam şöbəsi;
- ictimaiyyətlə əlaqələr şöbəsi.

"Hüquq şöbəsi" sahibkarlıq strukturlarına qeydiyyat sənədlərinin hazırlanmasında kömək göstərə, onlara hüquqi yardımlar edə və hüquqi məsləhətlər verə bilər.




**Şəkil VII.1.** Sahibkarlığa infrastruktur xidmətləri Mərkəzinin təşkilat strukturu

"Əmək və təsərrüfatçılıq hüquqları üzrə məsləhət şöbəsi" mövcud əmək qanunvericiliyi, vergi məcəlləsi, sahibkarlıq fəaliyyətinin formalaşması, inkişafı haqqında qanunlar, xarici iqtisadi əlaqələrin qurulması, idxal-ixrac əməliyyatlarının təşkili, dövlət və tərəfdaşlarla qarşılıqlı münasibətlərin qurulması, təsərrüfat fəaliyyətinin yekunlarına dair hesabatların tərtib edilməsi və s. üzrə şərhlər və məsləhətlər verə bilər.

"Auditor və konsaldinq xidmətləri şöbəsi" sahibkarlara təsərrüfat-istehsal, maliyyə vəziyyətinin araşdırılması, daxili ehtiyatların aşkar edilməsi, fəaliyyətin müsbət və mənfi cəhətlərinin müəyyənləşdirilməsi sahələrində köməklik edə, sahibkarları lazımi tədris-metodiki vəsaitlərlə və normativ sənədlərlə təmin edə bilər.

"Maliyyə-kredit şöbəsi" sahibkarlarla maliyyə mənbələrinin axtarılmasında, kredit sazişlərinin bağlanmasında, kredit əməliyyatlarının aparılmasında və müvafiq hesabatların tərtib edilməsində yardım edə bilər. Bu şöbə sahibkarlara maliyyə yardımı və kreditlərin alınması üçün "Biznes-plan"ların hazırlanmasında da köməklik edə bilər.

Azərbaycanda sahibkarların kredit alınması zamanı ən çox qarşılaşdığı problem girov təminatı ilə bağlıdır. "Girov təminatı şöbəsi" bu sahədə sahibkarlara yardım edə bilər. Məsələn, şöbə elmi cəhətdən kifayət qədər əsaslandırılmış "Biznes-plan"lar üzrə, perspektivli, innovasiyalı xarakterli layihələrin girov təminatı üzrə öhdəlikləri, qarşılıqlı razılıq əsasında, "Sahibkarlığa Kömək Milli Fondu" ilə birlikdə öz üzərinə götürə bilər.

"Sığorta şöbəsi" sahibkarlara əmlaklarının, malların alqı-satqısı zamanı müvafiq əməliyyatların sığortalanmasında və müvafiq sənədələrin hazırlanmasında yardım edə bilər.

"Elmi-tədqiqat və marketinq şöbəsi" bazarların, rəqiblərin və onların məhsullarının öyrənilməsində, məqsədli bazarların seçilməsində, sahibkarlıq strukturlarında istehsal edilən malların, işlərin və xidmətin keyfiyyətinin və onlara olan tələbatın həcminin və dəyişmə meylinin müəyyən edilməsində, əmtəə bazarlarında mövcud durumun təhlil edilməsində, qarşılıqlı əməkdaşlıq



üçün tərəfdaşların seçilməsində, alıcılar və satıcılar haqqında məlumat bazasının yaradılmasında, əmtəələrə, onların keyfiyyətinə istehlakçıların münasibətini öyrənmək üçün sosioloji sorğuların keçirilməsində və s. sahibkarlara kömək edə bilər.

"İnformasiya təminatı şöbəsi" ölkədə və regionda fəaliyyət göstərən müəssisə və təşkilatlar, onların profili, istehsal etdiyi əmtəələr, işlər və xidmətlər, mövcud iş yerləri haqqında sahibkarlıq strukturlarına mütəmadi olaraq müvafiq informasiyalar verə bilər. Bu şöbə, sahibkarların sifarişi ilə onları maraqlandıran məlumatların (yeni qəbul edilən qanunlar, normativ sənədlər, fərmanlar, sərəncamlar, yeni ədəbiyyatlar və s.) əldə edilməsinə də yardım edə bilər.

"İstehsal-texniki inkişaf şöbəsi" sahibkarlıq strukturlarına elmi-texniki yeniliklər (müvafiq sahələr üzrə) barədə məlumatlar verə, yeni, müvafiq texnika və texnologiyanın seçilməsində yardım edə, injinirinq və lizinq xidmətləri göstərə, öz yeni istehsallarının mənimsənilməsində onlara yardım edə bilər.

"Kommersiya və vasitəçilik xidmətləri şöbəsi" alqı-satqı əməliyyatlarının həyata keçirilməsində, alıcıların və satıcıların tapılmasında, satış və alış kanallarının yaradılmasında və seçilməsində, alqı-satqı əməliyyatlarının həyata keçirilməsi üçün vasitəçilərin tapılmasında və onlarla müvafiq müqavilələrin bağlanmasında, müqavilə şərtlərinin müəyyən edilməsində sahibkarlara kömək edə bilər.

"Reklam şöbəsi" əmtəələrin, işlərin və xidmətlərin reklam edilməsində, sahibkarlıq strukturlarının imicinin formalaşmasında, reklam materiallarının hazırlanmasında, sərgilərin və yarmarkaların təşkilində sahibkarlara yardım edə bilər.

"Kadr hazırlığı şöbəsi" sahibkarlıq strukturlarında fəaliyyət göstərən işçilərin biznesin təşkili, idarə edilməsi, mühasibat uçotunun aparılması, hesabatların tərtib edilməsi, vergi qanunvericiliyinin əsasları və s. sahələrdə müvafiq biliklər əldə etmələri məqsədi ilə qısamüddətli kurslar, eləcə də, qısamüddətli ixtisasartırma kursları təşkil edə bilər.

Yuxarıda qeyd edildiyi kimi, sahibkarlığın formalaşması

və inkişafında ictimaiyyətin bu fəaliyyət növünə münasibəti kifayət qədər rol oynayır. Buna görə də sahibkarlıq fəaliyyəti, ölkə iqtisadiyyatının inkişafında, məşğulluq səviyyəsinin yüksəlməsində, insanların rifah halının yaxşılaşmasında və s. onun rolu haqqında ictimaiyyətə kifayət qədər məlumatların verilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu istiqamətlərdə müvafiq işlərin aparılması "İctimaiyyətlə əlaqələr şöbəsi"nə həvalə olunmalıdır. Bu şöbə sahibkarlıq haqqında müsbət ictimai rəyin formalaşması üçün işgüzar görüşlərin keçirilməsini, iri sahibkarlıq strukturlarına ictimaiyyətin nümayəndələrinin ekskursiyasını, sahibkarlarla ictimaiyyət nümayəndələrinin görüşünü və s. təşkil edə bilər. Bunlardan əlavə, sahibkarlıq fəaliyyəti, onun iqtisadi inkişafda rolu haqqında qısametrajli filmlərin hazırlanması və nümayişi, KİV-də sahibkarlığın təbliği istiqamətində də müvafiq işlər həyata keçirilə bilər.

Sahibkarlığın formalaşması və inkişafında sahibkarlıq fəaliyyətinin stimullaşdırılması əhəmiyyətli rol oynayır. Sahibkarlığın inkişafının stimullaşdırılması ilə bağlı tədbirlərin spektri genişdir və yuxarıda onların bir çoxu qeyd edilmişdir. Fikrimizcə, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün yuxarıda qeyd edilənlərdən əlavə aşağıdakı tədbirlərin həyata keçirilməsi də məqsədəuyğun olardı:

- beynəlxalq iqtisadi inteqrasiyanın geniş vüsət aldığı, iqtisadiyyatın qloballaşdığı müasir şəraitdə milli sahibkarların informasiya texnologiyasından istifadə etmələrinə şərait yaratmaq üçün bu sahədə onlara maliyyə yardımı etmək, informasiya texnologiyalarına texniki yardımı təşkil etmək;
- sahibkarlıq strukturlarında istehsal olunan əmtəələrin, işlərin və xidmətin reallaşdırılmasının yaxşılaşdırılması üçün onlara dövlət sifarişləri verilməsini təmin etmək ;
- dövlət mülkiyyətində olan iri sənaye müəssisələrinin boş dayanmış maşın və avadanlıqlarının kiçik və orta sahibkarlara icarəyə verilməsini təmin etmək;
- özəlləşdirilmiş müəssisələrin səmərəli fəaliyyətinin təşkilində kömək etmək. Bu məqsədlə köməyin növləri, şərtləri və



müddəti haqqında müvafiq qaydaları müəyyən etmək və tətbiq etmək və s.

Sahibkarlığın inkişafının təmin edilməsində sosial-iqtisadi amillərdən istifadəyə xüsusi fikir verilməlidir. Bu məqsədlə yuxarıda qeyd edilənlərlə yanaşı, aşağıdakı tədbirlərin həyata keçirilməsi də məqsədəuyğundur:

- əhalinin, xüsusən də onun aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, büdcədən maliyyələşən sahələrin işçilərinin əmək haqqlarının mütəmadi və əsaslı surətdə yüksəldilməsi;
- əməyin stimullaşdırılması, əmək şəraitinin yaxşılaşdırılması, əmək və istehsal intizamının möhkəmləndirilməsi üçün təsirli tədbirlərin həyata kerilməsi;
- müəssisə kadrlarının sabitlik səviyyəsinin yüksəldilməsi, iş vaxtından səmərəli istifadəyə yönəlmiş tədbirlərin həyata keçirilməsi;
- sahibkarlar tərəfindən işçilərin həddindən artıq istismar edilməsinin, əmək qanunvericiliyinin pozulmasının, işçilərin əsassız olaraq işdən azad edilməsinin qarşısının alınması üçün ciddi tədbirlərin görülməsi;
- əhalinin mənzil-məişət şəraitinin, asudə vaxtından istifadənin yaxşılaşdırılması üçün dövlət səviyyəsində müvafiq tədbirlərin görülməsi və s.

Sahibkalığın inkişafının təmin edilməsinin başlıca yollarından biri də sahibkarlıq fəaliyyətinə dövlət tərəfindən ciddi maliyyə-iqtisadi nəzarətin həyata keçirilməsidir. Fikrimizcə, bu nəzarət aşağıdakı istiqamətləri əhatə etməlidir:

- sahibkarlıq strukturlarının yaradılmasına və onların qanunla icazə verilən fəaliyyət növləri ilə məşğul olmalarına nəzarət;
- dövlət tərəfindən sahibkarlığın inkişafına kömək məqsədi ilə edilən maliyyə yardımlarından istifadəyə nəzarət;
- dövlət tərəfindən sahibkarlıq strukturlarına vergi, gömrük rüsumları, kreditləşmə, məqsədli yardımlar və s. sahələrdə edilən güzəştlərdən istifadəyə nəzarət və onların nəticələrinin

maliyyə-iqtisadi təhlili;

- sahibkarlıq strukturlarının vergi qanunvericiliyinə riayət etmələrinə nəzarət;
- sahibkarlığın formalaşması və inkişafına kömək məqsədi ilə yaradılmış dövlət orqanları və təşkilatlarının fəaliyyətinə nəzarət;

Fikrimizcə, sahibkarlıq fəaliyyətinə maliyyə-iqtisadi nəzarəti müvafiq dövlət orqanları (İqtisadi İnkişaf, Vergi, Maliyyə nazirlikləri) həyata keçirməli, ancaq o, İqtisadi İnkişaf Nazirliyi tərəfindən əlaqələndirilməlidir.

## §8. Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının əsas istiqamətləri

Azərbaycan iqtisadiyyatının inkişafında neft sənayesi əhəmiyyətli rol oynayır. Müasir dövrdə respublikamızın yanacaq-enerji balansında bu sənaye sahəsinin xüsusi çəkisi 75-80% təşkil edir, ölkə büdcəsinin gəlirlərinin 70%-ə qədəri bilavasitə onunla bağlıdır [93. səh.66]. Məhz bu səbəbdəndir ki, neft sənayesinin, xüsusilə də onun aparıcı sahəsi olan neftqazçıxarmanın inkişaf istiqamətləri, perspektivləri, inkişaf sürəti, bu sahədə sahibkarlığın inkişafı, dövlət sahibkarlığı ilə qeyri-dövlət sahibkarlığı arasındakı nisbət və onun dəyişmə meyli, ölkənin taleyüklü məsələsi kimi ictimai fikri dərindən məşğul edir. Mübaliğəsiz demək olar ki, Azərbaycan iqtisadiyyatının gələcəyi, ölkənin iqtisadi təhlükəsizliyinin təminatı neft sənayesinin imkanlarından qeyri-neft sektorunun inkişafı məqsədi ilə necə istifadə ediləcəyindən çox asılıdır.

Azərbaycanın neft sənayesinin inkişafı daim dövlətin iqtisadi siyasətinin əsasını təşkil etmişdir və etməkdədir. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu sahəyə diqqət daha da artırılmışdır. Neft sənayesinin idarə edilməsini yaxşılaşdırmaq, bu sahədə çevikliyi artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992-ci il tarixli 200 saylı fərmanı ilə



"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti" (ARDNŞ) yaradılmışdır.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq ölkəmizdə aparılan islahatlar neft-qaz kompleksindən də yan keçməmişdir. Belə ki, ARDNŞ-nin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədi ilə dəfələrlə onun strukturunda dəyişikliklər edilmiş, mövcud infrastruktur dəyişdirilmişdir. Ən əhəmiyyətli addımlardan biri Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyinin yaradılması olmuşdur [9].

"Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II dövlət proqramı"na uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti 22 mart 2001-ci ildə "Yanacaq-enerji kompleksi müəssisələrinin özəlləşdirilməsi haqqında" sərəncam imzalanmışdır. Sərəncamda ARDNŞ-nin tərkibinə daxil olan, bilavasitə neft hasilatı və emalı ilə məşğul olmayan 68 müəssisə özəlləşdirməyə açılmışdır. Sərəncama görə ARDNŞ-nin tərkibinə daxil olan "Quruda Neft və Qazçıxarma" İstehsalat Birliyi üzrə "Azərbaycanneftlayihətikinti" Birliyinin, "Azərneftyoltəmirtikinti" trestinin, "Azərneftenerjiquraşdırmaavtomatika" İdarəsinin, Fəhlə təchizatı Birliyinin, Boru təmiri bazasının, Əli Bayramlı boru alətləri bazasının, Avtomobil Yolları Xəttinin İstismarı İdarəsinin, Azərneft avtomatika müəssisəsinin, Təmir-tikinti İdarəsinin; "Dənizdə Neft və Qazçıxarma" İstehsalat Birliyi üzrə İstehsalat Xidmətinin mərkəzi bazasının, Normativ-Tədqiqat Mərkəzinin, "Şelfneftqazavtomatika" Mərkəzinin, eləcədə "Maşınqayırma" İB-nin bir sıra zavodlarının, "Azərinefttəchizat" Birliyi üzrə neft bazalarının, "Azərkimyazavodtəmir" tresti üzrə bir sıra təmir-tikinti idarələrinin, "Azərneftyağ", "Azərneftyanacaq", "Magistral Neft Kəmərləri", "Geofizika və Mühəndis Geologiyası" İstehsalat Birliklərinin bir sıra qeyri-istehsal strukturlarının özəlləşdirilməsi əsasında səhmdar cəmiyyətlərin yaradılması nəzərdə tutulmuş və onlar İqtisadi İnkişaf Nazirliyinin sərəncamına verilmişdir [90].

Ancaq ölkənin xarici iqtisadi əlaqələrinin genişləndiyi, neftqazçıxarma sənayesində xarici şirkətlərin iştirakı ilə qeyri-

dövlət sahibkarlıq strukturlarının yaradıldığı və onların sayının artma perspektivi, respublikanın neft və qaz resurslarının daha səmərəli istifadəsi, daxili istehsalın və ixrac potensialının ehtiyaclarının tam ödənilməsi, yanacaq-enerji kompleksinin tərkibinə daxil olan müəssisələrin maliyyə nizam-intizamının əsaslı surətdə möhkəmləndirilməsi, onların fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq ardıcıl qurulması və bu vəzifələrin səmərəli həyata keçirilməsi məqsədi ilə ARDNŞ-nin idarəetmə strukturunun daha da təkmilləşdirilməsini tələb edirdi. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti 24 yanvar 2003-cü ildə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır [10]. Fərmana uyğun olaraq ARDNŞ-nə daxil olan bəzi idarələr birləşdirilmiş, İstehsal Birlikləri ləğv edilmiş, onların bazasında yeni strukturlar yaradılmışdır. Hal-hazırda ARDNŞ-nin tərkibinə aşağıdakı müəssisələr daxildir:

1. "Azneft" İstehsalat Birliyi;
2. "Geofizika və mühəndis geologiyası" İstehsalat Birliyi;
3. "Neft kəmərləri" İdarəsi;
4. "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi;
5. "Xarici sərmayələr" İdarəsi;
6. "Azərneftyağ" neft emalı zavodu;
7. "Azərneftyanacaq" neft emalı zavodu;
8. Bakı dərin özüllər zavodu.

Azərbaycanın quruda və dənizdə fəaliyyət göstərən və ARDNŞ-nin tərkibinə daxil olan bütün NQÇİ-ri bilavasitə "Azneft" İB-nin tabeliyinə verilmişdir.

Yarandığı gündən Azərbaycan Respublikası ərazisində, quru və dəniz sahələri də daxil olmaqla, neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı, hazırlanması, işlənməsi, neftin, qazın, kondensatın və onlardan alınan məhsulların nəql edilməsi, emal və satışı, istehlakçıların müvafiq enerji daşıyıcılarına olan tələbatının sabit və dayanıqlı ödənilməsi bilavasitə ARDNŞ-nə həvalə edilmişdir. ARDNŞ qanunla müəyyən edilmiş qaydada neft sənayesinə xarici sərmayələrin cəlb edilməsi, Şirkətin fəaliyyətinə aid müvafiq sazişlərin layihələrin hazırlanması, imzalanması, onların həyata keçirilməsinə nəzarət, xarici şirkətlərin müştərək fəaliyyətə cəlb edilməsi, Şirkətin müəssisələrində xarici iqtisadi əlaqələrə aid bütün məsələlərin təşkilinin, baxılmasının və həllinin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi və s. səlahiyyətlərə də malikdir. Buna görə də Azərbaycanda neftqaz hasilatı ilə məşğul olmaq istəyən xarici şirkətlər müvafiq danışıqları ARDNŞ ilə aparır və bu sahədə müqavilələri onunla birgə imzalayırlar.

Məlumdur ki, xarici sərmayəçilər investisiya qoyuluşu üçün ölkələr seçərkən aşağıdakılara xüsusi diqqət yetirirlər:

- ölkədəki siyasi sabitliyə;
- səmərəli iqtisadi sabitliyə;
- investisiya yatırımlarının hüquqi qorunmasına;
- bazarların qiymətləndirilməsinə;
- təbii sərvətlərin varlığına və onların dəyərinə.

Bu zaman investisiya qoyuluşlarına aşağıdakı amillər mənfi təsir göstərə bilər:

- ölkələrin qanunvericiliyindəki ciddi fərqlər;
- qanunların pərakəndəliyi və qeyri-mükəmməlliyi səbəbindən hüquq-mühafizə orqanlarının səlahiyyətlərinin çoxluğu;
- qərb biznesinin nöqteyi-nəzərcə müəssisələr haqqında kifayət qədər informasiyanın olmaması;
- mühasibat uçotunun, yoxlamaların, banklarda qarşılıqlı hesablaşmaların aparılması sisteminin və s. təkmil olmaması [120. səh.65-66].

Müstəqilliyin ilk illərində Azərbaycanda baş verən hadisələr, mövcud sosial-siyasi və iqtisadi mühit respublikamızın xarici sərmayələrin yatırılması üçün əlverişli ölkəyə çevrilməsinə imkan vermirdi. Eyni zamanda, iqtisadiyyatda baş verən və getdikcə dərinləşən böhran, onun aradan qaldırılması üçün kifayət qədər maliyyə vəsaitinin olmaması, ölkəyə xarici sərmayələrin cəlb edilməsini zəruri edirdi. Məhz buna görə də Azərbaycana xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnika və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb edilməsi, onlardan səmərəli istifadə edilməsi, xarici sərmayəçilərin

hüquqlarının müqafiəsinə təminat verilməsi məqsədi ilə 15 yanvar 1992-ci ildə "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunla xarici investorlara Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə MM-lər yaratmaq, qiymətli kağızlar əldə etmək, torpaqdan və təbii ehtiyatlardan istifadə etmək hüququ əldə etmək və s. hüquqlar verildi. Qanunda xarici investorlara milliləşdirmə və rekvizisiya, qanunvericiliyin dəyişdirilməsi, zərərlərin kompensasiya edilməsi ilə bağlı təminatlar, vergi, gömrük rüsumlarının ödənilməsi, sığorta sahələrində güzəştlər nəzərdə tutulur; qeyd olunur ki, tamamilə xarici investorlara məxsus olan müəssisələr və nizamnamə fondunun 30 faizindən çoxu xarici investisiyadan ibarət olan müəssisələr istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə, özünün təsərrüfat fəaliyyəti üçün məhsulu (işləri, xidmətləri) ixrac edə bilərlər [60. səh.54-58].

Qeyd edilən qanunun qəbulu Azərbaycana xarici investisiya yatırılması üçün kifayət qədər imtiyazlı şərait yaratmasına baxmayaraq 1995-ci ilə qədər bu tipli investisiyaların həcmi çox cüzi idi. Azərbaycanda mövcud ictimai-siyasi və iqtisadi mühiti nəzərə alan xarici iş adamları öz investisiyalarının qorunması üçün daha möhkəm təminat istəyirdilər. Bu sahədə neftqazçıxarma sənayesinə investisiya yatırmaq istəyən xarici şirkətlər daha çox fəallıq göstərirdi. Nəhayət xarici investorlar öz istədiklərinə nail oldular: qərara alındı ki, xarici şirkətlərin iştirakı ilə bağlanan bütün HPBS-ri Milli Məclisdə təsdiq edilsin və beləliklə də onlar qanun statusu alsın. "Azəri-Günəşli-Çıraq" yataqlar qrupunun xarici şirkətlərlə birgə işləməsinə dair 20 sentyabr 1994-cü ildə imzalanmış HPBS-nin 12 dekabr 1994-cü ildə MM-də təsdiqlənərək qanun statusunun alması ilə bu prosesə start verildi. Bundan sonra imzalanmış bütün HPBS-ri də MM-də ratifikasiya edilmiş və qanun statusu almışdır.

1994-2005-ci illərdə imzalanmış bütün 22 HPBS-nin MM-də təsdiqlənməsi (fərq yalnız birgə işlənəcək yataqların adlarındadır) karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmaması və sazişlərin şərtlərinə görə



onların qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olması ilə əsaslandırılmışdır. Bu Qanunlarda xarici podratçılara hökumət təminatı və öhdəlikləri verilir; nəzərdə tutulur ki, HPBS-ri qüvvədə olduğu müddətdə onlara uyğun gəlməyən və ya zidd olan qanunlar, fərmanlar, sərəncamlar qəbul edilərsə Sazişlər üstün tutulacaqlar; qeyd olunur ki, Sazişlərin pay iştirakçılarına kontrakt sahələrində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquqlar verilir. Sazişlərdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün onun istehlakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir. Qanunlara görə Sazişlərə əlavələr və dəyişikliklər yalnız onun iştirakçılarının yazılı razılığı ilə edilə bilər.

ARDNŞ-nin imzaladığı "Prodakşn Şerinq" (hazır məhsulun bölünməsi) tipli beynəlxalq müqavilələr özündə üç amili birləşdirir: investisiya qoyuluşu, məhsulun bölüşdürülməsi və vergilər. İnvestisiyanın qorunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, habelə başqa dövlətlərlə bağladığı müqavilələrlə təmin edilir. İnvestorlar, o cümlədən xarici investorlar investisiyanı idarə, istifadə və ona xitam verməyə maneçilik törədə bilən ayrı-seçkilik xarakterli tədbirləri istisna edən, habelə qoyulmuş şərtlərin və investisiyanın nəticələrinin respublikadan aparılması şərtləri və qaydasını müəyyənləşdirən bərabər hüquqi rejimlərlə təmin olunurlar.

Xarici şirkətlər iştirak etdikləri müqavilələr üzrə bütün vergilərdən azaddırlar. Layihələrin reallaşması üçün təşkil olunmuş Əməliyyat Şirkətləri yalnız mənfəət vergisinə görə məsuliyyət daşıyırlar. Bu məsuliyyət mənfəət vergisi üzrə deklorasiyanı vaxtında vergi orqanlarına təqdim etməkdən ibarətdir. 25-30% həcmində nəzərdə tutulan mənfəət vergisini isə hər bir podratçının adından ARDNŞ ödəyəcək.

Qeyd etmək lazımdır ki, Azərbaycanın neftli-qazlı ərazisinin ümumi sahəsi (quru və dəniz sahələri daxil olmaqla) 100 min kv. km-dən çoxdur. Bu ərazinin 70 min kv. km-də, o cümlədən Xəzər dənizində 20 min kv. km-də, neftli-qazlı rayonlar artıq müəyyən edilmişdir; 17 min kv. km-lik ərazi perspektivli hesab olunur, 13 min kv. km-lik ərazi isə hələlik az öyrənilsə də, orada

da perspektivli neft-qaz yataqlarının olduğu güman edilir.

Azərbaycanın təkcə Xəzər dənizi sektorunda neft-qaz ehtiyatlarının 27,5 mln ton, proqnozlaşdırılan ehtiyatların 70-100 mln ton şərti yanacaq miqdarında qiymətləndirildiyi, ilkin neft yataqlarının işlənmə dərəcəsinin quruda 87%, dənizdə – 59% təşkil etdiyi [26], hər il bu və ya digər səbəbdən minlərlə neftqaz quyularının (əsasən də quruda – cədvəl 2.15) fəaliyyət göstərmədiyi, xarici investorların neftqazçıxarma sənayesinə güclü maraq göstərdiyi nəzərə alınarsa, respublikamızın neftqazçıxarma sənayesinin bundan sonra hansı istiqamətdə inkişaf edəcəyi böyük maraq doğurur. Buna görə də dövlət neftqazçıxarma sənayesinin, xüsusilə də bu sahədə qeyri-dövlət sahibkarlığının, inkişafını daim diqqət mərkəzində saxlamalıdır.

Fikrimizcə, Azərbaycanın neftqazçıxarma sənayesində sahibkarlığın inkişafını təmin etmək və onun dövlət tənzimlənməsini həyata keçirmək üçün (əvvəlki fəsillərdə qeyd edilənlərlə yanaşı) aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

1. sahibkarlığın inkişafının hüquqi cəhətdən tənzimlənməsi üçün:

a) "Karbohidrogen ehtiyatları haqqında" Azərbaycan Respublikası Qanununun tezliklə qəbul edilməsi. Bu qanunda Azərbaycanın neft-qaz yataqlarının kəşfiyyatının, hazırlanmasının, istismarının, eləcə də bərpasının əsasları, neftqazçıxarma sənayesində dövlət sahibkarlığının zəruriliyi və hüdudları, bu sahədə qeyri-dövlət strukturlarının yaradılmasının, bu prosesə xarici investorların cəlb edilməsinin şərtləri və hüdudları; xarici investorların iştirakı ilə yaradılmış sahibkarlıq strukturlarının təsərrüfat-istehsal-maliyyə fəaliyyətlərinə nəzarətin təşkili öz əksini tapmalıdır.

b) "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişiklərin edilməsi. Bu əlavə və dəyişikliklər, əsasən Azərbaycan iqtisadiyyatına, xüsusilə də neftqazçıxarma sənayesinə, cəlb edilən xarici investisiyalara görə nəzərdə tutulan vergi, gömrük rüsumları, idxal-ixrac sahələrindəki güzəştləri əhatə etməlidir. Azərbaycan iqtisadiyya-



tının son dövrlərdə sürətlə inkişaf etdiyini, ölkənin valyuta ehtiyatlarının 2007-ci ildə 7,0 mlyd dolları, o cümlədən Dövlət Neft Fondunun ehtiyatlarının 5,0 mlyd dolları ötdüyünü, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olduğunu, milli sahibkarlığın inkişaf etdiyini, xam neftin satış qiymətinin durmadan artdığını və s. nəzərə alaraq qeyd edilən sahələrdəki bəzi güzəştlərin ləğv edilməsi və ya minimuma endirilməsi məqsədəuyğundur.

2. ARDNŞ-ti hüquqi şəxsdir. "Sahibkarlıq fəaliyyəti haqqın-da" Azərbaycan Respublikasının qanununa və ARDNŞ-nin Əsasnaməsinə görə Şirkət öhdəliklərinə görə onun sərəncamında olan əmlakla cavabdehdir. Şirkət dövlət öhdəliklərinə görə ca-vabdeh deyildir, dövlət də qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, Şirkətin öhdəliklərinə cavabdeh deyildir [10]. Buna görə də ARDNŞ-nin iştirakı ilə yeni HPBS-ri imzalanarkən, eləcə də neftqaz yataqlarının bərpası və işlənməsi üzrə müştərək müəssisələr yaradılarkən onların MM-də təsdiq olunması və qanun statusu alması praktikasına yenidən baxılmalıdır. Bu tipli məsələlər "Karbohidrogen ehtiyatları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənməlidir.

3. Xarici neft şirkətlərinin iştirakı ilə yeni yaradılacaq MM-də və HPBS-də ARDNŞ-nin nəzarət səhm paketinə (51% və daha çox) malik olması nəzərdə tutulmalıdır. ARDNŞ-nin mövcud durumu və onun yaxşılaşma meyli bu məqsədin reallaşdırılması üçün kifayət qədər əsaslar yaradır. Neft və qazın bərpa edilməyən təbii sərvətlərdən olması, ölkə iqtisadiyyatının hələ uzun müddət neft amilindən asılılığının qalacağı, xam neft və təbii qazın qiymətlərinin kəskin surətdə artdığı və bu meylin hələ uzun müddət davam edəcəyi haqqında proqnozlar, ölkənin qeyri-neft sektorunun inkişafında neftqazçıxarma sənayesinin rolu nəzərə alınmaqla bu sənaye sahəsində dövlət sahibkarlığı saxlanmalı və onun üstünlüyü təmin edilməlidir.

4. Quruda fəaliyyət göstərən neftqaz yataqlarının mütləq əksəriyyətinin tükənmək üzrə olduğu və istismarının son mərhələsinə qədəm qoyduğu, ancaq buna baxmayaraq onlarda hələ də kifayət qədər təbii sərvətlərin qaldığı, bu yataqların, eləcə də fəaliyyətsiz fonda daxil olan minlərlə köhnə quyuların bərpası və

işlənməsi külli miqdarda investisiya qoyuluşunu, yeni texnika və texnologiyanın tətbiqini tələb etdiyi üçün xarici investisiyalar əsasən bu tipli yataqların birgə işlənməsinə cəlb edilməlidir. Bu əsasda yaradılacaq yeni sahibkarlıq strukturları müştərək müəssisələr olmalıdır.

5. Xəzərin Azərbaycan sektoruna aid dəyaz hissəsində mövcud (HPBS-dən kənar) və yeni kəşf ediləcək neftqaz yataqlarının ARDNŞ tərəfindən təkbaşına istismarı məqsədəuyğundur. Dənizin dərin qatlarında (200 m-dən çox) yerləşən neftqaz yataqlarının xarici şirkətlərlə birlikdə istismarı üzrə HPBS-ri (nəzarət səhm paketi ARDNŞ-nə məxsus olmaqla) imzalana və həyata keçirilə bilər.

6. Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyinin mövcudluğunu nəzərə alaraq ARDNŞ-nin qarşısında duran əsas məqsədlərin (neftin, qazın hasilatı, nəqli, satışı və s.) səmərəli həyata keçirilməsi üçün onun idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədəuyğundur. Bunun üçün "Azərneftyağ" və "Azərneftyanacaq" neft emalı zavodlarının ARDNŞ-nin tabeliyindən çıxarılaraq birbaşa Yanacaq və Energetika Nazirliyinin tabeliyinə verilməsi məqsədəuyğun olardı.

7. Azərbaycanın neftqazçıxarma sənayesində hal-hazırda dörd pilləli idarəetmə strukturu (nazirlik – ARDNŞ -"Azneft" İB - NQÇİ-ri) mövcuddur. Belə vəziyyət idarəetmənin çevikliyinə mənfi təsir göstərməklə yanaşı, NQÇİ-nin fəaliyyətinə nəzarətin lazımi səviyyədə təşkilinə imkan vermir və bilavasitə hasilatla məşğul olan strukturların səlahiyyətlərinin məhdudlaşdırılmasına gətirib çıxarır. Belə ki, hal-hazırda neftqazçıxarma idarələrinin illik plan göstəriciləri və illik büdcə vəsaitlərinin miqdarı ARDNŞ tərəfindən təsdiq edilir; xam neft və təbii qazın satışını bilavasitə Şirkət həyata keçirir; bazar iqtisadiyyatının prinsiplərinə zidd olaraq NQÇİ-nin təsərrüfat-istehsal sahəsindəki səlahiyyətləri məhdudlaşdırılıb, onlar hətta əldə etdikləri mənfəətdən sərbəst şəkildə istifadə etmək, yeni kadrları işə götürmək səlahiyyətlərinə də malik deyillər və s. Belə vəziyyət istehsalın son nəticələrində NQÇİ-nin marağına mənfi təsir göstərir. Qeyd edilən halların aradan qaldırılması üçün "Azneft" İB-nin ləğv



edilməsi, NQÇİ-nin bilavasitə ARDNŞ-nə tabe edilməsi, təsərrüfat-istehsal fəaliyyətində və onun nəticələrindən istifadədə NQÇİ-nin hüquq və səlahiyyətlərinin genişləndirilməsi məqsədəuyğun olardı.

8. HPBS-ri üzrə neftin hasilatına və xərclərin hesablanmasına nəzarətin həyata keçirilməsi üçün rəhbər komitənin yaradılması və ona ARDNŞ-nin və podratçıların bərabər sayda nümayəndələrinin daxil edilməsi nəzərdə tutulur. Ancaq AÇG üzrə fəaliyyətdə olan HPBS-də komitənin nəzarəti həyata keçirmək üçün zəruri məlumatları əldə etmək imkanının olması konkretləşdirilmir. Komitənin verəcəyi tövsiyələrin taleyi də aydın deyildir. Rəhbər komitənin hesabatları məxfi olduğuna görə, Azərbaycan hökumətinin gəlirlərdən ədalətli pay alıb-almamasını müəyyən etmək mümkün deyil. Fikrimizcə, HPBS-ri Milli Məclisdə təsdiqləndiyindən Hesablama Palatasına ABƏŞ-nin (eləcə də HPBS-ri üzrə mövcud və yeni yaradılacaq Əməliyyat Şirkətlərinin) fəaliyyətini yoxlamaq hüququ verilməlidir.

9. Azərbaycanın neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) yaradılmış və onun Əsasnaməsi təsdiq (29.12.2000-ci ildə) edilmişdir. Əsasnaməyə görə ARDNF-nun vəsaitlərindən dövlət və qeyri-dövlət müəssisə və təşkilatlarına kredit (borc) verilə bilməz. Fikrimizcə, Əsasnamədə dəyişikliklər edilməsi və ARDNF qarşısında qoyulan vəzifələrin həlli, o cümlədən ARDNŞ-nin HPBS-də iştirak payının maliyyələşdirilməsi (möhkəm girov təminatı əsasında) məqsədi ilə Fondun vəsaitlərindən uzunmüddətli kreditlərin ayrılmasına ("Vençur Kapitalı Fondunun" yaradılması yolu ilə və ya bilavasitə) icazə verilməsi məqsədəuyğun olardı.

10. Fəaliyyətdə olan neftqazçıxarma müəssisələrində (həm

dövlət, həm də qeyri-dövlət sektoruna aid olan) aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi də neftqaz hasilatının artmasına və beləliklə də, sahibkarlığın inkişafına zəmin yaradardı:

10.1. Fəaliyyətsiz fonda daxil olan neftqaz quyularının əsaslı təmiri, lazımi materiallarla təchizatı yolu ilə istismara qaytarılması;

10.2. Yeni texnika və qabaqcıl texnologiyanın, köhnə neftqaz yataqlarında ikinci və üçüncü istismar metodlarının tətbiqi vasitəsilə hasilatın artırılması;

10.3. Quyu avadanlıqlarının parafinləşməsinin qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsi, ştanqların aşınmasının azaldılması üçün xüsusi qoruyucuların tətbiq edilməsi yolu ilə quyuların təmirlərarası müddətinin uzadılması, beləliklə də onların iş vaxtının uzadılması;

10.4. Laylara süni təsir metodlarının (suyun vurulması, fiziki-kimyəvi – qaz da daxil olmaqla, termik) tətbiqi yolu ilə hasilatın sabitləşdirilməsi;

10.5. Mədəndaxili neft-qaz itgilərinin qarşısının alınması üçün təsirli tədbirlərin görülməsi;

10.6. Neft və qaz yataqlarının istismarının optimal rejiminin müəyyən edilməsi və ona ciddi əməl edilməsi;

10.7. İstismar avadanlıqlarının modernləşdirilməsi, rekonstruksiyası, yeniləri ilə əvəz edilməsi yolu ilə onların etibarlıq səviyyəsinin yüksəldilməsi.

11. Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafında sosial-iqtisadi amillərdən səmərəli istifadə edilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı ( VII- də qeyd edilənlərdən əlavə):

11.1. Həm dövlət, həm də qeyri-dövlət sahibkarlıq strukturlarında əməyin ödənilməsinin müqavilə yolu ilə tənzimlənməsinin tətbiqi, əmək haqqının səviyyəsinin istehsal fəaliyyətinin son nəticələri ilə əlaqələndirilməsi;

11.2. HPBS-nin payçıları olan xarici Podratçılar (eləcə də subpodratçılar) tərəfindən azərbaycanlı işçilərin əmək hüquqlarının kobud şəkildə pozulmasının, onların diskriminasiyaya məruz



qalmalarının qarşısının alınması, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə ciddi əməl edilməsi üçün dövlət səviyyəsində müvafiq tədbirlərin görülməsi, Əmək Məcəlləsinin pozulmasına görə ciddi sanksiyaların tətbiqi, işçilərin sosial müdafiəsinin təşkili;

11.3. HPBS-də Azərbaycan vətəndaşı olan işçilərin mənzil şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin (yeni mənzillərin tikilməsi, ipoteka kreditlərinin alınmasında yardım və s.) həyata keçirilməsinin nəzərdə tutulması və onların reallaşdırılmasına nəzarət;

11.4. İşçilərə iş yerlərində məişət xidmətinin normal təşkili, nahar fasilələrindən səmərəli istifadə üçün müvafiq şəraitin yaradılması;

11.5. Kadrlar seçilib-yerləşdirilərkən yerli mütəxəssislərə üstünlük verilməsi, kadrların ixtisasının artırılması üçün mütəmadi olaraq tədbirlərin həyata keçirilməsi;

11.6. Kollektiv arasında normal sosial-psixoloji mühitin formalaşması üçün tədbirlərin həyata keçirilməsi, potensial münaqişələrin qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi, bu məqsədlə kollektiv üzvüləri arasında vaxtaşırı sorğuların keçirilməsi;

11.7. İşçilərin texniki yaradıcılığı və səmərələşdirici fəaliyyəti üçün müvafiq şəraitin yaradılması. Səmərələşdiricilərin və ixtiraçıların daha əlverişli iş şəraiti ilə təmin edilməsi. Səmərələşdirici və ixtiraçılıq fəaliyyətinə görə iqtisadi həvəsləndirmə metodlarının tətbiqi.

Neftqazçıxarma sənayesində həm dövlət, həm də qeyri-dövlət sahibkarlığının inkişafının dövlət tənzimlənməsi həyata keçirilərkən iqtisadi və sosial məqsədlər üzvi surətdə əlaqələndirilməlidir. Yalnız bu əsasda sahibkarlığın inkişafının sosial yönümlülüyü təmin edilə bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Nəzərdən keçirilən problemlərlə bağlı mövcud nəzəri-metodoloji, praktiki fikir və mülahizələr, təcrübələr hərtərəfli, geniş araşdırılaraq əldə edilmiş nəticələr, Azərbaycanda və onun neftqazçıxarma sənayesində sahibkarlığın formalaşması və inkişafı istiqamətlərində irəli sürülmüş konkret təkliflər, monoqrafiyanın müvafiq bölmələrində öz əksini tapmışdır. Onların hamısının yenidən sadalanmasına lüzum olmadığını qeyd etməklə yanaşı, əldə edilmiş ən əsas nəticələri və irəli sürülmüş təklifləri nəzərə çatdırmağı məqsədəuyğun hesab edirik:

1. Müasir sivilizasiyalı sahibkarlığın inkişafı iqtisadi artıma və onun əsasında əhalinin normal həyat səviyyəsinin təminatına imkan yaradan əsas strateji amildir.

2. "Sahibkarlıq", "Sahibkarlıq fəaliyyəti" anlayışları iki əsrə yaxındır ki, iqtisadçı alimlərin diqqət mərkəzində olsa da, hələ də onların məzmunu haqqında fikir ayrılıqları qalmaqdadır. Bunlara rəğmən, fikrimizcə, aşağıdakı tərif bu anlayışların məzmununu daha dolğun əks etdirir: "Sahibkarlıq ("Sahibkarlıq fəaliyyəti") fiziki və ya hüquqi şəxslərin sərf etdikləri maddi, əmək maliyyə və əmlak müqabilində mənfəət (gəlir) əldə etmək məqsədi ilə həyata keçirdikləri fəaliyyətdir".

3. Bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının inkişafının təmin edilməsində dövlətin tənzimləyici rolu nəinki azalmır, əksinə getdikcə artır. Heç yerdə dövlətin köməyi və tənzimləyici rolu olmadan müasir sahibkarlıq formalaşa və inkişaf edə bilməz. Buna görə də respublikamızda sahibkarlığın formalaşması və inkişafında dövlətin tənzimləyici rolunun artırılması üçün müvafiq hüquqi-iqtisadi tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

4. Azərbaycan iqtisadiyyatının inkişafında neftqazçıxarma sənayesinin yeri və rolu, bu sənaye sahəsinin inkişaf perspektivləri nəzərə alınmaqla, neftqazçıxarma sənayesində sahibkarlığın (həm dövlət, həm də, xüsusilə, qeyri-dövlət) inkişafının ciddi dövlət tənzimlənməsi həyata keçirilməlidir.



5. Sahibkarlığın inkişaf səviyyəsi qiymətləndirilərkən təkcə onun kəmiyyət tərəfinin nəzərə alınması kifayət deyildir, çünki ölkədə istehsal edilən məhsulların, yerinə yetirilən işlərin və xidmətlərin həcmi, keyfiyyəti yalnız sahibkarlıq strukturlarının sayından asılı deyildir. Buna görə də ölkədə sahibkarlığın inkişafı qiymətləndirilərkən kəmiyyət göstəriciləri ilə yanaşı keyfiyyət göstəriciləri də nəzərə alınmalıdır.

6. Sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafında sosial-iqtisadi amillərin müstəsna rolu vardır. Buna görə də səmərəli sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün bu amillərin rolunu nəzərə almaq və onlardan istifadə etmək lazımdır.

7. Sahibkarlıq fəaliyyətinin formalaşmasına təsir edən sosial-iqtisadi amillərlə onun inkişafına təsir edən sosial-iqtisadi amilləri fərqləndirmək lazımdır. Bu məqsədlə sahibkarlığa təsir edən sosial-iqtisadi amillərin təsir istiqamətlərinə görə təsnifləşdirilməsi məqsədəuyğundur. Sahibkarlığa təsir edən sosial-iqtisadi amillər qeyd edilən meyara uyğun olaraq tərəfimizdən ilk dəfə olaraq təsnifləşdirilmiş və o, sxematik olaraq ifadə edilmişdir.

8. Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üçün bir sıra qanunlar, Dövlət Proqramları, fərmanlar, sərəncamlar, qərarlar qəbul edilmiş, sahibkarlığın inkişafına kömək və onun tənzimlənməsi üçün yeni dövlət idarəetmə orqanları yaradılmış, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və tənzimlənməsində onların səlahiyyətləri genişləndirilmişdir. Həyata keçirilən islahatlar respublikamızda sahibkarlığın inkişafı sahəsində müəyyən müvəffəqiyyətlər əldə etməyə imkan versə də, onun səviyyəsi, ölkəmizdə mövcud potensialla müqayisədə qənaətbəxş hesab edilə bilməz.

9. Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyəti və ona təsir edən amillər, səbəblər barədə gəldiyimiz nəticələr IV fəsildə öz əksini tapmışdır. Onlarla yanaşı qeyd etmək lazımdır ki:

9.1. respublikamızda sahibkarlığın formalaşması və inkişafı üçün yaradılmış hüquqi-iqtisadi mühit iqtisadiyyatda şəxsi təşəb-

büsün genişlənməsi üçün kifayət deyildir;

9.2. milli sahibkarlığın inkişafı üçün prioritet (üstün) sahələr və istiqamətlər müəyyən edilməyib;

9.3. yanacaq-enerji sahələrindən fərqli olaraq digər sahələrdə sahibkarlığın inkişaf səviyyəsi xeyli aşağıdır;

9.4. respublikamızın regionları üzrə sahibkarlığın inkişaf səviyyələri arasında kəskin fərqlər vardır və bu fərqlərin aradan qaldırılması üçün nəzərdə tutulan tədbirlər kifayət deyildir;

9.5. fəaliyyət göstərən sahibkarlıq strukturları sırasında istehsal yönümlülərin xüsusi çəkisi azdır və ilbəil azalmağa doğru meyl edir;

9.6. qeydə alınmış sahibkarlıq strukturlarının fəaliyyət əmsalı çox aşağıdır və son illər daha da azalmağa doğru meyl edir.

9.7. sahibkarlığa dövlət köməyinin həcmi son illər artmağa doğru meyl etsə də, onun mütləq miqdarı olduqca azdır və bir çox hallarda ondan təyinatına uyğun və səmərəli istifadə edilmir;

9.8. hələ də ölkə əhalisinin müəyyən hissəsi sahibkarlıq fəaliyyətinə neqativ yanaşır;

9.9. hökumətin apardığı sərt maliyyə-kredit siyasəti, kreditlərin faiz dərəcələrinin yüksək olması sahibkarlığın inkişafı üçün kredit alınması imkanlarını xeyli məhdudlaşdırılır;

9.10. istehsal sahibkarlığının inkişaf etdirilməsi üçün tələb olunan resursların əldə edilməsi imkanları məhduddur, bununla yanaşı onların qiymətlərinin artım tempi istehsal edilən məhsulların qiymətlərinin artım tempini üstələyir;

9.11. ölkədə sağlam rəqabət mühiti formalaşmayıb, demək olar ki, bütün sahələrdə inhisarçılıq mövcuddur, iqtisadi şəraitin qeyri-müəyyənliyi davam etməkdədir;

9.12. sahibkarlıq fəaliyyətinə qeyri-qanuni, kənar müdaxilələr davam edir;

9.13. vergi qanunvericiliyi sabit deyildir, vergi yükü kifayət qədər ağırdır, vergi strukturlarının fəaliyyətində müəyyən irəliləyişlər olsa da, vergi yoxlamalarının tezliyi və qeyri-obyektivliyi hələ də qalmaqdadır;



9.14. xarici istehsalçılar tərəfindən yüksək rəqabət mövcuddur, onun qarşısının alınmasına, ölkə iqtisadiyyatının inkişafına, xaricdən iqtisadi asılılığın azaldılmasına yönəlmiş tədbirlər kifayət qədər səmərəli deyildir və s.

10. Beynəlxalq təcrübə göstərir ki, ölkələr onların iqtisadiyyatının aparıcı sahələrinin inkişafına, bunun üçün mövcud olan imkanlardan maksimum istifadə etməklə bütövlükdə iqtisadiyyatı inkişaf etdirməyə səy göstərirlər. Azərbaycan iqtisadiyyatının aparıcı və daha dinamik inkişaf edən sahəsi neftqazçıxarmadır. Ancaq bu sahənin özünün, nə də onun vasitəsilə qeyri-neft sektorunun inkişafı üçün mövcud potensialdan səmərəli istifadə edilmir.

11. Azərbaycanın neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının mövcud vəziyyəti, ona təsir edən amillər və səbəblər barədə gəldiyimiz nəticələr V və VI fəsillərdə öz əksini tapmışdır. Onlarla yanaşı qeyd etmək lazımdır ki:

11.1. Azərbaycanda neft hasilatının tarixi XIII əsrin əvvəllərinə təsadüf etsə də, bu sahədə sahibkarlıq XIX əsrin sonlarında nisbətən inkişaf etməyə başlamış, ölkədə sovet hakimiyyətinin qurulması, neft sənayesinin milliləşdirilməsi ilə bu prosesə son qoyulmuşdur. Yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra bu sənaye sahəsində də sahibkarlığın formalaşması və inkişafı üçün şərait yaranmışdır;

11.2. Neft hasilatının qədim tarixinə baxmayaraq Azərbaycanın öz neft sərvətlərinin idarə edilməsi üzrə təcrübəsi o qədər də çox deyildir;

11.3. Azərbaycanın neftqazçıxarma sənayesində həm dövlət, həm də qeyri-dövlət sahibkarılığı mövcuddur. Neftqaz hasilatı ilə bağlı əsas fondların mütləq əksəriyyəti (neft-qaz quyuları) dövlət mülkiyyətində olsa da, 2005-ci ilin sonundan etibarən neft hasilatının yarıdan çoxu qeyri-dövlət strukturlarının payına düşür;

11.4. AGC yataqlar qrupunun birgə işlənməsi üzrə xarici neft şirkətləri ilə HPBS-nin ("Əsrin müqavilə"sinin) imzalanması Azərbaycanın neftqazçıxarma sənayesində özəl sahibkarlığın

formalaşmasının və inkişafının əsasını qoymuşdur;

11.5. Xarici neft şirkətləri ilə bağlanmış HPBS-nin heç birində ARDNŞ nəzarət səhm paketinə malik deyildir. HPBS-nin hamısı Milli Məclisdə ratifikasiya edilmiş və qanun statusu almışdır;

11.6. Azərbaycanın neftqazçıxarma sənayesində dövlət sahibkarlığının mövcud vəziyyəti (ARDNŞ-nin fəaliyyəti timsalında) qənaətbəxş deyildir və ilbəil pisləşməyə doğru meyl edir;

11.7. Xarici neft şirkətləri ilə birgə yaradılmış qeyri-dövlət sahibkarlıq strukturları (həm dənizdə, həm də quruda) səmərəli işləyir və onların fəaliyyəti ilbəil yaxşılaşmağa doğru meyl edir;

11.8. Azərbaycanın neftqazçıxarma sənayesində özəl sahibkarlığın inkişaf etdirilməsi üçün ölkədaxili imkanlardan istifadə edilmir, yerli sahibkarlar bu prosesə cəlb edilmir;

11.9. Neftqazçıxarma sənayesinin inkişafı üçün sosial-iqtisadi amillərdən istifadə səviyyəsi çox aşağıdır:

- neftqazçıxarma sənayesi üçün spesifik xarakterə malik, ənənəvi olaraq ağır əmək şəraitinin yaxşılaşdırılması üçün kifayətedici tədbirlər görülmür;
- kadrların seçilib-yerləşdirilməsində, onların vəzifə pillələri üzrə yüksəlməsində çoxsaylı qüsurlar mövcuddur;
- əməyin təşkili və ödənilməsi sahəsində həyata keçirilən tədbirlər bazar iqtisadiyyatının tələblərinə uyğun deyildir, əmək qanunvericiliyinə riayət edilmir;
- əmək intizamı, iş vaxtından istifadə sahələrində çoxsaylı qüsurlar mövcuddur;
- işçilərin ixtisasının artırılması üzrə tədbirlər müasir dövrün tələbləri ilə müqayisədə qənaətbəxş deyildir;
- iş yerlərində işçilərə məişət xidmətinin vəziyyəti lazımi səviyyədə deyildir və s.

12. Azərbaycanda, eləcə də onun neftqazçıxarma sənayesində, sahibkarlığın inkişafı üçün geniş imkanlar mövcuddur. Bu imkanlardan istifadənin konkret yolları və istiqamətləri VII və VIII fəsillərdə verilmişdir.

13. Sahibkarlığın formalaşması və inkişafı bu prosesə sistemli yanaşma nəticəsində mümkündür. Sistemli yanaşma, eyni zamanda, sahibkarlığın həm ümumdövlət səviyyəsində, həm də yerli idarəetmə orqanları səviyyəsində tənzimlənməsini nəzərdə tutmalıdır.



